Yurda fəda üç paşa

TRİLOGİYA

# ƏNVƏR PAŞA

1

Hüseynbala Mirələmov

BAKI 2021



**HÜSEYNBALA MİRƏLƏMOV**

**YURDA FƏDA ÜÇ PAŞA**
***(trilogiya)***

# ƏNVƏR PAŞA

***Birinci kitab***

Redaktorlar:
Minaxanım Nuriyeva – Təkəli
Sevinc Mürvətqızı

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2021, 328 s.

Yazıçı Hüseynbala Mirələmovun “Yurda fəda üç paşa” trilogiyasının birinci kitabı olan “Ənvər Paşa” əsərində görkəmli tarixi şəxsiyyətin həyat və fəaliyyətinə fərqli rakursdan nəzər salınıb. Romanda Ənvər Paşanın Azərbaycan sevgisi, millətimizin aydınları ilə dostluq münasibətləri, Turan İslam İmperatorluğu qurmaq uğrunda apardığı mübarizə, şəxsi yaşantıları və Tacikistanın Bəlcivan torpağında şəhidlik məqamına yüksəlişi yazıçı təxəyyülünün zəngin bədii ümumiləşdirmələri ilə qələmə alınıb.

ISBN: 978-9952-508-76-5

© H.Mirələmov, 2021

*Biz bir millət, iki dövlətik.*

*Ulu Öndər*

*Heydər Əliyev*

İyirmi birinci əsr
türk dünyası əsri olacaq.

**İlham Əliyev**

* * *

Hər nə olursa olsun, bu şanlı bayraq
dalğalanmağa davam edəcək.

**Rəcəb Tayyib Ərdoğan**

# MÜƏLLİFDƏN

Qarabağ türk dünyasının düşmənlərinin son yürüşünə meydan oldu. Azərbaycanımızın bu dilbər guşəsi, əzəli-əbədi türk yurdu dünyanın gözü önündə otuz ilə yaxın erməni işğalına məruz qaldı.

Dünyanın ən ali qurumlarından sayılan, ədalətin məhək daşı hesab edilən BMT-nin Azərbaycanın lehinə çıxardığı qətnamələrə məhəl qoyulmadı.

ATƏT-in Minsk qrupu otuz illik bir müddətdə demokratiya pərdəsi altında "gözbağlayıcılıq" siyasətilə məşğul oldu. Həmin müddətdə Ermənistan hökuməti havadarları vasitəsilə BMT-nin məlum dörd qətnaməsini ləvğ etdirməyə çalışdı, Qarabağ ərazisindəki məbədlərimizi erməni abidələri kimi sənədləşdirdi. Azərbaycan ərazisində ikinci erməni "dövlətini" rəsmiləşdirənlər onun "paytaxtı" Şuşada qondarma "Artsax"ın şərəfinə bayram halayı çəkib yallı getdi...

Nəhayət, millətimin səbir kasası doldu. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanımız Qarabağ uğrunda ədalətli Vətən müharibəsinə başladı. Azərbaycan Ordusu Qarabağın azadlığı uğrunda qırx dörd günlük sürətli əks-hücum əməliyyatı apardı. ATƏT-in "gözbağlayıcılıq sehri" qüvvəsini itirdi. Zamanın zərurətindən doğan yeni hökm illərlə ədalətsizliyə məruz qalan bir xalqı yumruq kimi birləşdirdi:

*Ümid yalnız sənədir, Azərbaycan əsgəri!*
*Ümid yalnız sənədir, Ali Baş Komandanım!*

Şəhidlərimizin ölməz ruhu, qazilərimizin misilsiz rəşadəti hesabına qırx dörd gün aparılan döyüşlər qələbəmizlə başa çatdı. Qarabağımız işğaldan azad edildi. "Artsax" bayrağı ayaqlar altına salındı. Qazilərimiz şəhid qardaşlarının intiqamını aldı, Vətənin bölünməzliyini, ərazi bütövlüyünü təmin etdi.

Əslində Qarabağ döyüşlərini təkcə Azərbaycana deyil, bütövlükdə türk-müsəlman dünyasına qarşı elan olunmuş "səlib yürüşləri"nin sonuncusu hesab etmək olar...

Həmin yürüş mütəşəkkil şəkildə Birinci Pyotrun zamanından başlamışdı. Onun ürəyinə yol tapmış erməni millətçiləri apardıqları antitürk siyasətindən sonra Avropaya pəncərə açmış ən şovinist çarın Turan təhlükəsinə qarşı gözlərini aça bilmişdilər... Hələ o vaxtdan Birinci Pyotrun niyyəti türk dünyası ilə Osmanlı İmperiyası arasında bir erməni dövləti yaratmaq, Türkiyəni də, bütövlükdə türk dünyasını da təkləyib parçalamaq, türkçülüyü məhv etmək, əsrlərlə dünyanı lərzəyə salan türk nüfuzunu zəiflətmək və daha nələr, nələr... idi. Siyahı uzun idi... Pyotrun xələflərinin zamanında bu mənhus planlar daha sürətlə irəliləməyə başlayır. Nəhayət, uzun illərdən sonra "velikorus hökmdarı"nın türklüyə qarşı qəzəbindən titrəyən bığlarından türk dünyası arasına ilk "çəpər" XX əsrin əvvəllərində çəkildi; Turan yolu üzərində qondarma erməni dövləti yaradıldı. Həm də Azərbaycanın əzəli torpağı olan, ən möhtəşəm, ən strateji əhəmiyyətli İrəvan xanlığı ərazisində! Bunu Azərbaycana, onun sərvətinə diş qıcamış dövlətlərin erməni qərargahı yaxud istinadgahı da hesab etmək olardı. Elə həmin riyakar siyasi xətt üzrə "26 Bakı komissarı" adlandırılan, Leninin birləşmiş daşnak-bolşevik quldur dəstəsi Azərbaycana göndərilmiş, burada azərbaycanlıların soyqırımlarını başlatmışdır...

Digər tərəfdən Avropa hələ də türkləri Altaylardan, Çin səddi ətrafından Türküstan üzərinə at üstə gəlmiş və möhtəşəm Bizans İmperatorluğunu süquta uğradıb keçib onun yerində yerləşmiş

işğalçı xalq hesab edərək, özünü aldatmaqda idi. Kimlərin nə düşünməsindən asılı olmayaraq tarixin daş kitabələrindən, qaynaqlarından heç nə silinmir ki... Elə həmin danılmaz tarixi mənbələr Toroslardan Altaylara qədər uzanan bir türk – Turan zolağının olduğundan xəbər verir. Qədim türk boyları Toroslardan Altaylara kimi tarixən bu coğrafiyaya hakim olmuş, minillərlə burada yaşamış, söz söyləmiş, boy boylamış və indinin özündə də yaşamlarını sürdürməkdədirlər...

Birinci Dünya müharibəsində Osmanlı İmperiyasının almanlarla müttəfiq olmasında məqsəd daha çox dövlətin qorunub saxlanması, Turan yolunun bərpası amalı olmuşdu. Lakin müttəfiqləri ilə bərabər üzləşdikləri məğlubiyyət Osmanlı İmperatorluğunun parçalanmasını şərtləndirmiş, bununla da illərdir hər tərəfdən diş qıcayıb fürsət gözləyən türk düşmənlərini sevindirmişdi.

Bütün baş verənlərdən sonra həmin böhranlı dönəmdə yurdu yaşatmaq, məmləkəti xilas etmək naminə meydana möhtəşəm üçlük – türk triumviratı atılmışdı. Yurda fəda üç paşa!.. Ənvər Paşa, Tələt Paşa və Camal Paşa yaxın türk siyasi tarixinin üç böyük cəngavəri, fədaisi olub. Onlar ömürlərinin ən gözəl illərini də, hətta canlarını da türk xalqlarının müstəqilliyi və birliyi amalına qurban verdilər. Onları birləşdirən ortaq səbəblər təkcə Vətən, millət sevgisi, Turan amalı və yurd təəssübkeşliyi deyildi, həm də ölüm səbəbləri idi. Hər üçünü “Daşnaksutyun”un qondarma “hökm”ü əsasında erməni millətçiləri uzun müddət izləyərək amansızlıqla qətlə yetiriblər...

Sağ ikən qürbət diyarlarda Vətənə qovuşmaq xəyalı ilə yaşayan hər üç paşa qərib ölkələrdə torpağa tapşırılacaq, yalnız uzun illərdən sonra tabutlarda doğma Türkiyəyə qayıda biləcəkdilər...

**Turan amallı Ənvər Paşa**

Böyük Turan yolunun üzərindəki türk xalqlarını vahid bayraq altında birləşdirib Turan İslam İmperatorluğu yaratmaq istəyən qartal baxışlı sərkərdə... Dərin inanclı Vətən, millət, din əsgəri... Ötən əsrin iyirminci illərində Azərbaycan türklərini təşkilatlandırıb xəyanətkar erməni şovinistlərinin üzərinə aparan qətiyyətli sərkərdə... Həmin dövrün fəxri Qarabağ qazilərindən biri... Sonralar isə Türküstanı işğal etmək istəyən bolşevik ordusuna qarşı yerli əhalini səfərbər etmiş Komandan – Basmaçıların Baş Qərargah rəisi, ilk Turan yürüşçüsü... 1922-ci il avqustun 4-də Orta Asiyada bolşeviklərlə savaşda Akop Melkumyanın gülləsi ilə şəhid oldu...

**Anadolu Təməlli Tələt Paşa**

"İttihad və Tərəqqi" Cəmiyyətinin öndərlərindən biri... Birinci Dünya müharibəsində məğlub olmuş məmləkətin xilasına çalışan zəkalı liderlərdən biri, vəzir rütbəli sədrəzəm... Əsrlər sonrası dağıdıla bilmiş Osmanlı İmperatorluğunun xarabaları altından türk millətini xilas etmək üçün çabalayan böyük türk üçlüyünün siyasi strateqi... Anadolunun parçalanmasının qarşısını almaq, dövləti yaşatmaq üçün həyatını təhlükəyə atmaqdan belə çəkinməyən fədai... 1921-ci il martın 15-də Berlində Soqomon Tehliryanın suiqəsdi nəticəsində qətlə yetirildi...

**Xalis əməlli Camal Paşa**

Hakim triumviratın üç liderindən biri... Suriya və Fələstindəki türk ordularının komandanı... Xalqlar arasına nifaq salıb məmləkəti qana çalxamağa çalışanların sərt məzaclı qənimi, eyni zamanda məsumların və məzlumların himayədarı... Dövləti, məmləkəti qorumaq naminə fəaliyyətinə görə suçlanıb ömrünün dəyərli illəri çox sevdiyi Vətəndən uzaqlarda havaya sovrulan mühacir... 1922-ci il iyulun 21-də iki yavəri ilə bərabər Tiflisdə küçədəcə daşnaklar tərəfindən öldürüldü...

## BÖYÜK ÜÇLÜYÜN ƏNVƏR PAŞASI

***Vətən nə Türkiyədir türklərə, nə Türküstan,***
***Vətən – böyük və əbədi bir ölkədir: Turan!***
***Ziya Gökalp***

Böyük xilaskarlar Vətənin dar günlərində haqqa tapınmaq istəyən xalqının ehtiyacından doğulur. Atatürklər, möhtəşəm üçlüyün Ənvər, Tələt, Camal paşaları kimi... Onlar irqlərini səfərbər edərək millətlərini hürriyyət savaşına apara biliblər. Həmin müqəddəs yolun işıqlı amalını mücahidlərinin, ulusa can fəda etməyə hazır şəhidlərinin canına, qanına hopdura bilirlər:

*Bayraqları bayraq yapan üstündəki qandır,*
*Torpaq, əgər uğrunda ölən varsa, – Vətəndir.*

Uca Tanrı tərəfindən bir xoş müjdə kimi bəxş olunan, xalqlarının ehtiyacından doğulmuş türk qəhrəmanlar da artıq qan yaddaşına çevrilib, millətlərinə örnək olmaqda, tarix dərsi keçməkdədir. Onların müasir layiqli xələfləri də öz qəhrəman sələflərindən dərs almaqla, məmləkətin dar günündə müqəddəs Vətən andı içməklə, o böyük yolun yolçuları oldular.

70 illik Sovet əsarəti altındakı susqunluq, Sibir şaxtası xofu qarşısındakı durğunluq buzu əriyib yoxa çıxdıqca, tarixi zərurətdən doğulmuş müqəddəs kəlmələr artıq müstəqillik dövrümüzün birlik, qardaşlıq andı kimi səslənməkdədir: Türkiyə–Azərbaycan bir millət, iki dövlətdir. Bu, çox qürurvericidir; həmin kəlmələr hər iki xalqın ən çətin anlarında bir-birlərinin yanında olmasından sonra türklüyün hürlüyünün, birliyinin rəmzinə çevrilib.

Təəssüflər olsun ki, uzun illər 1918-ci il Mart soyqırımının əsas təşkilatçısı cəllad Şaumyanın "26 Bakı komissarı" adıyla

pərdələnmiş quldurlarını qəhrəmanlarımız hesab etmişik. Mikoyanın bələdçiliyi ilə Azərbaycanı işğal etmiş əliqanlı bir orduya qranitdən heykəl qoymuşuq. İllərcə şərəfsiz bir tarixin ədəbiyyat və tarix kitablarından yağan ağrısı və ağırlığı ilə yaşamışıq.

Azərbaycan Xalq Cümhuriyyəti ilə təxminən həmyaşıd olan Qafqaz İslam Ordusunun təşkili və fəaliyyəti Azərbaycanımızın nicatı oldu; Nuri Paşanın komandanlığı ilə türk ordusu Bakıya özünü bir az da gec çatdırsaydı, ən böyük tarixi faciələrimizdən birini yaşayacaqdıq. Şaumyan tərəfindən silahlandırılmış erməni quldurları xalqımızı bütünlüklə al qanına qərq edəcəkdi. Bakımız əldən gedə bilərdi...

Azərbaycan torpağında yüzlərlə türk şəhidinin məzarı var. (Çanaqqalada da onların harayına yetişmiş Azərbaycan türklərinin) Yüz ildən çoxdur ki, hüzur içində uyuyan həmin şəhidlərin məzarlarını torpaqlarımızın sinəsində dostluğumuzun, qardaşlığımızın şərəf nişanı hesab etmək olar. Ənvər Paşa, Nuri Paşa və onun silahdaşları ən böyük Azərbaycan qaziləridir.

Türkiyənin əfsanəvi qəhrəmanı, Osmanlı dövlətinin hərb naziri Ənvər Paşa daha sonra apardığı azadlıq savaşının coğrafiyasını qat-qat genişləndirərək sovet işğalcılarına qarşı Türküstanda Basmaçılar hərəkatının həm ilhamvericisi, həm də döyüşçü komandanı olmuşdur.

Öncə oradan başlayaq ki, əlləri azərbaycanlıların qanına batmış, 1918-ci il Mart soyqırımının "müəllifi" Şaumyan və onun ətrafındakı bolşevik quldurlarına Ağcaqum çölündə Ənvər Paşanın haqq divanı qurduğunu deyirdilər... Onların gəmiylə Bakıdan Krasnovodskiyə gəlmə xəbərini almış, "təntənəli" qarşılamış, "şərəflərinə" Ağcaqum çölündə 26 atəş açdırmışdı...

Sonralar Şaumyanın sağ qalması, Hindistanda yaşaması barədə uydurma fərziyyələr yayılmışdı. Bunları erməni daşnaklarının öz təsəlli şayiəsi hesab etmək də olardı. Təbii ki, Leninin Bakı neftini əldə saxlamaq üçün xüsusi mandatla oraya göndərdiyi bu

sədaqətli nökəri sağ qalsaydı, əlüstü özünü onun yanına verib, Sovetlər hökumətində Mikoyan kimi yüksək mənsəb sahibinə çevrilərdi. Onun qanlı əməllərinə bələd olan və "elədiklərinizin min qat əvəzini alacaqsınız" deyə and içən paşa, deyilənə görə, onu Ağcaqumun qurd-quşuna yem etdirib, istiqlal şəhidlərinin ruhuna tarixi xidmətini göstərmişdi...

Ənvər Paşa, Tələt Paşa və Camal Paşa haqqında hələ təxminən iyirmi il əvvəl trilogiya yazmaq fikrinə düşmüşdüm. Türk yazıçısı Hüseyn Nihal Atsızın Turançılıq və türkçülükdən bəhs edən romanlarını oxuduqdan sonra bir Azərbaycan yazıçısının bədii-sənədli ərmağanına çevirməklə bu niyyətimi gerçəkləşdirməyi qərara aldım... Şükürlər olsun ki, həmin arzumun tarixi zəmini də gəlib yetişdi: Qarabağımızın otuz illik işğalına son qoymaq üçün qəhrəman oğullarımızın silaha sarılması, türk dünyasının yeni qardaşlıq sınağının başlaması, iki dövlətin bir olan millətinin türklük andı... Bu qardaşlığın haqq savaşı meydanında ürəkləri dağa döndərən nidaları trilogiyanı başlamaq üçün mənə ruh verirdi.

Ənvər Paşadan vətənində çox yazılıb, amma bizim xalqımız üçün də onun tarixi-bədii portretini yaratmaq, onun Azərbaycanla əlaqələrinə bilinməyən rakursdan yanaşıb yaxşı-yaxşı tanıtmaq lazım idi. Bir də nə qədər çox yazılsa da, bu fədakar türk oğlunun, qəhrəman sərkərdənin daha çox vətənindəki, bir də Türküstandakı fəaliyyəti geniş işlənsə də, onun Azərbaycanın azadlığı uğrundakı misilsiz xidmətləri müəyyən qədər diqqətdən kənarda qalmışdır.

Oxuculara təqdim olunan "Ənvər Paşa" əsərində qəhrəmanın həyat və fəaliyyətini azərbaycanlı bir yazıçının bədii təxəyyül bucağından təqdim etməyə səy göstərmişəm.

Tarixi mövzularda bədii-publisistik əsər yazanların qarşısında vacib yazı meyarları var: keçmişdən heç nəyi silib atmaq, məqsədinə uyğun dəyişdirmək olmaz, amma "bəzəmək", əsərin qəh-

rəmanının yaşantıları ilə müəyyən mənada empatiya qurmaq mümkündür...

...Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin böyük inamla dediyi "Biz nə yolla olur-olsun, torpaqlarımızı işğaldan azad edəcəyik! Tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmağına imkan verməyəcəyik!" əhdi və Rəcəb Tayyib Ərdoğanın "Biz hər zaman, var gücümüzlə azərbaycanlı türk qardaşlarımızın yanında olacağıq!" hərarətli andı səslənəndə millətimin vətənpərvərlik ruhu zirvələrə pərvazlanmışdı. Azərbaycanda, Anadoluda Azərbaycan, Türkiyə bayraqları bir qurtuluşun zəfər lalələri olaraq dalğalanmağa başlamışdı...

1920-ci ilin avqustunda Ənvər Paşa Moskvadan Ankaraya – Atatürkə yazdığı bir məktubda qeyd edirdi ki, "Azərbaycanın az zaman içində tərəqqi edəcəyinə ümidliyəm" və əlavə edirdi: "Mən bu gün Bakıya gedirəm. Orada ordunun yenidən təşəkkülünə çalışacağam". Ənvər Paşa onda gələ bilsə də, ürəyində bəslədiyi arzuları yerinə yetirə bilməmişdi. Ancaq yüz ildən sonra yenə gəldi. Bu dəfə türkün ölməz, cəsur ruhuyla!.. Ali Baş Komandanımız İlham Əliyevin əmrinə bir də Ənvər paşaların, Nuri paşaların ruhunun çağırışı qoşuldu:

Haydı irəli, Azərbaycan əsgəri!

Azərbaycan ordusu silaha sarıldı. 44 günlük Vətən müharibəsi ordumuzun şanlı zəfəriylə başa çatdı.

Zəfər paradında iki qardaş ölkənin prezidentləri – İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan qalib Azərbaycan əsgərini bir yerdə salamladı. Həmin gün, bütün sələflərimizin – Atatürkün də, Ənvər Paşanın da, Heydər Əliyevin də gözlədikləri gün idi; onların həyat idealı idi. Bu idealı İlham Əliyev gerçəkləşdirdi! 44 gün ərzində isə Rəcəb Tayyib Ərdoğan da öz qan, can qardaşını meydanda tək qoymadı. "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" deyən Mustafa Kamal Atatürkün vəsiyyətinə sadiq

qaldığını təkcə sözdə deyil, əməldə də göstərdi. Ulu öndərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" düşüncəsindən qaynaqlanan inam Qarabağ labirintinin keçilməz sədlərini dağıtdı, iki ölkənin mənəvi birliyini təmin etdi. "Məğlubedilməz erməni ordusu" mifi yerlə – yeksan oldu.

Görünür, nə zamandı istəklərimin uzaq nöqtəsi olan Ənvər Paşanın Azərbaycana vəfasından, fədakarlığından yazmaq məramım, necə deyərlər, onun yüz il əvvəl qardaşcasına əməlinin cavabını qardaşcasına verməyin də əsl zamanı məhz indi gəlibmiş...

Zəfərimizə görə Ənvər Paşanın da ruhu şaddır. Bəlkə də hamıdan daha çox... Bunu Zəfər paradında Rəcəb Tayyib Ərdoğan da dilə gətirdi, Ənvər Paşanı rəhmətlə andı: "Bu gün Nuri Paşanın, Ənvər Paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür..."

...Dünyanın ermənipərəst dövlətləri və onların ədalətsiz mövqelərinə qarşı çıxan Müzəffər Ali Baş Komandanımız İlham Əliyev də, öz xalqı ilə bərabər həmişə Azərbaycanın yanında olacağını dəfələrlə, qürurla söyləyən Rəcəb Tayyib Ərdoğan da Ənvər Paşanı xatırlayarkən, bəlkə də böyük sərkərdənin 1913-cü ildə Ədirnəni düşmənlərdən azad etdiyini gözləri önünə gətirmişdi. Onun məğrur kəlmələri qulaqlarında səslənmişdi:

– Mən türk oğlu kimi buradayam. Əbədi olaraq burada da qalacağam!

Ali Baş Komandanımız İlham Əliyev də eyni qürurla, eyni iftixarla üçrəngli bayrağımızı zəfərin ilk günü işğaldan azad olunmuş torpaqlarımıza sancmış, Vətən övladlarının üzünə qapısı 30 il bağlı qalan doğma yurdlarımıza dönüşdə ilk işi yollar çəkmək olmuşdu. Qalib bayraqdar kimi üzünü sərkisyanlara, köçəryanlara tutub səslənmişdi:

– Mən gəldim, artıq buradayam! Biz əbədi burada qalacağıq, bayrağımız bu dağlarda əbədi dalğalanacaqdır!

Zəfər hərbi keçidində bir ananın iki övladına – İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana baxarkən hər bir türk övladı kimi sevincdən zirvələrə yüksəlirdim. Onları bir yerdə, çiyin-çiyinə, yan-yana gördüyümdə ürəyim fərəhdən köksümə sığmır, bu iki qardaş sərkərdəni möhtəşəm Şahdağa, Uludağa bənzədirdim. Birliyimizin rəmzi olan bu iki hünərpərvər, şanlı bayraqdarlarla fəxr edirdim.

...1918-ci ildə Bakını – Azərbaycanı bolşevik – daşnak işğalından təmizləyən ordu igid Ənvərin müəllifi və təkanverici qüvvəsi olduğu Qafqaz İslam Ordusu idi. Onların Azərbaycanın bolşevik-daşnak zülmündən qurtulması üçün apardıqları mübarizə, axıtdıqları qanların üstündən bir əsr ötür, lakin neçə əsrlər keçsə də bu tarixi xidmət bir-birini əvəz edən nəsillər tərəfindən minnətdarlıqla xatırlanacaqdır. Bu sonsuz minnətdarlıqdan Osmanlı Türkiyəsinin o vaxtkı hərbiyyə naziri – türk hərbinin böyük sərkərdələrindən biri olan Ənvər Paşaya da pay düşür. Çünki Qafqaz İslam Ordusunun və onun təcrübəsində Azərbaycan Milli Ordusunun yaradılması, Qafqaza, konkret olaraq Azərbaycana türk hərbi yardım gücləri göndərmək ideyası da, təşəbbüsü də, təşkili də Osmanlı dövlətinin hökumət rəhbərlərinin, başlıcası isə Osmanlı imperiyasının hərbi naziri Ənvər Paşanın adı ilə bağlıdır. Onun qətiyyəti, əzmi, iradəsi olmasaydı sözsüz ki, Azərbaycanımıza türk hərbi qüvvələri göndərilməsi baş tutmayacaqdı və Azərbaycan xalqı üzbəüz durduğu böyük faciələrlə təkbətək qalmalı olacaqdı.

Ənvər Paşa xalqımızın ümman sevgisini qazandı; azadlıq ordusunun imdada yetişdiyi andan başlayaraq bu ülvi duyğular, Azərbaycanın işıqlı sabahı üçün çarpan ürəyin, bəslənən sevdanın cavabı oldu. Əldə olunan zəfərlər artdıqca xalqın solğun ümidləri də canlanır, sabaha inamı artırdı; Bakıda, Azərbaycanın hər yerində xilaskar Ənvər Paşanın şəninə ümid və sevinc dolu marşlar, türkülər qoşulub oxunmaqdaydı:

*Yaşa, ey qaziyi əzəm, yaşa, ey möhtəşəm Ənvər!*
*Səninlə fəxr edir indi böyük sultan, ulu qeysər*
*Ki, sənsən dahiyi-dövran, sənsən fatihi kişvər!*
*Doğarmı analar bir də sənin tək bir nər ər,*
*Xəyalı ay kimi aydın, məramı gün kimi Ənvər!*

Yüz il əvvəl yazılsa da, bu günə nəzər salanda xalqımızın ürəyindəki minnətdarlığın zərrə qədər də əksilmədiyinin şahidi oluruq. Həqiqətən, heç nə unudulmayıb, heç kim yaddan çıxmayıb, lap yüz il keçsə də…

Azərbaycan xalqının çağırışına səs vermək, onun haqq mübarizəsinə yardımçı olmaq Ənvər Paşa üçün heç də sadə bir qərar deyildi. Bu məqsədə nail olmaq üçün Ənvər Paşa çox böyük sınaqlara, xüsusən də Azərbaycanda, Bakı neftində gözü olan nəhəng dövlətlərin böyük təzyiqlərinə sinə gərməli olmuşdu. Amma Ənvər Paşa uzun bir yolun yolçusu olan şəxsiyyətdir. Təbii ki, bu kitabımda onun Azərbaycanla bağlı fəaliyyəti əsas yer tutmaqla bərabər, bu mübariz sərkərdənin həyat tarixçəsini işıqlandıraraq, tam obrazını yaratmağı qarşıya məqsəd qoymuşam.



# ƏNVƏR PAŞA

*(roman)*

*Bu trilogiyanı böyük ehtiram və sevgiylə qardaş Azərbaycan və Türkiyə xalqlarının sarsılmaz dostluğuna, eləcə də Atatürkün, Ulu Öndər Heydər Əliyevin, Ənvər, Tələt və Camal paşaların bayraq estafeti davamçıları olan İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana ithaf edirəm.*

## BİRİNCİ FƏSİL

*Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün...*
***Hüseyn Nihal Atsız***

Qurban bayramının ikinci günü… 5 avqust 1922-ci il... Gərginlik, həyəcan içində başlanan həftənin sonu...

Türküstanın neçə vaxtdan bəri tutulub qaranlıqlara qərq olan zülmət gecələrində birdən-birə parlayan bir ulduzun, Turanın böyük qurtuluş elçisinin müqəddəs şəhadət məqamına yüksəlişi isə bir gun əvvələ təsadüf edirdi...

Həmin zamanlarda Buxara xanlığına daxil olan Bəlcivan qəsəbəsindən iyirmi beş kilometr aralıda daima bahara həsrət Abıdərya kəndinin şoranlıq çölündə o gün silah səsləri susmaq bilmirdi. O gün sabaha yaxın başlayan xain basqın artıq açıq döyüşə çevrilmişdi. Vuruşanların sayına görə qeyri-bərabər sayılacaq döyüşdə Basmaçıların mücahidləri çoxsaylı basqınçı bolşevik süvariləri ilə ölüm-dirim savaşına girmişdilər. Döyüşlər geniş ərazini əhatə etdiyindən dayanmaq bilmir, əksinə, get-gedə daha da qızışır, hücumlar daha ardıcıl şəkil alır, milli istiqlalı üçün ayağa qalxan türklərin qanı öz doğma torpağına axıdılırdı. Yayın cırcırama istisindən yanıb saralmış, qupquru quruyub az qala tika-

na çevrilən ot-ələf, topa-topa kollar, istinin və küləklərin əlindən boyu çıxmayan balaca ağaclar, Çeğanın irili-xırdalı təpələri o günlər azadlıq mübarizəsi aparan, bolşeviklərin kəsib-biçən pulemyotu üzərinə az qala yalın əllə – bir tək qılıncla atılan türk-müsəlman mücahidlərin qanı ilə suvarılırdı... Döyüşün ən ağrılı nəticəsi isə hələ qarşıda idi. Həmin döyüşdən cəmi üç nəfər salamat qurtara bilmişdi...

Gecə yarıdan keçmiş, üfüqlərin hələ alatoranlığa bürünüb yatdığı çağında Çeğan qışlağı səmtdən gələn pulemyot səsinə Dövlətmənd bəy hövlnak yerindən qalxıb öz fədailərilə gəlib döyüşə qoşulsa da, gec idi. Ənvər Paşanın qardaş bildiyi sədaqətli Dövlətmənd bəy qardaşının harayına gecikmişdi. O döyüşdə şəhidlik şərbətini içən Dövlətmənd bəyə daha bundan sonra Çeğan təpəsində paşa qardaşı ilə yan-yana uyumaq qalacaqdı...

...Bolşeviklərin qurduğu xain pusqu əvvəldən deşifrə edilmişdi. Odur ki, düşmənin bayram namazı qılan Ənvər Paşaya və silahdaşlarına hucum edib elə namaz üstündəcə onları əsir almaq planını bildikləri üçün bayram namazının bir gün əvvələ keçirilməsinə fətva verilmişdi. Düşənbə müftisi Molla Lakaylı Egemberdinin verdiyi fətvada cihad edən müsəlman əsgərlərin düşmən hücumundan qorunmaq məqsədilə Qurban və Ramazan bayramları namazlarının bayram ərəfəsində qılına biləcəyi bildirilmişdi.

Böyük Turan yolunun yolçuları həmin fətvadan sonra bayram namazlarında uca Yaradana əl açıb dualarında Türküstanın bu bədniyyət, əliqanlı bolşevik ordusundan mütləq qurtuluşunu diləmişdilər. Ertəsi gun Allahın adını tutub girəcəkləri müqəddəs cihadda ya qalib, ya da şəhid olmalarını arzulamışdılar. Başqa seçimi – ya geri çəkilməyi, ya güzəştə getməyi ağıllarına belə gətirməmişdilər. Dövlətmənd Bəy, Qazax Murad, Kazanlı Kərim Bəy, Müslümanqul, Çərkəz Hüseyn Nafiz, Nafi Bəy, Danyal Bəy və digər qəhrəman türk oğulları ilə eyni səfdə dayanıb qıldığı

bayram namazında Ənvər Paşanın qəlbində o anlarda Allaha və böyük Turana bəslədiyi sevgi hər şeyi üstələmişdi... "Ey Cənabi Haqq! Biz təkcə sənin qarşında diz çökərik, bir tək sənə itaət edərik! Bir tək sənin əmrinə uyarıq! Böyük Turandan əzan səsi, qəlbimizdən Allah sevgisi əskik olmasın, inşallah! Bizi yaratdığın bu torpağın üstündə qalib, dərgahında isə şəhadətə varanlardan eylə, Rəbbim!"

Cümə axşamı – avqustun 3-də bu dualar "Allahu Əkbər" sədalarının müşayiət ilə ucalmışdı Yaradanın dərgahına. Böyük Allah eşitmişdi dualarını...

Ertəsi gün sübh tezdən bolşevik əsgərlərinin Ənvər Paşanın Çeğan təpəsindəki qərargahına basqını ilə müxtəlif cəbhələrdə qanlı döyüşlər başlanmışdı. Eşitdiyi ilk güllə səsindən qərargahında yatdığı yerdən qalxıb başında bir dəstə süvarisi ilə bolşeviklərə doğru hamıdan öndə çapan Ənvər Paşa düşmən pulemyotçularını belə qorxuya salmışdı. Üstlərinə fırtına kimi şığıyan, onlara bir böyük türk ordusu həyəcanı yaşadan bu 30 nəfərlik dəstənin yaratdığı vahimədən hara, necə atəş açdıqlarını da şaşırmışdılar. Elə bu dəmdə Ənvər Paşa pulemyotun gülləsinə tuş gəlmişdi.

Hücumda yanında olan yavəri Sübhi bəy sonralar xatırlayacaqdı: "Bir sərsəri güllə düz ürəyindən dəymişdi. Necə olmuşdu; o qədər yaxından və tam hədəfinə dəyən güllə az-az rast gəlinir. Ənvər Paşa, əynindəki kaputdan keçərək tam qəlbinə vurulan bu gülləni yediyi zaman birdən-birə şaşırdı. – Ayy! – deyə bildi. Parlaq gözləri birdən-birə qaraldı və bir heykəl kimi yerə yıxıldı. Yerdə uzalı yatan paşanın dodaqları sapsarı oldu. Gözəl üzü birdən-birə bəyazlaşdı və uzun kirpikli gözləri yavaş-yavaş qapanmağa başladı. Saralmış dodaqları bir az büzüldü, sonra gülümsəyər kimi açıldı. Və ağzından iki damla qan bəyaz çənəsinin üzərinə töküldü və sönən parlaq gözləri tamamilə qapandı. Hər kəs susdu, bütün hərb meydanı susdu və bir neçə tarix səhifəsi sükut içində qapandı".

Moskvada Dövlət Siyasi İdarəsinin agenti çekist Qriqori Ağabekyan öz xatirələrində Ənvər Paşanın ştabının gizli məkanını axtarmağa tacir libasında çıxıb pul ilə ələ aldığı bir şərəfdən də, pul-paradan da yoxsul bir yerlidən qərargahın yerini öyrəndiyini yazır. Bunu nə vaxtdır ki, ondan xəbər gözləyən marığa yatmış bolşevik qüvvələrinə çatdırır. 8-ci süvari eskadron komandiri erməni Melkumyan beləliklə, xaincəsinə pusqu qurub, qəfil hücumu ilə əməliyyatı sona çatdırır. Nə vaxtdan bəri Moskvaya Türküstanın işğalında "başağrısı" olmuş məsələni "qələbə" ilə həll etməsi münasibətilə Melkumyan Qırmızı Bayraq ordeni ilə təltif olunur...

...Döyüşün qızğın yerində Dərviş bu gurultu-partıltı içində əsla gözünü də qırpmadan öz borcunu yerinə yetirən bir əsgər intizamı ilə tərpənmədən dayanmışdı. Sanki paşanın xəyallarına, gələcək niyyətinə, ümidinə keşik çəkəcəkmiş kimi, bir əsgər kimi dimdik durmuşdu. Paşa sevimli atını boş yerə Dərviş adlandırmamışdı ki... Axı özü də dərviş həvəsli bir sevda yolçusu idi. Təbiətcə çox ciddi, dinməz, çoxlarına da buna görə qaraqabaq adam təsiri bağışlayan paşa Dərvişi – neçə dəfə onu yağış kimi yağan güllələrin altından çıxaran atını bu qürbət günlərində özünə sınanmış dost, vəfalı yoldaş bilmişdi. Uzun yolçuluqlarında şax oturuşunu dəyişib irəli meyillənərək özü kimi inadkar, həm də əmin atının boynuna bir qardaş kimi əyilib onun yalını oxşayır, dincini alırdı. İndisə Dərvişə paşasının o əziz diyarlara, həsrətini çəkdiyi evinə-ailəsinə xəyali son vida görüşünə keşik çəkmək, əbədi yuxusunu qorumaq düşürdü...

İndiyədək çox sınaqlardan üzüağ çıxmışdı, indi isə – ömrünün sonlandığı məqamda uca Yaradanın qarşısında həyat imtahanı verirdi. Əlini qeyri-ixtiyari daim libasının sol döş cibində saxladığı kiçik həcmli, yanından heç ayırmadığı "Qurani-Kərim"in üzərinə qoydu. Qibləyə tərəf dönmək istəyirdi, yerində bir az çabaladı, az qaldı ağrıdan huşunu itirsin. Xeyli çalışıb-çabalayıb birtəhər də

olsa qiblə istiqamətinə dönməyi bacardı. Huşu üstündə idi, ancaq sanki dili söz tutmurdu. Ağır yaralanmışdı, ona elə gəlirdi ki, hamı hücumda onu ötüb irəli keçmiş, ondan uzaq düşmüşdülər... "Kəlmeyi-şəhadət" gətirmək istədi, sinəsindəki və qarnındakı ağrılardan nəfəsi kəsilirdi, güllələr bədənini dəlik-deşik etmişdi. Bütün gücünü toplayıb "La ilahə illəllah, Muhəmmədən Rəsulullah" pıçıldadı... Qəlbi rahatlandı bir anlıq. Yaralı vücudu torpağa sərilmişdi; torpağın qoxusu lap burnunun dibində idi. Səmanın bir tərəfi bozarmışdı, elə torpağın rəngindən seçilmirdi, digər tərəfi isə açıq idi. Günəşin qarşısındakı ağ bulud topası isə şəklini dəyişərək cilddən-cildə girirdi...

Dərviş özü də gülləyə tuş gəlmişdi, yanı üstə çevrilməsinə, geniş sinəsindən, alnından al qanının axmasına baxmayaraq sahibini əzməsin deyə səndələyərək var gücü ilə kənara çəkilməyə cəhd edirdi...

...Yaralanmış atının üstündən aşıb Çeğan torpağına düşən Ənvər Paşanın son nəfəsində, dünya gözüylə baxdığında qısaca bir an kəsiyində, amma bir əbədiyyət qədər uzun sürən bir xəyal yolçuluğunda – ölümün qaşla göz arasında olduğu o məqamda ömür kitabının səhifələri yaddaşında vərəqləndi... Sadəcə vərəqlənməklə də qalmadı, adı düşməni lərzəyə salan, indisə bədəni torpağa düşən bu fədai paşa öz qısa, lakin sonralar kitablara sığmayacaq ömür anlarını sanki yenidən birər-birər yaşadı. Göz açıb qapayacaq qədər həmin qısa vaxt içindəcə, şəhidlik məqamına ucalmaqda olan paşanın həm şərəfli, həm də məhrumiyyət və ayrılıqlarla, ağrı və əzablarla, ani şirin dəqiqələrlə dolu həyatı xronoloji ardıcıllıqla deyil, pərakəndə zaman sayrışması ilə film kimi qırıq-qırıq, hissə-hissə, bəzən isə təfərrüatlı şəkildə gözləri önündən keçməyə başladı...

## İKİNCİ FƏSİL

***Bizim tariximiz tək bir adama söykənən, Ənvər Paşa sözlərindən ibarət bir tayfa hekayəsi deyildir; adlı-adsız qəhrəmanlar ordusunun yaratdığı böyüklükdədir.***

***Ənvər Paşa***

Ənvər 1881-ci ildə noyabrın 22-də İstanbulun qədim guşəsində – Divanyolu səmtində dünyaya gəlmişdi. Öz sözləri ilə desək: "1881-ci ilin noyabrında, məhərrəm ayının ilk çərşənbə axşamı günü, səhər saat 12 radələrində Divanyolunda, keçmiş "Lisan məktəbi" qarşısındakı evimizdə dünyaya göz açdım…"

Soykökünün də haradan gəlib, haraya çıxdığının hekayətini elə ata-anasından eşitmişdi. Ancaq ən yaddaqalanı, eşitdiyi andan heç unutmadığı hekayət əmisi Xəlil Paşanın anlatdıqlarıydı: "Bir gecə babam Mustafa kaptanının evində atam Kamil bəy, Həsən dayım, İbrahim dayımla bərabər yemək yeyərkən ötən günləri şirin-şirin xatırlamaqda idilər. Mən də söhbəti maraqla dinləyirdim. Həsən əmimin bu sözləri hələ də qulaqlarımdan getməyib:

– Dədələrimiz bu yerlərə Krımdan köç etmişdilər. Babamız xırda-para toxunma qadın geyimləri satarmış və Krım xanlığının

sarayına yaxın imiş. Özü də zirək birisi olduğu üçün hərəm xanımları onun gəlişindən çox fərəhlənərmişlər. Bu əsnada Krım xanının yaxınlarından olan bir qızla tanış olur. Bir-birinə könül verib, könül alırlar. Evlənirlər… Əslən qaqauz türkü olan babamız beləcə, qanımızı Krım xanının qanına qovuşdurur. Bu izdivacdan Koca ağa Killi dünyaya gəlib...

Ənvər həm onunla, həm də qardaşı Nuriylə dost olan həmyaşıd əmisini sonsuz maraqla dinləyər, sualı sual dalınca yağdırardı. Xəlil Paşa da görüləsi vacib işlərin məqamını əldən verməmək səbəbilə söhbətin yönünü kəsə salır, gəlib çıxırdı lap yaxın tarixə.

– Bax, bayaq Hafiz Kamil bəyin adını çəkdim ha, heç unutma, həmin Hafiz Kamil bəy sənin dost-doğma babandır. Atan Əhməd bəy həmin Kamil bəyin Hasənə xanımdan dünyaya gələn dörd oğlundan biridir. Özü də oğul-uşaq sahibi olarkən anasının da, atasının da adlarını övladlarına vermiş.

Əlbəttə, Xəlil Paşa vaxt darlığını nəzərə alıb söhbətə bu yerdə nöqtə qoymaq istəyirdi. Ancaq hər şeyin sonunacan getməyi xoşlayan, qərarlı və inadcıl Ənvərin bilmək istədikləri bununla bitmirdi. Söhbətin gedişini yenə də lap əvvələ, nəsil şəcərəsinin qaynağına çəkirdi:

– Koca ağa Killi dedin, Qəhrəman Ağa Killioğlu dedin, marağımı çəkdi, bu Killioğlu, Killi nə deməkdi bəs?

Xəlil bəy qardaşı oğlunun inadına bələd idi... Bilirdi ki, istədiyini almayınca, mətləbinə yetməyincə əl çəkən deyil. Elə özü də təfərrüatlı şirin söhbəti ilə ad çıxarmışdı. Ənvərin suallarından sonra ona da əslində danışmaq həvəsi gəlirdi. Bu səbəbdən də yerini yenidən rahatlamalı olur, hər şeyi yerli-yataqlı, bildiyi qədər anlatmağa çalışırdı:

– Bax, bildiyimiz Dunay çayı ki var, həmin çay Qara dənizə tökülməmişdən öncə üç qola ayrılır… Bu üç qoldan birinin adı Kilidir. Şimaldan cənuba doğru axar. Həmin bu Kili qolu üzərində

eyniadlı qəsəbə varmış. Babalarımız əslən oradandı. Ona görə də el-oba arasında Killioğulları adıyla bilinirik. Demək ki, bizim kökümüz qaqauzların sıx yaşadıqları həmin yerlərə bağlıdır… Bir tərəfimiz də krımlı...

Deməli, Əhməd bəyin və Ayşə Dilara xanımın oğlu Ənvər Paşa yeddinci babası Abdullaha nisbətlə əslən qaqauz türklərindəndir. Abdullahın xanımı isə Krım xanədanına mənsub bir ailənin qızıdır.

…İndi, Qurban bayramının ikinci günündə sırası seyrəlmiş əsgərləri ilə üzbəüz qaldığı bu dar macalda əmisi Xəlil bəydən – Qutül Amarə qəhrəmanı Xəlil Paşadan eşitdiklərini xatırlamaqdaydı. Yadına salırdı; anası Ayşə Dilara xanım qısqanclıq zəminində tez-tez ana-atasına şikayət edir, bu xüsusda onlara məktublar yazıb göndərirdi. Hər dəfə atası Əhməd bəy belə söhbətlərin onu dalana qısnadığı anlarda sözü hərləyib dünyanın gəldi-gedərliyi, fani olması üzərinə çıxarırdı. Yəni, boşla getsin bu söhbətləri, onsuz da dünya gəldi-gedərdi, hər şeyin bir sonu var… Kim yetə, kim yetməyə…

Bunun gerçək bir qismət, tale işi olduğunu indi anlamaqdaydı. Ruhunu əsir edən Turan sevdasına görə qocaman bir dövləti qatmadımı Birinci Cahan savaşına? “Sultan kürəkəni olmaqla sürətlə yüksələn Ənvər Paşa Birinci Dünya müharibəsinə heyranı olduğu almanların xeyrinə qoşulur” – deyirdilər həmin vaxt. Yox, əslində onu savaşa cəlb edən Turan amalı idi. Birinci Cahan müharibəsi Turanı bir ideyadan reallığa çevirə bilərdi...

Azərbaycanın, Şimali Qafqazda yaşayan müsəlman xalqlarının, bütünlükdə türk xalqlarının çar Rusiyasının əsarətindən qurtularaq, böyük Turan dövlətinə qatılacağına inanan Ənvər Paşa hərbi fəaliyyətində də bu planı diqqətdən qaçırmırdı. Türk xalqlarının mənəvi və siyasi birliyi, türkçülük ideyasının prinsipləri üzrə ilk işlərə addımlar atılmış, artıq Birinci Dünya müharibəsi ərəfəsində Qafqazın öyrənilməsinə başlanılmış, bu ərazilərdə bir

neçə muxtar vilayətlərin qurulması və bir ölkədə birləşdirilməsi qərarlaşdırılmışdı. Bu məqsədlə əməli işlərə başlanmış, qafqazlı xalqların rəhbərləri ilə görüşlər sürətlənmiş, mütəşəkkil dəstələr belə meydana gətirilmişdi.

Ənvər Paşanın Turan sevdası qarşısıalınmaz bir sel idimi, heç vaxt sönməyəcəyini zənn etdiyi bir durna çırağı idimi!? O bu yolda lüzumlu sandığı hər vasitəyə əl atırdı. Rus əsirliyindən qayıtmış keçmiş əsgərlərlə görüşməyə, onları dinləməyə hazır görünürdü. Bu işlər hamısı onun planladığı məqsədləri ilə bağlı idi. Rus əsirliyindən qurtularaq 1917-ci ilin sonunda Türkiyəyə gələn avstraliyalı bir mayor İstanbulda Ənvər Paşanın istəyi ilə onunla görüşdü.

Sibirdən ayrılandan keçdiyi türk ölkələri, xalqları haqda, eləcə də Qafqaz ölkələrindəki vəziyyət barədə hərbiyyə nazirinin bir-birinin ardınca yağdırdığı sualları cavablandırmaqla, Qafqazda görüləcək böyük əhəmiyyətli işlər üçün hazırda zamanın çox əlverişli olduğunu çatdırdı. Paşa bu Avstraliyalı hərbçidən çox razı qalmışdı. Mayor ona ciddi, öz sözünə məsuliyyətli bir hərbçi təsiri bağışlayırdı; ona görə də ondan eşitdikləri Ənvər Paşanı çox təsirləndirmişdi; demək düz qərar vermişdi: böyük yolun başlanğıcı Qafqaz olacaqdı. Ənvər Paşa ətrafındakı öz həmfikirlərinə bu görüşdən aldığı məmnunluğu dönə-dönə dilə gətirib "Azərbaycan türklərinin düşmənə qarşı təşkilatlanmağa və savaşmağa çox istəkli olduğu, ancaq onları təşkilatlandıracaq və idarə edəcək hərbi liderlərin bulunmaması səbəbiylə hərəkətə keçmədikləri qənaətinə gəldim" deyirdi.

Düz bir il sonra Azərbaycandan böyük məşəqqətlə çıxıb gələn rəsmi nümayəndə – Nağı bəy Şeyxzamanlıdan da eynən bu sözləri dinləmiş olacaqdı. Bu həyəcanların bitməsinə, arzuların çin olmasına az qalırdı.

Vaxt gələcəkdi ki, Bakının azad edilməsi xəbəri onun ən böyük sevincinə çevriləcəkdi.

Əhməd Cavadın həmin günün uğuruna, həm də uğurlu bir ad altında yazdığı "Bismillah" şeiri ürəyini fərəhlə doldurmağa yetmişdi:

*Atıldı dağlardan zəfər topları*
*Yürüdü irəli əsgər, bismillah!*
*O Xan Sarayında çiçəkli bir qız*
*Gözləyir bizlərdən zəfər, bismillah!*

## ÜÇÜNCÜ FƏSİL

*Ana kimi yar olmaz, Vətən kimi diyar...*

...Obaşdan İstanbulun Deraliye məhəlləsi səmtindəki dəmirçixanaların üzünü dərgaha tutmuş sənətkarlarının sübh namazında "Allahu Əkbər" sədalarının avazını dəmirçi zindanlarının cingiltili – danqıltılı səsi əvəzləyirdi.

Böyük Allahın, onun Rəsulu Məhəmməd Əleyhissəlamın rizasıyla işə başlayan sənətkarların körükləri işə düşüb içərisi qırmızı alovlarla bəzənən dəmirçixanaların odlu nəfəsinə çevrilirdi. Dan yerinin günəş müjdəli şəfəqlərindən dəmirçi ocaqlarına ilahi ərməğan və ruzi-bərəkət paylanırdı.

Kiçik İsmayıl Ənvər belə sabahların birində, öz ömür-gününün dan çağında yaddaşına dəmirçi zindanlarıyla həkk olunmuş bir tamaşanın şahidi olmuşdu...

Şeyx Şamil hərəkatının süqutundan sonra Osmanlı dövlətinə pənah gətirən Tabasaran dəmirçilərindən birinin Allahın rizası naminə başladığı işini ömrünün ilk və ən maraqlı tamaşası kimi seyr etmişdi.

Usta əvvəlcə gözünü dörd açıb onun işinə tamaşa edən balaca İsmayıl Ənvəri kimlərinsə öyrədilib göndərilmiş əl buyruqçusu

zənn etmişdi. Ta ki bir gün bu balaca oğlanın gözlərini lap yaxından görüb ürəyinin içindən keçənləri oxuyana qədər... Ondan sonra şübhələri kürəsinin yeni məhsulunu soyuq suya salandan sonra qalxan buxar kimi uçub getmişdi. Bu müşahidələrin sonunda balaca Ənvərin gözü önündə dəmirçi kürəsindən bir qılınc doğulmuşdu. Qılınc hazır olan gün Ənvər sevinclə əllərini bir-birinə vurub sevincdən qışqırmış, ustanı alqışlamışdı.

Usta, həmin vaxt bu balaca oğlanın sevincdən, qürurdan böyümüş dupduru gözlərini görəndən sonra bütün şübhələrinin əbəs olduğuna əmin olmuşdu. Həmin duru baxışlar onu qoyub gəldiyi doğma yurdlara apardı. Oralarda Sulaq çayı sahilində iri gözlü bir uşaq oturmuşdu. Düşmən üstə gedən atlılara tamaşa edirdi. Arzuları, murazları çayın suları kimi dalğalanır, onu gələcəyinə qovuşdurmaq istəyirdi: Kaş mən də tezcə beləcə atlana, silah-sursatımla düşmən üstə qanadlana biləydim.

Uşağın dupduru gözləri Anadoludan Qafqaza kimi doğma, mavi və yaşıl bir yol aça bilirdi... Həmin yolun ortasıyla bu yerlərin mavi suları qovuşub axır, ağacları zümrüd libaslı əsgərlər kimi onları müşayiət edirdi. Ürəyindən keçdi ki, “lap paşa ürəkli yavrudu. Belə balalar yurdu yaşatmaq üçün doğulur...”

...Sən demə, Ənvərin atası Əhməd Əfəndiylə də həmin qəribanın Allahın salamı ilə başlamış ünsiyyəti və səmimiyyəti də varmış. Həmin gün Ənvərin əlindən tutub evlərinə ötürdüyü zaman bunları anladı.

– Oğlun Ənvərin maşallahı var, Əhməd Əfəndi, xəncərə, qılınca rəğbəti, məhəbbəti onu məmləkətin ağ atlı qəhrəmanına çevirəcək.

Ondan sonra Ənvərlə tabasaranlı usta Ömər Osmanoğlu arasında qardaşoğlu-əmi doğmalığına bənzər ünsiyyət yaranmışdı. Atasının usta barədə söylədikləri də həmin səmimiyyəti dəmirçi kürəsinin körüyü kimi isitdi, yaddaşının zindanında döyüb möhkəmləndirdi.

– Bunlar Qafqazın qəhrəmanı Şeyx Şamilin müridləridi. Onlar iyirmi ildən çox əyinlərinə bir tək kəfən geyib, yurd-yuvalarının azadlığı, dini adət-ənənələrinin birliyi üçün çarizmə qarşı vuruşmuşlar.

Ənvər bu sözlərdən sonra əsl örnəyin nə demək olduğunu anlamışdı. Şeyx Şamil əvvəl doğmalarına, sonra ətrafındakılarına, daha sonra bütün Dağıstana örnək qəhrəman ola bilmişdi. Atının kişnərtisi ilə bütün elatı ayağa qaldırıb düşmən üzərinə səfərbər etmişdi. Demə, Şeyx Şamilin müridi olana qədər tabasaranlı Ömər Osmanoğlu Temurxan Şura Cümə məscidinin imamı imiş. Öz el-obasına örnək olmaq üçün o da kəfən geyib, ölüm-dirim cihadına qoşulubmuş.

Ənvərə Qafqaz və onun igidləri haqqında hər şeyi təfsilatı ilə danışmaqdan yorulub, usanmırdı. Üstəlik həmin dərslər bir dəmirçi kürəsinin körüyü ilə nəfəs alır, zindanının səsiylə müşayiət olunurdu. Sanki Qafqazın azadlığının zümrüd yaşılının özünə qaytarılması üçün mübarizə İstanbulun bir dəmirçixanasında davam etdirilirdi. Allahın və Peyğəmbərinin xeyir-duası ilə hər gün obaşdan işinə başlayan Ömər əmisinin məhsullarını kimlərə ərməğan etməsi də Ənvəri qürurlandırmışdı. Ustanın "Anadolu bizlərə, bütün türk dünyasına öz ana qollarını açıb. Üstəlik Qafqaz toplumlarına ayrı-seçkilik eyləməyib. Burada hamımızı "çərkəz" adıyla çağırırlar. Onun qoynunda hamımız da çərkəz türkü olmağımızdan qürur duyuruq" deməsi də xoşuna gəlmişdi.

Ömər ustanın xəncərləri, qılıncları qəlbi doğma yurdları ilə birgə döyünən həmşərilərinə ərməğan etdiyindən xəbər tutanda Ənvər yaşından böyük maraqla xəbər almışdı:

– Zəmanənin indiki top-tüfəng dövründə onlar xəncər-bıçaqla hürriyyətə necə yürüş edə bilərlər?

Dəmirçi Osmanoğlu gülümsəmişdi:

– Həmvətənlərimin bu qılıncları dağlı qeyrətlərinin rəmzi kimi daşımalarını istəyirəm... Unutmasınlar ki, müqəddəs Qaf dağları

ətəklərində İslamın zümrüdünə çəkilmiş doğma elatları var. Onların da gözləri doğma övladlarına dikilib. Həmişə də, hürlüyünə qovuşana kimi yollarını gözləyəcək... Elat oğullarının ilk silahı onların qeyrəti olmalıdı. İlkin elləri-obaları öz övladlarını həmin müqəddəs yaraqla silahlandırmağı bacarmalıdı. Yalnız və yalnız həmin səfərbərlik sonrası əsl silaha sarılmaq olar. "Qeyrət təlimi"ndən sonra... Şeyx Şamil həmin "təlim"i keçmədən hamını tez-tələsik silahlandırmaq istəyərkən Abutalıb deyilən bir ağsaqqal ona belə söyləmişdi: "...Deyirsiniz kiçik xalqlara böyük silah lazımdı. Buyurmağına düz buyurursunuz, doğru söyləyirsiniz. Amma həmin silaha Vətən qeyrətiylə yaraqlanandan sonra sarılmaq gərəkdi. Kiçik xalqların böyük qırılmaz birliyi olmalıdır..."

Ənvər üçün bu sözlər yaddaşının saxlancında uzun illər əks-səda verəcək, ən ağır döyüşlərindən öncə də mərd dəmirçi Osmanoğlunu və onun dəyərli kəlamlarını xatırlayacaqdı. Tale elə gətirəcəkdi ki, uzun illər sonra da məhz elə mərd Şeyx Şamilin qeyrətli müridləri kimi əlində qılınc böyük cəsarətlə bolşeviklərin üzərinə şığıyıb vuruşacaqdı...

Kim bilir, bəlkə də tabasaranlı Ömər kişinin ona danışdığı qəhrəmanlıq əhvalatlarından sonra ürəyində hərbçi olmaq istəyi daha da möhkəmlənmiş, gələcəkdə paşa olacağını özü üçün yəqinləşdirmişdi?..

...Ayşə Dilara xanım sübhün alatoranında siması güclə seçilən oğlunu fəxr və sevgiylə süzdü, sonra yavaşdan tərpədərək "Ənvərciyim, qalx, sübh namazını qıl, sonra da imtahana gedəcəksən, övladım" deyə həlim səslə çağırdı. Balaca Ənvər gözünü açıb əvvəlcə yuxunun verdiyi çaşqınlıqla anasını süzdü, sonra gülümsəyib yatağı boyu ləzzətlə gərnəşdi. "Tamam, anam, qalxıram indi" deyə yenidən yorğana büründü. Ayşə Dilara xanım gülə-gülə dedi: "Bax, qalxmasan, Allaha dua edib istəməsən bu gün "Əsgəri-Rüşdiyə"yə qəbul etməzlər səni, haydı, qalx görüm..."

Anasının bu sözlərindən sonra səkkiz yaşlı İsmayıl Ənvər yorğanı üstündən atıb cəld yataqdan sıçradı. Anasından öyrəndiyi qaydada dəstəmaz alıb iki rükət sübh namazını qıldı. Namaz üstündə kiçicik əllərini Allaha açıb bugünkü imtahandan uğurla keçməsi, "Əsgəri-Rüşdiyə"yə qəbul olması üçün dua etdi.

...İmtahan gərgin keçirdi. Qəbul olmaq istəyən uşaqları sorğu-sual edən müəllimlər çox ciddi və tələbkar idilər. Ənvər həddindən artıq həyəcanlıydı, ancaq buna baxmayaraq məktəbə qəbul olunacağına inanır, ürəyində Allaha etdiyi duaları bir an belə kəsmirdi. Ənvərin sırası gəldikdə imtahanı götürən hər üç müəllim mütənasib görkəmli olsa da bu boyca balaca, arıq oğlanı etinasız nəzərlə süzdü. Müəllimlərdən biri mülayim səslə "oğlum, sənin yaşın azdır, hələ balacasan, bir az böyü. İnşallah, gələcəkdə səni qəbul edərik," – deyə Ənvəri evə yollamaq istədi. Müəllimin həlim səslə dediyi bu sözləri həmən rədd cavabı kimi başa düşən Ənvərin həyəcandan az qaldı nəfəsi kəsilsin, iri gözləri yaşla doldu, ancaq tez özünü ələ alıb qürurla şax dayandı: "Xocam, bu məktəbə daxil olub oxumaq, sonra da təhsilimi davam etdirib əsgər olmaq, Vətənimi qorumaq ən böyük arzumdur. Yaşım az olsa da söz verirəm ki, əgər məni qəbul etsəniz, kimsədən geri qalmayacağam, dərslərimə yaxşı çalışacağam, ümidlərinizi doğruldacağam".

Hər üç müəllim vücudu cılız olmasına baxmayaraq mənən güclü görünən bu balaca, oxumaq üçün son dərəcə istəkli, həyəcanlı oğlanı, həm də bir-birilərini təbəssümlə süzdülər. Yumşaldılar, ona inandılar. Və beləliklə, taleyinə gələcəyin hərb naziri olmaq yazılmış İsmayıl Ənvər özündən yaşca böyük olan uşaqlarla bərabər həmin gündən "Əsgəri–Rüşdiyə"nin müdavimlərindən biri oldu...

...Evə az qala uça-uça qayıtdı, qapıdan girməmiş "Ana, ay ana, qəbul etdilər!" deyə sevinclə qışqırdı. Ayşə Dilara xanım oğlunu qucaqlayıb bağrına basdı, övladının həyəcanı anaya da sirayət

etdi. Ənvəri öpüb "Təbrik edirəm, oğlum, Allah səni həmişə arzularına çatdırsın, Rəbbim səni uca bəndələrindən eləsin, heç vaxt yarıda buraxmasın, inşallah" deyə pıçıldadı...

...Məktəbin ağıllı şagirdlərindən hesab olunurdu, sakit və çalışqan olduğu üçün həm müəllimlərin, həm də tələbələrin sevimlisinə çevrilmişdi. Həm yaşca, həm də boyca sinif yoldaşlarından ən kiçiyi olduğu üçün qabaqda oturar, müəllimlərini ciddiyyətlə, diqqətlə dinləyərdi. Təkbaşına məktəbin bağçasında dolanmağı, dərslərinə də tək çalışıb hələ uşaqlıqdan öz düşüncə və fikirləri ilə tək qalmağı xoşlayardı.

...İndi ölümün bircə qarış yaxınında olduğu o məqamda Ənvər Paşa uzun illərin arxasında qalmış o xatirəni necə bu şəkildə canlı xatırladığına şaşırdı. Hər şey sanki dünən baş vermişdi. Hətta mehriban, gözəl anasının doğma qoxusu da lap yaxınında idi. Həsrətdən burnunun ucu göynədi, gözləri yaşla doldu. "Gözəl anam..." pıçıldadı. Hələ dünənə qədər Bakıdan döndükdən sonra məşəqqətli yollarla İrana, oradan Ərzuruma, sədaqətli Kazım Qarabəkir Paşaya üz tutmuş və burada ilk iş yeri – emalatxanasını açmış qardaşı Nuriyə hər məktubunda analarını tapşırırdı. Nuri Paşa da bir kiçik qardaş sayğısıyla anasına göndərdiyi maaşın miqdarı barədə böyük qardaşına hesabat verirdi. Nuri çox-çox sonralar da, ta öz ölümünə qədər qardaşının uşaqlarını isti, hərarətli məktubları ilə ovundurduğu kimi maddi ehtiyaclarını da ödəyirdi. Nuri "sevgili ağabəyim" dediyi qardaşının balalarını öz balası bilir, son gününə qədər onlarla ovunub, aram olurdu. Paşanın ölümündən çox illər sonra Naciyə Sultan bunu böyük minnətdarlıqla etiraf edəcəkdi: "İllər keçir. Uşaqlar təhsillərinə davam edir və böyüyürlər. Həmd olsun, hamısı sağlam və qabiliyyətlidirlər... Günün birində onların məmləkətə dönə biləcəklərinə ümid edirdim. Uşaqlarımdan ayrılmaq mənə çox çətin gələcəkdi. İllər keçdikcə bu ehtimal yaxınlaşırdı. Vətəndaş olaraq məmləkətə dönmələri üçün qaynım Nuri Paşa çox çalış-

dı. Bir xeyli müraciətlər etdi. Nəhayət, övladlarım üçün 1939-cu ildə xüsusi bir qanun çıxdı. Atalarının soyadına və vətəndaşlığın bütün haqlarına sahib olaraq məmləkətə dönə biləcəkdilər. Bunu onlara əmiləri Nuri Paşa təmin etdi. Nuri Paşa dürüst, namuslu, çox hörmət etdiyim və sevdiyim bir insandı. Uşaqlarıma illərlə həm analıq, həm də atalıq edib. Ona çox şey borcluyam..."

Ənvər Paşanın ona rahatlıq verməyən fikirləri bir an içindəcə onu illər öncəsinə, uşaqlığına, gəncliyinə, doğma ailəsinin, sevgili Naciyəsinin yanına aparıb-gətirir, bütün xatirələri bircə-bircə dirilib qəlbini həm hüzn, həm də nə qədər qəribə olsa da sevinclə doldururdu. Ölümqabağı düşüncələr onu sanki sirli bir şəkildə bütün həyatının və yaşantılarının içərisində dolaşdırıb yenidən gətirib Bəlcivanın Çeğan təpələrinin üzərində tərk edib gedirdi...

Qupquru torpağın necə xoş qoxusu olduğunun fərqinə sanki indicə vardı. Gözü bir anlıq sevinclə, ümidlə parıldadı, dili söz tutmasa da zəif pıçıltıyla: "Ya Rəbbim, bu mənə hiss etdirdiyin cənnətin xoş qoxusu ola, amin! Günahlarımı bağışla, məni dərgahındakı müqəddəs şəhidlərin sırasında, mübarək peyğəmbərimizin süfrəsində olanlardan eylə, ey rəhimli Allah!"

Çoxlu qan itirmişdi, gözü qaralırdı, artıq kiminsə onu tapacağına inanmırdı, bircə arzusu qalmışdı qəlbində: "Uca Rəbbim, nəşim gavur rus bolşeviklərinin əlinə keçməsin, dərgahına buyurduğun qaydada kəfənlənib cənazə namazım qılınıb gəlməyi nəsib elə!"

Günəş qüruba enirdi, üfüqlər qızılı-narıncı rəngə boyanmışdı. Pulemyotların şaqqıltısı, döyüşənlərin bağırtıları, yaralıların iniltisi artıq çox uzaqlardan gəlirdi, zamanın və məkanın o biri üzündən...

# DÖRDÜNCÜ FƏSİL

*Ənvər Paşa – su kimi axan qanların,*
*bada gedən saysız canların, sonu olmayan*
*igidliklərin dastanıdır.*
***Hakan Boz***

Böyük Turanın paşası get-gedə sırası seyrəlməkdə olan əsgərlərinin önünə çıxdı. Bir daha bayramlaşdı. Onları təltif etdi. Əfqanıstandan gələn qızıl və gümüş pulları kağıza bükülmüş halda əsgərlərinə payladı. Həmişə bu işləri yerinə yetirən, təsərrüfat işlərini tapşırdığı yavəri Bartınlı Mühiddin indi yox idi. İlin əvvəlindən paşa onu Əfqanıstana özünün xüsusi təmsilçisi olaraq göndərmişdi. Daim paşanın yanında onunla bir olan Mühiddin bəy Ənvər Paşanın şəhadətini Əfqanıstanda eşitdi, onun şəxsi əşyalarını ailəsinə aparıb verən də o oldu. Sonralar Mühiddin bəy xatirələrini yazdı. "Bəkirağa bölüyündən Türküstana" adlı bu xatirələr çox dəyərlidir; bu anıların qiyməti Xəlil Paşanın hadisələrin canlı şahidi olmasında, hərb meydanlarında həmişə Ənvər Paşa ilə birlikdə olmasında idi. Ənvər və onun əqidə qardaşı olan Xəlil Paşa ilə Rusiyaya, Türküstan ölkələrinə, Azərbaycana, Dağıstana dönə-dönə səfər etmişdi və onun xatirələrində yer

alan yol qeydləri də çox təsirlidir. Bu qeydlərdə Azərbaycan-Ermənistan və Azərbaycan-Sovet münasibətləri haqqında, ayrıca Türkiyə, Azərbaycan, Türküstan (Türkmənistan, Özbəkistan, Tacikistan) ölkələrinin tarixi haqqında dəqiq olmaqla geniş bilgilər verilmişdir.

Hərbin hər üzünü, isti-soyuğunu görmüş əsgərlərin hamısı sözləşiblərmiş kimi, göz qırpmadan, nəfəs belə çəkmədən öz əfsanəvi komandanlarının doğma, əziz simasını gözlərinə, hafizələrinə köçürmək istəyirdilər. Sanki hər birinin ürəyinə dammışdı ki, açılan sabah ömürlərinin son səhəridir. Öləcəklərini hiss edirdilər. Bunu bilə-bilə son Osmanlı hərbiyyə nazirinin, indi isə Ulu Turan İhtimal Orduları Komandanının qarşısında farağat durmuşdular. Son təltiflərinin müqabilində udum-udum kədərlənirdilər...

Ənvər Paşanın Türküstanda milli azadlıq mübarizəsi ölüm-dirim savaşına dönmüşdü. "Sovet taunu" gerçəkləşir, vəziyyət günü-gündən xarablaşırdı. Belə bir vaxtda, bu ərəfədə qonşu Əfqanıstanın o zamankı hakimi sədaqətli Əmənulla xan yaxınlaşan təhlükəni sezib israrla onu öz ölkəsinə dəvət edir, bu qəhrəman turançını bununla fəlakətli sonluqdan xilas etmək istər: sənə millətimizin qucağı da, dövlətimizin qapısı da açıqdır, gəl – deyə ona mühafizə dəstəsi də göndərir. Ənvər Paşa mühafizə dəstəsini geri göndərir və onlarla Əmənulla xana göndərdiyi məktubda isə yazırdı:

"Mən burada qalmalıyam və inanıram ki, ölərsəm, irqdaşlarımın məmləkətində üstümü örtəcək torpaq tapılar".

...Yayın erkən sübh şəfəqi paşanın sağ əliylə qeyri-ixtiyari təmasda olduğu qılıncının qəbzəsində bərq vurmaqdaydı.

Ömrünün hələ iyirmi yeddinci baharında ikən Hürriyyət Qəhrəmanı ismiylə şərəfləndirilən Ənvər Paşa artıq Buxara İslam Ordusunun əmiri olaraq Türküstan torpağında əlinə siyirmə qılıncının bərq vuran qəbzəsi təmas edə-edə onun hər əmrinə hazır

olan əsgərlərilə üz-üzə dayanmışdı. İndi artıq yaşı qırxı adlamışdı. İllər keçmişdi aradan. Və bütün bu illər ərzində qəlbi bircə an da olsun Allah və Vətən sevgisini hiss etmədən döyünməmişdi. Bilirdi ki, lap az vaxt – dəqiqələr, ya saat keçəcək, bu qılınc qınından siyriləcək, onun bütün gələcək tarixlərə yayılan şəfəqi yeni bir Turan coğrafiyasının sərhədlərini aşıb keçəcək…

Bəlcivanda 1922-ci ilin 4 avqustuna açılan səhər mənzərəsi beləydi. Türküstan torpağı Qurban bayramının ikinci günündəydi...

Ənvər Paşa Pamir dağının ətəyində ona sadiq və hər əmrinə müntəzir olan əsgərlərilə nəfəs-nəfəsə dayanmışdı. Xəyalında, qəlbinin dərinliklərində isə ayrılıq həsrəti...

İllərdir ki, qəlbini titrədən sevimli ömür-gün yoldaşı Naciyə Sultanın sevgisi ilə Vətənin eşqi arasında ömür sürməkdə idi... Yaxın günlərdə Naciyə xanıma ünvanladığı, az qala hər sətrini baxışları ilə "öpə-öpə", qəlb çırpıntıları ilə yazdığı məktubdakı isti, duyğulu cümlələr yenidən gözləri önündə sıralanırdı. Elə bil sevimli Naciyəsinin gözlərilə öz yazdıqlarını təkrar-təkrar yenidən oxuyurdu. Əslində bu, məktubdan daha çox onun həyat məramnaməsi, ona verilmiş ömür, fəaliyyət missiyasının ən səmimi duyğularla bəyanı, etirafı idi: "Nə yalan söyləyim… Məmləkətimi hər şeydən çox, hətta sizdən belə çox sevirəm. Təbii, mənə acığınız tutmaz… Əlbəttə, siz də mənim düşündüyümü düşünürsünüz. Haradasa Vətənimin bir tükünə toxunulmaq istənilərsə, biz, hamımız orada ölmək üçün hazır olmalıyıq; sözlə deyil, canla-başla. Hamımız belə düşünsək, bu Vətən, bu millət yaşayar, yüksələr, biz də bu sayədə rahat olarıq, deyilmi, Ruhum?! Övladlarımızı belə yetişdirəcəyik. Hər biri Vətən üçün, millət üçün elə böyük işlər görəcəklər ki, bütün osmanlılar, bütün dünya, tarix onlara heyrətlə "əhsən" deyəcək. Bunu, saqın, mənim şan və şöhrət düşkünlüyümə bağlama. Vətənin mənfəəti, səadəti yolunda hər şey fəda olsun…

İki gözüm! Nə olacağı bəlli deyil; fəqət, təlaş etmə! Mətin ol… Qədərə boyun əymək gərək. Təvəkkül, bütün qüvvələrimizi xərclədikdən sonra da bir silahdır…"

Ənvər Paşa belə düşünürdü. Bu düşüncələrin soy-kökdən, qandan keçmə bir ənənəsi vardı. Bəlkə də 1922-ci ilin o nisgilli bayram gününün sübh şəfəqləri altında sadiq əsgərlərilə üzbəüz dayandığı bu torpaqlara onu həmin o kökdən gələn bağlantıların əsintiləri çəkib gətirmişdi?.. Azərbaycan torpaqlarından tutmuş bütün Türküstan elləri boyunca Ənvər Paşa isminə, Ənvər Paşa hünərpərvərliyinə olan sayğı duyğuları həm də bu bağlantı səbəblərindən deyildimi? Onu doğma Naciyəsindən, körpə balalarından, qardaşlarından, bacılarından ayırıb bu uzaq ellərə səfər etdirən duyğunun başqa adı nə ola bilərdi?..

...Qafqaz İslam Ordusu döyüşçü əsgərlərinin Qafqaz ölkələrində qalmaması və dərhal çıxarılması barədə Osmanlı hökuməti və müttəfiqlərinin arasındakı müqaviləsi ərəfəsində Ənvər Paşa yenə Azərbaycanı, onun müqəddəratını, onun gələcəyini düşündüyündəndir ki, orada olan əmisi Şərq Orduları Qrupu komandanı Xəlil Paşaya məxfi olmaqla "yalnız sənə məxsusdur" kimi xəbərdarlıqla aşağıdakı əmri göndərmişdi: "Baş Qərargah 02.10.1918-ci il. Yaxınlarda Almaniyanın da daxil olduğu sülh danışıqlarının başlaması və bu danışıqların sürətlə sona çatması ehtimalı böyükdür. Sülh danışıqlarında milli əsaslarla haqq iddiaları ortaya atılacağına görə bizim Qafqazdakı vəziyyətimiz və xüsusilə Azərbaycan və Şimali Qafqaz hökumətləri gücləndirilməlidir. Bunun üçün 5-ci firqənin (diviziyanın – red.) oradan çıxarılmasını ən axıra saxlayın. 15-ci firqədən sonra 12-ci firqə çıxarılar. Onsuz da ona növbə gələnə qədər vəziyyətin aydınlaşacağını zənn edirəm. Nuri Paşa ilə əlaqəli şəkildə Azərbaycandakı yerli birləşmələr sürətlə tənzim edilməklə yanaşı, hələ Azərbaycanda olan silahlı qüvvələrimiz, o cümlədən 5-ci firqə son nəticədə Azərbaycan tabeliyinə keçirilər və Azərbaycanda hərbi quruculuq işləri ni-

zam-intizama salınar. Azərbaycana çoxlu silah-sursat göndərin. Baş Komandanlıq Hərbi Qərargah rəisi Ənvər".

Heç bir Azərbaycan vətəndaşı bu tarixi xidmətləri unutmaz, unuda bilməz...

…Dövr çox qarışıq idi, Azərbaycan dörd bir tərəfdən dünyanın böyük güclərinin müdaxiləsi ilə əhatə olunmuşdu. Mudros sülhünün ağır şərtləri altında Qafqaz İslam Ordusu bir müddətdən sonra Qafqaz ölkələrindən geri çəkilməyə məcbur ediləcəkdi, amma qəhrəman türk zabitlərinin və əsgərlərinin ürəyi o doğma qardaşlarının yanında qalacaqdı, bu torpağın azadlığı uğrunda qanını axıtmış igid türk şəhidlərinin nəşi isə Azərbaycan torpaqlarında uyuyacaqdı… Ordu qardaş yurddan çıxarılsa da, Ənvərin təlimatına görə gənc cümhuriyyəti tək qoymaq, dumanlı gələcəyin iradəsinə təslim etmək olmazdı; öz arzusu ilə ölkə vətəndaşlığını qəbul edən türk əsgər və zabitləri Azərbaycan ordusu sıralarında xidmət edəcəkdi. Bu vəfa örnəyi heç yaddan çıxarmı?

*Yaşa, sən yaşa, qəhrəman Ənvər Paşa,*
*Məhv olsun düşmənin cümləsi başdan-başa!*

Amma Azərbaycan Xalq Cümhuriyyəti üçün taleyin möhləti qısa biçilmişdi; tezliklə Azərbaycanı işğal edən qırmızılardan bu torpaqda yatan fədakar əsgərlərin qəbrini də gizlətmək lazım gələcəkdi...

## BEŞİNCİ FƏSİL

*Ənvər bir günəş kimi doğmuş,*
*bir qürub ehtişamıyla batmışdır....*

***Mustafa Kamal Atatürk***

Erməni şovinistlərinin xəstə təxəyyülünün məhsulu olan "erməni genosidi" mifi ilə zəhərlənmiş Akop Melkumyanın atdığı gülləylə Ənvər Paşanın öldürülməsi xəbəri bütün Türküstanı lərzəyə salmışdı...

...Bəlcivanda Qurban bayramı büsatı əziz paşanın, ya da özlərinə məxsus tərzdə "padişah" dedikləri Ənvər Paşanın hüzn mərasiminə çevrildi. Bəlcivan camaatı axışıb müqəddəs Qurban bayramı günlərində ömrünü, gəncliyini, dincliyini Allahın və böyük Turanın eşqinə qurban verən "son qurbanı", idealı, qayəsi uğrunda şəhadətə ucalan igidi – şəhid Ənvər Paşanı əbədi yolçuluğuna uğurlamağa gəlmişdi. Minlərlə insan Türküstanın ümid yeri, tarixi, şərəfi saydıqları şəhid paşanın nəşini göz yaşlarıyla yuyaraq Allahın hüzuruna böyük hörmət – izzətlə yola salırdılar. Bununla da qalmadılar, paşanın nəvəsi Osman Mayatəpəkin dediyi kimi, "74 il vəfa göstərib Pamir dağlarının ətəklərində dədəmin cənazəsini böyük bir fədakarlıqla mühafizə etdilər".

Şəhid Ənvərin son arzusu da gözündə qalmamışdı. Bolşevik əsgərləri onun öldüyünü gec anlamış, anlayanda isə onu tanımadıqları üçün nəşini də ələ keçirə bilməmişdilər. Gödən didən kaftar sürüsü kimi döyüşdən sonra yaralı və meyidlərin olduğu meydanı dolaşıb soyğunçuluqla məşğul olan bolşeviklər paşanın nəşini tanımamışlarsa da, bu yerlərdən fərqli, qiymətli bildikləri paltarlarını, çəkmələrini soyub özləri ilə aparmışdılar. Dostları, əsgərlər və mücahidlər gecə keçənə qədər Ənvər Paşanın və onunla birgə döyüşən silahdaşlarının cəsədlərini axtarmışdılar. Gecə yarısı əvvəllər eyni səfdə dayanıb namaz qıldıqları kimi Ənvər Paşa ilə Dövlətmənd bəyin nəşlərini də Çeğan kəndində tapdılar. Cəsədləri görən kimi yavəri Faruq bəyin dizləri yerə gəldi, səcdəyə qapanıb "Şükür sənə, böyük Allahım, şəhidlərimizin nəşlərini aparmayıblar," – deyə həyəcanla qışqırıb huşunu itirdi. Tale elə gətirəcəkdi ki, az vaxtdan sonra o da şəhidlik zirvəsində əziz paşasına əbədi qovuşacaq, bir il sonra gətirilib onun yanında dəfn olunacaqdı. İndilikdə isə hələlik bundan bixəbər idi... Osman Əfəndi, Danyal, Dastanqulu hönkürüb ağlayaraq Ənvər Paşanın və Dövlətmənd bəyin cəsədlərini qucaqladılar.

...Dəfn mərasimində axundların "Allahu Əkbər" sədaları şəhidlərin üzərində göz yaşı tökən minlərlə insanın fəryadına qarışıb yeri-göyü inlədirdi. Bəlcivan əhli ölüm anında belə üzlərində təbəssümlə fani dünyanı tərk edən şəhidləri – Ənvər Paşanı və ona sədaqətli dost olan Dövlətmənd bəyi baş-başa məzarlarda böyük ehtiramla torpağa tapşırdı.

Şəhid Ənvər Paşanın indilikdə son mənzili Çeğanda, Abıdərya kəndi yaxınlığında uca bir ceviz ağacının altı oldu. Ta ki İstanbulda öz doğma torpağına qovuşana qədər...

Ənvər Paşanın Çeğanda yerlilərin "Məzari həzrəti-şah" adlandırdıqları qəbri illər uzunu müqəddəs ziyarətgah oldu. Övladı olmayanlar, taleyi müşkülə düşənlər illərlə Ənvər Paşa pirinə zəvvar oldular...

Şəhid Ənvər Paşa haqqında hamı “Buxara övliyalarının ən böyüyü Ənvər padişahımız” deyərək söz açardı. Uyuduğu torpağı tütyə kimi götürüb gözlərinə çəkən türküstanlılar məzarı başında hər il bir qayda olaraq qurbanlar kəsərdilər. Hətta söylənilənlərə görə, dəfn mərasimində paşanın nəşinin qoyulduğu tabut sonradan parçalanaraq xırda qırıqları uğur rəmzi kimi onu həddindən artıq sevən yerli əhaliyə paylanmışdı. Deyilənlərə inansaq, hər buxaralının sandığının küncündə həmin tabutdan kiçicik bir hissə mübarək bir hədiyyə kimi əzizlənilib saxlanılırmış. İnandırıcıdır. Çünki Ənvər Paşa hər bir türküstanlının sağ ikən ümidinə, şəhid olduqdan sonra da and yerinə çevrilmişdi...

...Ənvər Paşa həlledici döyüşdən az əvvəl sevimli həyat yoldaşı Naciyə Sultana da son məktubunu yazmışdı. Məktubda son istəkləri öz əksini tapmışdı... “Əmiri-Ləşkəri-İslami-Buxara” həmin son məktubu bitirib qəhrəman əsgərlərinin qarşısına çıxmazdan əvvəl büküb cibinə qoymuşdu. Allahın müqəddəs əmanəti kimi. Və həmin məktub tam da şəhid olduğu gün Allahın lütfü kimi Naciyə Sultana yetişəcəkdi...

Bir-birindən gözəl övladları gözünün qarşısına gəldi. Son nəfəsində onları qucaqlayıb bağrına basmağı necə də istərdi! Gülüzlü Mahpeykərini, şən Türkanını, sevimli Əlisini simalarının ən incə cizgilərinə qədər xatırladı. Körpə Əlini isə ancaq fotosundan xəyalında canlandıra bilirdi, həyatda görmək qismət olmamışdı. Ömrünü onlardan aralı keçirmişdi, bəzən aylarla üzlərini belə görmürdü. Daim onların həsrətini çəkir, onlar üçün darıxırdı. Birlikdə olduğu qısa, o “qənimət” zamanlarda Naciyəsi ilə üz-üzə, göz-gözə, əl-ələ duruşlarını və beləcə çəkdirdikləri şəkilləri, qarlı havaları belə fürsət bilib heç doymadığı sevgili yoldaşını gəzintiyə çıxarmasını xatırladı. Sonrasında isə yenə ayrılıq ...ayrılıq gəlirdi; uşaqlarının necə böyüməyindən Naciyənin və ailəsini əmanət etdiyi kiçik qardaşı Mehmed Kamilin məktublarından xəbər tuturdu.

Yaxınlarda qardaşı Kamildən gələn bir məktub gözlərini yaşartmışdı, balaları gözündən uzaqda böyüyürdü: "Mahpeykər artıq böyük qız olub. Hər kəs onun gözəlliyinə, ağlına heyran qalır. Hər gün mütəmadi olaraq bir saat dərslə məşğul olur. Sizə də məktub yazır. Mürəbbiyəsinin oxuduğu nağılları dinləyir və başa düşür. Lazım gələndə təmiz alman dilində onları izah da edir.

Türkan da sanki bir mələkdir. Sakit, həlim xasiyyətli uşaqdır, kimsəni incitməz, xətrinə dəyməz. Gəzdiyini, getdiyini belə heç kim hiss etməz. Bacısından da gözəl qız olub. Ən çox sevdiyi məşğuliyyət isə qardaşı ilə oynamaqdır. O da bacısına bağlıdır, onu çox sevir. Saatlarla birlikdə oynayırlar. Üç gündən sonra Türkanın üç yaşı tamam olur.

Kiçik Əli bəyimiz isə hər şeydən öncə sizdən gözəl bir ad gözləyir. Sanıram, bu qədər gözəl, sevimli və şirin bir uşaq sanıram bütün dünyada tapılmaz. Öndən balaca ikinci dişi çıxır, dişləmədiyi, qoparmadığı şey qalmır..."

Əli oğlunun göbək adı idi, oğlu atasının ləqəbi olan, daha doğrusu, gizli fəaliyyətində rəsmən işlətdiyi bu adla böyüyürdü. Türkiyə Hərbi Məhkəməsi onu "hərbi cinayət"lərinə görə qiyabi ölüm cəzasına məhkum etdikdən sonra o da Tələt Paşa, Camal Paşa ilə birlikdə sualtı gəmi ilə Almaniyaya keçib bu ad altında orada yaşayırdı. Demək, oğlu onun həyatının bir parçasını – həm də qorxulu, ölüm-qalım anlarını əks edirdi. Bu məktubu aldığı günün gecəsi Ənvər Paşanın gözünə yuxu getməmişdi. Saatlarla xatirələrlə baş-başa gah oturmuş, gah qalxıb gəzinmiş, bəzən gözləri dolmuş halda körpə balalarını düşünmüşdü...

Ölümün pəncəsində fikirləşdi ki, indi Naciyəsinin cəmi iyirmi altı yaşı var, hələ gəncliyinin və gözəlliyinin ən çiçəklənən çağındadır. Qəlbi sıxıldı, həsrətdən az qaldı ürəyi dayansın, Naciyənin üzünü yada salmaq üçün son fotosunu xatırlamağa çalışdı. Qanaxmadan gözləri torlanmışdı, şiddətli ağrılar nəfəsini kəsirdi. Məktublarının birində Naciyə "İki gözüm Ənvərciyim,

səni dörd gözlə gözləyirəm..." yazmışdı. Bəzən görüşəndə də "İki gözüm Ənvərciyim" deməsini xatırladı, bu vaxt onun göz bəbəklərinin necə sevinclə parıldaması, gözündən gülməsi yadına düşdü. Unudulmaz günlər idi... Gedə bilmədi. Daha heç gedə bilməyəcəkdi. İndi kəsilib qırılmaqda olan öz gənc ömründən çox, bu saat Naciyənin həsrətinə, onun yola dikilən ala gözlərinə yanıb-yaxıldı. Ağrılar içində pıçıldadı: "Ənvərin sənə qurban olsun, Naciyəm... Unutma Ənvərini, heç unutma."

Naciyə Ənvərini heç unutmayacaqdı... Ancaq təkcə Naciyə Sultan yox, qədirbilən, əhdə vəfalı türküstanlılar da Ənvər Paşanın xatirəsini, məzarını böyük ehtiramla hifz edib qoruyacaq, onu heç unutmayacaqdılar: Çeğan təpəsindəki ceviz ağacının altında Ənvər Paşa, Dövlətmənd bəy və Faruq bəy yanaşı məzarlarda torpağa tapşırılmışdı. 1969-cu ilə qədər Ənvər Paşanın məzarının baxımı Züveyir kəndinin sakini Talib Şah tərəfindən həyata keçirilib. Talib Şah Ənvər Paşanın sağlığında onun qərargahında təsərrüfat işlərinə baxırmış. Sədaqətli Talib Şah dünyasını dəyişəndə paşanın məzarına göz-qulaq olmağı oğlu Müzəffər Şaha vəsiyyət edib. Onun ölümündən sonra isə bu vəzifəni övladı Zeydullah bəy öz üzərinə götürüb. Türküstanlı ailənin məzarı qoruması və baxımını həyata keçirməsi Türkiyə Prezidenti Süleyman Dəmirəlin göstərişinə əsasən Ənvər Paşanın nəşinin doğma vətəninə aparıldığı tarixə – 1996-cı ilə qədər davam edib... Bu məqamda hissləri ifadə edən kəlmələr tapmaq çətindir: Vəfa borcunun ən təsirli örnəklərindən biri...

## ALTINCI FƏSİL

*Qayəmiz Turandır,*
*Turan olmazsa, şəhadət olur...*
*Ənvər Paşa*

...Özü ilə həmyaşıd əmisi Xəlil bəylə eyni hərbi məktəbdə oxuyurdu. Yaşca ən kiçik olduğundan hər kəs onu əzizləyərdi. "Çalışqan, ciddi və sözünün üstündə sonacan dura bilən" biri olduğuna görə xətrini daha çox istəyirdilər. Təkliyi sevirdi, çox vaxt tənhalığa çəkilib kimsənin olmadığı bir səmtdə özünə qapanıb dərslərini hazırlayardı. Səlanikdə fəaliyyət göstərən hərbi məktəbə özəl bir qatarla göndərildiyi anların sevincini doyunca yaşamışdı. Heç unutmurdu, tez-tez xatırlayırdı: "Artıq bizdəki sevinc fövqəladə idi. Zabit kimi yetişəcəkdik. Üç il sonra da bu gün hərbi xidmətə çağırılan qəhrəman əsgərlərimiz üzərində komandir olacaqdıq…"

Sevincinin həddi-hüdudu yox idi. Yol boyu keçib gedən qatarlardan onlara əl edib gülümsəyən, salam göndərən Anadolu könüllü zabitlərinə layiq şəkildə yetişmək arzusundaydı. Bunun üçün son dərəcə əzmkarlıqla çalışmalıydı. Bilirdi ki, indicə şərqi oxuya-oxuya, xoş bir ovqatla onu və məktəb yoldaşlarını salamlayan bu insanlar, əslində, doğma od-ocaqlarını, əzizlərini qoyub,

doğma vətənləri yolunda çarpışmağa, şəhid olmağa gedirlər. Şəhidliyin müqəddəs bir mərtəbə olduğunu bildiklərinə görə bəlkə də belə fərəhli görünürdülər… Vətənin yaşaması naminə hər şeyə hazır idilər. Bu qorxusuz salamlaşmaları, şərqi oxumaları, xoş ədaları ilə gələcəyin komandanlarına sanki Vətəni sevmək dərsi keçirdilər. Baxırdı və əbədi olaraq zehninə həkk edirdi: "Biz də gələcəkdə bizə əmanət ediləcək bu yüzlərlə, bəlkə də minlərlə qəhrəmanı yaxşıca yetişdirərək, onları zəfərlərə sövq etmək üçün daha çox bilgi, daha çox bacarıq qazanmağa gedirdik…" Hər iki tərəf də vətənin qurtuluşu naminə xidmət göstərməyə gedirdi. Həmin dönəmlər "yeganə istəyim, yeganə işim zabit olmaq, məmləkətimə bu yöndən xidmət etməkdir" düşüncəsilə başbaşaydı. Xəyallar qururdu. Daha irəli getməyi, hərbi məktəbi bitirdikdən sonra kurmaylık (qərargah – red.) məktəbinə getməyi niyyət etmişdi.

Məktəb həyatının xırda problemlərindən də yan keçə bilmirdi. Ən xırda, kiçicik xəta üzündən ciddi cəzalar verilirdi. Heç unutmurdu… Bir dəfə məktəb yoldaşlarından biri ortalıqda dolanan bir pişiyin dilindən sinif lövhəsinə açıq məktub yazmışdı. Növbətçi müəllim Ənvərin ağıllı, dürüst və yaşından daha təmkinli olduğunu bildiyi üçün ilk olaraq onu sorğu-suala çəkdi:

– Bunu kimin etdiyini bilməmiş olmazsan…

Qəti şəkildə:

– Bilmirəm! – deyib durdu.

Amma sorğu-sual bununla yekunlaşmadı. Həqiqət üzə çıxdı. Pişiyin dilindən açıq məktub yazan sinif yoldaşı özü etiraf etdi:

– Mən etmişəm… Üzr istəyirəm.

Təbii ki, üzr qəbul edilmədi. Səbəbkar layiq olduğu cəzanı aldı. Ancaq iş bununla bitmədi. İntizamsızlıq edənin kim olduğunu bilib, demədiyinə görə Ənvəri də cəzalandırdılar. Və bu, son olmadı. Bilib, ancaq dilinə gətirmədiyi daha bir olay oldu. Birlikdə təhsil aldığı əmisi Xəlil bəylə bərabər…

Anlamadığı bir siyasi xətanı bilərək gizlətdikləri üçün hər ikisini sorğu-suala çəkəcəkdilər. Yaxşı ki, Xəlil əmisi imkan tapıb nə deyəcəyini vaxtında bildirmişdi: "Nə soruşsalar "bilmirəm, xəbərim yoxdu" deyib israr et. Sadəcə, "Bu barədə heç nə eşitməmişəm, heç nə görməmişəm" söylə!"

O da əmisinin dediyi kimi etmişdi. Bütün sorğulanma qarşısında:

– Bilmirəm, xəbərim yoxdu! Heç nə eşitməmişəm! – deyib durmuşdu.

Söhbət Sultan Əbdülhəmidə qarşı yönələn bir siyasi andlaşmadan gedirdi. Söz gəzirdi ki, Sultanın zalımlığına qarşı ixtilaf çıxaranlar, bu işdə əli olanlar var. Hərbi məktəbdə təhsil alan Xəlil və Ənvər də bu barədə məlumatlı hesab edilirdi.

Buna görə günlərlə sorğu-suala çəkildilər, bayram günlərində evlərinə kimlərin gəlib-getdiyini dönə-dönə soruşdular. Ancaq hər ikisi inadkarcasına heç kəsi görmədiklərini deyib durdular. Nəticədə, iki-üç günlüyə nəzarətxananın təkadamlıq kameralarında yatmalı oldular.

Nəzarətxanada təkbaşına keçirdiyi həmin o iki-üç günlük müddət gənc Ənvərin romantik düşüncələrində Sultan Əbdülhəmid səltənətinə qarşı gələcəkdə açacağı savaşın özülünü qoydu. Gələcək yolunun istiqamətini müəyyənləşdirdi. Həmin gündən imkan düşən kimi özünə yaxın bildiyi məktəb yoldaşlarına məmləkətlərini saran Sultan Əbdülhəmid zorakılığına, zalımlığına qarşı müqavimət göstərməyin vacibliyindən bəhs etməyə başladı. Heç bir günahı olmadan sorğu-suala çəkilməsi, təkadamlıq guşəyə yerləşdirilməsi bir çınqıya dönüb, onun gələcək siyasi fəaliyyətinin üfüqlərini alovlandırmağa başlamışdı…

Hərbi məktəbdə oxuduğu müddəti bu xəyallarla baş-başa keçirdi. İkiqat, üçqat çalışır, dərslərinə yaxşı hazırlaşırdı. Qarşısına qoyduğu məqsədə yetmək üçün hər şeyi gözə almışdı.

Zəhmətinin nəticəsində kurmay olmaq üçün "Ərkani-Hərbiyyə" məktəbinə daxil olduğuna görə özünü şanslı hesab edir, sevinir, gələcək istəklərinə yetmək üçün dualar edirdi. Kurmay təhsilini sinif birincisi, məktəb ikincisi olaraq başa vurdu…

1902-ci ilin yanvarında, iyirmi bir yaşında kurmay yüzbaşı olaraq 3-cü Orduya qatıldı. Sonra Səlanikə dönməsi əmr edildi. Burada 13-cü topçu alayına verildi. Aradan səkkiz ay keçəndən sonra artıq Manastrda 6-cı topçu briqadasının komandiri idi… Sevinc içində idi; onu arzularına doğru aparan yol uğurlu başlanmışdı.

İllər boyu xəyalında qoruyub yaşatdıqlarını reallaşdırmağın zamanı gəlmişdi. Məsul olduğu sahənin hər guşəsində yenilənmə hərəkatı başlamışdı. Nə qədər çətin şərtlər altında olsa da belə: "Kimsə böyük bir işə girmək istəmirdi. Beləcə, hər kəsin könüllü olaraq, əlindən gələnin ən yaxşısını edəcəyi durumunda, hər şeyin düzələcəyinə inanırdım. Öz vəzifəsini tələb olunan şəkildə yerinə yetirməyən bir yavərin ən üst ordu idarəsini, paşaları və başqalarını tənqid etməkdə haqlı olmadığını dərk etmişdim. Buna görə belə etirazçıları, irad bildirənləri təqib edib cəzalandırırdım".

Asan deyildi. Oturuşmuş qayda-qanunları qısa vaxtda aradan qaldırmaq istəyini xoş qarşılamayanlar var idi. Amma yaxın çevrəsi, daha çox da sıravi əsgərlər onun yanındadı. Təqdir edir, sözünü tuturdular.

Ənvər Paşa getdiyi hər yerdə xalq kütləsi tərəfindən sevilir, dəstəklənirdi. Xalq onun arxasınca getməyə hazır idi.

Yadındadır, "Əfqanıstandan tüfəng gəlib" xəbəri qısa vaxtda az qala bütün Türküstana yayılmışdı, xalq silah almaq üçün axışıb gəlmişdi. Hamısı da Ənvər Paşanın yanında olmaq, yumruq kimi birləşib işğalçılara qarşı vuruşmaq niyyətini gizlətmirdi. Türküstan əhli Ənvər Paşanı Allahın onlara göndərdiyi hədiyyə adlandırırdılar. O günədək heç kim xalqı bolşevik işğalına qarşı

Ənvər Paşa kimi o cür birləşdirə bilməmişdi. Dağdakı çobandan zəngin bir əmirə qədər xalqı bir cəbhədə birləşdirməyi yalnız Ənvər Paşanın bacardığını hamı bir ağızdan söyləyirdi. O əsl Turan sevdalısı kimi, türk aləminin vahid bir cəbhədə birləşərək işğala qarşı döyüşüb şəhid olmağın mümkünlüyünü öz şəxsi nümunəsində sübut etmişdi…

## YEDDİNCİ FƏSİL

*Tarix şahiddir ki, türk əsgərindən şanlı,*
*türk əsgərindən fədakar əsgər yoxdur.*
*Ənvər Paşa*

Şirin yuxu içindəymiş kimi xəyal dünyasında indi də Azərbaycan canlandı:

Budur, Nuri Paşa Azərbaycandadır və oraya yetişən andan günbəgün, saatbasaat ölkədəki vəziyyətlə bağlı Ənvər Paşanı məlumatlandırır. Ənvər Paşa da qardaşına Azərbaycanda mükəmməl bir ordu yaratmağı tapşırmışdı. Amma ölkənin paytaxtından başlamış bölgələrinə qədər yerli əhalini qırıb qətliamlar törədən daşnakların bu anda caynaqlarını itiləyib gəldiyi saatda ordu quruculuğuna vaxt qalmırdı.

Nuri Paşa təşvişlə Ənvər Paşaya xəbər verirdi: "Burada əsgərliyə gəlmək istəyən gənclər çoxdursa da paltar, silah-sursat yoxdur. Yanımda çox az pul var, paltarsız da əsgər hazırlamaq mümkün olmayacaq. Burada parça tədarükü hal-hazırda qeyri-qabildir. Silah-sursat ilə birlikdə beş-on min dəst paltar da göndərə bilsəniz, tezliklə əsgər qeydiyyatı mümkündür". Azərbaycanı hərbi yardımla təmin etmək vəzifəsi tapşırılan Qaf-

qaz Cəbhəsi Osmanlı ordularının Baş komandanı Mehmet Vehib Paşa da vəziyyətdən hali idi.

Ənvər Paşanın Vehib Paşaya göstəriş verməsi ilə təcili olaraq Azərbaycana kömək üçün hazırlanmaqda olan 5-ci Qafqaz diviziyasından bir alayın 2 iyunda yola çıxmasına əmr verildi. Əsasən zabit heyətindən təşkil olunan, Nuri Paşanın qüvvələrini möhkəmlətmək məqsədi ilə iyunun 2-də 5-ci piyada diviziyasından cəbhədə öz şücaəti, qətiliyi və dönməzliyi ilə ad çıxarmış Cəmil Cahid bəyin komandanlığı altında 9-cu Qafqaz alayı Azərbaycana yola düşür. Bu ilk qüvvənin Gürcüstandan keçməsi məsuliyyətinin məhz ona tapşırılmasının səbəbi onda idi ki, gürcülər və Gürcüstanda möhkəmlənməyə çalışan almanlar yolu bağlasalar onlar tərkisilah olmalı, lazım gələrsə əsir alınmalı idilər. Komandanlıq Cəmil Cahid bəyin qətiyyətinə bələd idi.

Sonralar Nuri Paşa məhz onun bu xarakterindəki qətiyyəti qiymətləndirdiyindəndir ki, Qarabağın azad edilməsini ona tapşıracaqdı...

Ənvər Paşa həmin il mayın 31-də Nuri Paşadan aldığı məktubu az qala sözbəsöz xatırlayırdı: "Bolşeviklər Dağıstan və Şimali Qafqazı tamamən ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı sürətlə zəbt edilməzsə, buralarda durum daha təhlükəli bir hal alacaqdır. Müsəlmanların təşkil etdiyi korpusda əsgərdən çox zabit vardır. Korpusun tərkibi minə qədər olub, bunun yarısı türk sıraviləridir. Bakı məsələsinin yardımsız həlli mümkün deyildir. İngilislərin Bakını gücləndirdiyi zənn edilir. Burada taxıl məhsulları, ixrac ediləcək qədər çoxdur. Əhali türk ordusunun gəlməsini səbirsizliklə gözləməkdədir…" Ənvər Paşa özü də Bakının qurtuluşunu düşmən əlində əsir-yesir qalan azərbaycanlılardan az gözləmirdi. Amma təəssüf ki, birinci Bakı hücumu nə qədər uğurla başlasa da, elə həmin gün intizar və nigarançılıqla qələbə xəbəri gələcəyi gözlənilsə də, məhz topun və top mərmilərinin qıtlığı üzündən yaxın sandıqları qələbə

ağır itkili məğlubiyyətlə əvəz olundu. Amma o zəfər nə qədər yaxında idi... Sübh tezdən – hələ günəş çıxmamış Türk-Azərbaycan birləşmiş qüvvələrinin başlayan hücumu qarşısında erməni, rus və ingilislərdən meydana gələn Bakının "müdafiəçiləri" geri çəkilmək məcburiyyətində qalmışdılar. Şəhərə hakim olan Bayıl təpələri də ələ keçirilmişdi. Qələbə nəfəs qədər yaxında idi. Şəhərin xristian əhalisi də xof və dəhşət içində qaçmağa başlamışdı. Artıq düşmənin 1-ci müdafiə xətti qırılmış, 2-ci xəttə girişilirdi. Bakının qurtuluşu yaxınlaşmaqda idi; bunu hamı görürdü. Lakin topçuların irəliləyən qoşun hissələrinə verdiyi atəş dəstəyi getdikcə azalmağa başlamış və günortadan sonra tamam kəsilmişdi. Beləliklə, top mərmisi ehtiyatının olmaması üzündən hücum başa çatdırıla bilmədi. Silah-sursatla tam təchiz olunmuş düşmənin top və tüfəng atəşləri qarşısında türk birlikləri Heybət-Biləcəri dəmiryolunun qərbindəki xəttə çəkilməyə məcbur oldular. Aylardan bəri gözü yollara dikilmiş gözlərdəki ümid öləziyib sönürdü... Qafqaz İslam Ordusunun yolunu intizarla gözləyən bakılılar narahat və əndişəli idilər:

*Bu vətənin öksüzləri, gəlinləri, dulları,*
*Göz yaşıyla sulanmış həp keçdiyiniz yolları.*
*Yolunuzu gözləməkdən bənizləri saralmış,*
*Heç gəlmədin, o şən, gülər ürəkləri qəm almış...*

Şeirin müəllifi Abdulla Şaiq Talıbzadə idi. Yolunu həsrətlə gözlədiyi o xilaskar orduda qardaşı Yusif Ziya Talıbzadə də vardı...

...Həmin vaxt Qafqaz İslam Ordusu komandanlığına avqustun 21-də göndərilən məlumatdan aydın olur ki, Batum-Tiflis yolu ilə təqviyyə qüvvələri və ağır toplar da yola salınmışdır. Bu xəbərlə bərabər qardaş vəfasına bir örnək xəbər də ortaya çıxır. Sənədlərdən aydın olur ki, təqviyyə gücü olan 15-ci diviziya və silah-sursatın cəbhəyə çox tez çatdırılması üçün dəmir yolu

ilə göndərilməlidir. Amma köməyə tələsən diviziyanın qatarla Gürcüstan ərazisindən keçməsi üçün gürcülər türklərdən Abaztuman yaylağını istəmişdir. Bu səfalı, cənnətməkan ərazi onlara verildikdən sonra gürcülər diviziya üçün yolu açmışdılar... Bu ibrətamiz nümunə Bakının azad olunması yolunda Osmanlı hökumətinin, başlıcası Ənvər Paşanın fədakarlığının parlaq örnəklərindən biridir. Unudulmaması vacib olan tarixi jest! Bakısız Azərbaycanın başsız bədən olduğunu yaxşı bildiyindən Ənvər Paşa ilk uğursuz əməliyyatın təkrar olunmaması üçün əlindən gələni edirdi. Nuri Paşanın Bakını qurtarması xoş xəbəri isə türk dünyasına bağlı olan hər kəsin, xüsusilə də Ənvər Paşanın böyük sevincinə səbəb olmuşdu. Bütün Azərbaycan ayağa qalxaraq o gün uca türkün bayrağına salam vermişdi!

Bütün bunlardan əvvəl isə Mərkəzi Xəzər Diktaturasının dəvətinə əsasən general Lionel Denstervillin komandası altında Britaniya qoşunu Bakıya girdikdə gəmidən düşüb birbaşa şəhərin müdafiə xətlərini təftiş etməyə girişən və bütün gecəsini buna həsr edən general hər bir işdə türkün yenilməzliyinin tanış izlərini görüb məyusluğunu gizlədə bilməmişdi... 1918-ci ilin avqustunda general Denstervillin rəhbərliyi altında Britaniya qoşunu Bakıya soxulanda buradakı Qafqaz İslam Ordusunun gücündən də, mətanətindən də, xalqın onlara olan sevgisindən və dəstəyindən də xəbərdar olanda məyusluğa qapılmışdı. Çünki azərbaycanlılar da eynilə Osmanlı türkləri kimi Vətənin azadlığı üçün son damla qanlarına qədər vuruşmağa hazır idilər. Üstəlik Ənvər Paşanın dəstəyi, Nuri Paşanın komandanlığı ilə indi azərbaycanlılar daha da güclü və sarsılmaz idilər. Cəsarətlə ölümün üstünə şığıyırdılar...

## SƏKKİZİNCİ FƏSİL

*Ənvər – qanlı vuruşmaların,*
*ürək dələn oxların, köks parçalayan qarğıların,*
*baş uçuran qılıncların hekayəsidir.*
***Hakan Boz***

…Qapı astaca döyüləndə Ənvər Paşa qarşısındakı xəritələrə diqqətlə baxır, ağlındakı hansısa planı xəritə üzərində yoxlayaraq saf-çürük edirdi. "Gəl" deyə ötkəm şəkildə səsləndi. Hündürboylu, saçları çallaşmış olsa da gümrah görünüşlü, şax qamətli köməkçisi Nazim bəy otağa daxil oldu:

– Hörmətlər Paşam, əhvali şərifiniz yaxşıdır ümid edirəm?

– Buyur, Nazim bəy, yaxşıyam, əlhəmdülillah. Bakıdan nə xəbər? Nuri Paşa ilə tez-tez xəbərləşirəm, vəziyyət get-gedə qarışır. Həyəcanlı xəbərlər gəlir. Görürsən, hər gün Bakı ilə əlaqə saxlayıram, vəziyyətin gedişatı ilə tanış oluram. Bakıya hücumun uğursuzluqla nəticələnməsindən sonra artıq bütün diqqətimiz Bakının üzərində olmalıdır.

– Elədir, paşam, general Denstervillin ordusu da artıq Bakı ətrafındadır. Amma gizli kəşfiyyatdan xoş xəbərlərimiz gəlməkdədir. Aldığımız məlumata görə, ingilis generalı Bakının müdafiə

xəttini ətraflı təftiş edib, xoşagələn bir nəticə görməmişdir. Üstəlik türk ordusunun Bakıya yaxınlaşmasından da xeyli dərəcədə rəncidə olub, qorxu və əndişə içindədirlər.

– Əlbəttə, qorxacaqlar, ingilis ordusunun Çanaqqaladakı uğursuzluğu onların hərbi tarixinin unudulmaz qara ləkəsidir. Yaxşı bilirlər, Azərbaycan və Osmanlı türklərinin birliyinə gücləri çatmayacaq. Mənə xəbər veriblər ki, Denstervill elə peşman olub ki, məyusluqdan "Bakını türklərin hücumundan fələk də qurtara bilməz" deyib. Bu uğursuz cümlə dərhal dillərə düşüb və hamını bərk ümidsizliyə salıb.

Razılıqla köməkçisinə baxıb baxışlarıyla sanki demək istəyirdi: "Buna nə deyirsiniz?"

– Paşam, Rusiyanın Almaniyadakı səlahiyyətli nümayəndəsi də Almaniya Xarici İşlər Nazirliyinə nota verib türk ordularının Bakı üzərinə hücumunu dayandırmağını tələb edir.

Ənvər Paşa köməkçisinin bu sözlərindən sonra qımışdı. Əliylə qeyri-ixtiyari ucları yuxarı qatlanmış bığlarını burdu:

– Onların çəkinməsi o qədər təbiidir ki! Onlara əslində yazığım gəlir. Kimlərlə üz-üzə olduqlarının fərqində deyillər. Biz heç Bakını ingilisə, yaxud qeyri-ingilisə təslim edərikmi? Qafqaz İslam Ordusu nə günə durur bəs? Biz indi diqqətimizi onun gücləndirilməsinə yönəltməliyik. Yeni əmr imzalamışam, Xəlil Paşanın komandanlıq etdiyi Şərq Orduları qrupu 9-cu ordudan alınıb Qafqaz İslam Ordusunun tərkibinə daxil edilsin. Azərbaycana çatanda artıq diviziyanın tərkibində 38-ci, 56-cı, 106-cı piyada alayları, topçu bölməsi olacaq. Cəmi 7636 əsgər və 157 zabit. Həmin firqə Qarakilsə-Qazax yoluyla Azərbaycana çatmalıdır, ondan sonra da qatarla Bakıya daxil olacaqlar. Bu diviziya Biləcəri tərəfdə mövqe tutmalıdır və oradan hücuma keçməlidir. Bütün fikrim indi bu məsələ üzərindədir, sən də bütün diqqətini buna yönəlt, mənə hər vaxt təfərrüatları bildir. Azərbaycanda yaşayan qan qardaşlarımızın bizdən yardım istədiyi bircə cümlə

var: "Bakı təcili alınmalıdır, hansı yolla olursa olsun". Biz də onlarla eyni fikirdəyik, Bakı təcili işğaldan qurtarılmalıdır. Bakısız Azərbaycan başsız bədəndir – biz bunu bilirik.

– Paşam, elə bu yaxınlarda Nuri Paşanın sərəncamına sizin tapşırdığınız kimi Qarakilsədən Ağstafaya min sandıq güllə, beş min ədəd top mərmisindən ibarət silah-sursat göndərilib.

– Bilirəm, bilirəm…

– Ənvər Paşam, rus hökuməti də dayanmadan Almaniyaya notalar verir. Bunun üçün Bakı neftini onlarla bölüşməyə də hazırdır. Bu da əlbəttə, Birinci Cahan müharibəsində bizimlə qarşı-qarşıya gələn ingilislərin maraqlarını təmin etmir.

– Bolşeviklər Bakının türklər tərəfindən tutulmasını özləri üçün əsl fəlakət hesab edirlər. Bakı nefti olmadan Rusiyanın xalq təsərrüfatı çökər axı, bunu yaxşı bilirlər. İnşallah ki, onların arzusunu gözündə qoyub Bakını qurtararıq! Gəlin, onları bir az da tələsdirək, yoxsa bardaş qurub baba evi kimi rahat əyləşiblər Bakıda.

Ənvər Paşanın bu münasibətlə göndərdiyi həm şirnikləndirici, həm də təhdidedici bəyannaməsində xüsusən "Qəhrəman türk ordusu Bakıya girərkən xristian xalq müqavimət göstərməzsə, onlar müsəlmanlarla birlikdə bütün haqlardan istifadə edəcəklər. Əks təqdirdə biz bu gözəl və zəngin şəhəri hücumla alacağıq" Osmanlı dövlətinin hərbiyyə nazirinin sözləri Bakının quldur idarəçilərində böyuk həyəcan və qorxu yaratdı. Bəyannamədən üç gün sonra, avqustun 3-də Qafqaz İslam Ordusunun diviziya komandanı Mürsəl Paşa Bakı Soveti və Erməni Milli Şurasına şəhərin təslimi haqqında ultimatum verdi. Lakin Biçeraxovun yardımına ümid bəsləyən düşmən Ənvər Paşaya olduğu kimi Mürsəl Paşaya da cavab vermədilər.

Erməni millətçiləri islanmış cücəyə dönmüşdülər; hara əllərini atırdılarsa boşa çıxırdı. İndi də bərk güvəndikləri ingilis ordu hissələri qərargahı Qafqaz İslam Ordusunun top atəşindən giz-

lənmək məcburiyyətində qalıb "Prezident Kryuqer" gəmisinə köcürülürdü. Ənzəliyə göndərdikləri erməni başbilənlərindən xüsusi heyət vasitəsilə ingilisləri Bakıya dəvət edən daşnakların planları bu saat suya düşmüş kimi idi.

Sentyabrın ilk günlərində isə Denstervillin Bağdaddakı ingilis qüvvələri qərargahına yolladığı teleqrafın mətnindən paşa artıq xəbərdar idi: "İngilis təqviyyə qüvvələrinin Bakıya gəlməsinin gecikməsi səbəbindən düşmən üstünlüklər əldə edib, ingilis qoşunu son müdafiə xəttinə çəkilməyə məcbur olub. Bakıda doqquz yüz nəfərlik ingilis qüvvələrinə və güvənə biləcəyim min nəfər rusa malikəm. Bakı qüvvələrinin qalan qisminin heç bir faydası yoxdur."

Ənvər Paşa bu teleqrafın nə demək olduğunu yaxşı bilirdi və Denstervillin artıq ümidsizliyə qapıldığını açıqca anlayırdı. Nuri Paşanın xəbər verdiyinə görə, sentyabrın ortalarına doğru türk qoşun hissələrinin hamısı Yanardağ – Binəqədi ərazisinə toplanmışdı. Məqsəd isə düşməni yanıldıb hücumun şimaldan olacağı fikrini yaratmaq idi. Hücum isə Bakının qərbindən nəzərdə tutulmuşdu. Amma düz, hamar yolu qoyub sıldırımlı qayalar, yarğanlar üzərindən hücum etmək kimin ağlına gələrdi ki… Sentyabrın 14-də isə artıq general Denstervill və Mərkəzi Xəzər Diktaturası hökumətinin, Bakı komissarlarının arxalarına da baxmadan Bakıdan qaçdığı xəbəri yayıldı.

Ənvər Paşa o günlərdə fərəhindən bir yerdə qərar tuta bilmirdi, sevincindən az qala qanadlanıb uçurdu. Masasının üstündə Azərbaycan Xalq Cümhuriyyətinin sədri Fətəli xan Xoyskinin qəhrəman Nuri Paşaya ünvanladığı təbrikinin mətni vardı. Oturub təbrik məktubunu bir daha gözdən keçirdi: "Qafqaz İslam Ordusunun komandanı səadətli Nuri Paşa həzrətlərinə. Təhtikomandanızda olan igid türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətim zati-həmiyyəti-pərvəranələrinizə və dün-

yanın ən nəcib və cəsur əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm, əfəndim".

Onsuz da bayaqdan eşitdiyi bu xəbərdən kövrəkləşən Ənvər Paşa riqqətə gəldi, boğazına düyümlənən qəhəri uddu, fərəhdən gözü doldu. Elə bu fərəh içində də evə – Quruçeşmədəki malikanəsinə getdi. Balaca Mahpeykərin boğazı ağrıyırdı, ev həkimi uşağı yenicə müayinə edib dərman içirmişdisə də o atasını görüb kövrəldi, qollarını açdı. Paşa əynini dəyişmədən uşağı qucağına aldı, bağrına basdı; otaqda hərbi addımlarla o başa, bu başa yeriməyə başladı. Həmişə belə olurdu, onun bu ahəngdar yerişi uşağa bir layla, beşik yelləməsi qədər şirin gələr, həmişə rahatlardı. Paşanın qəribə işləri vardı, uşaqların adi zökəm olması belə onu qorxudurdu. Naciyə Sultan ona baxanda şükürlü idi, öz zabitəli ədasını əsla dəyişməzdi. Bəzən Ənvər bəyin əndişəli çöhrəsinə baxıb: "Heç elə bil savaş, müharibə, top-tüfəng görən zabit deyilsən, bir zökəmdən bu qədər qorxursan," – deyə zarafat edərdi. Ənvər Paşa da qayğı ilə "Mən zökəmdən qorxmuram, onun balama verəcəyi zərərə görə narahatam" deyərdi.

Paşa çətinliklə yuxuya gedən Mahpeykəri dayəsinə verib iş otağına keçdi, fikrən Nuri ilə olan söhbətə qayıtdı. Xəbər nə qədər sevindirici olsa da hələ işlər tam yekunlaşmamışdı, Bakı qələbəsi digər qələbələrin açarı olmalıydı. Hələ azad ediləsi Qarabağ vardı, Şuşa vardı… Gövhər ağa məscidi öz müsəlman qəhrəmanlarının yolunu gözləyirdi, onların gətirəcəyi təkbirin həsrətində idi. O gün isə çox da uzaqda deyildi.

Çox keçmədən o müjdə də gəlib yetişdi. Nuri Paşanın mühüm Quba – Dərbənd səfərindən əvvəl vaxt edib birbaş Ağdama gəlməsi və Şuşada yerini bərkidib orada oturan erməni şovinictlərinə: "Qarabağ Azərbaycan torpağıdır, orada yalnız Azərbaycan hökumətinin qanunları işləməlidir", – şəklində sərt xəbərdarlıq etməsi ona bir ordunun fəaliyyətindən güclü gəlmişdi. "Afərin Nuri, əhsən, igid qardaşım", – deyə riqqətə gəlirdi.

Qafqaz İslam Ordusunun Cəmil Cahid bəy Toydəmirin komandanlığı altında oktyabrın 8-də Şuşaya daxil olması xəbəri elə həmin günün axşamı Ənvər Paşaya yetişdi. Azərbaycan işini sanki ailə işi bilən paşa bura göndərilən şir ürəkli zabitləri deyil, cəbhələrdə aslan kimi döyüşən yenilməz ordu birliklərini də özü seçib göndərmişdi. Şuşa hücumunda daşnaklar əlverişli Əsgəran keçidində möhkəmlənib durmaqda idi; lakin Türk–Azərbaycan qüvvələri tərəfindən tezliklə darmadağın edilmişdi. Həmidə xanım Cavanşirin təşkilatçılığı ilə Şuşaya girişdə zəfər tağı ucaldılmış, böyük ziyafət süfrəsi açılmışdı. Gövhərağa məscidindən "Allahu Əkbər" sədaları ucalmışdı. Elə təntənəli qarşılanma mərasimi də orada keçirilmişdi. Bu tək Şuşada – Qarabağda deyil, ölkənin hər yerində bayram edilirdi. Qazaxdan Qayıbovlar nəslindən olan şair Abbas ağa Nazir Qarabağ fatehi miralay Cəmil Cahid bəyin timsalında Azərbaycana kömək əlini uzadan bütün qəhrəman türk paşalarına "Sənə türklüyün adından bu şeirim yadigar olsun" deyərək yazırdı:

*Çəkibsən rəncü-zəhmətlər, əziyyətlər, məşəqqətlər,*
*Bu niyyətlə ki, qövmi-türk sahibi-iqtidar olsun.*
*Daha göstər həmiyyət, ərşə yüksəlt türk növrağın,*
*Səninçün şövkətü-izzət, bizimçün iftixar olsun…*

## DOQQUZUNCU FƏSİL

*Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!*
*Tamamən Qafqazın əhli könüldəndir sana əsgər!*

***Salman Mümtaz***

…Sonrakı günlərdə "İttihad və Tərəqqi" partiyası mənsublarından Tələt Paşanın kabinəsi bütünlüklə rəsmi istefaya getdiyindən Ənvər Paşa artıq hərbi nazir olmasa da, Mudros sülhünün əzici ağırlığından nə qədər sıxılsa da, qəlbi, düşüncəsi Azərbaycanın yanında idi; qardaşı Nuri Paşayla daim əlaqə saxlayırdı.

Noyabr ayının 10-da Bakı zəngini Ağa Musa Nağıyevin Yay klubunun zalında Bakı, Qarabağ və Dərbəndi azad edən baş komandan Nuri Paşanın qələbəsi və Azərbaycandan ayrılması şərəfinə böyük bir ziyafət verildi. Tanınmış aktyor Abbas Mirzə Şərifzadə isə Osmanlı generallarına məxsus geyimdə vüqarla zala daxil olub, Ənvər Paşanın qiyafəsində monoloq söylədi: "Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu Bakının qurtuluşuna varmaqla sübut etdiniz..." Son ünsiyyətləri zamanı Nuri Paşa onun şərəfinə verilən vida ziyafəti haqqında Ənvər Paşaya söz açmışdı:

– Bilirsinizmi, sevgili qardaşım, vida ziyafətində deyilən sözlər indiki kimi qulağımda çınlayır. Özümü güclə tuturdum ki, ağlamayım. Biz bunu bacardıq, Qafqaz İslam Ordusu Bakını, Gəncəni, Qarabağı azərbaycanlı qardaşlarımızla birgə düşməndən azad elədi. Hələ sizin qiyafənizdə siması da sizə məharətlə bənzədilmiş sənətkar səhnəyə daxil olanda həqiqətən sizin gəldiyinizi zənn etdim. Nə qədər şaşqınlığımı gizlətsəm də mənə elə gəlir ki, bunu hiss edən çox oldu. Vida ziyafətində çox dəyərli Baş nazir Fətəli xanın Azərbaycan türklərinin əsarət zülmündən qurtulmasında Osmanlı türklərinin Azərbaycanda axıtdıqları qanına, onların qəhrəman mübarizəsinə işarət mənasında bu təntənəli gecədə söylədiyi "nə bu qan, nə də bu qan tökülən mübarək yerlər heç vaxt unudulmaz və xatirdən çıxmaz…" kimi tarixi sözləri ilə ümid edirəm ki, yüzillər sonra da azərbaycanlı qardaşlarımızla birgə olacağıq və həqiqətən də oradakı qəhrəmanlığımız unudulmayacaq. Yaxşı ki, o böhranlı ağır günlərdə biz vaxtında-vədəsində öz qan qardaşlarımızın harayına çata bildik. Heç bilirsənmi, Paşam, Azərbaycan xalqı bizi necə sevir, bizə necə etimad göstərir? Qardaş Azərbaycandakı dörd aylıq savaş yollarında biz hər an bu sevgini görürdük. Bu sevgi hər yerdə bizim ordumuzun gücünə güc qatır, onu zəfərlərə ruhlandırırdı.

1914-cü ildə – savaşın ilk ilində Əhməd Cavadın yazdığı, 1918-ci ildə Üzeyir Hacıbəylinin bir gecədə bəstələdiyi Ənvər Paşanın və onun güvəndiyi qəhrəmanların əsəri olan Qafqaz İslam Ordusuna həsr etdiyi "Çırpınırdın Qara dəniz" türküsü isə damarlarında qan kimi dolaşırdı. Onlar "Vəfalı türk gəldi yenə!" söyləyən azərbaycanlı qardaşlarının ümidlərini boşa çıxarmamışdılar:

*Çırpınırdın Qara dəniz, baxıb Türkün bayrağına!*
*"Ah!." deyərdin, heç ölməzdim qapansaydım ayağına.*
*Ayrı düşmüş dost elindən, illər var ki, çarpar sinən!*
*Vəfalı Türk gəldi yenə, yol ver, Türkün bayrağına!*

Savaşın qızğın çağında yazılmasına baxmayaraq şeirdən sanki barıt qoxusu yox, gül-bağça ətri gəlirdi. Çünki bu ordunun missiyası xilaskarlıq idi. Əhməd Cavadın çox gənc yaşlarında yazdığı bu şeirdə məhz gənc ürəklərə məxsus coşqu ilə bu "vəfalı türk ordusu"nun şanlı yolu, iftixar edilməyə layiq xalqı, onun bayrağı vəsf olunur; Hüseyn Rauf kapitanın idarə etdiyi "Həmidiyyə"nin rus kreyseri "Kazbek"i vurub batırması kimi qürurverici şanlı tarixçələr xatırlanır:

*İncilər dizsəm yoluna, sırmalar sarsam qoluna!*
*Fırtınalar dursun yana, salam Türkün bayrağına!*
*"Həmidiyyə" o türk qanı! Heç birinin bitməz şanı!*
*"Kazbek" olsun ilk qurbanı, əyil Türkün bayrağına!*

Mahnı ilk dəfə Bakı məktəbliləri tərəfindən Qafqaz İslam Ordusu komandanı Nuri Paşanın şərəfinə verilən vida ziyafətində səsləndi. Bu bir tarixi günün tarixi yadigarı olaraq 70 il vətənində həbs olunsa da sonra bəraət alacaq, əsrlərə adlayacaqdı.

Nuri Paşa bu günlərin verdiyi sevinc və məsudluğu məmləkətdə indi pəjmürdə halda olan qardaşı Ənvərlə bölüşməyə çalışırdı:

– Azərbaycanın Abdulla Şaiq adlı şairinin bu yaxınlarda Qafqaz İslam Ordusunun xilaskar yürüşünə əsir Bakıda həsr etdiyi bir şeiri oxumuşam. Bilirsiniz, o bu şeiri bizim Şirvan torpağında vuruşduğumuz günlərdə yazmış. Bizi necə gözləmişlər, bir bilsəniz? Necə fərəhləndim, qürurlandım, necə də kövrəldim, paşam, təsəvvür etməzsiniz. Yazır ki:

*Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,*
*Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.*
*Qırıq bir saz kimi onun sızlar qanlı, yorğun telləri.*
*Yaxılar da, yaxar bütün qayğı vurmuş elləri.*

– Bakının azad olunduğu gün münasibətilə yazılan şeirlər demək olar ki, tamamilə bu məzmundadır. Bunları eşitdikcə

əmin olursan ki, qardaşa yardıma qoşmağımızda heç yanılmamışıq. Nə yaxşı ki gəldik, yetişdik, deyilmi?! Biz Gəncədən çıxandan bəri döyüşə-döyüşə irəlilədikcə yolumuzu necə gözlədikləri bu şeirlərdən açıqca hiss olunur. Şeirin ardı da təsirlidir:

*Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,*
*Sən gəlməsən, xərabəyə dönən qəlb azad olmaz.*
*Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,*
*Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.*

– Biz də bunu bildiyimizdən, mümkün qədər tez gəlməyə çalışdıq. Qardaş gərək öz qardaşını bu dərəcədə ələm və məhrumiyyətlər içində tək buraxmaya. Bir halda ki, bu yola dikilən gözlər səni, yalnız səni – öz qan qardaşını istəyir. Nə qədər ağır təhlükə, can hayında olsa da, heç kimdən mədət ummur, yalnız səni gözləyir:

*Başqasını istəməm də, ey türk, çabuq sən gəl, sən,*
*Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın nədən?*
*Yoluna daşmı qalanmış? Ya azğın quldurlar*
*Buraxmır? Daş, dəmir, ya polad olsa da onlar*
*Ürəyində şölənənən mətin, qızğın atəşlə*
*Yax onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!*
*Xain, alçaq düşmənlərə qol gücünü həp göstər,*
*Aç yolları, tez gəl ki, qəlbim səni həp istər…*

Nuri Paşa daha sonra Mosuldan onunla birgə yola çıxmış, yolboyu ona gözəl yoldaşlıq etmiş qardaşının tövsiyəsi ilə ona müşavir təyin edilmiş, hər zaman yanında olan Yusif Ziya Talıbzadənin Qafqaz İslam Ordusunun igid zabitlərindən olduğunu da Ənvər Paşaya xəbər vermişdi.

Ənvər Paşa Yusif Ziyanı Balkan müharibəsindən tanıyırdı. Azərbaycandan köməyə gəlmiş soydaşları arasında gözü ilk onu tutmuş, o zamandan yolları ayrılmamışdı. Döyüşkən xarakterli

Ağaoğlu ilə 1914-cü ildən üzərində çalışdıqları siyasi layihə olan “Turan yolu”na birgə çıxmışdılar. Qardaşına çox məsuliyyətli vəzifə tapşırıb yola salanda təcrübəli Əhməd bəy Ağaoğlu və Bartınlı Mühiddin bəy ilə bərabər, bu sədaqətli, pak imanlı, dürüst bir insan olan Yusif Ziyanı da ona qoşmuş, Nurini ona etibar etmişdi. Ənvər Paşa Nuri Paşanın Yusif Ziyadan bu razılığını sonralar da xatırlayacaqdı.

Türküstana xəyalını gerçəkləşdirməyə gedəndə Abdulla Şaiqin qardaşı, Azərbaycanın igid hərbçisi Yusif Ziya bəylə Ənvər Paşanın yolları yenidən kəsişəcəkdi, yaxın dostluqları qardaşlığa çevriləcəkdi. Nərimanovun dəstəyi ilə Sovet Azərbaycanında yüksək vəzifə tutan Yusif Ziyanın bolşevik təzyiqinə dözməyib məmləkətindən ayrıldığını, təkrar gəlib ona qoşulduğunu da bir qismət, tale olaraq qəbul edəcəkdi. Amma bu, hələ sonralar olacaqdı, hələ buna zaman vardı…

Yusif Ziyanın da sonu eynən Ənvər Paşanın aqibəti kimi olacaqdı. Başçılıq etdiyi bölükləri ilə Əfqanıstana keçmək üçün döyüşə-döyüşə özlərinə yol açıb Dərvaz vilayətinin ərazilərinə çəkilirlər... Təqiblərdən qurtarmağın mümkün olmadığını görüb mövqe tutmaq istədiyi Pəncab qışlağından ayrılaraq döyüşçülərilə bərabər özünü at belində Amu-Dərya çayına vurur. Amma çayın o biri sahilinə çathaçatda quzğun sürüsü kimi çatıb çayın sahilində çöməlmiş qırmızılardan yaxa qurtara bilmir; xain bolşevik gülləsi arxadan onu haqlayır. Sahilə çıxsa da, ölümün pəncəsindən qurtula bilmir. Ömrü boyu “əlində Quran, beynində Turan” deyə tanıdıqları və sevdikləri Axund Yusif Ziya Talıbzadə belə şəhid olur... Ənvər Paşanın şəhid olmasından bir müddət sonra Turan eşqilə yanan başqa bir ürək də beləcə sönüb, əbədiyyətə qovuşur...

## ONUNCU FƏSİL

*Bağçanın ortasında, mum yanar süfrəsində,*
*Bu cahandan gedişim məmləkət sevdasından...*
*Bir türküdən*

Cəsurluq, igidlik Ənvər bəyin alnına yazılmışdı. Bir il sürən Trablus-qərb müharibəsinin axırlarında Balkan savaşının başlaması ilə əlaqədar Benqazidə bulunan türk zabitləri kimi o da İstanbula çağrılmış və həmən bu çağırışın ardınca yola çıxmışdı. Sevimli övladını cəbhədən-cəbhəyə yola salan anası – əslən Balkan türklərindən olan Ayşə Dilara xanım bir çoxları kimi davaya yola saldığı oğluna sarılıb ağlayan və bununla balasını pərişan edən anaların əksinə olaraq ciyərparasını bu qorxulu səfərə türk qadınlarına xas bir qürurla və mətanətlə uğurlamışdı: "Gedirsən... bu sənin öz seçdiyin yoldur, bu yolda şəhidlik də var, amma vətəni qorumaq da sənin tək igid oğullara düşər".

Sonra isə ondan özü ilə götürməyə şəkil istəyən oğluna arxasına "Oğlum Ənvər, başladığın işi bitirmədən dönsən, südümü sənə halal etmərəm…" yazdığı əksini vermişdi. Ənvər Paşa da anasının tapşırdığı kimi etmişdi; dönməmişdi, başladığı iş uğrunda atdığı hər addımda ana öyüdü izləmişdi onu, ona ürək vermiş-

di, boynuna böyük məsuliyyət qoymuşdu. Oğuz igidləri sayaq – "Vətən haqqı – ana haqqı" deyib yola çıxmışdı...

Yol isə davam edirdi. Əbəs yerə deməyiblər, ömür bitər, yol bitməz... "Məmləkət canımız, ərmağan qanımız" – Ənvər Paşanın amalı, döyüş şüarı idi. Getdiyi hər yerdə, elə Türküstanda da ona "Cəbhədə mitralyoz (çoxlüləli silah – red.) ayna kimi parlayır, Türküstan türkləri bayraq açmış, səni gözləyir!" coşqusuyla qucaq açmışdılar… Qısa vaxt ərzində bu torpaqlarda da o, Türküstan, Başqırdıstan, Qazaxıstan nümayəndələri ilə görüşüb məsləhətləşmişdi, gələcəyin məşhur türkoloqu gənc əsgər başqırd Əhməd Zəki Vəlidi Toğanla tanış olmuşdu. Qısa vaxt ərzində ətrafına beş minə qədər fədailər ordusu toplanmışdı. Ancaq ənənəvi xəyanətlər, "yeri, vur, səninləyik" deyib arxadan qaçmalar bu yerlərdə də addım-addım izləmişdi onu…

Bu, onun taleyi idi. Ağrılı, təəssüf doğuran, eyni zamanda qaçılmaz qəzavü-qədər… Hər dəfəsində də özünün yer üzündəki mənəvi istinadgahı kimi Naciyəsinə səslənirdi: "Mənə dua et, həm də çox dua et, sənin duana, alqışına çox ehtiyacım var. Məni unutma…"

…Döyüş meydanında ilk xəyanət acısını ona Sarıqamış faciəsi öncəsi 3-cü ordu komandanı Hafiz Haqqı Paşa yaşatmışdı. Bu xəyanətin özülündə çox gənc olmasına baxmayaraq hərb sahəsində ulduz kimi parlayan Ənvər Paşaya qarşı olan qısqanclıq, bu gənc, amma bacarıqlı zabitin, sultan kürəkəninin uğurlarına paxıllıq hissi dayanırdı. Rəqibləri bu gənc qəhrəmanı daha böyük zəfərə və şöhrətə götürəcək qələbələri həzm edə bilmirdilər. Qısqanırdılar. Hər vəchlə bu uğurları önləməyə qərarlı idilər. Doğrudur, döyüşün ilk mərhələsində 3-cü ordu komandanı albay (polkovnik-red) Hafiz Haqqı Paşa rusları sıxışdıraraq geri çəkilməyə, açıq-açığına qaçmağa məcbur etmişdi. Ancaq o, uğursuzluğa düçar olub, canını götürüb qaçan rus əsgərlərini təqib etmək əvəzinə başçılıq etdiyi hissəni döyüş meydanından on

beş kilometr geri çəkmişdi. Ənvər Paşa indinin özündə də Hafiz Haqqı Paşanın bu müəmmalı hərəkətinin hansı səbəb üzündən baş verdiyini heç cür anlaya bilmir, daha doğrusu, bunun bir xəyanət olduğunu düşünməyə özünü inandıra bilmirdi. Əzmi qırılmış, pərən-pərən düşmüş düşmən ordusunu təqib edib nəfəsini kəsmək əvəzinə əmin-arxayın şəkildə bu qədər geri çəkilib, qarşı tərəfin yenidən toparlanmasına imkan vermək, bununla da Sarıqamış faciəsinə zəmin yaratmaq kimi məsuliyyətsizliyə Hafiz Haqqı Paşa kimi biri təkbaşına qol qoya bilməzdi. Özünü köməyə yetirməli olan ehtiyat qüvvələrin heç bir səbəb olmadan ləngiməsi nə ilə bağlıydı? Mövqe və şöhrət xəstəliyindən qaynaqlanan dəhşətli qısqanclıq bəlası nə idi? Hansısa gözəgörünməz əl gizlincə işləməkdə, döyüşən əsgərlər arasında ruh düşkünlüyünə səbəb olacaq toxumlar səpməkdəydi…

Sarıqamış faciəsinin şahidi olan rus ordu generalı Lineviç Lev Petroviçin Moskvaya dəhşət içində yolladığı teleqramdakı cümlələri tarixin qanlı yaddaşında yenə türk cəsurluğu, fədakarlığı, son nəfəsinə qədər vuruşmanın nə olduğu barədəki rəyləri möhürləyəcəkdi: "Türkləri təslim ala bilmədim, çünki əsir alınası heç kimsə yoxdur. Onlar bizdən əvvəl öz Allahlarına təslim olmuşdular".

Bu dəhşəti Hafiz Haqqı Paşa isə Ənvər Paşaya yolladığı teleqramda belə ifadə etmişdi: "Bitdi, Paşam, ordumuzun küllisi məhv oldu!.." Öz ömrü də başladıqları böyük işlər kimi yarımçıq qalan Hafiz Haqqı Paşanın ölümündən sonra gündəliyindəki peşmanlıq etirafları, məyusluğu, bir növ tövbəsi gün üzünə çıxacaqdı. 1915-ci il, yanvarın 6-da yazdığı sətirlər onun ruh halını da, hiss etdiyi üzüntünü, məyusluğu də özündə ehtiva edirdi. Ancaq apxadan atılan daş topuğa dəyər…

"6 yanvar 1915: Xəstələrin yeməkləri və halı heç cür düzəlmir. Bu gün yenə bir çox insanı döydüm və zənn edirəm ki, "artıq düzəlir" deyərkən yenə bir fəlakət qarşısında qaldım: Yaralı və

xəstələr üçün ayrılmış barakların yanında bir xəstə titrək ayaqları ilə əsə-əsə əlindəki su qabını doldurmağa gedirdi. "Hara gedirsən?" deyə soruşdum. "Su gətirməyə" – dedi. Sonra da tələsik əlavə etdi: "Nə edim, əfəndim, pulla satırlar suyu. Mənim də pulum yoxdu!"

– Kim satır?

– Qapıçı.

– Haydı, göstər görüm.

Yeridik. Zavallı meyid kimi. Əlli metrlik məsafəni beş dəqiqəyə güclə qət etdi. Xəstəxana deyilən tövləyə girdik. Yenə iki ölü vardı. İçəridə bir təlaş! Tək su deyil, çörək də satılırdı. İri bədənli bir çavuş çörəyi pulla satırdı. Ölümcül hala düşüncəyə qədər onu döydüm. Daşla başını əzdim. Qaçmağa başladı. Yanımdakılar hərifi yaxaladılar. Xəstələrə baxan nəzarətçini də bərbad hala saldım. Off, hələ mühacirlərin səfaləti… Ağlayan, əl və ayağı donmuş uşaqlar, ixtiyar qocalar, qadınlar…Ya Rəbbim! Mən bu səfalətə səbəb oldum! Mən bu zəfəri tam qazanmaq üçün, bu hərbdə qalib gəlmək üçün çalışdım. Olsun! Bu fəlakətləri yox etməyə çalışacağam və əlbəttə, buna müvəffəq olacağam!" deyə and içdim".

Ancaq dediyi kimi olmadı. Bu səfaləti aradan qaldırmağa müvəffəq ola bilmədi Hafiz Haqqı Paşa…

Sarıqamış savaşı öncəsi Ənvər Paşa öz müəllimi, bölgə komandanı Həsən İzzət Paşa ilə görüşüb əsgərlərin durumuyla maraqlanmışdı. Dünyagörmüş bölgə komandanı havaların namünasib olması səbəbindən ehtiyatlı olmağı məsləhət bilmişdi. "Gözləyək" demişdi. Bu, Ənvər Paşanın bir bölgə komandanından gözləmədiyi cavab idi. O bunu eşitmək belə istəmirdi… Qeyzlənmişdi. İndiyəcən dərin sayğı bəslədiyi, keçmiş müəllimini ordudan uzaqlaşdırmağa dərhal qərar vermiş, ona "əgər müəllimim olmasaydın, səninlə başqa cür davranardım" – demişdi…

Haqlıydımı? Nə etməli, dönməz və qızğın bir savaşçının həlledici bir məqamda, heç gözləmədiyi halda təcrübəli bir ko-

mandanın dilindən əsgərin döyüş əzminə xələl gətirə biləcək bir cavabı eşitməsinin qarşılığı yəqin elə belə də olmalıydı…

Haqsız idimi? Bəlkə müəllimi "havaların namünasib olması" qənaətinin pərdəsi altında əslində ona arxa cəbhənin maraq çevrəsində yaşanan hadisələrin gerçəyini anlatmaq istəmişdi? Bütün hallarda öz qərarında qəti, dönməz, inadkar olan Ənvər Paşa bəlkə o məşhur faciədən öncə dünyagörmüş müəlliminin anlatmaq istədiklərinin mahiyyətinə elə də diqqət yetirməmişdi?

…Halbuki öncələr hər şey o qədər yaxşı və ümid dolu coşqunluqla başlamışdı ki… Lap az qalmışdı. Günləri sayırdı. Yaxın günlərin birində onun hərbi nazir təyin olunması məsələsi həll olunacaqdı. Təkcə Tələt bəyin razılıq verməsi bəs edərdi. Amma Tələt bəyin bu mövzuda hərəkətsizliyi get-gedə daha çox hiss olunmaqdaydı. Bu xüsusda Yaqub Cəmillə bərabər yanına gedən dostlarına belə xoş üz göstərməmişdi. Amma bu, onun dəfolunmaz istəyi idi. Nəyin bahasına olursa-olsun bu istəyə çatmalıydı; illər boyu qəlbində yeni ordu quruculuğu islahatı keçirməyin planlarını qurmuşdu. Bu sahədə baş alıb gedən hərc-mərcliyin şahidi idi. Bu gedişat dəyişməliydi. Özü də onun – Hürriyyət Qəhrəmanı Ənvər bəyin başçılığı ilə. Durmaq, vaxt itirmək zamanı deyildi. Qərarında qəti idi. Sədrəzəm Sait Paşanın kabinetinin qapısını da bu qərarlı qətiyyəti ilə açmış, istəyini aydın şəkildə, birbaşa dilə gətirmişdi:

– İstəyim hərbi nazir olmaqdır… Sizdən xahiş edirəm, imkan daxilində elə bu gün, yubanmadan istəyimi nəzərə alıb qərar verin.

Sədrəzəm Sait Halim Paşa ilk baxışda onun bu qətiyyətinə çox heyrətlənmişdi. Ənvər Paşa isə təkidlə təkrarlamışdı:

– Bu qərar mənim üçün çox mühümdür. Vətəni düşdüyü durumdan qurtaracaq, yurdun keşikçisi olacaq, ordunu nizama gətirəcək, tutduğunu qoparıb ata biləcək şəxsiyyətlər orduda olmalıdır. Həyata keçirdiyi işlərdə qətiyyətsizlik göstərən

komandirlərin vətəni, ordunu nə hala saldıqlarını keçən Balkan savaşında hamımız görmüşük, sədrəzəm həzrətləri!

Ənvər Paşa elə ilk görüşdən sədrəzəm Sait Halim Paşanın ona bəslədiyi xüsusi rəğbətin şahidi olmuşdu. Sədrəzəm Ənvər Paşaya çox güvənirdi, hər zaman ona etibar edə biləcəyinə əmin idi. Belə olmasaydı, həmin görüşdən qısa müddət sonra – 1914-cü ildə, Ənvər Paşanın cəmi otuz üç yaşı olanda böyük etimad göstərib onu Osmanlı İmperatorluğunun hərb naziri təyin edərdimi?

Gənc Ənvər Paşa da bu etimadı doğrultmaq üçün vəzifəyə təyin olunan gündən imperatorluğun möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməmişdi. Onda bu təyinatdan narazı qalanlar da az deyildi. Bəziləri üzünə gülüb arxasınca fitnələr törətməyə çalışır, bəziləri isə açıq-aşkar öz xislətlərini bəlli edir, düşmənçilik mövqeyində olduqlarını gizlətmirdilər.

Ənvər Paşa bütün bunlara fikir vermədən imperatorluğun hərb sahəsində yeniliklər eləməyə səy göstərirdi. Osmanlı ordusunda Fransa modelinin yerinə Almaniya modelinin tətbiqi üçün nə qədər zəhmətlər çəkdiyini sonralar da xatırlayırdı. Buna qarşı çıxanlar da vardı, bu addımın səhv olduğunu israrla təkrar edənlər də. Ancaq Ənvər Paşa inandığı yoldan geri çəkilən deyildi. Doğru bildiyini, məmləkətin inkişafı üçün faydalı hesab etdiyi işləri həyata keçirirdi.

Hərbiyyə naziri təyin olunduğu ilk vaxtlarda Sədrəzəm Sait Paşa ilə mükaliməsini, onun suallarına əminliklə verdiyi cavabları sözbəsöz xatırlayırdı:

– Hörmətli sədrəzəm cənabları, orduda gəncləşmə çox vacibdir. Düşünürəm ki, Almaniyada təhsil alan cavan hərbçiləri orduda önəmli vəzifələrə gətirmək lazımdır. Bu, həm orduda Almaniya modelinin tətbiqi üçün, həm də ordunun cavanlaşmasını təmin etmək baxımından xüsusilə faydalıdır. İzninizlə, bir çox alman zabitini Osmanlı ordusunda müşavir olmaq üçün əməkdaşlığa dəvət etmək niyyətindəyik. Ordumuzdakı bəzi zabitlərimizin

tərcümeyi-hallarını da dəqiqliklə incələmişəm – həm sənədlərinə baxmışam, həm də barələrində bir çox etibarlı adamlardan lazımlı məlumatlar almışam. Fikrimcə, mindən artıq yaşlı zabit, – onların içərisində əqidəsinə və haraya xidmət etdiklərinə dair əsaslı şübhələrim olanlar da var, – ordudan kənarlaşdırılmalıdır.

Hərbçilərin uniformaları dəyişdirilməlidir, orduda savadlılıq dərəcəsi artırılmalıdır. Orduda oxuyub-yazma bilməyən qalmamalıdır. Bunun üçün orduda xüsusi xətti-cədid sistemli əlifba tətbiq olunmasını istəyirəm. Qısaca desək, ənvəriyyə yazısı. Bu yazını ona görə tətbiq etmək vacibdir ki, Osmanlı yazısı sadələşsin, hər bir zabit və əsgər oxumağı, yazmağı bilsin. Ənvəriyyə yazısında oxunuş rahat olacaq, hərflər bir-birinə birləşməyəcək, ayrılıqda yazılaraq daha asan oxunacaq, saitlər də göstəriləcək. Bu yazı sistemi otuz beş samit və on saitdən ibarət olacaq. Bununla bağlı əlifba kitabı hazırlamağı da düşünürəm.

Sədrəzəm Sait Halim Paşa şövqlə danışan Ənvər Paşanı təmkinlə, sözünü kəsmədən dinləmiş, bu dəliqanlı və həvəsli gəncin həmin vaxt bəzilərinə xülya kimi gələn bu arzuları reallaşdıracağına, Osmanlı ordusunun inkişafına töhfələr verəcəyinə inanmışdı.

Ənvər Paşa da öz növbəsində bütün bunları eləmək iqtidarında olduğunu əməlləri ilə sübut eləmişdi. Dedikləri sözdə qalmamışdı, çoxunu həyata keçirmişdi. Doğrudur, bəzi məqamlar tənqidlə də qarşılanmış, daha yaxşı variantlar alternativ kimi göstərilmişdi. Məsələn, ciddi fikir ayrılıqları olsa da, məmləkətin xeyri üçün, Vətən naminə canını da verməyə hazır olan Mustafa Kamal Paşa ənvəriyyə yazısı ilə bağlı 1918-ci ildə öz fikirlərini belə bildirmişdi: "Bu iş yaxşı niyyətlə həyata keçirilməsinə rəğmən, yarım-yamalaq və zamansız edilib. Savaş zamanı hərflərlə məşğul olmaq vaxtıdır? Nə üçün? Xəbərləşməni asanlaşdırmaq üçün? Bu sistem xəbərləşməni keçmiş sistemə görə daha yavaş və daha çətin edib. Sürətin önəm daşıdığı bir vaxtda işləri ləngidən və insanları çaş-

dıran bu sıçrayışın üstünlüyü nədir? Fəqət, madam bir işə başladınız, bunu doğru-dürüst edəcək cəsarəti göstərin...”

Ənvər Paşanın hərbiyyə naziri kimi cəsarəti isə bəzən lazım olduğundan da artıq olurdu. Mustafa Kamal Paşanın da dediyi kimi, bunlar yaxşı niyyətlə həyata keçirilsə də, bəzən əks-effekt verirdi...

Osmanlı İmperatorluğunun hərb naziri olduğu vaxt onun bütün həyatının ən enişli-çıxışlı dönəmi olacaqdı. Xüsusilə də 1915-ci il. Sarıqamış hərəkatında əsas hədəfi əlbəttə ki, bu kiçik qəsəbəni ruslardan almaq deyildi. Əsl hədəfi o idi ki, rusları Tiflisə qədər qovsun, oradan Təbriz, Bakı, Tehrana qədər uzanaraq Əfqanıstanı da təsir dairəsinə almaqla müsəlmanları hərəkətə gətirib bütövlükdə regiondakı rus işğalına son qoysun. Teleqramlarında xüsusilə vurğulayırdı: “Girəcəyimiz ölkələrdə işğalçı olmayacağıq. Oraları rus zülmündən qurtarıb, müstəqilliklərini qazanmasına nail olub geri dönəcəyik...”

Sarıqamışda, Allahu Əkbər dağlarında isə bu ali və nəcib xəyalı “soyuqdan donacaqdı...” Tarixdə fərqli rəqəmlər səslənsə də, on minlərlə əsgərin Sarıqamışın şaxtasında donub şəhid olması Ənvər Paşanın müdafiə naziri olduğu dönəmin ən tünd ləkəsi idi. Üstündən neçə zəfərlər qazanılsa da bu tünd ləkə ağarmayacaqdı, məşum bir dönəmin sübutu kimi daim gözə çarpacaqdı...

Sarıqamış faciəsi həyatının sonrakı dönəmlərində də dözülməz ağrı ilə xatırladığı acı bir xatirə kimi həmişə yaddaşının fonunda qalacaqdı. Həmin vaxt – hərəkatın ilk dönəmlərində necə bir əndişə ilə faciənin qarşısını almaq üçün çırpındığını, özünü oda-közə vurduğunu yaxşı xatırlayırdı. Gah topların başına keçib özü atəş edirdi, gah əlinə silah alıb güllələri sağa-sola yağdırırdı, gah geri dönmək istəyən zabitləri cəzalandırırdı, gah da növbə zamanı yatan hərbçiləri gözünü də qırpmadan edam etdirirdi. Sarıqamış əngəlini keçib tezliklə Əfqanıstanın içərilərinə daxil olmaq təlaşı da bir yandan... Ölümü o qədər yaxınında hiss edirdi

ki, bəlkə də bu səbəbdən elə həmin dönəmdə gecələr vəsiyyətini yazırdı. Yüz on minlik 3-cü Ordudan geriyə sadəcə iyirmi min nəfər qalanda məğlubiyyətini, bacara bilmədiyini qəbul etmək məcburiyyətində qaldı.

Sarıqamışdakı məğlubiyyətin bir səbəbini da xalqın ruh düşkünlüyündə görürdü. Yerlərdə ədalətsizliyin qarşısının alınması yollarını axtarırdı. Ərzurum gədiklərinə çatana qədər başlarına acı bir məğlubiyyətin damarlarda qanı belə dondura bilən lopa-lopa qarı yağırdı...

Əynindəki hərbi uniforma Ənvər Paşaya ilk dəfə olaraq dar gəlirdi. Ona elə gəlirdi ki, komandanların bu məğlubiyyətdən sonra ilk işi həmin libaslarla vidalaşmaq, istefalarını vermək olmalıdır. Nədənsə şərqi Anadolunun qar qarışıq çovğunlu günlərində uşaqlığının ılıq (amma məğlubiyyət hənirli) bir əhvalatını xatırlayırdı. Məhəllə başındakı ilk günlərdən "göz yağı yediyi" Nicat adlı bir uşaq tərəfindən döyülmüşdü. Üz-gözünü Osman məscidinin çeşməsində yuyandan sonra məhəllələrinə geri dönüşünü saxlamışdı. Sözləri də ətrafındakı tay-tuşunu heyrətləndirmişdi:

– Mən Nicatdan heyfimi almaq üçün geri dönürəm.

Uşaqlıqdakı həmin addımını yada salıb, ümidlənən kimi oldu. Məğlubiyyətin bənizinin rəngini qaçırıb varlığını ağ bayrağa çevirdiyi, içində yaratdığı təslimçilik hisslərindən silkinib çıxmağa hazırlaşdı.

Həmin addımını sonralar ilk cəsarət andı kimi yadına salırdı: Hər kəs məğlub olduğu yerə dönüb məğlubiyyətini qalibiyyətlə təmizləyə, yenidən qəhrəman ola bilər.

Bayaqdan ona elə gəlirdi ki, Sarıqamış meydanında hünərini, cəsarətini, onların rəmzi hərbi formasını, silahını qoyub geri qayıdır...

Üstəlik, dönəndən sonra Naciyə Sultanın da gözünə necə baxacağını düşünəndə gen dünya başına dar olurdu. Birdən-birə həmyaşıdı Nicatla dalaşdığı vaxt özünə verdiyi uşaqlıq andı ya-

dına düşdü: Məğlubiyyət yerinə geri dönə bilmək, qəhrəmanlığın birinci addımıdır. Rusların üzərinə əvvəl canımda təpər, sonra da ordumda güc toplayıb bir də dönəcəyəm! Şəhid verdiyimiz hər Anadolu əsgərinin qisasını birə-on alacağam!

Sonralar özünə verdiyi bu sözə, bu müqəddəs anda əməl etsə də, Sarıqamış məğlubiyyəti yüz il də unudulmayacaqdı. Ənvər Paşanın digər xidmətləri gözardı edilib bütün diqqətlərini bu itkiyə yönəldənlər də az olmayacaqdı...

Halbuki qarşıda yenə də onun imzası ilə böyük bir zəfər olacaqdı. Sarıqamış məğlubiyyətindən cəmi 61 gün sonra – 1915-ci il, martın 18-də Ənvər Paşa Çanaqqalanı keçməyə çalışan ingilis donanmasına göz dağı verəcəkdi, 1916-cı ildə isə qəti qələbə qazanılacaqdı. Bu böyük zəfərlə işğalçı ingilis ordusuna "Çanaqqala keçilməz" həqiqətini başa salan Ənvər Paşa bu qələbə ilə kifayətlənməyəcəkdi, ard-arda zəfərlər sıralanacaqdı... Ancaq bu qələbələr də Osmanlı İmpertorluğunu süqutdan qurtara bilməyəcəkdi.

Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlub olduğunu qəbul etdikdən sonra "İttihad və Tərəqqi" 1918-ci ilin oktyabrında istefaya getdi. Ənvər Paşanın müdafiə naziri olduğu dönəm bununla da başa çatdı. Ənvər Paşa, Tələt Paşa və Camal Paşa İstanbulu tərk etmək məcburiyyətində qaldılar.

Ənvər Paşa əvvəlcə Krıma, oradan isə Berlinə gedir... Bu gedişdən sonra haqqında edam qərarı desən, – çıxarılır, həbs edilmə əmri desən, – o da verilir... Məhz bu qərarlara görə Andoludakı Qurtuluş Savaşını idarə etmək xəyalı da yerlə-yeksan olur. Və ondan sonra Pamir dağlarına üz tutur. Orta Asiya müsəlmanlarını təşkilatlandırıb bolşevik işğalından qurtarma xəyalı da sonralar tarimar olub öz qanı ilə bərabər Bəlcivan torpaqlarına səpiləcəkdi...

Tarixçilərin də qiymətləndirdiyi kimi, bütün faciəvi tərəflərinə rəğmən Sarıqamış hərəkatı bir dram deyildi, qəhrəmanlıq dasta-

nı idi. Dilində "kəlmeyi-şəhadət", qəlbində Vətən sevgisi Allaha təslim olan qəhrəman türk əsgərinin igidlik himni! Sarıqamış döyüşündə indiyədək savaş tarixində misli-bərabəri görünməmiş əxlaq örnəyi – komandan əmrinə itaət yaşanmışdı…

İndi bütün bu suallara cavab verməyə, əyirib-öyürüb gerçəyi üzə çıxartmağa vaxt yox idi. Həqiqət olan o idi ki, hazırkı halda dayandığı Çeğan təpəsinin dar keçidində qarşıdan hiss edilən, əsgərlərinin seyrəlməsi səbəbindən yaranan döyüş şəraiti həqiqətən çox namünasib idi. Yenə də Sarıqamış döyüşü gedişi zamanı qərarlı şəkildə yazıb uniformasının döş cibinə qoyduğu vəsiyyətnaməsinin hər cümləsi yaddaşında dolaşmaqdaydı. Dili əsgərlərini qutlayır, onlara ürək-dirək verir, ağlı, düşüncəsi Sarıqamış döyüşünün ən qızğın çağında yazdığı vəsiyyətnamənin son cümlələrini təkrarlamaqdaydı:

"…Bu halda vəsiyyətim: mən vəzifəmi yerinə yetirdiyimi sanıram və o cür də ölürəm. Düşmənə qarşı sonacan mübarizə aparın. Hər halda, axırda müvəffəq olacağıq. Mən hərəkətimə peşman olmadan qəlbən rahat şəkildə ölürəm. Yaşasın dinim, vətənim, padşahım. Əgər geridə qalanlarıma yardım etmək istəsəniz: həyat yoldaşım Sultan Əfəndi həzrətlərinin ödənəyi kafi deyildir. Rahat yaşaması üçün heç olmasa başkomandanlıq maaşımın onun məvacibinə əlavəsini və anamla atamın rifahının yerində olması ilə ilahi rəhmətə qovuşmam üçün bir qədər qayğı göstərilməsi üçün rica edirəm. Yüksəlişinə çalışmaqdan başqa bir məqsəd güdmədiyim din və millətimə dua edir, tanıyanlara salam edirəm. Yaşasın Müsəlmanlıq, Osmanlılıq və Osmanlıların padşahı Sultan Mehmed xan! Sərvət adına bir şeyim yoxdur. Olan-qalan nə varsa rəfiqim Sultan Əfəndi həzrətlərinə buraxıram: Ənvər"

Sarıqamış hərəkatının planı yaxşı hazırlanmışdı, ancaq tətbiqi uğurlu alınmamışdı. Sonralar rus və alman zabitləri, hərbi yazarlar Sarıqamış hərəkatını ən müxtəlif yöndən dəyərləndirib ümumi uğursuzluğuna rəğmən yenə də türk əsgərinin mübarizliyinə

olan heyranlıqlarını ifadə edəcəkdilər: "Sarıqamış hücum planı qəti nəticəni sürətlə əldə etmək üçün yaxşı plan idi. Ancaq bölgənin şərtləri nəzərə alınmamışdı, tədarük məsələləri yetərincə həllini tapmamışdı. Türk ordusunun komandirləri məlumatlı, cəsur və mübariz idilər, amma döyüş təcrübələri kifayət qədər deyildi. Xüsusilə türk əsgərinin səbri, cəsarəti, intizamı, əmrə tabeçiliyi, mühasirə əməliyyatına sona qədər dayanmaları möcüzə kimi idi. Bütün bunlar sübut edir ki, türk əsgəri məğlub olmayıb. Ənvər Paşanın yeganə istəyi bir an əvvəl Sarıqamışa çatmaq idi. Qərargah komandirləri isə hər vəchlə onun bu qərarına mane olmağa çalışırdılar".

Sarıqamış döyüşü öncəsi havalar yaxşı idi, sonradan havaların birdən-birə kəskin dəyişməsi də uğursuzluğa aparacaqdı. Üstəlik də ordu korpusları arasında koordinasiyanın təşkil edilməməsi, girişilən əməliyyatın coğrafi və iqlim şərtlərinin tam olaraq nəzərə alınmaması sonralar Ənvər Paşanın tənqid hədəfi olması üçün əsas götürüləcəkdi... Amma buna qədər də digər uğursuzluqlar və mənhus səbəblər də mövcud idi: Şərif bəy və İhsan Paşa IX Korpus Sarıqamışa çatdığı axşam Ənvər Paşanın hücum əmrini dayandırmayıb davam etsələrdi... Hafiz Haqqı bəy yolu uzatmayıb Sarıqamışa vaxtında çata bilsəydi... Ruslar Araz boyundakı birliklərini sürətlə geri çəkərkən XI Korpus komandiri onları saxlayaraq düşmən qüvvələrinin möhkəmlənməsinə imkan verməsəydi... Bu "şərtlər"in hamısının bir araya gəlməsi ilə şans rus əsgərlərinin üzünə güləcəkdi.

Amma gəl gör ki, bütün bu çatışmamazlıqlarla bir sırada, kimin necə qiymətləndirməsindən asılı olmayaraq başlarında Ənvər Paşa olmaqla böyük bir ordunun uca Yaradana inanıb hər cür çətinliyə, yoxluğa və soyuğa qarşı fövqəladə dərəcədə bir dözüm və mətanətlə qalib gəlmək üçün hərəkət etməsi misilsiz bir hərb nümunəsi idi. Sonralar bəzilərinin Ənvər Paşanın öz fərdi ehtirası, şəxsi mənfəətləri üçün ordunu Sarıqamışın önünə çəkməsi

iddiaları cəfəng idi, yanlış rəy idi... Bu, nəinki mübariz bir paşaya, həm də onun əmrində "Allah... Allah!" deyib ölüm-dirim döyüşünə girən türk əsgərinə, onun qəhrəmanlığına da ünvanlanan bir həqarətdir, haqsızlıqdır. Çünki Sarıqamış hərəkatı sadəcə bir müharibə məğlubiyyəti deyildi, həm də öz əzminə, səbatına, nəhayət, verdiyi qurbanlarına görə böyük türk millətinin fəxarət dastanı idi...

## ON BİRİNCİ FƏSİL

*Dərin-dərin uçurumlar, vərəmli fırtınalar,*
*Bütün-bütün sıxıb əzməkdə ruhumu bu gecə.*
*Səninlə, ah, sənin yadi-həsrətində yanar,*
*Yanar, səni anarım, dilbərim!*

***Hüseyn Cavid***

Vaxtın-vədənin bu məqamında onun üçün təkcə keçmiş vardı… Bütün şüuru, hiss-duyğusu, alıb-verdiyi nəfəs də o keçmişin yanındaydı. O keçmiş haradasa bir az anlaşılmaz idi. Dəli-dolu gəncliyin ram olunmayacaq iddiaları, ötkəmliyi, tələskənliyi, səbirsizliyi və bu səbəbdən hər qədəmdə rast gəlinən qınaqlarla, suçlamalarla zəngin idi. Onun hər addımı yaxıcı bir aldanışla dopdoluydu. Ancaq qürurluydu. Çünki edilən nə vardısa vətən, millət, dövlət naminə edilmişdi. Qüsurlar vardısa, o da bu səbəbdən idi. Fikri, düşüncəsi keçmişlə nəfəs alsa da o keçmişə dönmək, əl uzadıb xətalarını yerbəyer etmək mümkünsüz idi.

Ancaq indi bu keçmişin ən qiymətli anları ilə nəfəs almaq havasızlıqdan boğulan biri üçün nəfəsliyin açılması kimi idi. Xüsusilə sevgili Naciyəsi öz gözəl xəyalı, mehriban surəti ilə daim gözünün önündə, yaddaşının tam mərkəzində məskən salmışdı.

Naciyəyə yazdığı məktubların qorunub gələcək üçün saxlanılmasını özü məktubunda belə rica etmişdisə də, bu qədərini güman etməzdi... Düşünməzdi ki, Naciyənin ən qiymətli yadigar olaraq saxladığı bu məktublar dönə-dönə çap ediləcək, incələnəcək... Sevənlərə, aşiqlərə bir vəfa, sədaqət örnəyi olacaqdır. Bəlkə də bir çox sənədlərdən də dəyərli idi bu məktublar. Paşa öz əlilə yazdığı, ürəyindəkiləri köçürdüyü, gizlətmədən, çəkinmədən sirr bildiyi bilgiləri, olayları bu məktublara etibar etmişdi: "Gözəlim Naciyəm! Ruhum, deyəsən əbədiyyətə yol alıram axı…" Güllələr qarın boşluğuna dolub sanki içəridə nə varsa hər şeyi biçib tökmüşdü, dözülməz ağrıdan gözü yumulsa da beyni özündən asılı olmadan xatirələrin şirinliyinə gömülür, o unudulmaz günlər film kimi gözlərinin önündən keçirdi…

Naciyənin parlaq çöhrəsi gəlib gözünün önündə dayanmışdı. Sevimli həyat yoldaşının iri, ala gözləri, qara qaşları, düzgün biçimli burnu, dolğun dodaqları, yumru, qəşəng çənəsi, ay parçası kimi gözəl və parlaq siması sanki lap bir addımlığında idi. Bu gözəl varlığa qovuşmaq üçün həsrət dolu illərini xərclədiyini, vüsal intizarı ilə hər an, hər dəqiqə onu düşündüyünü, ən qızğın döyüşlərdə belə onu ağlından cıxara bilmədiyini dərin hüznlə xatırladı. Qurumuş qanlı dodaqları az qala özündən asılı olmadan pıçıldadı: "Kaş ki, yanımda olsaydın Sultanım, o gözəl qollarının üstündə can versəydim…"

Naciyə Sultanı hələ kiçik ikən əmisinin oğlu – hal-hazırda hakimiyyətdə olan sultan Əbdülhəmidin oğlu Əbdürrahim Əfəndi ilə nişanlamışdılar. Naciyə bu qərardan heç məmnun deyildi, çünki əmisinin oğlu ilə bir yerdə böyümüşdü, körpəlikdən bir yerdə gülüb-oynamış, uşaqlıqdan qardaş-bacı kimi günlərini bir yerdə keçirtmişdilər. Naciyənin Əbdürrahim Əfəndiyə başqa gözlə baxması mümkünsüz idi. Ancaq əmr yuxarıdan, dövlətin lap başından verilmişdi. Sultan Əbdülhəmidə kim etiraz edə bilərdi? Naciyənin istəsə də, istəməsə də çarəsizcə bu nişanlan-

maya razılıq verməkdən başqa çarəsi qalmamışdı. Özü bununla baglı yazırdı:

"Hürriyətin ilk bayramı əmim Sultan Əbdülhəmid məni üç gün Yıldızda saxladı. Bu üç günü ailəmdən uzaqda keçirmək mənə bayramdan çox, üzüntü və kədər oldu. Anamdan, atamdan ayrı qalmağa öyrəşməmişdim. Əmimin iki böyük qızı Zəkiyə və Naimə Sultanlar, Qadın Əfəndi də daxil olmaqla bütün böyüklər məni əyləndirmək və könlümü almaq üçün səfərbər olmuşdular o üç gündə. Nə edəcəklərini bilmirdilər. Hətta əmim balaca bir teatr və musiqi məclisi hazırlatdıraraq vaxtımı yaxşı keçirməyimi təmin etməyə çalışmışdı. Sən demə, mənim bilmədiyim, sonradan öyrəndiyim bir məqsədləri varmış. Sultan Əbdülhəmid məni oğlu Əbdürrahim Əfəndi ilə evləndirmək istəyirdi. Az qala uşaq yaşında olduğum üçün bunu məndən gizlətmişdilər..."

Həmin vaxt Ənvər Paşa hələ Naciyə Sultanla tanış olmamışdı. Ənvər onda gənc olmasına baxmayaraq artıq orduda ad-san qazanmış bir hərbçi idi. Anası və yaxın qohumları da evlənmə yaşına gəldiyini deyib onu ailə qurmağa razı salmışdılar. Ənvər bəy Osmanlı sarayına kürəkən olmaq üçün ilk dəfə təşəbbüs göstərərək, Sultan Əbdülhəmidin qızı Şadiyə Sultana elçi düşmüşdü, lakin istəyi rədd edilmişdi. Aradan bir az müddət keçəndən sonra Ənvər bəy Əbdülhəmidin digər qızı Refia Sultanla evlənmək istədiyini saraya açıqladı. Yenə də təklifini geri çevirdilər. Digər ittihadçı hərbçilərdən fəqrli olaraq Ənvər bəy dindardı, ibadət əhli idi, oruc – namazını axsatmazdı, içki içməzdi, dürüst, sözünün ağası və olduqca qürurlu bir hərbçi idi. Sultan Əbdülhəmidin üst-üstə iki dəfə onun evlilik təklifini rədd etməsi könlünə toxunmuş, qürurunu qırmışdı. O günlərdə sultan ailəsinə məxsus qızların şanlı-şövkətli sərkərdələrlə evləndirilməsi artıq ənənəyə çevrilməkdə idi. Ordu komandanı, Hərb məktəbində Ənvər bəyin sinif yoldaşı, onun kimi Hürriyyət qəhrəmanı Hafiz Haqqı Paşa da V Muradın nəvəsi Bəhriyyə Sultanla evlənmişdi.

Sonra günün birində Ənvər bəyə Əminə Naciyə Sultan haqqında danışdılar. Ənvər bəy isə artıq Osmanlı sarayından qız almaq fikrini başından çıxarmışdı. Ancaq "İttihad və Tərəqqi"nin rəhbər şəxslərinin tövsiyəsi ilə Ənvər bəy Naciyə Sultanı istəmək qərarına gəldi. Əminə Naciyə Sultan "Krım müharibəsi" adlanan böyük davada rusları darmadağın edən şanlı Sultan Əbdülməcidin nəvəsi, hazırda hakimiyyətdə olan Sultan ikinci Əbdülhəmidin qardaşı qızı idi.

Naciyə Sultan o ərəfələrdə formal şəkildə olsa da Sultanın oğluna nişanlı idi. Ancaq bir məsələ vardı ki, Əbdülhəmidin oğlu da bir neçə saray əyanı ilə bərabər həmin vaxt Səlanikə sürgünə göndərilmişdi, ona görə də Naciyə Sultanın nişanı faktiki olaraq pozulmuş sayılırdı. Naciyənin atası şahzadə Səlim Süleyman da əslində bu nişanın pozulmasını arzu edirdi. Bu əsnalarda Ənvər bəydən başqa bir neçə nəfər də Naciyə Sultana elçi düşmüşdü. Ancaq onların heç biri Naciyə Sultanı görməmişdi və sarayın qaydalarına əsasən hətta onun fotosu belə heç kimə göstərilməmişdi.

Naciyə Sultan ona elçi düşənlərin fotolarına baxaraq qismətini özü seçəcəkdi. Fotolar Naciyə Sultana gətiriləndə o cəsarəti və şöhrəti ilə orduda ad çıxaran gənc minbaşı Ənvər bəyi özünə həyat yoldaşı olaraq seçməyi qərara aldı. Naciyə özü bunu belə anladırdı: "Günlərin bir günü Ənvər bəyin məni Sultan Rəşaddan istəməsindən sonra anam otağa gəlib dedi ki, qızım, artıq böyümüsən, səninlə Əbdürrahim Əfəndidən başqa bir neçə nəfər də evlənmək istəyir. Bunların arasında Hürriyət Qəhrəmanı Ənvər bəy də var. Bu da sənə elçi düşənlərin rəsmləri və isimləri, bax, düşün və qərar ver!"

Gənc Naciyə fotosunu gördüyü Ənvər bəyin haqqında çox eşitmişdi. Dövrün həqiqi qəhrəmanı ıdi. Naciyə onun haqqında bütün yazılanları oxumuşdu. Amma tanıyanlar onun əsəbi, tündməcaz, bir az tərs, bir az inadkar olduğunu söyləmişdilər. Ancaq əlindəki şəkil Ənvərin incə ruhlu birisi olduğundan xəbər

verirdi. Hələ Ənvər bəyin xəfif təbəssümlü baxışları. Dodaqlarının ucunda oynayan dadlı təbəssüm... Qarşısında çox nəcib, incəqəlbli, sevməyə, könül bağlamağa layiq, kövrək birisi dayanmışdı. İlk görüşün təəssüratı beləydi. Baxışırdı hər gün, hər saat əlindəki şəkillə...

Ənvər bəy üzünü heç görmədiyi Naciyə Sultanın onun evlilik təklifini qəbul etməsindən çox xoşbəxt olmuş, sevincindən özünə yer tapmamışdı. Amma bir yandan da qəlbində əndişəsi vardı. Təlaş içində idi ki, görəsən, Sultan Rəşadın istəyinə yox deyə bilməyən Naciyə Sultanın gözü-könlü keçmiş nişanlısında qalmayıb ki? Bu çalpaşıq düşüncələr ona rahatlıq vermir, qısqanclıq qəlbini gəmirir, şübhələr onu yeyib-bitirirdi. Onsuz da fitrətən qısqanc olması bir yandan, digər tərəfdən də qiyabi olaraq aşiq olduğu qadının duyğularını başqası ilə paylaşa bilməsi ehtimalı onu dəli edirdi. Şəkk-şübhə içində qıvrılmaqdansa, bunu məktub yazıb Naciyə Sultanın özündən soruşmaqdan başqa yolu qalmamışdı: “Sıxılmadan söyləyin. Bir-birimizə nikahlandıqdan sonra sizi əvvəlcə nişanlandığınız birini sevdiyinizi və onu uşaqlığınızdan bəri tanıdığınızı söylədilər. Öyrənmək istədiyim budur ki, bu insan hər kimdirsə onu gerçəkdən də sevdinizmi? Yoxsa mənimlə nikahlanmağı da sizə məcburən qəbul etdirdilər? Hələ də onu sevirsinizmi? Hiss etdiklərinizi iki sözlə anladın, mənim üçün kifayətdir. Sizi sevirəm. Fəqət əmin olun ki, o adamı hələ də sevirsinizsə və onu bəndənizə tərcih edirsinizsə, hər şeyi qurban verməyə hazıram ki, təki siz bəxtiyar və xoşbəxt olun. Sizin xoşbəxt olmağınız naminə mənim üçün çox qiymətli olan sizi belə unutmağa da hazıram. Mənə həqiqəti yazın...”

Uzun bir intizardan sonra nəhayət ki, cavab gəlmişdi, Naciyə Sultanın keçmiş nişanlısını heç sevmədiyini öyrənəndə qəlbindəki şübhələr ərimiş, az qala uşaq kimi sevinmişdi: “Ruhum, Oh! Məktubunuzu oxuduqca gözümdən yağış kimi yaşlar tökülür. Sizin o gözəl ruhunuzu sıxdım, rica edirəm, qüsurumu bağışlayın.

Məktubumda da yazdığım kimi sizi fövqəladə sevdiyimdən belə bir qabalığa yol verərək olan-olmaz şeyləri soruşdum."

Ənvər bəyin Naciyə Sultana olan sevgisi elə bir platonik eşq idi ki, kimə desəydin ki, zabitəli bir paşa heç üzünü görmədiyi qıza dəli-divanə kimi aşiq olub, bəlkə də heç kim inanmazdı. Özünün iştirakı olmadan nikahları kəsilmişdi. Nikahında vəkili Mahmud Şövkət Paşa olmuşdu.

Rəsmən evli olsalar da aralarında yenə böyük maneələr var idi. Ənvər Paşa vəzifəsinin tələb etdiyi kimi daim İstanbuldan kənarda iş başında idi, vəzifəsini icra edirdi. Digər böyük bir əngəl isə Naciyə Sultanın anası Ayşə Tərzitər xanım əfəndi idi. Naciyənin anası düşünürdü ki, xəyalpərəst, islaholunmaz bir idealist olan Ənvər Paşa günlərin bir günü ya orduda, ya da elə küçədəcə hansısa sərsərinin bir gülləsinə qurban gedəcək, ona görə də qızının gələcəyi naminə onu Ənvərdən uzaq tutmaq istəyirdi. Görünür, anası Naciyəyə onunla evlənmək istəyənlərin fotolarını verəndə qızının Ənvər Paşanı bəyənəcəyini düşünməmişdi. Onun fikrincə, üstəlik Ənvər qızı üçün xeyli yaşlı idi. Aralarında xeyli yaş fərqi vardı, nişanlananda Naciyənin on dörd, Ənvər bəyin iyirmi səkkiz yaşı tamam olmuşdu. Ayşə Tərzitər xanımın indi qismətə boyun əyməkdən başqa çarəsi qalmamışdı. Çünki bu xeyir işə pəl vurmaq Sultan Rəşada qarşı çıxmaq idi. Sultan Rəşadı hakimiyyətə gətirib taxta oturdan Ənvər Paşa deyildimi?! Keçmiş nişanın pozulması və Naciyəyə həyat yoldaşı olaraq Ənvərin namizədliyi onun istəyincə olmuşdu.

Bu işdə bir qəribəlik də vardı: əvvəlcə Osmanlı sarayından qız istəmək, Naciyəyə elçi düşmək siyasi evlilik məqsədi daşısa da, çox az zaman keçdikdən sonra Ənvər bəy üzünü belə görmədən ona dəlicəsinə aşiq olmuşdu. Naciyə Sultana yollayacağı ilk məktubla böyük bir sevginin bünövrəsi qoyulacaqdı, bir-birini sevən iki aşiq illərlə vüsal xəyalı ilə yaşayacaq, uzun müddət bir-birini gözləyərək ilk görüşməni xəyal edəcəkdilər: "Sultanım, Ru-

hum, uzun düşüncələrdən sonra nəhayət, ilk məktubumu yazıram. Qəlbim səbəbini anlaya bilmədiyim bir çox hisslərin təsiri altında titrəyir. Pak simanızı hələ ki, görmək şərəfinə nail olmamışam. Kim bilir, indiyə qədər bəndənizi necə təsəvvür edirsiniz? Hər halda hər şeyi gözə alaraq böyük bir hökuməti devirmək üçün üsyan edən bir hərbçi nəzərinizdə kim bilir bəlkə də sizə qarşı da qaba, xətrinizə dəyə biləcək birisidir. Fəqət, Ruhum, ilk baxışdaca bəndənizə qarşı burada təsadüf etdiklərimin dedikləri kimi siz də dərhal nə qədər müti, nə qədər sizi sevəcək, hər arzunuzu müqəddəs bir vəzifə bilən birisi olduğumu anlayacaqsınız. Nə olardı, bircə dəqiqəcik bir-birimizi görüb danışmış olsaydıq... O vaxt heç bu uzun sözlərə də lüzum qalmayacaqdı." Amma yenə təsəllisi də özündən gəlirdi: həyat təkcə ayrılıqdan ibarət deyil, görüşəcəyik hökmən, çox yaxında...

...Amma indi sonuncu ümid də solub saralmaqda, səbir də kəsilməkdə idi. Günəş batırdı, qürubun rəngi narıncıya boyanırdı, uzaqlardan gələn səslər də kəsilmişdi. Bir savaşçı ömrünün qürubuna da lap az müddət qalmışdı, qaş qaralırdı...

...Ənvər Paşa Naciyə Sultandan cavab məktubları aldıqdan sonra nişanlısına dərin bir eşqlə bağlanmış və fürsət düşdükcə bu sevgini məktublarında təfsilatı ilə ona ərz etmişdi. Ancaq bu şəkildə dəlicəsinə bir eşq nədənsə Naciyə Sultana inandırıcı görünmürdü. Məktublarının birində ona qəribə görünən bu qeyri-təbii durumu və hiss etdiklərini də Ənvər bəyə yazıb bildirmişdi.

Naciyənin onun sevgisinə şübhələr duyduğunu yazdığı məktubdakı sözlər Ənvər Paşanı xeyli incitmişdi. Ənvər bəyin cavabı ləngiməmişdi: "Sultanım, ruhum, cicim, əfəndiciyim, sizə yalan söyləmədim. Bəli, sizi sevirəm. Bunu yazmağım sizi aldatmaq üçün deyildi, həqiqəti bildirmək üçündü. İnşallah, Cənabi-Haqq qismət edib, bir araya gəlməyə ömür vəfa edərsə, o zaman sözlərimin yalan olmadığını təsdiq edərsiniz, Ruhum... Cicim, təkrar edirəm, indi siz mənim üçün dünyada ən müqəddəs bir

vücudsunuz. Bunu belə ərz edirəm, vallah, qorxa-qorxa yazıram. Əcəba, yenə sözlərimə inanmayacaq, məndən inciməyəcəksiniz ki? Məsələn, səni sevirmiş kimi görünmək istəyimə qane olduğunuzu yazaraq bununla da sizi sevmədiyimə işarə vurursunuz. Ruhum! İndiyə qədər yalan söyləmədim. Sizə qarşı qəlbimdə sevgi hiss etməsəm, sizi sevirəm deməərəm. Çünki bununla həm özümü, həm də sizi aldatmış olaram. Bu halda isə heç bir şeydən bəhs etməyərək anlamsız, sözgəlişi bir neçə kəlmə yazıb keçərdim. Sizi sevib-sevmədiyimi, sizin istirahətinizi nə qədər düşündüyümü inşallah, bir arada yaşamağa başladığımız zaman bizə göstərər..."

Ənvər Paşa Naciyənin şübhələrini yoxa cıxartmaq üçün əlləşsə də, öz qəlbindəki qısqanclıq mərəzinin öhdəsindən gələ bilmirdi. Xüsusilə də son dönəmlərdə qəlbinə elə bir həsrət qənim kəsilmişdi ki, az qala yuxularında da kimlərinsə Naciyəni onun əlindən alıb uzaqlara aparması ilə bağlı qorxulu yuxular görürdü. Hətta övladları olandan sonra da bu qısqanclıq azalmaq əvəzinə daha da artmışdı. Onu tək qoyduğu üçün özünə bəraət qazandırır, bundan ötrü:

"... Ah! Naciyə, nə edirəmsə sənin üçün edirəm, dünyanı ayaqlarının altına sərmək üçün!" deyirdi. "Məni unutma, sev və sadiq qal. Düşün ki, yalnız səni düşünən və dünyanı yalnız səninlə gözəl görəcək birisi uzaqlarda səndən sədaqət və məhəbbət dilənir. Səni bağrıma basıb öpürəm, balalarımla birgə Allaha əmanət edirəm".

...Ölüm ayağında ildırım sürəti ilə ağlından keçdi ki, evlilik həyatı vur-tut cəmi səkkiz il çəkib, onun da elə dörd ili Birinci Dünya müharibəsinə təsadüf edirdi. Ənvər bəy də davamlı olaraq müharibələrdə, döyüş meydanlarında, yollarda, sürgünlərdə… Demək, canı, nəfəsi bildiyi Naciyəsindən, ailəsindən də güclü sevdiyi varmış – o da məzlum, əli-qolu bağlı, kimsiz-kimsəsiz ana Türküstan və dönmədiyi Turan amalı. Elə bundandır ki, hər ixtiyarı, hər bir qərarı özündə olsa da, bu yolda öləcəyini biləbilə dönməmişdi canının bir parçası Naciyəsinə. Çünki o bir

qəhrəman hərbçi idi, kimlərinsə ona "məğlub oldu, yenildi, döndü" deməsinə qüruru yol verməzdi. Bir də ki, dünyalar qədər sevdiyi həyat yoldaşının yanına məğlub olaraq dönə bilməzdi. İndi bu qədim Türküstanın ucsuz-bucaqsız, susuz çöllərində canını Allaha tapşırarkən düşündü ki, həyatının qaçaqov içində keçən son dönəmlərində artıq taleyinin necə çizildiyini, sonunun necə olacağını əvvəldən hiss edirdi…

## ON İKİNCİ FƏSİL

*Tarixini bilməyənin coğrafiyasını*
*başqaları müəyyənləşdirər...*
***Bir divar yazısından***

Zaman çox sürətlə keçmişdi. Dörd il öncə doğma İstanbulda bakılı həmfikirləri ilə əyləşib Azərbaycan torpaqlarını erməni-rus işğalından hansı yolla azad edəcəklərini məsləhətləşdikləri vaxt elə bil dünən, ya elə bu günün özündə olmuşdu.

1918-ci il... Azərbaycan Milli Komitəsinin Osmanlı hökuməti ilə danışıqlar aparmaq üçün İstanbula göndərdiyi Nağı bəy Şeyxzamanlı artıq İstanbuldadır. Azərbaycan ictimai fikrində önəmli yerə sahib olan, tanınmış publisist Ömər Faiq Nemanzadə də onunladır. Qonaqlar hərbi nazir Ənvər Paşayla, Baş nazir Tələt Paşayla, ədliyyə naziri Xəlil Paşayla görüşdən necə də ümidli idilər… Bütün bu günlərdə üzlərindəki sevinc də daim onlarladır.

Hərbiyə Nəzarətinin binasında Şərq üslublu, şəbəkəyə tutulmuş bəzəkli otaqdadırlar. Nağı Şeyxzamanlı etimadnaməsini Tələt Paşaya təqdim edəndə onun nəzərləri qeyri-ixtiyari olaraq sənədin üzərindəki ay-ulduz rəsminə dikilib qaldı, məmnunluğunu gizlətmədən vərəqi Ənvər Paşaya göstərdi:

– Gözəlliyi görürsünüzmü?

Nağı Şeyxzamanlı fürsəti qaçırmadan izahat verdi:

– Əzizlərim, dili, dini bir olan Azərbaycan xalqı uzun illər idi imperiya zülmü altında inləməkdəydi. Qafqaz işğal edildiyi zaman səkkiz xanlığı olan Azərbaycan türkləri sizinlə dili bir, dini bir, adət-ənənələri bir olan qardaşlarınızdır. Millətimiz illərlə mübarizə aparıb boyunduruqdan azad oldu. İstiqlalımızı qazandıq. Ancaq bu müstəqilliyi qoruyub-saxlaya bilmək üçün sizlərə, qardaş Osmanlı dövlətinin köməyinə böyük ehtiyacımız var. Bizi hər yandan sıxırlar. Azərbaycan xalqı sizdən kömək gözləyir. Bizə böyük hərbi qüvvələr yox, hərbi mütəxəssis və çavuş kadrları göndərməyinizi, ordu quruculuğumuza kömək etməyinizi rica edirik… Bizim tezliklə güclü bir ordu qurmaq imkanımız var. Sadəcə, mütəxəssis sarıdan sizin köməyinizə ehtiyac duyuruq…

Ənvər Paşa dedi:

– Əmin olun, hər arzunuzu yerinə yetirəcəyik…

Dedi və etdi də!..

Bunu özünə mənəvi borc bildiyi üçün… Çünki kimliyindən asılı olmayaraq harada bir türk yaşayırdısa, Ənvər Paşa onu özünün qan qardaşı, canının ayrılmaz parçası hesab edirdi. O yeri özünə vətən bilirdi. Həmin o tarixi görüş günü canının-qanının bir parçası olan azərbaycanlı qardaşlarının nümayəndələri ona vəziyyəti anladır, qardaş köməyi istəyirdilər. Etməyə bilməzdi. Azərbaycanlı qardaşları müstəqil dövlətlərini qurmaq və ermənirus işğalından qurtulmaq üçün Osmanlı ordusunun xilaskar missiyasına güvənirdilər. Onları sındırmaq, naümid qoymaq olmazdı.

İnsafən, Nağı Şeyxzamanlı çox gənc olmasına baxmayaraq həmin görüşdə Osmanlı ordusunun rəhbərliyi qarşısında Azərbaycanda olan hərbi-siyasi vəziyyəti çox dəqiqliklə diqqətə çatdırırdı və bu məlumatlar Ənvər Paşanın çevik qərar

verməsinin yolunu açırdı. Axı paşa sıravi bir hərbçi deyildi, Osmanlı dövlətinin siyasətini idarə edənlərin ön sırasındaydı. Birinci Dünya savaşı illərində hərbiyyə naziri kimi ən mühüm vəzifəni daşıyırdı. Sahib olduğu mövqe ona imkan verirdi ki, azərbaycanlı qardaşlarına kömək məqsədi ilə qoşun göndərilməsi barədə qərar qəbul etsin. Belə də etdi. Heç bir tərəddüd göstərmədən… Həmin o xilaskar orduya komandanlıq etməyi əvvəl şahzadə Ömər Faruqa və Kazım Qarabəkir Paşaya təklif etdi. Amma son anda bu vəzifəni qardaşı Nuri Paşaya həvalə etdi. Məsələ onda deyildi ki, bu zaman Nuri Paşanın qardaşlıq duyğusunun üstün gəlməsi onun öz qərarından vaz keçməsinə səbəb olmuşdu. Yox... Bu təklif işlərin gedişi ilə bağlı bu günlərdə tez-tez onunla görüşüb məsləhətləşən Nağı bəydən gəlmişdi. Aralarında belə bir söhbət olmuşdu:

– Paşam, sizinlə açıq danışmaq istəyirəm…

Ənvər Paşa da özünəməxsus şəkildə, hərbi ədayla "Buyurun, əfəndim, çəkinməyin, nə xüsusda danışmaq istədiyinizi açıq deyin" – söyləmişdi.

Nağı bəy neçə gündən bəri ürəyində yığılıb qalanları dilə gətirmişdi:

– Biz Qafqaz türkləri iki qüvvəyə inanırıq, – yuxarıda Allaha, aşağıda şəxsən sizə! Eşitdiyimə görə, sizin Nuri Paşa adında bir qardaşınız var. Sizdən xahiş edirəm, mümkünsə Qafqaza göndərəcəyiniz qüvvənin başına Nuri Paşanı təyin edəsiniz.

Ənvər Paşa bu təklifi gözləmirdi:

– Səbəb?

– Gizlətməyəcəyəm, üç gündür göz qoyuram, sizin Qafqaza gedəcək əsgərlərə komandan təyin etdiyiniz şahzadəni hər axşam otel salonunda içki içib, rəqs edən görürəm. Bizlərdə belə şeyləri xoşlamazlar.

Paşa xəfifcə qımışdı, heyrətini gizlədə bilmədi, təəccüblə astadan:

– Nağı bəy, sizdə, orada içki içmirlərmi?

– İçirlər Paşam, ancaq pivə kimi zəif alkoqollu içki, yaxud da şərab içirlər. "Vodka" deyilən sərt içkidən isə ruslar istifadə edirlər. Bizdə içki içərlər, ancaq sərxoş olmaq üçün deyil.

Tutarlı dəlil qarşısında xeyli susub qalmış, dərin xəyala getmişdi. Bilirdi ki, bu adam boşuna söz deməz. Anlayırdı ki, Sultan Vəhidəddinin kürəkəni, eyş-işrətdən başı açılmayan bir gənc olaraq Ömər Faruqun hələ ilk baxışdan belə bu cür böyük məsələdə ümid verə bilməməsi təbiidir. Odur ki, razılıq cavabını da gecikdirmədi:

– Yaxşı, siz deyən olsun. Mən razı. Amma Nağı bəy, Nuri çox cavandı, bu xüsusda onunla da danışmağım gərəkdi…

– Necə məsləhət bilirsiniz!

Sonra telefonu götürüb dəstəyin o başında dayanan köməkçiyə qəti tapşırığını verdi:

– Diqqət yetirin, Qafqaza gedəcək zabitlərin içki içib-içmədiklərini yoxlayın. Hər birinin dilindən Qafqazda olduqları müddətdə içki içməyəcəkləri barədə yazılı kağız alın. Deyin ki, mənim göstərişim belədir…

Ertəsi gün təbəssümlə qarşılamışdı Nağı bəyi:

– İstədiyiniz baş tutdu. Mən Nuri ilə danışdım. Təklifinizi xoşluqla qəbul etdi.

Əlbəttə, gələcəkdə dövlət təhlükəsizliyi idarəsinə rəhbərlik edəcək gənc Nağı bəyin narahatlığı, əndişəsi bu zaman təkcə komandanın içkiyə meyli olub-olmamasına görə deyildi. Onu daha çox Nurinin əfsanələşən cəsurluğu cəlb etmişdi. Rusiyadakı ard-arda baş verən çevrilişlərdən sonra ölkədəki faciəvi anarxiyanı, şeytani xaosu yalnız belə cəsur və qətiyyətli komandan xilas edə bilərdi. Həm də hərbiyyə nazirinin qardaşı əl qoyduğu bütün işlərdə öz qardaşından istənilən dəstəyi anında alacaqdı. Belə də olacaqdı. Xülasə, təklifi təsdiqlənib həyata keçərkən Şeyxzamanlı toxdaq səslə:

– Ənvər bəy, siz də heç nigaran qalmayın, bu gündən öz əzizimiz kimi yanında olacağıq Nuri Paşa bəyin. Yolunda hər nə olur-olsun, sinəmizi qabağa verəcəyik. Əmanətini əmanətimiz biləcəyik.

Azərbaycanlılar Nağı Şeyxzamanlının dediyi kimi, sonunadək Nuri Paşanın yanında oldular, verdikləri vədi yerinə yetirdilər! Ənvər Paşa da sözünü tutdu.

Osmanlı dövlətinin Qafqaz siyasətinin təşəbbüskarlarından biri olan Ənvər Paşa Azərbaycanın müstəqillik uğrundakı fəaliyyətinin hər bir detalını izlədiyi, nəzarətə götürdüyü kimi, türk qoşunlarının Azərbaycanı tərk edəcəyi təqdirdə Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə cəhd göstərilməsinə də xüsusi diqqət yetirirdi...

## ON ÜÇÜNCÜ FƏSİL

***İntizar gözlərdən Xəzər doğuldu,***
***Həsrət ürəyimiz yanar dağ oldu,***
***Dillərimiz "Turan!" deyə yoruldu,***
***Turan ellərinə salam söyləyin...***

***Cəfər Cabbarlı***

Buxara səmtindən ayrılıb Qərbi Türküstan torpaqları boyu hərəkət etdiyi günlərdə hər addımbaşı bu pirani bölgələrin aydınlarının dilindən eşitdiyi deyimləri sıx-sıx xatırlamaqdaydı:

*Qul Xacə Əhməd, candan keçib yola gir,*
*Ondan sonra ərənlərin yolun seç…*
*Allah deyibən bu yolda canın ver,*
*Bu yolda can verməsən imkanı yox.*

İndi can veriləcək yola girmək məqamıydı…Bu yolun yolçusu olanların aqibətini də yaxşı bilirdi. İndi onun yeni ömrü – yeni idealları uğrunda yol aldığı Türküstan səhifəsi, belə açılırdı. Özü də bilmirdi ki, bu səhifələr yavaş-yavaş tükənməkdə, ömür kitabının epiloqu yaxınlaşmaqdaydı…

İndi Pamir dağının ətəyinə dirənib təkləndiyi, köməksiz qaldığı bu macalda Ənvər Paşa daha çox öz sözünü, əhdini sonacan

tuta bilən azərbaycanlı qardaşlarının, milli mübarizə yolunda bir addım da olsun belə geri ayaq qoymayan o mərd insanların onun yanında olmağını istəyirdi. Yanında azərbaycanlı dostlarından bircə Axund Yusif Ziya Talıbzadə vardı. İndi bu vəfalı dostu – şir ürəkli Yusif Ziya da onun kimi doğulduqları yerdən uzaqlaşdıqca elə bil bir az kövrəldiyindən:

*Burda yolum oldu tən,*
*Varmı bu yoldan ötən?!*

– deyə tez-tez ürək tellərini saz kimi dilləndirib özünün bayatı adlandırdığı bu qısa, amma xeyli mənalı bayatılarla qəlb acısını çatdırırdı:

*Bu dünyada şirin şey –*
*Bir anadır, bir Vətən.*

Ənvər dili, dini və məsləki bir olan o azərbaycanlı qardaşları, o doğma diyarla bağlı olan xatirələr ilə bir ömür boyunca baş-başa qalmaq istəyirdi…

…Heç unutmurdu Nağı bəyin onu Bakıya qonaq dəvət etməsini. Dərin sayğı və səmimiyyətlə:

– Gəlin, müsafirimiz olun – demişdi Nağı bəy, – Bakı əhli yolunuzu gözləyir. Gözümüz üstə yeriniz var... Üzü yaza gedir, gəlin. Bizlərdə yaxşı üzüm, əncir olur, hələ qara kürü – sizlərdə buna havyar deyirlər…

Minnətdarlıq etmişdi Ənvər Paşa:

– Sağ olun, təşəkkür edirəm… Başqa vaxt, inşallah.

Sonra Nağı bəylə söhbətini xəyalən davam etdirdi:

– Atam Əhməd bəy Bakıdadı… Bakı sanki bizim bir növ ailə məsələmiz oldu; bax, komandan qardaşım Nuri Paşa, Şərq qrupu komandanı əmim Xəlil oradadı. Nəfəslərini duyuram. Aldığım hər nəfəsdə sizlər varsınız. İnşallah, vaxtın imkan verdiyi günlərin birində mütləq özüm də Azərbaycana gələcəyəm…

Dərin bir əminliklə:

– İnşallah! – deyə söhbəti bitirmişdi Nağı bəy…

Qeyri-ixtiyari hər ikisinin nəzərləri məchul bir nöqtəyə dikilib qalmışdı...

Nağı bəy vidalaşarkən xalqı, milləti adından bir daha təşəkkür etmişdi:

“Bizlərlə nəfəs aldığınızı yaxşı bilirik. Azərbaycan öz xilaskarlarını heç unutmadı. Unutmayacaq da. Qardaşınız Nuri Paşa indi bizim də millət qəhrəmanımızdı. Minnətdaram ki, o zaman sözümüzü yerə salmadınız və Nuri Paşanı Qafqaz İslam Ordusunun başına gətirdiniz, şükür ki, hər şey istədiyimiz kimi oldu. Azərbaycan Nuri Paşanı doğma övladı və sizin şəxsinizdə, milli qəhrəman, xilaskar olaraq qəbul etdi. Söz verdiyimiz kimi həmişə yanında olduq… Nuri Paşa da Azərbaycanın yanında oldu, onun hərbi dəyanəti olmasaydı, Azərbaycanın istiqlalı müşkül olardı...”

Nağı bəy kömək ardınca İstanbula gəlmədən öncədən bu köməyin qarşısı Nargin adası ilə açılmışdı. Rusların Sarıqamışdan və həmçinin Qafqaz cəbhəsinin əhatələndiyi yerlərdən əsir götürdükləri türklər ilk öncə yaxınlarda – Xəzər dənizindəki Böyük Zirə – Nargin adasında saxlanılırdı. “Cəhənnəm adası” adlandırılan bu ilan mələyən adadakı əsirlərin ağır şəraiti bakılı ziyalıları çox narahat edirdi; onlar kömək etməkdən qalmır, buradan düşünülmüş şəkildə əsir zabitləri oradan azad edir, onlar da müxtəlif bölgələrdə əsgər hazırlığı aparırdılar. Bu zabitlər isə bir-iki ildən sonra Azərbaycana yardıma gələn Qafqaz İslam Ordusuna daxil olub onun sıralarında vuruşacaqdı...

Həbs düşərgəsində əsirlərin vəziyyətinin dözülməz olduğu haqda ilk dəfə rəsmi şəkildə Azərbaycanın dövlət və ictimai xadimi Nəriman Nərimanov “Hümmət” qəzetinin 28 noyabr 1917-ci il sayında “Göz yaşı tökdürən cəzirə” məqaləsi ilə çıxış etmişdir.

Doktor Nəriman Bakı Şəhər Dumasına üzv seçildikdən sonra Dumada bununla bağlı Təhqiqat komissiyası yaratmağa nail olmuş və komissiya üzvlərinin təftiş üçün Böyük Zirə adasına göndərilməsi məsələsini irəli sürüb və istəyinə nail olmuşdur. Dumanın komissiya üzvləri – Nəriman Nərimanov, Əbdülbağı Məmmədov, Ağaməhəmməd İbrahimov, Almaniya, Danimarka və İsveçrə səfirliklərinin əməkdaşları Böyük Zirə adasına getdikdə orada əsirlərin saxlanma şəraitindən dəhşətə gəlmişdilər. Nəriman Nərimanov adada Qafqaz cəbhəsindən gətirilən yüzlərlə əsirin olduğunu və çox acınacaqlı şəraitdə saxlandığını gördükdə bunu bir doktor ürəyi və yazıçı qələmi ilə ifadə edirdi: "Bura bir cəzirə deyil, məzardır. Elə bir məzardır ki, min nəfərə qədər adam qıraqda oturub ölmək üçün öz növbəsini gözləyir... Kaş, mən bu cəzirəyə getməyəydim. Kaş, bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş, "əfəndim, su!", "əfəndim, yemək!", "əfəndim, paltar!" sözlərini eşitməyəydim. Kaş, çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş, xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim! Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır..." Doktorun bu harayı öz əsirlərindən bixəbər olan Bakı əhalisini yatdığı qəflət yuxusundan sanki ayıltdı. Dərhal xeyriyyə təşkilatları, ayrı-ayrı qruplar işə başlayır və eyni zamanda gizli surətdə Sarıqamış əsirlərinin qaçırılmasına başlanılır.

1917 -ci ilin noyabr ayında mətbuat xadimi Oruc Orucov "Açıq söz" qəzetində xalqa müraciət etmişdi: "Adada beş mindən çox dindaş və həmvətənlərimiz pis vəziyyətdə yaşayırlar. Onların bu qürbətdə və əsirlikdəki yeganə ümidləri yalnız bizik. Ehtiyacları böyük olduğu üçün böyük yardıma ehtiyac var. Buna görə də insanlıq və millət adından fəlakət qurbanlarına mərhəmət əlinizi uzadın. Hər cür geyim, yorğan, döşək, yastıq və sair ilə yardım edin".

Aparılan ardıcıl işlərin və yardımların nəticəsində xeyriyyə cəmiyyəti tərəfindən adadakı türk əsirlərin həftədə bir dəfə (bazar günləri) Bakıya gəzintiyə çıxarılması üçün icazə alındı. Beləcə türk əsirlərin həftədə bir günlüyə də olsa rahatlıqları və istirahətləri təmin edildi. Türk ordusu Bakıya girənə qədər bu, belə davam edib.

Təkcə Bakının xeyirsevər milyonçuları və zənginləri deyil, sadə xalq da həmin ərəfələrdə Nargin adasında zillət içində "öz ölüm növbəsini gözləyən" qan qardaşlarını unutmurdu. Xeyriyyə təşkilatlarına bacardıqları qədər yardım etməklə yanaşı mənəvi olaraq da daim qəlbləri onların yanında idi. Gənclər əlləri bir yerə yetməyəndə də əsir türk qardaşlarının bir az da dözüb dayana bilməsi üçün Xəzərə çörək atırdılar. "Bəlkə bu bir tikə çörək onlara yetişər" – ümidiylə...

...Müstəqil Azərbaycan hökumətinin "bir oyuncaq" olduğunu və onu tanımayacaqlarını bəyan edən general Tomson Bakının boşaldılmasını istədiyi 1918-ci ilin noyabrında belə Nuri Paşa qətiyyətlə Azərbaycan hökuməti əmr verəcəyi halda Bakını müdafiə edəcəyini bildirmişdi. Qarşılığında ingilis komandanlığı Mudros sazişinin bəndlərini pozduğu üçün Nuri Paşanın təslim edilməsini Azərbaycan hökumətindən istəmişdi. Qədirbilən azərbaycanlılar ingilislərin bu tələbinə məhəl belə qoymamış, Nuri Paşanın artıq, öz istəyilə Azərbaycan hökuməti xidmətinə daxil edildiyini bildirmişlər.

Əslində, bu bəyanatla Azərbaycan tərəfi Nuri Paşanı həm ingilis, həm də rus hökumətinin təzyiqindən xilas etmişlər. Həmin dönəmdə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyətinin üzvləri Versal sülh konfransında iştirak etmək üçün İstanbulda Parisə veriləcək vizanı gözləyirdilər. Azərbaycan parlamentinin sədri həmin vaxt yerli qəzetlərdən birinə verdiyi müsahibəsində Nuri Paşa ilə bağlı fikrini qətiyyətlə ifadə etmişdi:

"Biz məmləkətimizdə hərbi təşkilat yaratmaq üçün Nuri Paşanı cəlb etdik və ondan həddən ziyadə mənfəətlər gördük… Nuri Paşanın indiki anda Azərbaycanda olmasının səbəbinə gəlincə, yalnız onu deyə bilərəm ki, bu, tamamilə Azərbaycan hökuməti ilə azərbaycanlıların arzularından ibarət bir şeydir və Nuri Paşa Azərbaycanda qalacaqdır…"

Yəni, Azərbaycan dövləti və azərbaycanlılar heç vaxt əhdinə, haqq-saya dönük çıxmır, yaxşılığı unutmur, qardaşa arxa çevirmir… Sonralar xatirələrində Əlimərdan bəy Topçubaşov Ənvər Paşanı səmimi duyğularla anır, Bakının azad edilməsi ərəfəsində Azərbaycan hökuməti tərəfindən diplomatik missiya ilə İstanbula göndərilməsindən bəhs edərək o görüşü belə təsvir edir:

"Qapı ağzındakı arakəsmə yanında məni təbəssümlə və irəli uzadılmış əlləri ilə qarşıladı. Özümü təqdim etmək və vəzifəmi bütünlüklə dilə gətirmək istəyirəm. Ancaq Ənvər Paşa "Bilirəm, bilirəm" – deyə sözümü kəsir və məni kresloya oturdur. Özü də oturur və xoş bir təbəssümlə üzümə baxaraq mənə müraciətlə deyir:

– Xoş gəlmisiniz. İstanbul xoşunuza gəlirmi?

Mən bu səmimi qəbuldan çox məmnun qalıram və paşaya Azərbaycan xalqına öz azadlığını qazanmasında etdiyi böyük yardıma görə millətimin sevgisini, böyük sayğısını, minnətdarlığını çatdırıram. Ardınca təvəqqe edirəm ki, Qafqaz Türk İslam Ordusunun baş komandanı, çox hörmətli Nuri paşanın salamlarını ona yetirməyimə izn versin. Mən yola düşərkən o tamamilə sağ və salamat idi və bütünlüklə iki məsələnin həlli ilə məşğul idi: Onun tərəfindən Azərbaycan Ordusu adına təşkil edilmiş yerli alaylarının tezliklə silah və geyimlə təmin edilməsi və əlbəttə, Bakının alınması. Nuri Paşa salam göndərib xahiş etdi sizə çatdırım ki, Gəncənin yaxşı suyu, dadlı üzümü, alması var və xahiş edirik ki, arzu etdiyiniz vaxt bizə qonaq gələsiniz. Diplomatik

söhbətdən daha çox səmimi qohumluq, qardaşlıq söhbətinə oxşayan bu danışıqdan Ənvər Paşa duyğulanmışdı. Axı əvvəldən o, Azərbaycan məsələsinə sanki öz ailə məsələsi olaraq baxmışdı. Bu məsələ baş komandan öz qardaşı Nuriyə, qüvvələrin mənbə yeri ordular qrupu komandanı əmisi Xəlil Kut Paşaya həvalə olmuşdu. Səmimi dəvətə görə çox minnətdarlığını bildirən paşa gülümsünərək:

– Dünən bizim atamız ora yola düşdü. Ancaq daha çox belə bir məhəbbətlə Azərbaycanı sevən qardaşımın komandanlığı altında olan sizin qoşunların uğurlarından məmnunam. Deyin görüm, əhali ona necə münasibət bəsləyir? Axı o, bu yaxınlarda bölgələrə səfər etmişdi?

Mən dedim ki, əhali də Nuri Paşanı ilk gündən göydən enmiş xilaskar mələk kimi qarşıladı və böyük məhəbbətlə sevir. Xalq onun təşkilatlandırdığı yerli hərbi qüvvələrə böyük ümid bəsləyir.

Topçubaşov paşanın marağını, intizarını hiss etdiyindəndir ki, bu yöndə ətraflı məlumat verməyə tələsir:

– Nuri Paşa elə mənim yola düşməyim ərəfəsində Şamaxı və Zaqatala vilayətlərinə səfərdən qayıtmışdı. Əhali öz qoşunlarının baş komandanını təntənə ilə qarşılamış və hər yerdə göstərilən köməyə görə ona minnətdarlığını bildirirdi. Bu kömək olmadan bizim Qafqazda vəziyyətimiz çox ağır ola bilərdi. Şübhə etmirəm ki, Nuri Paşanın rəhbərliyi altındakı qoşunlarımız tərəfindən Bakının alınması bütün müsəlmanlar tərəfindən dərin minnətdarlıqla qarşılanıb və paşanın adına şan-şöhrət gətirəcəkdir. Paşa həzrətləri! Biz başa düşürük ki, bütün bunlara görə sizə borcluyuq və heç bir əlavəyə yol vermədən bunu deməyə cəsarət edirəm ki, öz qardaşınızı belə ağır vəzifə ilə bizə göndərməyiniz Qafqaz müsəlmanlarının qəlbini sizin şəxsinizə daha çox yaxınlaşdırmışdır. Onlar əvvəllər də sizə türk dünyasının parlaq ulduzu kimi çox böyük məhəbbət bəsləyirdilər və

həmin faktı sizin azərbaycanlı qardaşlarınıza olan məhəbbətin sübutu kimi qəbul edirlər.

Ənvər Paşa hərarətlə:

– Çox minnətdaram. Mən öz borcumu yerinə yetirdim və əgər mənim qardaşım orada belə bir təəssürat yaradıbsa, bundan hədsiz məmnunam...

## ON DÖRDÜNCÜ FƏSİL

*Türk can qoydu bu torpaqda "Azərbaycan" deyə-deyə,*
*Tarix, səni oxuyuram mən türkə "can" deyə-deyə...*
***Nəriman Həsənzadə***

Ənvər Paşa bütün bu hadisələri ən xırda detalına qədər bilirdi... Hətta Nuri Paşanın Batumda yerləşdirilməsi məsləhəti də ondan gəlmişdi. Bilirdi ki, ingilislər Nuri Paşanın Bakıda ermənilərdən qisas alıb onları cəzalandırdığını iddia edir və bu bəhanəylə paşanı həbs etməyə çalışırlar. Batumda inandıqları, arxalandıqları adamlar çox idi. Özü də sonralar Bakıda Şərq xalqları konfransından sonra çıxıb Batuma getmiş, buradan da dənizi keçərək o vaxtlar Ərzurumda sədaqətli Kazım Qarabəkir Paşanın himayəsində olan qardaşı Nuri ilə üzbəüz görüşüb yaxınları, ailəsi haqqında xəbər almaq niyyətində idi. Lakin yay fəsli olmasına baxmayaraq onun mindiyi qayıq fırtınaya düşmüş, o da kor-peşman Batuma geri qayıtmalı olmuşdu.

Elə o zaman Nuri Paşa da qardaşının sözüylə bir müddət Batumda qalmalı olmuşdu. Lakin yola çıxmaq fürsəti yaranan kimi başındakı kiçik dəstəsi ilə oradan çıxıb İstanbula gəldikdə elə limandaca həbs edilib geri – Batuma qaytarıldı və altı ay burada

həbsdə saxlandı. Hamı bilirdi ki, onun buradan sağ çıxmaq ehtimalı yoxdur və ingilislər onu edam etməyə hazırlaşırdılar. Nuri Paşanın həbs edilməsi xəbəri Azərbaycana çatanda bu, ölkədə çox ciddi narahatçılıq yaratdı və onun azad edilməsi üçün yollar axtarışına başlandı. Bu məsələ ilə bağlı Yevlaxdan iyirmi yeddi nəfərin imzası ilə Azərbaycan parlamentinə xüsusi bir teleqram da göndərilmişdi.

Ancaq rəsmi yolla Nuri Paşanı azad etmək mümkün deyildi. Bir tərəfdən ingilis qoşunları komandanlığı, digər tərəfdən də erməni daşnakları Nuri Paşanı sağ buraxmaq istəmirdilər. Belə olanda başqa vasitələrə də əl atıldı.

Nağı Şeyxzamanlı həmin vaxt Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi xidmət orqanı olan Əksinqilabla Mübarizə Təşkilatının sədri idi. Məsələni biləndə dərhal Gəncəyə zəng etdi:

– Nuri Paşa ilə bağlı aldığım xəbər doğrudurmu?

– Elə bu barədə biz də yenicə məlumat almışıq. Təəssüf ki, vəziyyət bu yerdədi. Onu, guya, Bakıda erməni soyqırımı etdiyinə görə günahlandırırlar.

– Necə yəni erməniləri soyqırım etdiyinə görə?! O ki, əslində Gəncədə və Bakıda erməniləri mühasirədən xilas edib, onların həyatını xilas edib…

– İndi bunu kimə deyəsən? Kimi başa salasan? Erməni xislətini özün ki, yaxşı bilirsən. Əllərinə fürsət düşən kimi vay-şivən salıblar. İngilislərə də elə bu lazımdı. Bəhanə gəzirlər.

– Olsun! Yalanın ayaq tutduğunu, ancaq yeriyə bilmədiyini göstərərik onlara! – qeyzlə dəstəyi yerinə qoymuşdu Nağı bəy.

Dərhal da hərəkətə keçmişdi. Axı vətənin ağır günündə gedib Türkiyədən kömək istəyəndə və öz təşəbbüsü ilə Nurini bu qüvvələrə komandan istəyəndə onu bir an tək qoymayacağına, ondan muğayat olacağına söz vermişdi. İndi necə deyərlər, ingilislərin öz üsulu ilə əks-tədbirlərə keçmək gərək idi; yəni heç yubanmadan Gəncə ermənilərinin imzaladığı bir sənəd əldə

etmək lazım idi ki, Nuri Paşa əslində onların həyatını xilas edib. İlk növbədə qanunun, haqq-ədalətin bərpasına çalışıb. Günahsız yerə heç kəsin qanının tökülməsini istəməyib. Heç kəsə pisliyi keçməyib… İnanıram ki, Gəncədə ermənilər heç olmasa bu dəfə nankorluq etməyəcək. Ancaq etdilər…

Nağı bəy sanki yüz ömür sığışdırdığı bu gənc ömründə qoca dünyanın çox üzünü görmüş, insan təbiətinin zamana və şəraitə görə dəyişməsinə şahid olmuşdu. Amma belə nankor və axmaq bir xislətlə üzləşə biləcəyini ağlının ucundan belə keçirməmişdi. Ömründə ilk dəfəydi ki, belə, bu cür sarsılırdı, dünənə qədər gördükləri yaxşılığa görə çəkmələrinin tozunu silməyə hazır olan ermənilər min bir bəhanə ilə yaxalarını indi kənara çəkirdilər. Deyirmişlər ki: "Ay-hay, guya bilmirik ki, əllərində əsir kimi tutdularsa da niyə bizə dəymədilər? Çünki bilirdilər ki, başımızdan bir tük əskik olarsa, Bakıdakı əhalidən min qat bunun əvəzi çıxılacaq. Yoxsa, sizin ermənilərə sevginizin çoxluğundan imiş bu mərhəmət?"

Nağı bəy təəssüflə başını yırğaladı:

– Eybi yox! Qoy erməni namərdliyinin bu üzünə də bələd olaq… Dərs olsun bizə! Yenə də Allah özümüzünkülərə versin. Baxaq, görək neynəyirik…

Vaxtı itirmədən Bakıya döndü. Onu Nəsib bəy Yusifbəyli qarşıladı. Baş nazir vəziyyətdən halı olsa da təəccübünü gizlədə bilmədi:

– Nağı bəy, sizi heç vaxt belə pərişan görməmişəm.

– Necə pərişan olmaya bilərəm ki, erməni nankorluğu üzündən Nuri Paşanın xilası üçün haqqı çatan sənədi ala bilmədim. Ermənilər bu dəfə də xəyanət etdilər, mənfur üzlərini göstərdilər… Heç bilmirəm nə edim! Ənvər Paşaya söz vermişəm axı! Qardaşını gözlərimiz üstə saxlayacağımızı demişəm. O da mənə "Nuridən ayrılma" deyib. Beləmi qoruyurlar əmanəti? Bakını erməni vəhşətindən xilas edən bir sərkərdənin haqqını qoru-

maq əvəzinə, əlimizi əlimizin üstə qoyub otura bilərikmi? Tarix lənətləməzmi bizi? Günün birində Ənvər Paşa qarşıma dikilib qardaşını sormazmı məndən?

Nağı bəy hikkəsindən qapqara qaralmışdı. Nəsib bəyin təsəllisi çox da gecikmədi, sözləri sanki yanan ocağın üstünə su səpdi:

– İlan-çayandan nicatmı gözləyirdin, Nağı? Qəm eləmə! Paşanı qurtarmağın daha asan yolu var. Batumdan xəbər gəlib ki, cəsur Hopa bəyləri plan hazırlayıblar. Nuri Paşanı zor gücünə xilas edəcəklər. Qaçıracaqlar onu.

– Necə, hansı yolla? Nəyin qarşılığında?!

– Yolu və qarşılığı da məlumdur. Hopa bəylərinin pul-paraya ehtiyacı var. Yubanmadan sən iki yüz min manat götürüb Batuma getməlisən. Göstəriş vermişəm, bir-iki saatdan sonra həmin məbləği sənə çatdıracaqlar. Axşama qədər vaxtın var. Həmən yola düşməlisən.

Baş nazirə necə razılıq edəcəyini belə kəsdirə bilmirdi. Sevincliydi. Ömründə ilk dəfəydi ki, belə rabitəsiz, qırıq-qırıq danışırdı:

– Allah sizdən razı olsun, Nəsib bəy! Allah razı olsun. Min dəfə sağ olun! Nuri Paşanın boynumuzda böyük haqqı var.

– Ən əsası, xalqımızın, millətimizin başının uca qalmasıdı, Nağı bəy, hər birimizin borcudur ki, ağır günümüzdə bizə arxa olmuş insanların haqqına dönük çıxmayaq.

…Sədaqətli Nağı bəy səhəri gün lap ertədən artıq Batumda idi. Əvvəlcə Azərbaycanın Batumdakı konsulu, doktor Mahmud bəylə görüşdü. Doktor onun çoxdan tanıdığı etibalı adamı idi; vaxtilə İstanbula gedərkən Xosrov bəyin tövsiyəsi ilə o zaman Batum Xeyriyyə Cəmiyyəti sədri olan Mahmud bəydən yola davam etmək üçün icazə kağızları almışdı. İndi də gəlişinin məqsədini üstüörtülü şəkildə anlatdı. Rica etdi ki, imkan daxilində onun Nuri Paşayla görüşməsinə şərait yaratsın.

– Sizi başa düşürəm, Nağı bəy, ancaq indi Nuri Paşayla görüşün baş tutacağına inanmıram. Amma istəsəniz, Mürsəl Paşa ilə

görüşdürə bilərəm. O da ingilislərin komandanlığında nəzarət altındadı.

Təklif Nağı bəy üçün göydən düşmə oldu. Razılaşdılar. Mahmud bəyin yardımı ilə Mürsəl Paşayla görüşüb vəziyyəti götür-qoy etdilər. Mürsəl Paşa elə bəri başdanca durumun çox ağır olduğunu anlatdı:

– Açığını deyim, Nağı bəy, özüm sarıdan elə də narahatlığım yoxdur. Mənə bir şey etməyəcəklər. Amma Nuri Paşanı buraxmayacaqlar. Ola bilsin ki, onu edam edəcəklər. Onun qaçırılmasının yolunu tapın.

Mən daha dayana bilmədim, gəlişimin səbəbini paşaya – özünə gələcəkdə Bakı soyadı götürəcək Mürsəl Paşaya anlatdım. Çox razı qaldı... Dönüb doktora: – Məsləhətiniz nədir? Çıxış yolunu nədə görürsünüz? – dedikdə onun cavabı qısa oldu:

– Qaçırılmalıdı! Ayrı çıxış yolu yoxdur!

– Deməli, Bakıdakı yoldaşların da, sizlərin də fikri üst-üstə düşür. Elə isə, mən sizin qulluğunuzda hazıram.

Razılaşmışdılar. Və əmin-arxayın şəkildə Nağı bəy Bakıya qayıtmışdı.

Bu söhbətdən səkkiz gün sonra Nuri Paşa artıq Bakıda idi… Nağı bəy onu üstündən ağır bir yük götürülmüş kimi qarşıladı:

– Allaha şükür ki, əzizimiz Ənvər Paşanın yanında üzü qara olmadım. Şükür ki, yaradan yolunuzu açdı!

– Allah sizdən razı olsun, – deyə Nuri Paşa mehribanlıqla ona sarıldı, – yenə də sizlərin sayəsində…

Paşanı qəhər boğdu. İsti göz yaşları yanağı boyunca süzüldü. Handan-hana baş verənləri yerli-yataqlı anlatdı. Təəssüf etdi ki, qaçırılmasına kömək edən bir azərbaycanlı atışma zamanı həyatını itirdi:

– Təsadüfə bax, Nağı bəy, həmin gün İstanbuldakı Bəkir ağa bölüyü həbsxanada saxlanan əmim Xəlil Paşa da, köməkçisi, əvvəl Nuri Paşanın yavərlərindən olmuş Bartınlı Mühiddin bəy də

qaçırılıb, xilas olublar. Heç şübhə etmirəm ki, bu işdə də azərbaycanlı qardaşlarımızın əli olub…

– Bu, bizim vəfa borcumuzdur – deyə Nağı onu bir daha bağrına basmışdı. – Allah sizi qorusun! Ənvər Paşanın adı gələn yerdə canımızı da verməyə hazırıq!

…İllər keçəcəkdi, Türkiyə İstiqlal Savaşının tanınmış isimlərindən biri olan, Şərq Cəbhəsinin Komandanı, sonralar Türkiyə Böyük Millət Məclisinin sədri olan Kazım Qarabəkir Paşa, Nuri Paşanın qaçırılmasına rəhbərlik etmiş Təməl bəy adlı bir azərbaycanlıdan baş verən əhvalatın təfərrüatını soruşacaqdı. Cəsur azərbaycanlı olan Təməl bəy də deyəcəkdi ki:

"Nuri Paşa Qafqaz komandanı olaraq qardaşı Ənvər Paşanın sözünü tutdu, məmləkətimizi rus-erməni quldurlarından xilas etdi. Bu səbəbdən də biz onun Batumda həbsdə yatmasına razı ola bilməzdik. Qaçış planı Əhməd adlı bir acar dostumuz tərəfindən hazırlandı, bir neçə yoldaş qərar verdi, mən də icra etdim".

Elə həmin günlərdə Nuri Paşanın azərbaycanlılar tərəfindən Batum həbsxanasından qaçırılmasını həzm edə bilməyən ingilis rəsmisi Edmons özünü didib-tökürdü ki, Nuri Paşa özünü Azərbaycanda öz evindəki kimi hiss edir, xalq tərəfindən tanınır və sevilir. Azərbaycanlıların gözündə Ənvər Paşanın qardaşı əfsanəvi bir qəhrəmandır. Ona görə də Nuri Paşanın ingilislərə təslim edilməsi imkansızdır.

Ənvər Paşa uzaqdan da olsa bilirdi ki, Nuri Paşa məlum hadisələrdən sonra Bakıda çox qalmayıb. Oradan Qarabağa yollanaraq erməni üsyançılarına qarşı döyüşüb. 1920-ci ilin mayında baş verən Gəncə üsyanı zamanı azərbaycanlı qardaşlarının yanında olub, üsyan yatırıldıqdan sonra qalan ordusu ilə bərabər Şuşaya keçib və şəhərə hücum edən rus bolşevikləri ilə vuruşub. Lakin qarışqa kimi üstlərinə daraşan saysız-hesabsız bolşevik ordusu qarşısında çox duruş gətirə bilməyib öz döyüş-

çü yoldaşları ilə Xudafərin körpüsündən əvvəlcə İrana, İrandan Naxçıvana, oradan da Ərzuruma keçib.

Ənvər Paşa bütün bunları ona görə belə yerli-yataqlı, necə varsa elə xatırlayırdı ki, Nuri Paşa bir xalq qəhrəmanı olmaqla bərabər, həm də onun özünü Azərbaycana bağlayan qırılmaz bir bağ idi. O zaman vur-tut otuz – otuz bir yaşı olan Nuri Paşa böyük qardaşı Ənvər Paşanın başını hər hərəkəti ilə uca etmişdi. Azərbaycanlıların haqqını qorumuşdu və bu xalqın qəlbində, yaddaşında öz şərəfli nəslinin, soyunun ölməz abidəsini ucaltmışdı. Eyni zamanda Ənvər Paşanın ayağını Azərbaycan məmləkətinə açmışdı, onun adını Azərbaycan xalqının and yerinə çevirmişdi.

## ON BEŞİNCİ FƏSİL

*Biz bir millət, iki dövlətik.*
*Heydər Əliyev*

1920-ci il sentyabr ayının ilk həftəsində Bakıda, indiki Opera və Balet Teatrında keçirilən Şərq xalqlarının birinci qurultayına Moskvadan böyük bir nümayəndə heyəti tərkibində "İslam ixtilal cəmiyyətləri ittihadı" təşkilatının nümayəndəsi kimi qatıldığı günləri Ənvər Paşa ömrünün ən unudulmaz xatirələrindən hesab edirdi…

Bir neçə gün davam edən Bakı səfərindən aldığı o təəssürat bütöv bir ömrə dəyərdi… Özü saray dairəsi ilə əlaqəli olduğundan sultanların və sultanlarla eyni statusa malik xarici qonaqların qarşılanma mərasimini çox görmüşdü. Buradakı qarşılamalarda gördüyü hərarət, coşqu, gözlərdən axan yaşları isə o öncəki mərasimlərdə görməmişdi. Gəlişindən xəbər tutan Bakı əhli pişvazına çıxmışdı…

Vağzal boyu uzanıb gedən dəmiryolu xətlərinin üzərindən keçib çoxsaylı izdihama doğru irəlilədi… Qarşı tərəfdə böyük bir qələbəlik vardı. Hər kəs bir az da qabağa keçməyə, onu bir az da yaxından görməyə can atırdı. İzdihamın hərarətli "Paşam!

Paşam!" sədalarından qulaq tutulurdu. Kimsə ucadan şeir də deyirdi:

*Türkün böyüyü kimdi – soruldıqda tamamən;*
*"Ənvər Paşa, Ənvər Paşa, Ənvər Paşa" derlər.*

İzdiham içindən ixtiyar bir kişi uca bir səslə onu salamladı, "Paşam, Paşam, sənin ordun iki il əvvəl bizim köməyimizə yetişdi, Bakını xilas etdi – deyə ona səsləndi. – Bəs indi bizim halımız necə olacaq?! Kimə pənah aparacağıq, kimə üz tutacağıq?"

O zaman həmin ağsaqqalın sualı qarşısında mərdanəliklə "Azərbaycan qardaşlarımızın olacaq! Belə olmalıdır" söyləmişdi. Bu ona yaraşan bir cavab idi; qorxmaq, ehtiyat eləmək onun təbiətinə yad idi. Beləcə, o bir anda öz çarəsizliyini unudub, ümidlənən kişinin sualını cavabsız buraxmağı özünə ar bilərdi. Özü də Moskvadan onunla birlikdə, eyni qatarda Bakıya gəlmiş bolşevik liderləri, lakin ona həm də xüsusi hüsn-rəğbət bəsləyən Zinovyevin, Radekin qulağı eşidə-eşidə.

…Cümhuriyyət dönəmində dəmir yolları üzrə baş hakim işləmiş Əziz Alpoud da izdihamın arasındaydı. İmkan eləyib Ənvər Paşaya yaxınlaşdı. Əlini sıxdı, hər şey üçün təşəkkür etdi. Geri dönərkən nurani bir ağsaqqal iki əli ilə onun sağ əlindən yapışdı. Əziz bəy onun nə istədiyini anlayana qədər qoca onun əlindən öpdü…

Çünki bu əl Ənvər Paşanın əlinə toxunmuşdu… Paşayla keçirilən o görüş o qədər hərarətliydi ki, həmin anda əgər Ənvər bəy "Rus bölşeviklərinə hücum edin! Qovun bu düşmənləri!" əmrini vermiş olsaydı, xalq tərəddüdsüz, kişili-qadınlı həmin andaca hücuma keçərdi…

Həmin vaxt Ənvər Paşa qurultayda Mərakeş, Tunis, Əlcəzair və Liviyanın nümayəndəsi olaraq iştirak etmişdi. Ənvər Paşanın nitqini bir bolşevik nümayəndə oxuyanda salonda olan türkiyəli kommunistlər çığır-bağır salmağa başlamışdılar. Bütün bun-

lar bolşeviklərin Ənvər Paşanın Azərbaycanda olan həşəmətinə xələl gətirmək məqsədi daşıyırdı. Ancaq Ənvər Paşanın abidəsi könüllərdə idi, Azərbaycan xalqının qəlbində taxt qurmuşdu, onu oradan endirmək hər adamın işi deyildi…

Ənvər Paşanın bu qurultayda iştirak etməsi nəinki türkiyəli kommunistlərin, müsəlman olmayan və başqa millətlərdən olan kommunistlərin də ciddi narahatlığına səbəb olmuşdu. Ermənilər isə həmişəki kimi ortalığı qarışdırmaq fürsətini fövtə vermirdilər. Ənvər Paşanın Bakıda olması onları da çox narahat edir, gözlərinə ox olub batır, sinələrinə dağ çəkirdi…

Ancaq dövrün acı ironiyası idi ki, Bakıda keçirilən Şərq xalqlarının birinci qurultayında qırmızı bolşeviklər orada edəcəyi məruzənin mətnini belə oxumağa icazə verməmişdilər. Zinovyevin təkidi ilə həmin məruzəni Ostrovski adlı bir bolşevikin oxuduğu deyilir.

…Tarix bütün böyük insanlar kimi, Ənvər Paşanı da pərişan etdi. Hətta Bakıda da bu pərişanlıq onu tərk etmədi. 1920-ci ildə Şərq xalqlarının birinci qurultayında iştirak etmək üçün Bakıya gələndə burada xilaskar kimi qarşılansa da, həmin toplantıya Şimali Afrikanın təmsilçisi kimi qatılması da görünür, taleyin acı ironiyalarından biri idi...

...Ənvər Paşa heç vaxt tarixi Azərbaycan torpaqlarında bir erməni dövlətinin qurulmasını istəmirdi. Hətta belə bir güzəştə getməyin necə böyük bir yanlış olduğunu Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti ilə növbəti görüşlərin birində dilə gətirmişdi:

– Azərbaycanın istiqlalı ilə bağlı böyük qayğılar içində olduğunuzun fərqindəyik. Biz hər zaman Azərbaycandakı qardaşlarımızın yanındayıq. Bilirsiniz, Qafqaz İslam Ordusu məhz buna görə yaradılıb. İnşallah, Allahın izni ilə Bakını da qurtaracağıq, din və qan qardaşlarımız da öz istiqlalına qovuşacaq. Ümidinizi itirməyin.

Nümayəndə heyətində təmsil olunanlar isə yekdil fikirlə – Biz sizə də, birgə gücümüzə də güvənirik. Nəyin bahasına olursa olsun, Bakı əlimizdə olmalıdır!.. – deyə cavab vermişdilər...

Səmimi görüşdən sonra özündə Azərbaycanın gələcəyi ilə bağlı böyük ümidi ehtiva edən "Nəyin bahasına olursa olsun, Bakı əlimizdə olmalıdır" cümləsi elə o vaxtdan Ənvər Paşanın yaddaşına qazınmışdı.

Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak işğalından azad etdiyini eşidəndə isə paşanın sevinci yerə-göyə sığmamışdı. Ənvər Paşanın Bakıda Nuri Paşaya ünvanladığı təbrik teleqramının mətnini isə İstanbulda da, Bakıda da demək olar ki, bilməyən qalmamışdı. Bu təbrikin hər bir sözü ürək titrədirdi: "Böyük Turan İmperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini ən böyük müsərrətlə qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə "Fatihə"lər ithaf edirəm".

Cümlələrdən boy göstərən milli qürur, iftixar duyğularından hasil olan Turan düşüncəsi! Əslində, bu, adi bir teleqram yox, Ənvər Paşanın şahanə, romantik varlığının möhtəşəm sevgi məktubuna dönmüş rayihəsi, nəfəsiydi.

Beləliklə də, Qafqaz İslam Ordusunun əsas müəlliflərindən olan Ənvər Paşa hərbi və siyasi iradəsi, hələ üstəlik və ən vacibi, Turançı və Quranı ovqatı ilə Bakını ermənilərdən təmizləmişdi. Müsəlman türklərin neft mənbəyi olan baş şəhərini fiziki cəhətdən xaçpərəst cəngindən xilas etməyin yolu Ənvər Paşanın sevdalı, coşqulu hərb romantikasından keçmişdi...

Azərbaycanın azadlığı uğrunda savaş qələbəylə başa çatanda onun göndərdiyi təbrikə rəsmi təbrik demək yanlışlıq olardı. Bu, qardaş bildiyi Azərbaycan xalqının sevincini öz sevinci bilməsi idi... Təəssüf ki, bu sevinc uzun sürmədi – 1920-ci ilin 27 aprelinədək...

Ənvər Paşa hər dəfə o günləri xatırladıqca dərindən köksünü ötürür, qəlbinin dərinliyində bir gün nə vaxtsa türk xalqlarının bolşevik əsarətindən qurtulacağını xəyal edirdi, buna ürəkdən inanırdı. Son nəfəsinə qədər də bu inamı və xəyalı onu tərk etmədi...

...Təəssüf ki, tarixin sonrakı gedişatında Osmanlı dövləti və Almaniya Birinci Dünya müharibəsində müstəmləkəçi Avropa dövlətlərinə yenildi. İngiltərə və Fransa hərəkətə keçərək təşəbbüsü ələ aldı. Bütün bu gözlənilməz olayların nəticəsində Ənvər Paşa da, onun yaxın həmfikirləri Camal və Tələt paşalar da hakimiyyətdən kənarlaşdırıldılar...

## ON ALTINCI FƏSİL

*Ölülər torpağa gömülür, xatirələr ürəyə...*
*Torpaqmı vəfalı, ürəkmi? Bilmirəm.*
***Əbdürrahim Karakoç***

…İndi bu qərib diyarda, bolşevik təzyiqləri altında belə Ənvər Paşa əbədi və əzəli istəyi olan Turan İslam birliyi ideyasına sadiq idi, o istəklə nəfəs alır, o arzusuna yetməyin yolunu arayırdı, bütün mübarizələri bu yöndə idi. Ancaq necə bir ağır mübarizəyə baş qoşduğunun da fərqindəydi. Anlayırdı ki, Lenin, Stalin, Orconikidze üçlüyünün bu məsələdə özgə planları var. Ənvər Paşanın mənəvi saflığı, pak əxlaqı, mərdliyi, dürüstlüyü onların bu davranışlarının gizlinlərini və əsl niyyətlərini yetərincə anlamağa imkan vermirdi. O, şər oyunçusu yox, işıq savaşçısı idi. Üzdə gülüb, arxadan zərbə vurmaq onun xarakterinə yad idi. Hər bir işində səmimiydi. Cəsur idi. Təəssüflər olsun ki, qırmızıların vuran əli olan Koba (gələcəyin Stalini – red.) bu cəsur adamın səbirsizliyindən, ötkəm, ölçü-biçisiz olmasından istifadə edirdi...

Hadisələrin lap əvvəlində isə Ənvər Paşa Leninlə görüşüb ingilislərə qarşı birgə mübarizə məsələlərini müzakirə etmək istəmişdi. Bu istəyini doktor Nəriman Nərimanovun vasitəsilə

Moskvaya da çatdırmış, ardınca da oraya çağırılmışdı. Bu xüsusda xarici işlər komissarı Çiçerinlə Lenin arasında dəfələrlə söhbət olmuşdu:

– Bilirsinizmi, yoldaş Lenin, hesab edirəm Şərq xalqları arasında böyük nüfuza malik olan belə bir adamı bizim planlarımıza xidmət işinə cəlb etməyimiz heç də pis ideya olmaz…

– Bunu mən də bilirəm. Özlüyündə cazibədar və maraqlı təklifdir. Ancaq bizim Türkiyə tərəfdən olan yoldaşlarla müəyyən anlaşmalarımız da var. Əgər belə bir addım atmış olsaq, Türkiyədəki dairələri incik salmarıq ki?

– Orasını mən də bilirəm. Doğru buyurursunuz… Ancaq anlaşdığımız Türkiyə dairələrini təhdid altında saxlamaq üçün belə bir önəmli insanı da öz istəyimizə görə istifadə etməyimizin ümumi işimizə xeyirli olacağı zənnindəyəm.

– Bir daha deyirəm ki, mən bu adamın sovet-türk münasibətləri arasında bir əngələ çevrilməyəcəyindən elə də əmin deyiləm.

– Doğrudur, bu adamla hansısa işbirliyinə girməmizin nəzərdə tutduğumuz dairələrin xoşuna gəlməyəcəyini mən də bilirəm. Ancaq bundan xoşlanmayası şəxslərin haçansa, həlledici məqamda bizə arxa çevirməyəcəkləri sığortalanmayıb. Türklərin necə vətənpərvər, millətsevər olduqlarını özünüz də yaxşı bilirsiniz. Müstəqillik duyğularını sındırmaq elə də asan deyil. Biz onları bir-birinin üstünə salmaqla işlərimizi daha etibarlı tutmuş olarıq. Nə qədər ki, bu adam bizimlədi, yanımızdadır, türklər istəsələr də, istəməsələr də, bizim şərtlərimiz daxilində davranacaqlar. Bu adam yaxşı bir təhdid vasitəsidir…

– Yaxşı, bu məsələnin üstünə yaxın günlərdə bir də qayıdarıq. Hələliksə onu məndən kənarda tutmağa çalışın. Lazım olan şəraiti yaradın. Hə, bir də, sən gərək ki, deyirdin onun türk dilində qəzet nəşr etdirmək arzusu da var…

– Doğrudur, belə bir istəyi də var, yoldaş Lenin, özü də bir yox, iki qəzet…

– İki qəzet ha! Yaxşı, sən yoldaşlarla, siyasi büro üzvləri ilə danış, qoy bu qəzet məsələsini müzakirə edib, fikirlərini bildirsinlər…

– Oldu, yoldaş Lenin! Türkiyədən olası narahatlıq barədə isə heç də fikir etməyin. Vəziyyətin gedişindən asılı olaraq, həlledici bir vaxtda bu Osmanlı paşasının aradan götürülməsinin yolunu taparıq.

Sonra mənalı-mənalı baxışmışdılar.

Təbii, əzəldən türk düşməni olan Stalin Siyasi Büroda türk paşasının ana dilində qəzet nəşr etməsi istəyini qəti şəkildə rədd etdi. Bu, ona çox yersiz və qəribə gəlirdi...

İndi isə Ənvər Paşa Moskvadaydı. Bolşevik liderləri vəziyyəti xilas etmək üçün paşanın aradan qaldırılması üçün dərhal tədbir görəcək, göstəriş verəcəkdilər… Bunun baş verəcəyi gün kimi aydın idi. Amma həmin anda hadisələrin belə inkişaf edəcəyinə Ənvər Paşanı heç cür inandırmaq da olmazdı. Amma bilirdi. Bunu hətta Atatürk tərəfindən Moskvaya göndərilmiş Türkiyə nümayəndə heyətindən Rza Nura çatdırmışdı: "Mən ruslara kommunist görünürəm. Yalan. İçim başqa". Əslində, Turan hərbinin bu romantiki Stalini ələ salmışdı və "böyük rəhbərin" göstərişi ilə onu Kreml sarayının qarşı tərəfində, Moskva çayının sağ sahilində yer alan bir şəkər fabriki sahibinin xudmani evinə yerləşdirmişdilər. Qərargahını burada qurmağı məsləhət bilinmişdi. Yəni elə yerdə ki, Kreml sarayından baxanda bu gözlənilməz, ipə-sapa yatmaz adamın bütün hərəkətlərini izləyə bilsinlər. Əllərinin altında, göz qabağında olsun deyə…

Məsələ beləydi ki, Ənvər Paşa Leninlə görüşmüş, onunla danışaraq Şərq millətlərini kapitalizm və İngiltərə əleyhinə mübarizəyə qaldırmağa razılaşmışdı. Bu razılıq əsasında Şərq və İslam məmləkətlərindəki bütün mövcud inqilabi təşkilatları birləşdirən bir cəmiyyət qura bilmiş və Əli bəy adıyla həmin cəmiyyətə başçılıq etməyə başlamışdı. Yaxın məsləkdaşı Camal Paşanı təlimatlandıraraq Əfqanıstana yola salmış, oradan da Hin-

distana keçib inqilabi iş aparmasını tapşırmışdı. Həmin günlərdə Moskva bu inqilablardan çox şeylər gözləyirdi və bolşeviklər Ənvər Paşanın Şərqdəki şəxsi nüfuzunu öz aralarında çox yüksək qiymətləndirirdilər… Ancaq bu duyğu coşqusunu haradasa, açıq-aşkar bir şübhə, tərəddüd izləməkdəydi. Elə bil ki, fərqli baxışlar arasında incə bir tel, zərif bir bağlantı dayanmışdı. Və bu xəfif, incə bağlantının istənilən anda, özü də heç gözlənilmədən qırılıb-töküləcəyi hər an hiss olunurdu. Xüsusilə, bolşevizmin qılaflı Kobası – Stalin Ənvər Paşaya tam bir ilan soyuqluğu ilə yanaşırdı. "Cəsur olduğu qədər səbirsiz və ötkəm bir adam" deyə tanıdığı paşaya hər yerdən göz qoydurmaqdaydı.

Sovet rəhbərliyindəkilərin əksəriyyəti paşanı, demək olar ki, bir qayda olaraq siyasi idealist adlandırır, elə də ciddi yanaşmırdılar. Ancaq Stalin fərqindəydi ki, qürur və şəxsiyyət bütövlüyü, eləcə də öz ideallarına sadiqliyi naminə bir türk paşası nələrə qadir ola bilər... Görüb, dəyərləndirə bilməməyin özü bir siyasi nadanlıq ola bilərdi ki, Ənvər Paşanın romantik hərbi düşüncələrinin mahiyyətində hər zaman milliyyətçi və ümmətçi bir insanın imanlı realist təfəkkürü dayanır.

Koba siyasi uzaqgörənliyi, iti fəhmi ilə anlayırdı ki, paşanın qırmızılarla yaxınlıq etməyinin görünməyən qatlarında nəsə daha ciddi, tam fərqli məramlara yönəlmiş ideallar var. Ənvər Paşa bütün mətləblərdən xəbərdardır, nəyi necə etməyin yolunu heç də pis bilmir... Paşanın bolşevik siyasi dairələri ilə yaxınlaşmasının bütün təfərrüatlarını özlüyündə götür-qoy etdikcə qəti şəkildə qərara gəlirdi ki, o, Qərb və bolşevik siyasətini astar üzünə çevirə bilir.

Bolşeviklər onun siyasi baxışlarını ifadə edən bircə cümləsindən belə Ənvər Paşanın siyasi idrakının hansı üfüqlərdə pərvazlandığını aydın görür və dərk edirdilər ki, öz qənaətlərini yalnız onun kimi hərbi şücaəti ilə siyasi baxışları bir-birini tamamlayan mükəmməl bir vətənpərvər bu qədər dəqiq və aydın şəkildə

ortaya qoya bilər: “Fəqət, biz türklərə gəlincə, bu gün fransızlar bizə yaxınlaşsalar belə, buna tamamilə etimad oluna bilməz… Madam ki, ingilislər bizim hüququmuzu tanımaq istəmirlər, bizi məhvə yürüdürlər, bizim üçün də, buna müqabil davam etmək lazımdır… Biz yalnız öz gücümüzə, qüvvətimizə güvənməliyik. Bizim üçün yeganə qurtuluş, çarə budur…”

## ON YEDDİNCİ FƏSİL

*Vəfa – dostluğun əsalətinə,*
*bir dua ilə bağlanan əhdi-peymana bəslənən*
*pak xəyallara xəyanət qatmamağındır.*
***Mövlana Cəlaləddin Rumi***

…Çoxdandır yenə Naciyə Sultandan məktub gəlmirdi. Ənvər bəy məktublarında tez-tez ona cavab yazmadığına görə həyat yoldaşına sitəm edir, şikayətlənir, sonra da onun qəlbinin qırılacağından çəkinib gileylərini yumşaltmağa çalışırdı. Evliliklərinin üstündən uzun müddət keçsə də, Ənvər bəy həyat yoldaşı Naciyə Sultanın üzünü hələ görməmişdi. Nikahları çoxdan kəsilmişdi, lakin hələ də bir araya gəlmək onlara nəsib olmamışdı. Osmanlı sarayının əyanlarından bir qismi Ənvərlə Naciyəni ayırmaq üçün əllərindən gələni əsirgəmirdilər.

1911-ci ildə Ənvər bəyin Trablus-qərbə getməyini fürsət bilən saray əyanları gözləmədikləri bir durumla qarşılaşdılar. Sən demə, Naciyə Sultan artıq üzünü heç görmədən nikahlandığı, sadəcə fotolardan tanıdığı həyat yoldaşı Ənvər bəyə bir könüldən min könülə aşiq olubmuş. Bundan sonra onları bir-birindən ayırmaq artıq mümkün olan iş deyildi. Ancaq yenə də onla-

rın birləşmələrinə mane olmaq üçün əllərindən gələni beş qaba çəkəcəkdilər.

Ənvər bəy illərlə məktublarıyla ürəyində eşqini böyütdüyü Naciyə Sultanın fotosunu istəmək cürətini belə özündə tapa bilmirdi. Orduları önündə diz çökdürən cəsur bir hərbçi ancaq uzun müddətdən sonra nikahlı həyat yoldaşından rəsmini istəməyə cəsarət edə bilmişdi. Bu, böyük bir eşqin verdiyi cəsarətsizlik hissi idi. Ancaq qarşısıalınmaz böyük məhəbbətlə sevənlər sevdiyini incitməmək üçün onun qoyduğu bütün qaydalara tabe olar, onun qəlbini qırmaqdan çəkinərlər. Ölüm gözlə qaş arasında idi, Ənvər bəy qəlbində xəyalını daşıdığı gülüzlü Naciyəsinin simasını görmədən gənc ikən əcələ təslim olmaq fikrində deyildi. Naciyə Sultanı görmədən ölüb getmək o dönəmlər həyatının ən böyük qorxusuydu. Başqa heç nə onu qorxutmurdu. Amma Naciyəyə qəlbində saxladığı həsrət də birovuz, rəngsiz məchul hisslər deyildi. Orada daima bir işıqlı çöhrə və o çöhrədə əsrarəngiz təbəssüm oynaşırdı. Heç bir mahir rəssamın belə çəkə bilmədiyi bu şəkli xəyalən özü çəkmişdi. Həmin vaxt Naciyə Sultana göndərdiyi məktublarının birində yazdıqları hələ də ağlındaydı:

"Bu məktubuma üç gün əvvəl çəkilmiş bir fotomu da əlavə edirəm. Əvvəla, heç rəsm göndərmək niyyətim yox idi. Çünki sizin kimi davranmağı qərara almışdım, necə ki, siz məndən gizlənirsiniz, mən də elə olacağam dedim. Burada orduda çadırlarda çörək bişirən və sair işlər üçün öz kişiləriylə bərabər çiyin-çiyinə burada qalan qadınlar var, müharibəyə gedən kişilərin arasında şərqilər belə söylərlər. Onlar belə aramızda dolaşırkən siz artıq əbədi olaraq şəriətlə də bağlandığımız halda hələ də rəsminizi məndən gizlədirsiniz. Gözəl olmasını təsəvvür etdiyim gözlərinizdən öpür, hörmətlə qucaqlayıram Sultanım, Əfəndim... Ənvəriniz".

Zaman keçdikcə həsrət Ənvər Paşaya elə güc gələcəkdi ki, foto tələbi ilə israr edəcək, az qala hər kəlmədə üsyanını dilə

gətirəcəkdi: "Sultanım, bəzən hissiyyatım mənə qarşı üsyan edir. Allah xətrinə, bizi niyə bu qədər sıxırlar? Üç ildən bəridir sizin Ənvəriniz deyiləmmi? O halda niyə sizin rəsminizi görmək mənə haram edilib? Elə anlarım olur ki, anamızın bu mənasız zülmü qarşısında üsyana qalxmaq istəyirəm. Mənə elə gəlir ki, günlərin birində dairənizə gəlib heç kimdən soruşmadan sarayın hərəminə girərək sizi axtarıb tapıb bütün maneələr, rəsmlərə rəğmən "Sultanım, gəldim" deyə qarşınıza çıxacağam. Əlbəttə, belə düşünmək bəlkə də dəlilikdir. Fəqət canım sıxılanda belə çılğın fikirlər beynimə hücum edir. Heç olmasa, rəsminizi göndərməyə cəsarət edə bilmirsiniz? Sizin bu dərəcədə çəkingənliyinizi görəndə nə deyəcəyimi bilmirəm, çaşıb qalıram.." Bu dediyi çılğınlığı isə bir dəfə eləmişdi. Deyilənlərə görə, bir dəfə qısa müddətə İstanbulda ikən özünü saxlaya bilməmiş, Naciyənin olduğu saraya bağçasından daxil olmuş, onu görmək ümidilə sarayın köşkünə tərəf irəliləmişdi. Lakin hərəmağası vaxtında bundan xəbər tutub qarşısını kəsmiş, onun bu arzusuna mane olmuşdu. Belə bir çılğın aşiq idi Ənvər Paşa! Xəyal qurdumu, onu gerçəkləşdirmək üçün ən mümkünsüzü belə etməyə çabalayacaqdı... Amma Naciyəsinin adına-sanına xələl gətirmədən, onun ləyaqətinə toz qondurmadan.

Digər bir məktubunda isə həsrətini lap bir söz sərrafı kimi bildirəcəkdi: "Mənə qaranlıqda bir nur göstərdilər, bu, sənindir dedilər. Ona heyran-heyran baxaraq, ancaq onun nə olduğunu görməyərək illərlə gözlədim. Hər əlimi uzatdıqca "yox, gözlə" deyirlər. Vaxtı deyilmiş. Mən irəli getdikcə o nur da eyni uzaqlıqda geriyə gedir. Mən bu qaranlıqda gözümü qamaşdıran o nura baxa-baxa yeriyərkən bir uçuruma yuvarlanıb getsəm, sonra da yer üzündən silinsəm, hələ də məni o nurun mənbəyini görməkdən məhrum edəcəklər. Bəlkə də o nurun mənbəyi olan sizi görməyərək beləcə ortadan yox olduğuma görə sevinənlər də olacaqdır. Daha açıq söyləyim, Ruhum! Mənə elə gəlir ki, məni

Mahmud Şövkət Paşa kimi günün birində öldürülməyə məhkum zənn edən anamız siz Sultanımızı məndən mümkün olduğu qədər uzaq tutmağı öz ağlınca daha uyğun hesab edir. Bəlkə də nə olar, nə olmaz, günün birində dünyadan yox olub gedərsəm, siz hər halda bəndənizlə göz-gözə də gəlmədiyiniz üçün mənim kimi pis-yaxşı hər kəsin nəzəri üzərinə dikilməmiş bir ər tapa bilərsiniz deyə düşünürlər. Siz də bu duruma itaətlə susduqca bilmirəm sonu necə olacaq… Bəzən düşünürəm ki, başımı alıb bütün dünyadan, hər şeydən uzağa çıxıb gedim. Heç kimi düşünməyim, sizi də unudum. Bu anda intihar etmək mənim fikrimcə qorxaqlıq sayılmasaydı, beynimə bir güllə sıxıb əbədi həyata qovuşardım. Beləcə sizi dəmir pəncələriylə məndən ayrı tutanlar da məramlarına nail olardılar…"

Naciyəsini görmək ümidini itirdiyindən, həsrətdən bəzən çılğınca fikirlər yazmaqdan özünü saxlaya bilməz, incikliyini ifadə edən cümlələr işlətməkdən çəkinməzdi. Atalar boşuna deməyiblər ki, eşqin gözü kordur. Eşq gələndə məntiq də, ağıl da kənara çəkilib yerini sevdaya verir. Sevda isə beyinə və ürəyə sahibləndikdən sonra insanla istədiyini edir. Ondan sonra sən əvvəlki sən olmursan. Eşqin odunda yanıb-qovrulursan, görəndə sevinirsən, ancaq elə o sevincin içindəcə bir azdan gedəcəyi, ayrılacağı qorxusuyla da o fərəhin, şadlığın haram olur. Qısqanclıq da işə qarışdımı, ondan sonra ümumiyyətlə, yerdəsənmi, göydəsənmi, bilinmir... Sən nələrə qadirsən, eşq!.. Ölümün gözünə dik baxan, əcəli ələ salan qəhrəmanlar, sərkərdələr sevgi önündə aciz qalıblar, təslim olmaqdan başqa çarələri qalmayıb...

Dərin kədər, həsrət və intizar içində keçən günlərin birində Naciyədən məktub gəldi. Düzdür, məktubda Ənvər bəyin istədiyi kimi bir foto yox idi, amma onsuz da qəlbi sevgiylə döyünən, yüksək hissiyyatlı Ənvər Paşanın ürəyini yerindən oynadacaq başqa bir ərməğan vardı. Naciyə Sultan saçından bir tutamlıq buruq kəsərək Ənvər bəyə göndərmiş, onun bir azca da səbir etməsi-

ni təvəqqe etmişdi. Ənvər Paşanın sevincinin həddi-hüdudu yox idi. Cavab məktubu heç gecikərdimi bu anda? Məktublar vasitəsilə bir-biri ilə əlaqə saxlayan, az qala məktublarla nəfəs alan aşiqlərin yeganə təsəllisi namələrdə bir-birinə söylədikləri eşq dolu sözlər idi: "İki gözüm, Ruhum, Sevgilim, Sultanım, iyunun 14-də lütf məktubunuzu aldım. Böyük bir canfəşanlıqla zərfi cırıb kağızı açdım. Arasında bütün ümid və intizarımın fövqündə görünüşünə görə də qəlbinizin gözəl, saf dilmancı olan saç tutamını görüncə ürəyim döyünməyə başladı. Barmaqlarım arasında sıxdığım saçı dodaqlarıma apardım. Ah, bilsəniz, bu lütfünüzlə mənə nələr bəxş etdiniz… Saçınızı bilirsiniz, harada saxlayıram? Qolumda daşıdığım, üzərində "Qurani-Kərim" ayəsi yazılan mahfazanın içində. Artıq bununla da həqiqi, müşayiətçi mələyim oldunuz. Damarlarımda qanım dövr elədikcə o gümüş lövhəni hiss etdikcə gözəl, sevimli saçınız yadıma düşəcək, beləcə əbədi xatirə olaraq qalacaqdır". Ancaq sevgilisinin, Allahın əmri ilə həyatının yoldaşı olan qadının rəsmini görmək intizarı bir dəqiqə də olsun onu rahat buraxmırdı. Və günlərin bir günü, o intizar nəhayət ki, sona çatdı.

Məktubların birində Naciyə Sultan rəsmini də göndərməyi lütf etdi. O fotodan sonra Ənvər bəyin sevgisi birə-min artdı. Naciyənin eşqi ilə Vətən sevgisi ürəyində eyni yerdə qərar tuturdu. Ənvər bəy Naciyədən ayrı qalmağı artıq düşünə bilmirdi. Cavab məktubunda da bunu yazmışdı: "Ruhum, indi nə yalan deyim, rəsminizi görüncə halım xarab oldu. Əvvəllər təxəyyülüm bir əsasa istinad etmədiyi üçün sadəcə arzulayırdımsa, ancaq indi sizə şiddətli istək duyuram. Rəsminizi aldıqdan bəri hər fürsətdə, bəzən otağımda kimsə olsa belə masamın siyirtməsini açıb fotonuza baxmaqdan özümü saxlaya bilmirəm. Sizi gördükcə müxtəlif hisslərin altında əzilirəm. Bilmirəm belə necə olacağam… O gözəl gözlərinizi görmədən Allahın əbədi olaraq gözlərimi qapayacağından qorxuram".

Vüsalından heç doymadığı, səsini-sözünü arzuladığı sevdiyinin gözünə baxmadan getmək ən böyük qorxusuna çevrilmişdi paşanın…

1913-cü ilin oktyabr ayı… Bu tarix bir yandan səhhətinin pozulması ilə yadda qalsa da, digər yandan da həyatının ən gözəl dönəmi hesab edirdi. Appendisit əməliyyatı olmalı idi, bunun üçün İstanbula gəlmişdi. Yüngül sayılmazdı, əslində həyatı üçün təhlükəli bir əməliyyat idi. Əməliyyatdan sonra isə Ənvər bəyin bircə arzusu vardı: sevgili Naciyəsini görmək! Tələbi xoş qarşılanmasa da, arzusunu yerinə yetirdilər. Qanunən nikahlı ər-arvad Ənvər bəy və Naciyə Sultanın görüşməsinə icazə verdilər.

Ənvər bəy görüşlərinə icazə verilən gecə bir gün əvvəldən Naciyə Sultana duyğularını belə anladacaqdı: "Sabah siz gələndə hər şeyi unudacağam. Bu gecəni və ertəsi gün axşama qədər necə gözləyəcəyəm? Bayram səhərini gözləyən uşaq kimi erkəndən uzanıb ta ki sizi görəcəyim ana qədər yatmaq istəyirəm. Bilmirəm əcəba, sabah sizə bütün minnətdarlıq hisslərimi çatdırmağa iqtidarım yetəcəkmi? Sabah cəsarətsizlikdən öpə bilməyəcəyim gözəl gözlərini öpürəm, bütün məhəbbətimlə qucaqlayıram, Ruhum..."

Naciyənin gəlişini dünənmiş kimi xatırlayırdı… İlahi, bu görüşdən əvvəl necə də həyəcanlı idi, əlləri titrəyir, ürəyi sürətlə döyünürdü. Ovucları tərləmişdi, gözləri tor gətirmişdi, bəbəklərinin qarşısında tutqun bir pərdə vardı sanki.

Ənvərin xəstə yatdığı evə Naciyənin gəldiyi xəbərini verəndə ürəyi elə döyünmüşdü ki, az qalmışdı nəfəsi dayansın. O anların həyəcanı və şirinliyini insan ölüm ayağında belə unuda bilməzdi...

Naciyə Sultan içəri girəndə Ənvər üçün canını belə fəda etməyə hazır olan dostları başının üstündə idilər. Hər kəs həyəcanlı idi. Qısa bir görüş idi. Bir az hal-əhval etmişdilər, vəssalam. Ancaq iki aşiqin dillərinin deyə bilmədiyini gözləri söyləmişdi. Bu görüşdən sonra sevgiləri böyüyüb bir dünya boyda olmuşdu.

Tale sonralar onları ayrılıqla çox sınayacaq, həsrətin, hicranın imtahanından dəfələrlə keçməli olacaqdılar...

Naciyə Sultanla aralarındakı həsrət götürülüb yan-yana yaşamaq imkanı olanda belə onun üçün darıxırdı. İlahi, eşq ən sərt insanı da yumşaltmağı, ipəkdən incə etməyi bacarırmış. Ənvər Paşa Naciyə Sultanın yanındaykən bunu daha dərindən anlayırdı. Bir gün salonda oturarkən ağlını başından alan bu qadın üçün darıxdığını hiss elədi. Yanındaykən belə onun üçün darıxmaq! Gizlətmədi hiss etdiklərini də. Elə oradaca duyğularını anlatdı. "Həqiqi eşqin qüruru olmaz", həmişə belə deyərdi Naciyəsinə...

– Ruhum, Sultanım, bax, indi yanındaykən belə sənə həsrətəm. Əllərinə toxunuram, səni oxşayıram, ancaq qəlbimin sənə olan həsrəti heç bitmir. Bunu anlayırsanmı? Yanındaykən belə biri üçün darıxmağın nə demək olduğunu bilirsənmi?

Naciyə Sultan əlbəttə, həyat yoldaşının bu sahilsiz-sərhədsiz eşqindən xoşhallanıb məst olar, nazla ala gözlərini süzdürər, öz şirin təbəssümü ilə cavab verərdi:

– Bilirəm, iki gözüm. Məndə də belə olur bəzən, Ənvərciyim! Gözlərin gözlərimə baxanda belə qəlbim aram olmur, bəzən hər anımı sənin yanında keçirmək istəyirəm. Bəlkə də bir yerdə çox qala bilməməyimizdəndir bu həsrət... İndi bir yerdəyik, amma bilirik ki, bir azdan müddəti bilinməyən bir zaman kəsimi üçün ayrılacağıq yenə. Bax, buna görə qəlbimiz hər an həsrət və sıxıntı çəkir.

Ənvər Paşa yanındaykən Naciyəsinə yavaş səslə, ala və dumduru gözlərinin içinə baxaraq eşq şeirləri söyləməkdən zövq alardı. Özü şeir yazmasa da çoxlu şeir bilirdi.

... İkilikdə türk qəhvəsi içə-içə söhbət etdikləri günlərin birində danışdığı yerdəcə sözünü yarımçıq kəsib sehrlənmiş kimi qəfildən baxışlarını Naciyənin simasına zillədi. Astadan dilləndi:

– Əfəndiciyim, şair Nəfi nə gözəl demiş... Mənim ürəyimdən keçənləri əsrlər öncə o qələmə almış sanki:

*Nə təndə can ilə sənsiz ümidi – səhhət olur,*
*Nə bədəndə can qəmi-firqətinlə rahət olur.*

*Nə çarə var ki, fəraqınla əylənəm bir dəm,*
*Nə taleyim mədəd eylər vüsala fürsət olur.*

*Nə şəb ki, kuyinə üz sürməsəm ol şəb ölərəm,*
*Nə gün ki, qamətini görməsəm qiyamət olur...*

O anlarda ikisi də bilirdi ki, bu eşqin qiyamətini qoparıb, məhşərini qurmaq üçün ayrılıq qapının ağzında durub fürsət gözləyir. Ona görə də birlikdə olduqları hər qısa anın da dəyərini bilir, zamanlarını sevgiyə təslim edirdilər...

# ON SƏKKİZİNCİ FƏSİL

*Bir türk dünyaya bədəldir.*
*Mustafa Kamal Atatürk*

...Mustafa Kamal Paşa ilə Ənvər Paşanın döyüş meydanlarının birində qarşı-qarşıya söhbət edərkən bir fotosu tarixə yadigar qalıb... Siyasi baxışlarındakı ciddi fərqliliklərlə yanaşı bu iki sərkərdəni birləşdirən məqamlar da var idi. Bu, hər ikisinin hədsiz vətən, yurd sevgisi, bir də hər ikisinin ölümün gözünə dik baxa bilmək cəsarəti idi. Onlar bəzilərinin düşündüyü kimi əsla rəqib deyildi bir-birinə, heç bir münasibətdə biri digərinə düşməncəsinə yanaşmamışdı. Sadəcə hər biri özünün məmləkət üçün, xalqı üçün daha çox xidmət edə biləcəyini, Vətənin tərəqqisinə, rifahına daha çox töhfə verə biləcəyini düşünürdü. Onların rəqabəti ancaq bu idi. Vətənə xidmət görə rəqabət! Mübahisələri belə nəzakətli idi. Məktublarında bir-birinə irad tutsalar, kəskin şəkildə mübahisə etsələr belə, sonda "öpürəm, bağrıma basıram, qardaşım" kübarlığı vardı bir-birilərinə münasibətdə... Ölümün gözünün içinə baxa bilmək cəsarəti də elə döyüş meydanında çəkilən həmin fotoda öz əksini tapmışdı. Həmin fotoda ikisi də əsgər papağının üzərindən kiçik bir bez parçası sarımışdılar. Bu

bez parçası döyüşə könüllü girən əsgərləri təmsil edirdi və şəhid düşsələr çənələrini bağlamaq üçün istifadə olunacaqdı… Turançılığı yetişməmiş, vaxtı çatmamış bir məsələ hesab edən Atatürk heç də türk ölkələrindən özünü ayrı tutmurdu: "Bu gün Sovetlər Birliyi, dostumuzdur; qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını kimsə bu gündən kəsdirə bilməz. O zaman Türkiyə nə edəcəyini bilməlidir…Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq, yalnız o günü susub gözləmək deyildir. Hazırlanmaq lazımdır. Millətlər buna necə hazırlanır? Mənəvi körpüləri sağlam tutaraq. Dil bir körpüdür… İnanc bir körpüdür…Tarix bir körpüdür. Köklərimizə enməli və olayların böldüyü tariximizin içində bütünləşməliyik. Bizim onlara yaxınlaşmağımız gərəklidir. Sahib çıxmalıyıq..." Ölümündən az əvvəl dediyi bu cümlələr onun vəsiyyəti kimi də qəbul edilə bilərdi...

Çox sonralar "Ənvər Paşa nə vaxtsa hər halda zamanının ən qüvvətli adamı idi. Əlimizdə bunun əksini ispat edəcək heç bir vəsiqə yoxdur" deyə xatırlayacaq Mustafa Kamal ilə Ənvər Paşa arasında belə bir söhbət olmuşdu:

– Bax, Ənvər bəy, başa düşdüyüm kimi, sizin Turançılıq fikirlərinizin bətnində xüsusilə, çar Rusiyası tərkibində olan bütün türk dövlətlərini birləşdirərək böyük Turan dövləti yaratmaq ideyası dayanır. Özlüyündə, çox parlaq, həm də qürurverici bir istəkdir. Ancaq reallıqları da, hazırkı şəraiti də nəzərə almaq lazımdır…Ölkəmizin özündə belə bir ideya müəyyən dairələr tərəfindən xoş qarşılanmır… O da ola ki o uzaq diyarlarda.

– Ancaq belə bir möhtəşəm birliyin kökdən gələn ənənələri də var... Altaylardan Orta Asiyaya, Hun-Oğuz birliyindən Anadoluyacan uzanan bağlar bizim Turançılıq düşüncəmizin təməlində get-gedə közərən, get-gedə oda-atəşə dönən bir gerçəklik deyilmi?

– Bunlar öz yerində… Deyim ki, müxtəlif millətləri müştərək və ümumi bir ünvan altında toplamaq, bu müxtəlif kütlələri eyni hüquq, eyni şərtlər altında saxlayaraq, qüvvətli bir dövlət yaratmaq parlaq və cazibədar bir siyasi görünüşdür. Fəqət…

– Mustafa Kamal bəy, unutmayın ki, bizim hərəkatımız müxtəlif millətləri yox, eyni soy-kökdən, qövmdən gələn türk xalqlarını bir çatı altına gətirməyin, vahid dövlətçilik bayrağı altında birləşdirmək yolundadır.…

– Yenə də deyirəm, bu özlüyündə çox parlaq, çox cazibədar bir siyasi görünüşdür… Fəqət, aldadıcıdır. Hətta bir sərhəd tanımayaraq dünyada mövcud olan bütün türkləri belə bir dövlət halında birləşdirməyə nail olunması mümkün olmayan bir məqsəddir. Bu, əsrlərin və əsrlər boyu yaşamış olan insanların çox acı, çox qanlı hadisələrlə ortaya qoyduğu bir həqiqətdir.

– Dedikləriniz olduqca dəqiq, məntiqli fikirlərdi. Ola bilər ki, mənim baxışlarım, təşkilatlarımızın mövqeyi indiki halda həddindən artıq qeyri-real, mümkünsüz görünür. Ancaq hesab edirəm, reallığı diqqətdən qaçırmadan, onu da nəzərə almaq önəmlidir ki, bütün zamanlarda böyük nəticələr başlanğıcını bu cür çətinliklə qəbul edilən arzu və istəklərdən götürüb…

– Sizinlə razıyam… Ancaq bilmək istəsən, bu, mənim qəti fikrimdi ki, sizli-bizli, gəlin, indilikdə mümkünsüz olan, həyata keçirə bilməyəcəyimiz anlayışlar ətrafında coşub, düşmənlərimizin sayını və bizə qarşı olan pis münasibətləri artırmaqdansa, gerçəklikdən çıxış edərək, təbii vəziyyətimizə qayıdaq…

Türk dünyasının iki böyük şəxsiyyətinin, iki sevimli paşasının arasında illər öncəsi olan söhbətin təfsilatı budur. Millətinə, dövlətinə və torpağına eyni dərəcədə sadiq, sevdalı olan bu iki paşanın məqsədə yetmək düşüncələrində fərqli, həm də çox fərqli nüanslar vardı. Bir-birini hədsiz dərəcədə qiymətləndirirdilər. Doğma məmləkətlərinin müstəqilliyi, hakimiyyət çəkişmələri ilə bağlı ən kritik, qarşıdurmalarla izlənən teleqram və məktublarının so-

nunu bir qayda olaraq "öpürəm gözlərindən" sözlərilə bitirirdilər. Onları gənclik illərindən əsgər həyatlarının, siyasi münasibətlərin xatirəsi bir-birinə bağlamışdı. Arzular, istəklər ayırsa da, aralarında olan xatirə bağları, vətən sevdası bu iki qüdrətli şəxsiyyəti yenə də bir araya gətirirdi.

İstanbulda baş verən 31 mart hadisələrindən sonra Səlanikdən İstanbula gedən, komandanlığını Mahmud Şövkət Paşanın etdiyi Hərəkat Ordusuna qatıldığı zaman hərəkatın qərargah rəisliyini Qolağası Mustafa Kamal bəydən almışdı. Ənvər bəy, italyanlara qarşı partizan müharibəsi aparılması fikrini "İttihad və Tərəqqi" Cəmiyyəti üzvlərinə qəbul etdirdikdən sonra qolağası Mustafa Kamal və Paris hərbi atteşesi, polkovnik-leytenant Fəthi Okyarla birlikdə bölgəyə getmişdi. Həmin günlərin birgə fotoşəkilləri albomlarının ön səhifələrində yer almışdı. Ənvər bəyin öndərlik etdiyi "İttihad və Tərəqqi" Cəmiyyəti "Gənc türklər"in vahid təşkilatına çevrildiyi zamanlarda Mustafa Kamal da hərbi həyatından kənar siyasi fəaliyyətini bu cəmiyyətdə davam etdirirdi. O zaman cəmiyyətin rəhbərliyi ilə Kamal bəy arasında müəyyən fikir ayrılıqları oldu.

Xüsusilə, cəmiyyətin liderləri Tələt Paşa və Camal Paşayla bir araya gələ bilmədilər. Ənvər Paşa bu ayrılığı heç istəmirdi. Birgə mübarizə aparmağın vacibliyini dönə-dönə vurğulayır, hər şeyin yaxşı olacağına onu inandırmaq istəyirdi. Bu mövzuda uzun-uzun söhbətləri də olmuşdu.

– Cəmiyyətimizdən ayrılmağınızı istəmirəm.

– Ənvər bəy, biz heç də bir-birimizə yad, uzaq adamlar deyilik. Hətta bir medalın iki üzü kimiyik. Eynən belə… Ancaq siyasi səhnəyə hər kəs bir məqsədlə çıxır. Bu məqsədə yetmək üçün hər kəsin də öz yolu, dəqiq hədəfləri olur… Açığı, mən cəmiyyətimizin ordunu siyasi proseslərə qoşmaq niyyətini heç cür qəbul etmirəm. Əsgərlərin siyasətə qarışması istəyi arzuolunmazdır. Bu səbəbdən yollarımızın ayrılmasına qərarlıyam…

– Madam ki, düşünüb-daşınıb, belə bir qərara gəlmisən, yolun açıq olsun, uğurlar arzulayıram. Bizi şəxsi istəklər yox, millət, vətən sevgisi birləşdirir. Bu yöndə məni həmişə öz yanında bil... – deyə səmimiyyətlə Mustafa Kamala sarılmışdı.

1915-ci ilin 18 mart tarixində başlayıb, 1916-cı ilin 9 oktyabr günündə sona yetən Çanaqqala savaşı boyunca bir arada olmuşdular. Birlikdə türk ordusunun böyük zəfərini təmin etmişdilər. Bu birlik dünyaya sübut etdi ki, döyüşdə qələbə qazanmaq üçün əsas olan üstün say nisbəti və ya yeni texnologiya deyil, əhəmiyyətli olan igid, vətənpərvər sərkərdələrin olması və onların öz mövqelərində qətiyyətlə dayanmasıdır. Çanaqqala savaşı günlərində, əslində, beynəlxalq imperializm böyük Haqqın özüylə savaşa girmişdi və bu səbəbdən də məğlub oldu. Ənvər Paşanın Çanaqqala zəfəri zamanı ortaya qoyduğu yenilməz iradə İngiltərə lideri Çörçillin siyasi həyatını, sonralar İngiltərənin Baş nazirinin özünün də etiraf etdiyi kimi, düz iyirmi il geri atmışdı. Və o mübarizə, böyük savaş günləri boyunca Ənvər Paşayla Mustafa Kamal Atatürk bir arada olmuş, hər uğurlu döyüş əməliyyatı sonunda riqqətə gələn könül duyğularını "gözlərindən öpürəm!" – deyə ifadə edərək bir-birini qucaqlamışdılar… Bütün bunlar çoxdan olmuş, aradan əsən sərt küləklər çox şeyi pərən-pərən salmışdı.

İndi bolşeviklər, qırmızı Moskva bir yana, üstəlik, doğma vətənində, uğrunda can verdiyi məmləkətində belə, uzaqdan-uzağa olsa da hər qədəmi, hətta ağlından keçirdikləri belə addım-addım izlənir, ona yaxın olanlar göz altında tutulurdu.

Əzizlərinə yolladığı məktublar vaxtilə silah qardaşı, məslək yoldaşı olmuş Qarabəkir Paşanın tapşırığı ilə açılır, oxunur, şübhəli nəsə bir məsələ yazıldığı zənn ediləndə daha yuxarı məqamlara ötürülürdü. Uzaq Moskvada, Türküstan ölkələri boyunca türk dünyasının istiqlal mübarizəsini zəfərə qovuşdurmaq naminə həyatını girov qoyan, ciyərparalarından ayrı düşən Ənvər

Paşanın aldığı nəfəs belə öz doğma torpağında öz soydaşlarının casusluq mövzusuna çevrilmişdi... İki böyük türk sevdalısını, iki böyük türk paşasını bir-birinə qarşı qoyan şeytanlıq hər gün, hər saat yeni bir biçimdə baş qaldırırdı.

Ağrılı olan o idi ki, varlığı qırmızı bolşeviklərin fikir babalarını qorxuya salan, heç cür özlərinə alət edə bilmədikləri Ənvər Paşanın doğma vətənində kölgəsinə qılınc çalanlar, arxasınca diş qıcayanlar bütün bu donosları vaxtilə onun ən yaxın dostu, illərin sınağından çıxmış ən yaxın silahdaşı olmuş Qarabəkir Paşaya çatdırırdılar.

Doğma vətənindəki durum belə idi. Hansı yöndən nəzər salsan, Ənvər Paşa iki od arasında sıxışıb qalmışdı…

## ON DOQQUZUNCU FƏSİL

*Azadlıq və istiqlaliyyət*
*hər bir xalqın milli sərvətidir.*
***Heydər Əliyev***

...İndi uzaq Pamir dağının ətəklərində sığınıb qaldığı bu dar macalda Ənvər Paşa o günlərə dönmək istəyirdi. Elə bil ki, gənclik illərinin yaxın dostu Mustafa Kamalla illər öncəsi aralarında olan söhbət lap elə indicə, bu an, bu dəqiqə baş vermişdi:

– Dediyim budur ki, müxtəlif millətləri müştərək və ümumi bir ünvan altında toplamaq, bu müxtəlif kütlələri eyni hüquq, eyni şərtlər altında saxlayaraq, qüvvətli bir dövlət yaratmaq parlaq və cazibədar bir siyasi görüntüdür. Fəqət, aldadıcıdır… Gəlin, indilikdə mümkünsüz olan, həyata keçirə bilməyəcəyim anlayışlar ətrafında coşub, düşmənlərimizin sayını və bizə qarşı olan pis münasibətləri artırmaqdansa, gerçəklikdən çıxış edək…

Paşayla aralarında olan bu xəyali söhbətin həqiqətini təəssüf dolu bir təbəssümlə dərk edirdi. Mustafa Kamal bəyin anlatdıqları atdığı hər addımda qarşısına çıxmışdı. İstəklərinin gerçəkləşməsi naminə, məcbur olub işbirliyi yapdığı bolşeviklər elə ilk fürsətdəcə gerçək üzlərini göstərmişdilər. Onlar bir tərəfdən Osmanlı dövləti

ilə münasibətlərinə xələl gətirmək istəmir, o biri yandan da bütün Şərq aləmində müstəsna nüfuzu olan məşhur türk paşasının fəaliyyətindən lazımınca bəhrələnməyə çalışırdılar...

Hələ partiya funksioneri Serqo Orconikidze… Bir tərəfdən onu Orta Asiyada və Qafqazda "İnqilabi hissləri" yaymağa təşviq edir, digər tərəfdən də hər addımını güddürürdü. Türküstan cəbhəsindəki qoşuna rəhbərlik edən Qriqor Voskanyanla əlaqə saxlayır, göstərişlər verirdi. Bütün həyatı boyu dürüst və mükəmməl əxlaq sahibi olan Ənvər Paşa təbii ki, bu proseslərin alt qatından xəbərsiz idi. Ancaq fövqalədə fəhmi, ətrafında baş verənləri xüsusi hərbçi duyumu ilə hiss etməsi ona imkan verirdi ki, bütün bu olub-bitənlərin səbəbini götür-qoy edə bilsin. Di gəl, hörümçək torunun ucları o qədər dolaşıq salınmışdı ki, arayıb-axtarıb çözmək, bu qarışıq labirintdən çıxmaq mümkün deyildi… Bir tərəfdən də bolşevik casuslarının, partiya fəallarının məxfi yazışmalarından xəbərsiz şəkildə bütün bu hadisələrin içinə düşmüşdü. Bu proseslər onu "bolşevizmdən – Basmaçılığa" doğru götürən başlıca amilə çevirməkdəydi.

…İslam dünyasındakı məhkum millətlərin istiqlallarını qurtarmaq qayəsilə fəaliyyətə başlayan, müsəlman millətlərini təşkilatlandırmağın yolunu Sovet Rusiyası ilə əməkdaşlıq çərçivəsində görən Ənvər Paşa vur-tut, ikicə ilin içində sovet siyasi rəhbərliyinin "başbəlası"na çevrilmişdi. Bolşevizmin iç üzünü görüb, ətrafında baş verənləri anlayınca tərəddüd etmədən antisovet düşərgəsinə keçmiş, Moskvadan Orta Asiyaya gedərək Basmaçı hərəkatının başında dayanmışdı. Əslində bu, onun çoxdankı Turançılıq ideyasını gerçəkləşdirmək üçün açılan qapı, böyük fürsət idi. Paşanın Orta Asiyadakı fəaliyyəti həm də sovet siyasi dairələrinin növbəti bir tələsi idi…

Basmaçı hərəkatı öz başlanğıcını 1917-ci ildə Fərqanə vadisindən götürüb. Müsəlman türklər, bir qisim taciklər də daxil olmaqla ta ki 1940-cı illərə qədər müstəmləkəçi və kommunist

Rusiyasına qarşı üsyanlar etdilər. İslamçı hərəkat sayılan Basmaçılıq getdikcə hədəfini dəqiqləşdirərək və miqyasını böyüdərək milli mübarizəyə çevrilirdi. Üsyankarlara Basmaçı adını vermək bolşeviklərin "töhfəsi" idi, onlar özləri isə özlərini "İslam əsgərləri", "Türküstanın istiqlal əsgərləri" adlandırırdılar. Üsyanlar dağınıq şəkildə olduğundan rus hökuməti onların öhdəsindən gəlməyi bacarırdı. Ancaq Ənvər Paşa hərəkatın liderliyini öhdəsinə götürdükdən sonra vəziyyət dəyişməyə başladı…

…Sentyabr ayında Ənvər Paşanın da iştirak etdiyi Bakıda keçirilən Şərq xalqları konqresindən sonra hadisələr sürətlə inkişaf etməyə başladı. Daha əvvəllər paşa Türküstandakı durumla səthi tanış idi; sonralar Bakı konqresində Türküstandan olan nümayəndələr ilə tanışlıq nəticəsində aldığı məlumatlardan sonra vəziyyətlə bağlı təsəvvürü dərinləşməyə başladı. Hətta nümayəndələrdən biri "Turan yolu" projesi müəllifi, romantik Turançılardan deyə biləcəyimiz Hacı Sami onu həvəsləndirərkən mübaliğəyə belə vardı: "Biz orada müəyyən işlər görə bildiyimiz halda sənin Türküstana gəlib çatan şan-şöhrətin qarşısında heç nə dayana bilməz…"

Orta Asiyadan gəlmiş siyasi rəhbərlər və ziyalılarla görüşdə Ənvər Paşa xalq üsyanlarının mahiyyəti ilə tanış oldu. Müsəlman türklər bolşevik zülmünə, allahsızlığa, dinsizliyə boyun əymək istəmirdilər. Ənvər Paşa onları necə öz hallarına, yalnız buraxa bilərdi ki?

Bunlarla bərabər Ənvər Paşa bir də Moskva hakim dairələrində öz əvvəlki nüfuzunun zəiflədiyini, özünə qarşı inamın tükəndiyini hiss edirdi. Demək başqa yollara baş vurmaq lazım gələcəkdi.

Paşanın son anına qədər yanında olan yavəri Sübhi bəyin xatirələrində: "Moskva ağır günlər keçirirdi; talonla verilən çörək aclığı dəf etmirdi. Digər çətinliklər də vardı… Ənvər Paşa bunları gördükçə Moskvada oturmanın faydasız olduğunu tamamən anladı. 1920-ci ilin oktyabr ayının ortaları Moskvadan ayrıldı. Bu

çıxış Moskvaya gəlişimizin tamamən əksi vəziyyətində idi. Onu böyük bir dostluq və səmimiyyətlə qarşılayanlar indi gedərkən o qədər böyük bir yola salma törəni təşkil etmədilər. Formal olaraq yanında bir neçə adam bizi uğurlamağa gəlmişdi. Beləcə Ənvər Paşa Moskvaya vida etdi və Buxara yolunu tutdu. Ənvər Paşa Buxara yolunda özünü yenidən həyata qovuşmuş qədər xoşbəxt hiss edirdi. Hətta ən çox sevdiyi Tələt Paşanın acısını belə bu hürriyyətə qovuşmuş olduğu üçün unutdu. Ənvər Paşa Buxara yolunda hey azadlığı, müstəqilliyi düşünürdü və yeni yapacağı işlərin tətbiqi şəklini qərarlaşdırırdı. Ənvər Paşa bu səyahətində yalnız deyildi, yavəri Mühiddin bəy də yoldaşlıq edirdi. Nəhayət, müsəlman ölkəsinə girmişdik. Günlərdən bəri rus kəndləri içindən keçən qatar yeni bir aləmə girmiş kimiydi. Artıq hər şey dəyişmişdi. Bəzən kiçik kəndlərin içindən keçərkən minarələrdən yüksələn azan səslərini eşidir, özünü bambaşqa bir aləmdə hiss edirdi…”

Gəlib yetişdiyində isə xəyallarında canlandırdığı əfsanəvi Türküstana gəlməsindən heç peşman deyildi, bu, aydın görünürdü. Burada xalqın sevgisi, millətçi gənclərin ona göstərdiyi rəğbət buraya gəlmək qərarında onun haqlı olduğunu bir daha sübut etmişdi. Məhz buna görə Buxaradakı milli üsyanın başına keçməyə və idarəçiliyi öz əlinə almağa razı oldu. Bütün Orta Asiya onu milli qurtuluşlarının simvolu kimi görməyə başlamışdı. Orta Asiya türkləri hərb sənətinin bilicisi olan bu peşəkar komandanın onların lideri olmasına hədsiz sevinirdilər.

1922-ci ilin mayında sovet hökuməti Ənvər Paşanın sərt ultimatumunu aldı: “Qızıl Ordu Türküstanı tərk etməlidir!”

Bolşeviklərin rədd cavabından sonra baş verən döyüşlər Ənvər Paşanın qələbəsi ilə bitərkən bu cəsur türk komandanı Orta Asiya coğrafiyasındakı türk diyarlarında yaşayan canlı əfsanə kimi dildə-ağızda dolaşmağa başlamışdı.

Ənvər Paşanın məcburi qürbət seçimi qarşısında qalarkən düşüncəsi Almaniyada həmişəlik qalmaq yox, ya Qafqaza, ya da

Türküstana getmək idi. Qardaşı Nuridən Bakının, Azərbaycanın bundan ötrü heç müsaid olmadığını qətiləşdirən kimi Türküstanı seçdi. Zatən Türküstan düşüncəsi onun Turan amalının əsas nöqtəsi idi və o, buna çoxdan hazırlanmışdı. Hələ iqtidarda olduğu çağlarda "Təşkilati-Məhsusə" üzvlərini və zabitlərini göndərmişdi, bununla bölgədən daima xəbər tutmağa çalışmışdı. Amma təəssüf ki, düşündüyü kimi olmadı, Türküstanın bəzi liderləri qısqanclıqdanmı, bəsirət gözlərinin bağlanmasındanmı, yoxsa başqa hansısa səbəblərdənmi Ənvər Paşanın birləşib birlikdə hərəkət etmək istəyinə baxmayaraq onu meydanda tək buraxdılar… İyun ayında isə Ənvər Paşa Bəlcivanda qərarlaşmaq məcburiyyətində qaldı. Ancaq vaz keçmək, geri çəkilmək, qorxu ona yad idi! "Öldü var, döndü yoxdu" düşüncəsində idi. Yanında olub onu tək buraxmayanlara "Türküstan üçün mütləq savaşmalıyıq. Bacarsaq qazi, bacarmasaq şəhid olarıq. Qismətimizə nə yazılıbsa, o da olacaq. Bundan heç qorxumuz yoxdu. Belə it kimi rus zülmündə yaşamaqdansa, ata-babalarımız kimi şərəflə ölərik!" Bu sözləri söyləyib ağlamışdı, yanındakı sadiq silahdaşlarını da ağlatmışdı mərdanə sözləri ilə… Və bu sözləri deyəndən cəmi iki ay sonra paşa silahdaşları ilə bərabər şəhid olacaqdı… Onun ürəyi kimi, xəyalları da dağ boyda idi. Nevzat Kösəoğlu Ənvəri nə gözəl anlatmışdı: "Süqutu da quruluşu kimi bir dastan olan Osmanlının çöküşünün qəhrəmanları olan nəslin bayraqdarı heç kiçik düşünə bilməyən Ənvər Paşa idi..."

## İYİRMİNCİ FƏSİL

*Hər nə olursa olsun, bu şanlı bayraq*
*dalğalanmağa davam edəcək...*
***Rəcəb Tayyib Ərdoğan***

Həmin dönəmdə etibar etdiyi, özünün sağ əli bildiyi mərd silahdaşlarından biri də Orta Asiyaya səs salan, mübarizəsində onunla çiyin-çiyinə vuruşan, mərd Azərbaycan türkü Axund Yusif Ziya Talıbzadə idi.

İlk tanışlıqlarında ondan cəmi dörd-beş yaş böyük olan Yusif Ziyanın cavan olmasına baxmayaraq həyatın hər üzünü görmüş insanlara xas yetkinliyi çox xoşuna gəlmişdi. Azərbaycana və Azərbaycan türklərinə bəslədiyi xüsusi rəğbətin təsiri ilə qəlbinin səsi Ənvər Paşaya pıçıldayırdı ki, Yusif Ziya nəinki etibarlı silahdaş, əqidəli məsləkdaş, həm də sadiq dost ola bilər.

Ənvər Paşanın Yusif Ziya kimi dönməz, mərd, cəsur dostlara ehtiyacı daha çox idi. Çıxdığı böyük Turan İslam yolunda yanında onunla bərabər yolçuluq edəcək, çətinliklərə yorulmadan sinə gərəcək, ona dəstək olacaq məhz belə qeyrətli, şücaətli oğullar olmalıydı. Odur ki, kiçik qardaşını böyük bir ordunun üstündə Azərbaycana yola salanda və bu kiçik qardaş "oldu" deyib onun

əmrinə baş endirəndə o da böyük qardaş ədasıyla çox inandığı, özünə qardaş qədər yaxın bildiyi Yusif Ziyanı və Süleyman Asafı ona köməkçi – müşavir vermişdi. Süleyman Əfəndi Ənvər Paşaya sədaqəti ilə tanınırdı.

...Nə qədər Ənvər bəyə yaxın olsa da Nuri özü də Axund Yusif Ziyanı eyni yola çıxmamışdan əvvəl yaxından tanımaq istəyirdi. Bunsuz mümkün deyildi. Çünki yanında olacaq adamın kimliyini, əqidəsini, hansı yolu əsas götürməsini özünün də bilməyi vacib idi. Öyrənmişdi ki, Yusif Ziya fikir dünyası elə geniş bir ideoloq idi ki, öz dini inancını və fəaliyyətini istiqlal uğrunda mübarizə ilə paralel aparmağı vacib hesab edirdi. Onun Allaha inamı və imanı, İslama xidməti həm də milli azadlığa töhfəsi ilə çulğaşıb birləşirdi. Bu iki yolu birləşdirib hərəkət etmək onun həyat məfkurəsinin əsasını təşkil edirdi. Ənvər Paşa ilə Yusif Ziyanın yaxınlaşmasında rol oynayan ilkin amil məhz bu idi: əqidə fikir həmrəyliyinin üst-üstə düşməsi – İslamçılıq və türkçülük xəttinin birgəliyi! Həmin vaxtlar Osmanlının bir çox aydınları kimi Azərbaycan türklərinin irəlidə gedən ziyalıları da türkləşmək, müasirləşmək şüarının yanında islamlaşmaq şərtini də bu iki amildən ayrılmaz hesab edirdilər.

Yusif Ziya da İslamı Azərbaycan türklərinin bir millət kimi təşəkkül tapmağında, dövlətçiliyin formalaşdırılmasında danılmaz, nüfuzlu xətt kimi götürməyin tərəfdarı idi. Yusif Ziyanın Tiflis mədəni mühitində şəxsiyyət kimi yetişməsini öyrənən Ənvər Paşa onun ilk müəllimlərinin də atası və həmin dönəmdə tanınan Azərbaycan ziyalılarının olduğunu sonralar dostunun özündən də eşidəcəkdi. Yusif Ziyanın atası Mustafa dövrünün qabaqcıl fikirli ziyalısı idi və həmin dönəmin xeyli tanınmış elm, maarif xadimləri ilə dostluq edirdi. Ata hər iki oğlunun – Yusifin və onun kiçik qardaşı Abdullanın dini təhsil almaqla yanaşı, dünyəvi təhsil alması üçün də çalışırdı. Belə bir mühitdə yetişən Yusif Ziya daha sonralar türkçülük ideyasını da dərindən mənimsəyərək,

əlaqələrini genişləndirərək öz yolunu seçmişdi. Ənvər Paşa ilə qarşılaşmaları da əlbəttə, təsadüf deyildi. Bu iki fikir və hərb adamının görüşü, yollarının kəsişməsi və dostluqları özlərinin də bir-birinə söylədiyi kimi Allahın buyruğu və təvafüqü idi.

Yusif Ziyanın üstün məziyyətlərindən biri həm də dini radikal yönümdən qavraması deyil, İslamın mütərəqqi mahiyyətini anlayıb bunun müasir elmi-mədəni tərəqqiyə böyük töhfə verəcəyinə ürəkdən inanması və bu baxışları müdafiə etməsi idi. Onun türkçülüyü İslam ittihadına söykənirdi.

Türkiyə mədəni-ictimai və siyasi mühitində də sonralar Yusif Ziyanı tanıyan xeyli insanlar olmuşdu. Ənvər Paşa onu da eşitmişdi ki, Azərbaycanın böyük xeyriyyəçisi Hacı Zeynalabdın Tağıyevin sifarişi ilə Azərbaycan türkcəsinə tərcümə edilmiş və dörd min lirə qızıl dəyərində, cildi qiymətli almazlarla bəzədilmiş "Qurani-Kərim"in üç cildlik nüsxəsini təfsirlə birlikdə hədiyyə olaraq Sultan II Əbdülhəmidə elə Yusif Ziya çatdırmışdı. Paşa bilirdi ki bu, axundun cəmiyyətdə qazandığı etibarın və Hacı Zeynalabdın Tağıyevin ona olan hüsn-rəğbətinin nəticəsi idi.

Bəzi bədxahların, xüsusilə də bolşeviklərin "pantürkist" və "panislamist" deyə həmin dönəmlərdə damğaladığı Azərbaycan ziyalıları, elə Osmanlı dövlətinin aydınları da əslində öz milli mənsubiyyətlərini və dinlərini sevən, ona bağlı olan yüksək mənəviyyatlı, dərin inanclı insanlar idi. Elə ilk görüşlərində Ənvər Paşa ilə Yusif Ziyanın arasında bununla bağlı maraqlı, yaddaqalan söhbəti olmuşdu:

– Yusif bəy, türkçülüyə və İslama eyni vaxtda bağlılıq bir ziyalının aydın fikirli olması ilə bərabər həm də imanlı olmasının, beləliklə də uca Allahın yaratdığı hər bəndəyə ədalətli, humanist yanaşmasını şərtləndirən və fikrimcə, çox önəmli amillərdir. Allaha inanan, sevən inanclı bir insan onun yaratdıqlarını da sevər, belə adamların fəaliyyəti dünyamızı ancaq tərəqqiyə və aydınlığa aparar, bəzilərinin hesab etdiyi kimi qaranlığa yox.

Yəni, demək istərəm ki, İslam, bəzi dinsizlərin düşündüyü kimi geriliyin, qaranlığın daşıyıcısı deyil, aydınlığın, ədalətin və inkişafın dinidir.

– Tamamilə haqlısınız, paşam! İslam dini milli düşüncə tərzinə də, adət-ənənələrə də, hətta milli dilə də böyük təsir göstərdiyinə görə onu "millətlərin təşəkkülünün və təsirinin mayəsi" adlandırsaq, səhv etmiş olmarıq. Mənə görə, Allahını tanıyan insan milli birliyini də, ittihadını da dərk etmiş olar. Xudavəndi aləmin bəşəri xəlq etməkdə məqsədi xəlaiqi təşkil etməkdir. Türk ənsarının islamı tapması həm də türk birliyinin, türk ittihadının təşkili və formalaşması mənasını daşıyır. Düşüncəmə görə, İslama xidmət həm də elə türk qövmünə xidmət etməkdir. Və əksinə – türk qövmünə, türkçülüyə xidmət etmək də elə İslama böyük xidmətdir.

– Mənim də fikirlərim bu yöndədir. Ürəkdən inanıram ki, islamiyyətin yeganə və böyük hamisi türk millətidir. İslamın əzəmətini qorumağa və gələcək nəsilə çatdırmağa yalnız türk milləti qadirdir. Türk qövmünün tarixi keçmişi, qəhrəman ata-babalarımızın olması və millət olaraq damarlarımızda əsilzadə və cəsur əcdadlarımızın qanının axması əsas verir ki, ürəklə söyləyim: İslamın əvvəlki əzəmətini bərpa etmək, onu daha da parlaq şəkildə bizdən sonrakılara ötürmək bizim vəzifəmizdir. Buna görə də böyük Turan İslam İmperatorluğunun yaradılmasını həm tarixi, həm də mənəvi baxımdan zəruri hesab edirəm.

– Bəlkə xatirinizə gələr, Ənvər Paşam, mən hələ illər öncə İstanbula gələndə "Səbilür – rəşad" məcmuəsində çap olunmuş bir bəyannamə gətirmişdim. Orada yazılan fikirlərlə indi də şərikəm ki, bizim tək ümidimiz və nicatımız Türkiyənin azadlığı və tərəqqisindədir. Əgər bu məsələdə laqeyd qalsaq, islamiyyətimiz də, milli kimliyimiz də rəzil duruma düşər. Türk qardaşlarımızın zəfərini öz zəfərimiz hesab edirik, məğlubiyyətlərinin acısını da qəlbimizin düz ortasında hiss edirik. Sarıqamışdakı faciə həm də Azərbaycan türklərinin faciəsi

idi, paşam. Orada donan hər bir əsgərin canının sızıltısını biz öz vücudumuzda, ürəyimizdə hiss elədik, o qədər məyus olduq... Bilirsiniz ki, Balkan müharibəsində də Azərbaycan türkləri könüllü şəkildə can qardaşlarımıza yardım etmək üçün Osmanlı ərazisinə axın ediblər. Yaxşı xatırlayıram, sizin himayəniz altında qurulan bir neçə taborluq alaya Azərbaycan türklərindən olan peşəkar hərbçilər təyin olunmuşdu. Bütün bunlar bizim ayrılmaz qardaş olduğumuzun ən bariz göstəricisidir. Bu həm də onu göstərir ki, biz daim birlikdə hərəkət etməliyik. Fəxarətlə qeyd etməyi özümə borc bilirəm ki, Osmanlıda aldığım hərbi təhsil illərini ömrümün ən gözəl dönəmlərindən hesab edirəm. Mən özüm də könüllü olaraq həm Balkan hərbində iştirak etmişəm, həm də Birinci Dünya savaşında Osmanlı ordusunun tərkibində xidmət göstərmişəm, həmin vaxt Qafqaz cəbhəsində cani-könüldən döyüşmüşəm. Bunlar mənim ömür yolumun şərəfli səhifələrindəndir, paşam!

Doğrusu, Yusif Ziyadan qardaşı olaraq danışmaqdan çəkinən Abdulla Şaiq də nə qədər özünü saxlasa da ara-sıra ondan bəhs etməkdən özünü saxlaya bilmirdi. Özü bir uşaq təbiətli ikən, görkəmcə də bir yeniyetmə vücuduna malik olan Şaiq yazırdı: "Mənim təbiətim böyük qardaşıma əsla bənzəməzdi. O vücudca və yaşca özündən çox böyük və qüvvətli uşaqlarla güləşir, qapışır və daima qalib gəlirdi. Qaçaq Kərəm rolunu oynamaq onun ən çox sevdiyi oyunlardan idi. Özü Kərəm olurdu, məhəllə uşaqları onun yasovulu olurdu. Küçələrdə qoyduğu qarovullar oradan keçən yabançı uşaqları tutub "Kərəm səni çağırır", – deyə çəkə-çəkə qardaşımın hüzuruna gətirirdilər... Qardaşım da: "Sən Kərəmin torpağından izinsiz nə üçün keçirsən?" – deyə onları döydürürdü. Bu oyun əsla mənim xoşuma gəlməzdi... "

Sonralar da bu təbiəti dəyişməmişdi. Mühacir ziyalımız Əbdülvahab Yurdsevər xatirələrində Axund Yusif Ziyanı "qabına sığmayan xarakterdə bir insan" kimi xarakterizə edəcəkdi.

Yusif Ziya ilə hər söhbətində Ənvər Paşa bir daha onun dünyagörüşünün genişliyinə, bəhs etdiyi məsələlərə doğru yanaşma sərgiləməsinə valeh olur, islamçılıq və türkçülük yolunda hər fədakarlığa hazır olmasını ürəkdən təqdir edirdi. Türkiyənin Hürriyyət savaşına da qoşulan və fədakarlıq xidmətlərinə görə paşalıq rütbəsinə yiyələnən Yusif Ziyanın elə təbiətcə də əsilzadə olduğunu, paşalığın mahiyyətcə də elə boyuna, mənəviyyatına yaraşdığını vaxtaşırı dostunun özünə də söyləyirdi.

Yusif Ziyanın qardaşı Abdulla Şaiqin də Azərbaycanda tanınmış sima, maarifpərvər ictimai xadim və istedadlı şair olmasını da dostunun dilindən eşitmişdi. Yusif Ziya qardaşı Abdulla Şaiqin türkçülük ruhunda gözəl, mübariz şeirlər müəllifi olduğunu da söhbətlərin birində fəxrlə dilə gətirmişdi:

– Paşam, qardaşım Abdulla Şaiq də mənim kimi türk birliyinin vacibliyini düşünür. Çox da yaxşı mənzumələrin müəllifidir. Bu yaxınlarda bir şeir yazıb, onu sizə oxumaq istərdim:

*Birləşəlim, türk oğlu, bu yol millət yoludur,*
*Ünlə, zəfərlə, şanla tariximiz doludur.*
*Yürüyəlim irəli, haydı, millət əsgəri,*
*Keçmişimiz şan, zəfər, durmayalım biz geri!*

Paşa həyəcanlanmışdı, qızaran alnında tər puçurlamışdı. Vəcdlə:

– Bu şeir daha çox himnə bənzəyir, Yusif Ziya, qardaşım. Həmişə düşünürdüm ki, sən elə-belə, sıradan bir ailədən çıxa bilməzsən. Gör, sənin qardaşın necə möhtəşəm diləkli, necə kamil insandır. Rica edirəm, davam et. Çox duyğulandım, gözəl şeirdir.

Yusif Ziya fərəh içində davam etdi:

*Dalğalanır üstümdə şanlı Turan bayrağı,*
*Alovlanır qəlbimdə Ərgənəkon ocağı.*
*Haydı, yola çıxalım, haqsızlığı yıxalım,*
*Turanda gün doğunca zülmətlə çarpışalım!..*

Ənvər Paşa birlik və qardaşlıq təbliğ edən, Turan sevdasını coşduran, ürəyindəki arzu və niyyətlərinə tən gələn bu şeirdən elə təsirlənmişdi ki, qalxıb Yusif Ziyaya sarılmış və "belə qardaşlarımız var olduqca biz həmişə zəfər çalarıq, inşallah" demişdi.

– Qardaşınız nə gözəl yazmış, Yusif Paşa, necə də gözəl vurğulamışdır ki, Turanda gün doğana qədər çarpışmalıyıq! Tam olaraq mənim fikrim, düşüncəm, əqidəm də budur! Başımızın üstündə şanlı Turan bayrağı dalğalanıncaya qədər dinsiz bolşeviklərlə mübarizə aparmaq! Bəli, elə Abdulla Şaiqin dediyi kimi, bizim nə ürəyimizdə, nə beynimizdə qorxudan əsər-əlamət yoxdur.

– Ənvər Paşam, bu müqəddəs yolda son nəfəsimə qədər sizinləyəm! Ölərsək şəhid olarıq, qalarsaq gələcək nəsillərimiz, uşaqlarımız üçün şanlı Turanı qurarıq! Uşaqlar demişkən, qardaşım Abdulla uşaqlarımızın hələ körpəlikdən türkçülük ruhunda böyüdülməsinin, vətənpərvər kimi yetişdirilməsinin tərəfdarıdır. Şeirlərinin birində bununla bağlı elə yaxşı laylay, yəni bir növ ninni yazıb ki:

*Lay-lay mələyim, sevdiciyim, yavrucuğum yat!*
*Bir də ələ düşməz bu cocuqluq dəmi, heyhat!*
*Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,*
*İştə vətənindir, a quzum, şanlı bu Qafqaz.*

İşlədiyi məktəblərdə də Turançılıq məfkurəsinin təbliğatı ilə məşğuldur. Övladlarımız "Türk oğlusan, əcdadın uludur, şanlıdır" sədaları ilə böyüdülsə, əlbəttə ki, boya-başa çatanda türkçülüyün də, İslamın da, Vətənin də qədrini bilərlər. Bizim də istədiyimiz bu deyilmi, Paşam?

– Görürəm ki, Allah bizim yollarımızı boşuna birləşdirməyib, Yusif Ziya Paşa! Sən də mənim kimi öz qabına sığmayan və böyük hədəflərlə, ali ideallarla yaşayan bir mücahidsən, əsl mübarizə adamısan!

– Paşam, Azərbaycanda sovet hakimiyyətinin qurulmasından çox az zaman keçəndən sonra anladım ki, doğma yurdumda qala bilmirəm. Bolşeviklərin əsl üzünü gördüm. Bütün bunlara dözə bilmədim. Anladım ki, əqidəmə uyğun yeganə fəaliyyət bundan sonra Basmaçılar hərəkatına qoşulmaqdır. Hətta Lenin Nəriman Nərimanovla xəbər göndərmişdi ki, onun partiyasına keçdikdən sonra məni yaxşı güzəranla, işlə də təmin edə bilərlər. Ancaq razı olmadım, partiyaya keçmədim. Lakin həmin dönəmdə Naxçıvanda hərbi komissar kimi daşnaklarla mübarizə aparmışam. Mənfur ermənilər Azərbaycan torpaqlarında at oynadırdılar. Xalq da məni sevirdi, inanırdı. Təvazökarlıqdan kənar olsa da, deyim ki, hətta Naxçıvanda bir kəndə adımı vermişdilər. Mən orada deyirdim ki, ermənilərin sonunacan dərsini vermək lazımdır. Çünki onların necə xain, satqın olduqlarını yaxşı bilirəm. "İrəvana qədər irəliləyək" dedim. Ancaq mərkəzdən xəbər gəldi ki, İrəvana hücumu saxlayın. Bundan çox incidim. Çünki ermənilərin indi dərsi verilməsə, gələcəkdə çox ziyanlıq edəcəklər. Bunlar elə həyasız xalqdır ki, həmişə özlərinin olmayana iddia edir, ələ keçirməyə çalışırlar. Ancaq bunu mərkəzə başa sala bilmədim ki, bilmədim. Sonra Bakıya qayıdıb doktor Nəriman Nərimanovla görüşdüm. Açıqca dedim ki, Nəriman bəy, mən sovet quruluşu ilə uyğunlaşa bilmirəm, bu rejimə xidmət göstərmək istəmirəm. Daşnaklar Azərbaycan türklərini qırır, hər yerdə, elə Naxçıvanda da hər cür qəddarlıq edirlər. Mən bununla barışa bilmirəm, sovetlərin daşnaklara, mənfur erməni quldurlarına qarşı liberal siyasətini qəbul edə bilmirəm.

Doktor Sovet İttifaqı sərhədlərini tərk etmək üçün mənə rəsmi sənəd verdi. Məhz siyasi-ideoloji narazılıqlar zəminində canımdan çox sevdiyim Vətənimdən ayrıldım. Bolşeviklərin xalqların dostluğu və birliyi pərdəsi altındakı saxta, ideoloji təbliğatının arxasında xalqıma qarşı yönəltdikləri bəd niyyətləri, dinsizliyi, allahsızlığı aydınca sezirəm, Ənvər Paşa! Allahı tanımayan bir

hökumət gec-tez səfalətə və süquta məhkumdur, inşallah! Gec-tez sovetlər birliyi dağılacaq, buna adım kimi əminəm! Çünki Allaha imanın olmadığı yerdə nə xeyir-bərəkət, nə də davamlı tərəqqi olmaz, Allah buna izn verməz! Bolşevik zülmünə qarşı bundan sonra ömrüm vəfa etdikcə sizinlə eyni sıralardayam! Türk-İslam birliyi uğrunda şəhid olmağı belə gözə almışam! Qurtuluşumuz birliyimizdədir!

– Doğru deyirsən, Yusif Ziya Paşa! Uzun və çətin bir yolumuz var! Ancaq ümid edirəm ki, qüvvələrimizi birləşdirib Allahın köməkliyi ilə bu mübarək yolda istədiyimiz nəticəyə nail olacağıq! Biz bu böyük yola bir tərəfdən bolşeviklərə qarşı üsyan, bir tərəfdən də ingilis imperializminə qarşı başlatdığımız savaş şüarları ilə girmişik. Türküstanda ziyalı zümrəsi çox azdır, müstəmləkəçilər zaman-zaman burada qəsdən belə mühit yaradıblar, çoxsaylı aydınların yetişməsinə imkan verməyib. Ona görə də bizim buradakı savaşımız təkcə silahla yekunlaşmır, biz həm də Türküstanda fikir öndəri olmağı bacarmalıyıq. Türküstan üçün mübarizə aparmaq lazımdı. Zatən haqq olan ölümdən qorxanlar köpək kimi yaşamağı seçərlər. İndi savaşmasaq, həm keçmişimizin, həm də gələcəyimizin lənətinə layiq olarıq. Halbuki qurtuluş üçün ölməyi gözə alsaq, bizdən sonrakıların hürr və bəxtiyar olmasını təmin etmiş olarıq.

Ənvər Paşa Yusif Ziyanın əqidə və xarakter bütövlüyünü, üstün şəxsi keyfiyyətlərini, Türk-İslam birliyi məfkurəsi yolunda dönmədən, gözünü də qırpmadan ölümün üstünə gedəcəyini həmin qızğın söhbətdə anlamışdı. Ona görə də mübarizəsində onun da yer almasını, bəzi yerlərdə üsyana başçılığı, hərəkatın pərakəndə olduğu yerləri tənzimləməyi Axund Yusif Ziyaya tapşırmaq qərarına gəlmişdi.

Türküstan mübarizəsinin liderlərinə qarşı birmənalı mövqeyi olmayan, hətta bəzən bu iki türkün bir-birinə olan qardaşlıq münasibətinə xəfif bir qısqanclıqla da yanaşan gənc mücahid Zəki

Vəlidi Toğan sonralar yazdığı xatirələrində şəxsən yaxşı tanıdığı Yusif Ziyanın haqqında dəyərli məlumatları da qələmə almışdı.

Ənvər Paşa Yusif Ziyaya, onun əzminə, bacarığına çox etibar edirdi, elə buna görə də Səmərqənd, Xivə, Buxara və Qazaxıstan tərəflərdəki üsyanlara nəzarət etmək missiyasını ona tapşırdı. Axund Yusif Ziya böyük bir enerji ilə atıldığı bu mübarizədə Ənvər Paşanın Şimal və Qərb vilayətlərində fövqəladə və səlahiyyətli komissarı kimi şöhrət tapmışdı.

...Qazaxıstana səfəri öncəsi Yusif Ziyanın dişlərində problem meydana çıxmışdı. Ənvər Paşa ilə görüşlərinin birində Yusif Ziyanın ağrıdan əzab çəkən simasını görən paşa şəfqət və əndişə içində soruşdu:

– Axund, nə olub, haran ağrıyır?

– Paşam, nə vaxtdır kauçuk və metal düzəltmə dişlərim qırılıb. Loxma çeynəyə bilmirəm, yemək yeyə bilmirəm. O səbəbdən dişlərimin ağrısı da bir tərəfdən mədəmin ağrısına qarışıb.

– Zəki Vəlidi ilə danışasan bəlkə, kəndə xəlvətcə bir diş həkimi gətirtsin, burada müalicə etsinlər?

– Danışmışıq paşam, Zəki Vəlidi bəy deyir ki, Səmərqənddə diş həkimlərinə düzəltdirmək mümkündür. Ora da ancaq gizlicə getmək olar. Çünki ətraflar sovet ordusunun nəzarətindədir. Kəndə bir həkim gətirtmişdi gizlincə, ancaq o həkim də dişlərimə baxdıqdan sonra dedi ki, bunu evdə müalicə etmək mümkün deyil, mütləq şəhərə getmək lazımdır. Artıq nə etməli, dişsiz də olsa Qazaxıstana gedəcəyəm...Yolumdan qala bilmərəm!..

...Zəki Vəlidi Toğan sonralar əsərində Yusif Ziyanın savadını, təfəkkürünü yüksək qiymətləndirməklə yanaşı, Ənvər Paşaya və onun seçdiyi yola olan sadiqliyini qeyd etmişdi: "Axund Yusif Ziya boş vaxt tapan kimi mənim siyasi, elmi fəaliyyətimlə də maraqlanardı. O, Azərbaycanın fikir həyatında mühüm yer tutan mütəfəkkir və yazar idi. Türkcə əsərləri və liberal fikirlərin yer aldığı qısa Quran təfsiri vardı. Rusca lap az bilirdi. Fəqət, ərəbcəsi

və farscası mükəmməl idi. O, kəlmənin tam mənasilə bir panislamist və pantürkist idi. Bu baxımdan Ənvər Paşaya da çox bağlı idi, hətta onun müridi kimi idi..."

... Yuzif Ziya dost, qardaş bildiyi Ənvər Paşanın ölüm xəbərini Xarəzmdə aldı. Qeyri-ixtiyari "Allah şəhadətini qəbul etsin, paşam" deyib kövrəldi. Öz möhləti də sona çatmaqda idi. Bunu hiss edirdi. Acı xəbəri eşitdiyi gündən dilindən qardaşı Şaiqin "Yad et məni" şeiri düşmürdü. Ənvər Paşanın şəhadətindən sonra özü də ölümün nəfəsini bir addımlığında hiss edərək artıq tək-tənha qaldığını anlayırdı:

*Vəqta ki bu şairi-vətəndən*
*Dünyada nə iz qalar, nə bir nam,*
*Üzdükcə səadət içrə şən-şən,*
*Sürdükcə dəmadəm ömrü-xoşkam,*
*Yad et məni, qaibanə yad et!*

# İYİRMİ BİRİNCİ FƏSİL

*Mən güvənimi heç bir zaman itirmədim və itirməyəcəyəm. Ən böyük diləyim Vətənimi tam xoşbəxtlik içində görməkdir...*

*Ənvər Paşa*

...Sevimli ömür-gün yoldaşı Naciyə bir müddət əvvəl ona yaxınlarda yenidən ata olacağının müjdəsini vermişdi. Berlinin yaşadıqları Tirgarten küçəsində yerləşən 34 nömrəli evdə yarı qüssəli, yarı sevincli, yarı səksəkəli, yarı məmnunluq dolu bir sabah açılırdı; Naciyə Sultan oğul övladları Əlini dünyaya gətirmişdi. İki qız övladları olmasına baxmayaraq Ənvərin sonsuz bir istəklə oğul övladı yolunu gözlədiyini Naciyə yaxşı bilirdi. Hətta sevimli qızları Mahpeykərə oğlan paltarı geyindirməklə bu istəyini ovundurmağa çalışırdı. Bu yolla da bir növ istəyini anladırdı:

– Bu geyimdə Mahpeykəri görüncə bilirsənmi nələri göz önünə gətirirəm?

– Zənnimcə, silahdaşın olacaq qızlardan ibarət bir qadın taburunu…

– Yox. Banu Çiçəyi...

Ətrafında əl-ayağına dolaşacaq torların hörüldüyü həmin o günlərdə bu şad xəbər Ənvər Paşaya yetişdi. Bir anlığa o son

vaxtların ümidsizliyini, yaxınlaşan "bolşevik taunu" təhlükəsini də unutdu. İndi o yalnız bu şirin yaşantıların unudulmaz təəssüratlarını yaşayırdı. Oğul övladının dünyaya gəlməsi xəbərini aldığı iyirmi doqquz sentyabr günündən üzü bəri Moskvada yaşadığı günlər boyunca onda yeni bir hal təcəlli etməyə başlamışdı. Naciyə Sultanın onu ən böyük arzusuna qovuşdurması, evində o balaca varlığın, Ənvər Paşanın oğlu adlanacaq varisinin nəfəsinin duyulacağı təsəllisi uzaqdan-uzağa da olsa, paşanın qəlbini rahatlatmışdı.

Üstündən az keçməmiş, 1922-ci ilin 21 may günündə sevimli Naciyəsinə yazdığı məktubuna da elə həmin düşüncələrlə baş-başa son nöqtə qoymuşdu: "Bilmirəm xatırlayırsanmı? Məmləkətdəki səyahətlərimdə əksər hallarda bu ovqatlı məktublarım sənə yetişirdi. Amma sonrakı həyatım o qədər üzüntülü gəlib-keçdi ki, o qədər fəna yerlərə, düşmən əllərinə düşdüm ki, səninlə bağlı düşündüklərimi həyata keçirə bilmək üçün min dürlü çarələr düşünsəm də, bircəciyini seçə bilmədim. Fəqət indi, nə olursa-olsun, diqqətlə dinlə, sənə, özü də yalnız sənin üçün düşüncələrimi yazacağam. Əvvəlki məktubların birində də demişdim. Bilmirəm, nədənsə yaşım irəlilədikcə öylə bir boşluğa yuvarlanıram ki, bunu ancaq məhəbbət və qadınlığınla, fəqət, yalnız sən doldura bilərsən…

Ah, Naciyəciyim! Yəni ikimiz baş-başa verib də ciddi düşüncələrimizi bir-birinə qataraq yaşarsaq, adama elə gəlir ki, indikindən min qat daha doğru düşünəcək, min qat daha doğru qərarlar verə biləcəyik. Yox, yox, tez ol gəl, Naciyəm, bərabər olalım. Hə, indiyə qədər gəlməni istəmirdim. Amma indi… ən gözəl varlığım olan səni istəyirəm. Əlbəttə, mən əvvəllər daha xudbin oldum. Ancaq yalnız ikimizin arasındakı xudbinlik olsa, yenə də qələbə çalaram. Fəqət, indi qurtarılacaq İslam aləminin işə daha qüvvətli, daha canlı sarılmama yardım edə biləcəyini düşünməmdən doğan xudbinlik məni bir qədər irəli aparmaqdadır…"

Ətrafında iblislik torunun hörülməyə başladığı, dairəsinin qapadılmasına göstəriş verildiyi bir vaxtda Ənvər Paşa belə düşünür, can sirdaşı Naciyəsinə bu cür xəyali hesabat verirdi. Eyni zamanda dərin bir kədər hissi ilə onu da vurğulamağı unutmurdu ki, fəna yerlərdə düşmən əllərinə düşdüm…

Yeganə təsəllisi yenicə dünyaya göz açmış oğul körpəsi idi. Yarımçıq işlərini o yavrunun tamamlaya biləcəyinə inanırdı. Ona görə də məktubunun davamını böyük bir inamla yazırdı:

"Fəqət, əcəba, mini-mini, kiçicik aslancığımız sənə yanıma gəlmək üçün icazə verəcəkmi? Yox, yox, ondan izn almadan heç bir qərar verə bilmərik… O, biz yaşa dolduğumuz zaman, başladığımız işi irəli götürəcək! O, ingilislərin, fransızların cəsədləri üzərindən İslam bayrağını irəli götürəcək. Bütün Şərqi, Qərbi qurtaracaq. İştə, o böyük adamın sözünü sən də, mən də hörmətlə dinləməyə məcburuq. Hər yerdə onun sözü yürüyəcək. O, hörmət görəcək...

O, yalnız bizim ailəmizin deyil, bəlkə də bu gün mən heç bir nəticəyə müvəffəq olmadığım halda, məni yenə xilaskar kimi sevən dörd yüz milyon müsəlmanın göz-bəbəyi olacaq. Onun önündə və onu bətnində daşımış sənin önündə bütün düşmən aləmi yerlərə sürünərək, etdiklərinə peşman olub, əfv diləyəcəklər. O gün yetişincə sizi evimizdən alan fransızlar, atamı zindanlarda çürüdən ingilislər zəhərli dişləri sökülmüş ilanlar kimi gövdələrini zəlil, səfil bir halda ayaqlar altında sürüyəcək, yerlərə sürtüləcəklər…"

Çevrəsini məşum fitnə torlarının bürüdüyü və dünyasının daraldığı bir məqamda onun sevgili könül dostuna yeganə istəyi "gəl!" idi: "Gəl, gəlişinlə mənə can ver. Gəl, gəlişinlə mənə qüvvət ver". Hamısından da daha çox ona inam verməsini istəyirdi, ümidə ehtiyacı olduğunu yazırdı… Zərifdən zərif olan bir xanım əfəndini illər boyunca yalqız qoyub, qəlbini üzdüyünün, onu incitdiyinin, tənhalıq yaşatdığının üzrünü diləyə-diləyə… Amma

dərdini söyləyəsi, könlünü aça biləsi bir başqası vardımı? Hələ beşiyində mışıl-mışıl yatan yavrusunun gələcəkdə necə bir cahanşümül missiyanı həyata keçirə biləcəyi xəbərdarlığını doğma Naciyəsindən başqa kimə etibar edə bilərdi? Özgə birinə necə ürək aça bilərdi ki, son məqsədimiz Turandır?! Çox sevdiyi bir sözü vardı: "Hər kəs tükənə bilir, lakin mənim tükənməyə haqqım yoxdur". Yorulub, bezmədi tutduğu yoldan, çünkü dediyi kimi buna haqqı yox idi, sonuna qədər getməli idi. Həyat eşqi vətən idi; sevgili Naciyəsi ilə məktublarında da əsas mövzu Vətən idi, qalanı təfərrüatdı...

Naciyəni çox, lap çox sevmişdi. İllər ərzində ona yolladığı məktublarında sevgisini, şəfqətini, həsrətini anlada-anlada bitirə bilməzdi. Fövqəladə dərəcədə güclü bir sevgi bağı yaranmışdı aralarında. Böyük sərkərdə, mətin komandan Ənvər Paşanın Naciyəyə olan eşqi onu kiçiltmir, əksinə daha güclü və əzmli edirdi. Düşmənləri öz qarşısında diz çökdürən hər cəhətdən güclü bir hərbçi Naciyənin sevgisi qarşısında dizlərini yerə qoymuşdu. İnanılmaz bir eşq, dəlicəsinə bir bağlılığı vardı Naciyəyə. "Eşq kişini kiçiltməz, böyüdər" – Ənvər bəyin düşüncəsi hər zaman belə idi. Aralarında on dörd yaş fərqi vardı. Amma nə Ənvər bəyin işi ilə əlaqədar çox vaxt uzaqda olması, nə yaş fərqi – heç bir şey bu sevginin varlığına mane olmurdu. Həsrət və məsafələr hər ikisini üzürdü, ancaq bir filosofun da dediyi kimi, ayrılıq rüzgarları kiçik sevgiləri söndürüb yox edir, böyük sevgiləri isə daha da alovlandırırmış...

Ənvər Paşanın Naciyəyə yazdığı məktublar səhifələrə sığmazdı. Bir dəfə birnəfəsə düz yetmiş bir səhifəlik məktub yazmışdı Naciyəyə, tam bir dəftər! Bəzən gördüyü işləri, gələcəklə bağlı planlarını da məktublara yazır, sevgili Naciyəsini hər şeydən xəbərdar etmək istəyirdi. Həyat yoldaşına yazıb tapşırırdı ki, göndərdiyi məktubları saxlasın: "Bunlar həm də mənim tariximdi. Bioqrafiya kimi… Bunları bir yerdə saxla, yapışdır,

gələcəkdə mənim haqqımda yazmaq istəyənlər olanda onlara lazım olacaq…"

Anidən yadına düşdü, məktublarının birində "Çingizin, Teymurun taxtı-tacı sənə qurban, hətta İstanbuldakı taxtı-tac da sənindir… İslam imperatorluğu qurub ayaqların altına sərəcəyəm" yazırdı.

...Ənvər Paşanın niyyəti dövləti qurtarmaqdı, ancaq hər şey uğursuzluqla nəticələnmişdi. İstədikləri, arzuladıqları alındımı, alınmadımı? Bunlar, artıq cavabı tarixə və gələcəyə həvalə ediləcək suallar idi.

Ta ki Türküstanda tuş gəldiyi pulemyot atəşinə kimi, o məşum günə qədər düşüncəsi ancaq bu idi – İslam bayrağı altında birləşmiş möhtəşəm Turan! Amma o bu yolu yaxşıca ölçüb-biçmişdi. Bəs bu yolu sona qədər gedə bilməsə?! Onda necə?! Ənvər Paşanın ailəsi ilə bağlı son qərarı isə həyat yoldaşına ünvanladığı vəsiyyət məktubunda yazılmışdı. Vaxtsız ölüb haqq dünyasına qovuşarsa, Naciyə Sultanın qardaşı Kamil bəylə evlənməsini vəsiyyət etmişdi. Nə zamansa ailəsinin, övladlarının yad əllərə düşə biləcəyi ehtimalının qarşısını almaq üçün bu addımı atmışdı...

Və... Naciyə Sultan sevimli həyat yoldaşının bu istəyini də qəbul edəcəkdi. Ölümündən bir il sonra qaynı Kamil Killigil ilə evlənərək beləliklə də Ənvər Paşanın övladlarını – Mahpeykəri, Türkanı və Əlini doğma əllərə təslim edəcək, sevgili Ənvərinin xatirəsini də bir ömür ürəyində yaşadacaqdı... Ta ki 1957-ci il, dekabrın 4-də altmış bir yaşında uzun sürən xəstəlikdən sonra gözlərini bu dünyaya əbədi yumana qədər...

İnsan özündə nə qədər mətanət, mənəvi güc tapmalıdır ki, bütün qəlbi ilə sevdiyini başqasına (lap bu başqası qardaşı olsa belə) vəsiyyət edə bilsin?! Amma demişdi axı: "Vətən eşqiydi bizimkisi, sevdalımıza qoşmaq yerinə, mitralyozun üzərinə qoşduq atımız çatlarcasına..." Vətən uğrunda ailəsindən, sevdiyindən ayrı düşdü, əzizlərinin dözülməz ayrılığını qəbul etdi.

...Görmədən, bilmədən, hətta yaxından tanımadan vurulursan, xəyalını canlı, dipdiri birisi kimi sevirsən, onunla əylənir, onunla ağlayırsan. Bağlanıb ümid edirsən, gözləyirsən. Amma nə etməli, sonacan bəxtiyar olmaq heç kimin əlində deyil. Xoşbəxtlik adamdan bir barmaq bal niyyətinə qaranlıqda bir dağa dırmanmaq boyda əmək istəyir. O da qismət ola ya olmaya?..

Beləcə həyatın dadı-tamı, həzzi-zövqü damağında köçüb gedərsən sevdiklərinin yaşadığı dünyadan. Sonda sığınacağın tək qapı, gediləcək tək yol var – üzü əbədiyyətə... Həyat budur – sevib ayrıldıqlarının yanğıları, acıları və onların bir ömürlük xatirəsi qalar səndən sonra...

## İYİRMİ İKİNCİ FƏSİL

*Qan tökməyi sevən bir millət deyilik, ancaq mövzu Vətəndirsə, dünyanın şah damarını da kəsərik.*
***Möhsün Yazıçıoğlu***

...Həmin o qarmaqarışıq, üzü-astarı bəlli olmayan illərdə ilk dəfə olaraq Buxarada keçirdiyi son gecədə özünü tam rahat hiss etmişdi. Ertədən o, İsmayıl Samaninin xatirəsini yaşadan türbəni bu ənənələrin tarixinə mükəmməl şəkildə bələd olan Zəki Vəlidi ilə bərabər ziyarət etmişdi. Ön tərəfdən sıx naxışlarla işlənmiş sütunlara, on pəncərəli kəmər üzərində günbəz şəkilli dam örtüyünə, qoşa minarəni xatırladan, ancaq günbəz bərabərindən aşağıda qalan zərif işlərə gözüdolusu tamaşa etmişdi. Əmir Teymurun sevimli nəvələrindən olmuş, böyük elm və dövlət adamı Uluq bəy mədrəsəsinin mavi rəngli qoşa günbəzli abidə-kompleksinin tarixi qoxusunu ciyərlərinə çəkmişdi. İmam Buxari ziyarətgahında olmuş, əfsanəvi Əmir Teymurun uyuduğu məqbərəni ziyarət etmişdi. O unudulmaz ziyarət boyunca Zəki Vəlidi Həzrəti Bəhaəddin Nəqşibəndi ilə bağlı bir hekayət nəql etmişdi Paşaya: "Bir şeyx quş kimi uçub Bəhaəddin Həzrətlərinin yanına gəlir. Bu kəraməti görən müridlərin bəziləri düşünür ki, indi şeyximiz bu adam qar-

şısında özgə bir möcüzə göstərməklə onu yerinə oturdar. Ancaq Bəhaəddin Həzrətləri heç bir kəramət göstərməyə cəhd etmədən o şeyxə belə deyir: "Sənin bu etdiyini adi bir cırcırama belə heç bir çətinlik çəkmədən edə bilər. Biz möcüzə, kəşf göstərmək üçün yox, İslam qanunlarına, şəriətin buyurduqlarına riayət etmək üçün məsuluq. Həmən, tövbə et!".

Ənvər Paşa dinləmişdi və xəfifcə gülümsünmüşdü... Sonra bir müddət dinib-danışmadan qoşa addımlamışdılar. Ənvər anidən də bilmədən müsafiri olduğu Türküstan torpağının bu müqəddəs aləmindən Əfrasiyabın nəfəsini alırmış kimi hiss etmişdi özünü… Ənvər həmin anda bu romantik və olduqca xəfif, mübhəm düşüncələrin ağuşunda özünü tam azad, məhz onun özünə məxsus dürüst bir aləmdə hiss edirdi. Həmin an içində gəzib-dolaşdığı Buxara şəhəri heç də gerçək həyatda olduğu kimi, qarmaqarışıq, qüruba enən günəşin fonunda ölgün bir mühit kimi yox, daha çox Əfrasiyab nəfəsinin əsib keçdiyi müqəddəs bir məkan təsiri bağışlayırdı. Məhz həmin dəqiqələrdə ağlından dönə-dönə keçirirdi ki, nə yaxşı bu dünyada Zəki Vəlidi kimi ağıllı, böyük düşüncəli adamlar var, yoxsa bəşəriyyət ona min bir ümid verib, durmadan "hər şeyi yoluna qoymuşam, hər kəs səni gözləyir, dünyanın bütün şanı-şöhrəti bir işarətlə qarşına töküləcək" – deyə gəvəzələməkdən başqa bir şey bilməyən hacı samilərin əlindən bezara gələrdi. Daha çox Quşçubaşı soyadıyla tanınan Hacı Sami imkan düşən kimi Ənvər Paşanın yanında peyda olar, şirnikdirici, eyni zamanda da cəlbedici yalanları üyüdüb – tökməyindən qalmırdı. Türküstanda olduğu hər bir məqamda Ənvər Paşa bu dil pəhləvanının onu necə bir çıxılmazlığa sürüklədiyinin fərqindəydi: "Mən heç kəs tərəfindən tanınmayan birisiyəm. Elə bir ağıl-fikir sahibi də deyiləm. Ancaq 1916-cı ildə qosqoca Qırğız diyarını ayağa qaldırmağı bacarmışdım. Sizsə Ənvər Paşasınız! Təkcə bir işarəniz bəs edər ki, Türküstanda yer yerindən oynasın…"

Yaxın günlərdə aralarında keçən bu söhbətə Zəki Vəlidi müdaxilə etmişdi. Əslində həqiqəti anlatmışdı: "Paşa həzrətləri bəlkə də elə çox məlumatlı deyil, amma Sami bəyin işarə etdiyi Qazaxıstan hərəkatı quru sözlə deyil, rus çarının həmin vaxt imzaladığı fərmanın nəticəsi olaraq meydana çıxdı". Sonra da Hacı Samiyə incə bir eyham vurmuşdu: "Nəticədə sən də Batıroğullarına qoşulub Çinə qaçmalı olmuşdun...".

Söz Hacı Samini tərs şapalaq kimi tutsa da susub söhbətin davamını gözləmişdi. Və Ənvər Paşa nədənsə Zəki Vəlidinin təhər-tövründən, danışığından onun Orta Asiyada üsyana rəhbərlik etməsini qısqanclıqla qarşıladığı qənaətinə gələrək qızğınlıqla "Görürəm ki, siz mənim Türküstanda çalışmamı istəmirsiniz" deyib çılğın fikirləri ilə söhbətin məğzini bir özgə səmtə yönəltmək istəmişdi…

Ancaq hər necə olsa da, Zəki Vəlidiylə olan söhbəti Ənvər Paşaya məhz özünün istəyindən irəli gələn qərarlar verməyə kömək etmişdir. Paşa, sövq-təbii, onunla bəzən fikir ayrılıqları olsa da, bununla belə qarşısında yetkin düşüncəli, hadisələrin doğru yönünü dəqiq qiymətləndirə bilən bir türk aydınını görürdü. Qədim Buxaranın müqəddəs abidələri boyunca etdiyi söhbətlər ona unudulmaz anlar yaşatmışdı. Və elə bu səbəbdən idi ki, həmin axşam, qədim Buxarada keçirdiyi son gecədə bu parlaq zəkalı türk tarixçisinə, özü kimi türkçülük sevdalısına bunları deyəcəkdi: "Bu anda özünü doğmaca vətənimdə hiss edirəm. Başlayacağım mücadilə müqəddəs bir mücadilədir. Görəcəksiniz ki, xalq məni yalqız buraxmayacaqdır. Əsasən, Qafqazda da, bizə kömək edəcək qardaşlarımız az deyildir. Bundan zərrə qədər şübhəm yoxdur…"

"Qafqazda da bizə kömək edəcək qardaşlarımız az deyildir" deyəndə Ənvər Paşa daha çox Bakını, qardaş Azərbaycanı nəzərdə tuturdu. Onun adına şərqilər ötən, marşlar oxuyan, ona toxunan əlləri belə öpüb göz üstünə qoyan Azərbaycan türklərinə

xüsusi bir sevgisi, etibarı var idi. Və heç də təsadüfi deyil ki, hələ doğma vətənindən ayrı düşmədiyi illərdə canından əziz bildiyi Nuri Paşaya məktub yazıb anlatmışdı ki, qardaş Azərbaycana, Bakıya gəlib ömrünün qalanını orada yaşamaq istəyir: "Bu barədə fikrini bilmək istəyir və cavabını səbirsizliklə gözləyirəm…"

...Ənvər Paşa Türküstana gizli yollarla getmişdi. O illərdə Cavad qəzasının fövqəladə komissarı olmuş bir nəfər çox sonralar bu sirri öz yaxınlarına açmışdı: "Ənvər Paşa Türküstana gəmi vasitəsi ilə Salyanın Qoltuq kəndindən keçib-getmişdir". Ənvərə xüsusi rəğbəti olan komissar danışırmış ki, onu həmin kəndin yaxınlığında Xəzərin sahilində görüb. Tək imiş: "Əynində uniforma, ayağında botu vardı. Dənizin sahilində uzun müddət var-gəl etdi. Sonra gəmi gəldi. Ənvər Paşa gəmiyə minib getdi".

...Moskva onu yönəldir, məqsədlərinə doğru təhrik edir, inandırır, imkan yaradır və həlledici məqamda dairəni daraldır və Türküstan fədailərinə gözdağı verirdi. Bütün bunları hərb romantikinin üzünə gülə-gülə edir, onun qorxmazlığının və cəsurluğunun, saflığının hesabına həyata keçirirdilər. Məhz bu sadalanan yüksək insani keyfiyyətləri ucbatından əbədiyyətə qədər xəbərsiz qalacaqdı ki, onu min bir ümidlə, üzünə gülə-gülə Türküstana yola salan Serqo Orconikidze ləngimədən öz əlaltılarına bu məzmunda məxfi məktub da göndərəcəkdi: "Vəziyyəti xilas etmək üçün Ənvərin dərhal məhv edilməsi lazımdır ki, bu istiqamətdə də hazırlıq gedir".

Böyük Turan sevdalısının heç ağlına da gəlməzdi ki, Türküstan Komissiyasının üzvü kimi tanınan Sukerman həmin vaxt RSFSR-in Əfqanıstandakı səlahiyyətli nümayəndəsi Raskolnikova ünvanladığı məxfi məktubda yazırdı: "Biz bu türk şirini öz məqsədlərimiz üçün əhliləşdirməyi bacara bilmədik…" Səmimi, hər cür riya və yalandan uzaq olan bu qorxmaz türk şiri ondan da xəbərsiz qalacaqdı ki, Sukermanın gizli məktubuna cavab olaraq Raskolnikov da öz növbəsində Kabildən Qazaxıstana belə bir

məlumat ötürəcək: "Dostlarımızın məlumatına görə Şərqi Buxaradan gələn Ənvər Qafqazdan Xəzərədək Şərqdə ümumi üsyan hazırlamaq planını fəal surətdə həyata keçirir. Şərqi Buxara, Fərqanə və Səmərqənd onun fəaliyyətində əsas yer tutur… Bir sıra emissar Xivəyə və Türküstanın bütün vilayətlərinə göndərilmişdir. Onun agentlərinə Sovet hakimiyyətinin qızğın tərəfdarları rolunu oynamaq, eyni zamanda da bizim əleyhimizə gizli iş aparmaq təlimatı verilmişdir…"

Yalnız bu məqamda Ənvər Paşa bolşeviklərlə onların öz diliylə danışa bilmişdi. Yəni öz tərəfdaşlarına gizli tapşırıq vermişdi ki, üzdə özünüzü bolşeviklərin dostu, sovet hakimiyyətinin qızğın təbliğatçıları kimi göstərin, imkan düşən kimi onların əleyhinə iş aparın, əsl həqiqəti anlatmağa çalışın. Məsələ belə qoyulmuşdu, ancaq bu tapşırıq barədə sovet casusları lazımi orqanlara xəbər çatdırmışdılar. Moskva baş verənlər barədə məlumatlıydı. Mayın ilk günlərində Orconikidze artıq Daşkənddə idi. Buradan Stalinə göndərdiyi məxfi məktubunda Türküstanda yeridilən siyasəti yenidən və əsaslı surətdə nəzərdən keçirməyin zəruriliyini yazırdı, hamısı təşviş içindəydilər. Türküstanda yaradılan Xalq şuralarına çox sayda Ənvər tərəfdarlarının düşəcəyindən ehtiyat edirdi. Bir tərəfdən də paşanın Qızıl Ordu hissələrini müəyyən ərazilərdən qovduğu, onunla danışıqlara girmək istəyən Moskva nümayəndələrinə Türküstanı tərk etmək üçün ultimatum verməsi xəbəri sovet başbilənlərini cin atına mindirmişdi. Ona görə də getgedə daha ciddiyyətlə dairəni qapatmaqdaydılar…

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

*Xəyal gerçəyə atılmış toxumdur.*
***Rəcəb Tayyib Ərdoğan***

Sonrakı günlərin olacaqları Ənvər Paşanın öz dəsti-xətti ilə yazdığı səfər xatirələrində və bir də tarixin iziylə getməyin yolunu tutanların sənədli yazışmalarında öz əksini tapacaqdı: "Gecə bir neçə atlı gəldi. Bunlar Basmaçılar idi… Silah və cəbbəxanalarımızı təslim etməyimizi istədilər. Bunları təslim etsək, bizə toxunmayacaqlarını söylədilər. Hərbi dəstəni topladım. Onların önündə məqsədi anlatdım. Mənim də yuvam, həyat yoldaşım olduğunu, onları buraxaraq buraya gəldiyimi, bu davaya özümü qurban verdiyimi onlara anladarkən özümü saxlaya bilmədim, ağladım… Kurqantəpədə, bərbad bir camidə gecə namazı qıldıq. Basmaçı başbilənləri, türkmən və qırğız ululari gəldilər. Özümü bir daha yenidən tanıtmağımı və Buxaradan buraya necə gəldiyimi anlatmağımı istədilər. Sultanın kürəkəni olmağımdan başlayaraq hər şeyi söylədim. "İnandıq!" – dedilər. Və məndən çörəklə Quran üstünə, İslam naminə onları əmin etdiyim təqdirdə, özlərinin də mənim əmrimə itaət edəcəklərini, özlərinə "ulu", yəni başçı biləcəklərini, bunun üçün, özlərinin də məni əmin edəcəklərini

söylədilər. Bundan sonra "Quran"ı əlimə götürüb, əvvəla, üç dəfə öpdüm. Əlimi çörək və "Quran-Kərim" üzərinə basıb: "Əgər dinin və millətin zərər görməsinə səbəb olacaq kiçicik bir iş buyursam, ailəmə (həyat yoldaşım və yavrularıma) qovuşa bilməyim, – deyə and içdim, yəmin etdim. Bunları söyləyərkən yenə gözlərim doldu. Göz yaşlarımı tuta bilməyib ağlamağa başladım. Qarşımdakılar da ağlayırdılar. Onlar da eyni qaydada Quranı öpərək, çörəyə əl basaraq yəmin etdilər:

– Səni özümüzə padşah seçdik, – dedilər.

– Mən İslamın xidmətkarıyam, inşallah, sizin yardımlarınızla Haqq yolunda, millətin böyükləri, başbilənləri ilə məşvərət edərək, Peyğəmbərin buyurduğu qaydalarla iş görəcəyik.

Buna qərar verdik. Fatihə oxuduq. Hər kəs "Amin!" söyləyərək əlini saqqalına apardı. Buxaradan bəri saqqal təraşı etmədim. Burada da saqqal saxlamağa məcbur olacağam. Darılmazsan, deyilmi, Naciyəm, Sultanım?.."

Bunlar sevimli Naciyəsinə yazdığı məktubdan sətirlərdi. 1921-ci ilin 23 noyabr tarixi… Sevimli xatununa bunları yazırdı. Eyni zamanda da ağlında-huşunda Zəki Vəlidiylə Buxara gəzintisi zamanı aralarında olan söhbətlərin xülasəsi dolanmaqdaydı. Zəki bəy ona Şərqi Buxara hərəkatı haqqında olan fikirlərini çox geniş şəkildə, bütün təfərrüatları ilə anlatmışdı…

– İndiki ərəfədə artıq köçü-külfətilə Əfqanıstana qaçmış olan Buxara əmirinin bir miras şəklində geridə buraxdığı və boş-boşuna davam etdirilən əmirçilik ruhunun, həyata keçirilməsi arzulanan gözəl bir ideyanı gec-tez məğlubiyyətə uğradacağı bəllidi, bugünkü vəziyyətdə bu proseslə rahat bir şəkildə başa varılacağına inanmıram…

Beləcə, Zəki Vəlidi fikrini bütün çılpaqlığı ilə ortaya qoymuşdu. Əslində buna Ənvər Paşanın elə bir iradı da yox idi.

Sadəcə, bir müddət sakitcə dinlədikdən sonra aram-aram öz mövqeyini də bildirmişdi:

– Nə əlaqəsi?! Bu ümidlərin, mənə saxlanan etibarın, güvəncin qabağında Buxara əmirinin istəkləri nə qədər cılız, cansız görünmürdümü?!

*Türküstan türkləri*
*Bayraq açmış gözləyir,*
*Arş, arş, arş irəli,*
*Dönməz geri, türkün əsgəri!*
*Sağdan sola, soldan sağa*
*Al da bayrağı,*
*Düşman üstünə!*

Məndən gözlədikləri budur, Zəki! Bayrağımıza sahib çıxmaq, Türküstanda yolumuzu gözləyənlərin ümidlərini doğrultmaq artıq boynumuzun borcu oldu!

Paşa bir qədər sakitləşib sakit, aram səsi ilə:

– Bütün bunlardan xəbərdaram. Bu dar macalda Buxara qüvvələrinin vahid təşkilat altında bir araya gətirə bilməyin mümkün olmadığını da anlayıram. Ola bilsin ki, bu məsələ uzun bir mübarizədən sonra başa gələ bilsin… Ancaq indiki halda bizim gözləməyə vaxtımız yoxdur. Gecikməklə, bir sıra vacib məqamları, fürsətləri əldən verə bilərik. Halbuki, indiki halda bizim ən böyük gücümüz bu fürsətlərdədir. Mənim üçün indiki məqamda Şərqi Buxaraya və oradan da Fərqanəyə keçmək, bütün Basmaçı qruplarının başına keçməkdir. Bu iş üçün, hesab edirəm, bütün vacib tədbirləri yoluna qoymuşam. Sizdən isə, indiki halda hərəkatımızı sürətləndirmək məqsədi ilə bizə minik və yük atları ilə yardım etməyinizi istərdim.

– Bir mübarizə adamı, türk aydını kimi məni həmişə yanınızda bilin, Ənvər Paşa! Məqsədə yetmək üçün həlledici məqamda hərəkətə keçməyin vacibliyini mən də yaxşı bilirəm. Ancaq bunu diqqətinizə çatdırmağı da özümə borc bilirəm ki, bölgədəki real vəziyyətin hər üzünə bələdəm. Açıq deyəcəyəm, indiki halda si-

zin Basmaçılar arasında üstün yerinizi tutmaq üçün Şərqi Buxaraya keçməyinizi heç istəmirəm. Məncə, zamanı deyil.

– Belə olan təqdirdə, nədən başlamağımız məsləhətdi?

– Bildiyimə görə, bolşeviklər yaxın günlərdə yollarında əngəl ola biləcək bütün xarici düşmənləri ilə haqq-hesablarını çürüdəcəklər. Bu nəticə onların az keçməmiş Türküstana istədikləri qədər qüvvə göndərmələrini təmin edəcək. Türküstanın isə bu il görünməmiş qıtlıq içində olmasını bilməyən yoxdur. Hər kəsə məlumdur ki, Fərqanədə cəm olan Basmaçılar bu saat ağır ərzaq qıtlığı ilə üzləşiblər. Təbii ki, siz, Basmaçıların hərəkatına qoşulduqdan sonra, dərhal cəbhə açıb, döyüşə girmək istəyəcəksiniz. Halbuki belə bir vəziyyətdə beş-altı min insanı ərzaqla təmin etmək imkandan kənar bir işdi. Fikrimcə, bu şərtlər altında bolşeviklərə qarşı müqavimət göstərmək istəyi uğursuzluqla nəticələnməyə məhkumdur. Hesab edirəm, Şərqi Buxara Basmaçılarını ələ ala bilməniz üçün, ilk növbədə Əfqanıstan böyükləri və oradakı Buxara əmiri ilə bitişib-bərkiməlisiniz.

– Sizcə belə bir bitişib-bərkişmə istəyimi Buxara əmiri necə qarşılaya bilər?

– İşin çətinliyi ondadır ki, əgər siz əmirlə anlaşa bilməsəniz, o sizi öz başçılığı altında olan adamlarla şəxsən tanış etməsə, sizin orada kiməsə nəyisə anlatmağınız mümkünsüzdür. Yəni söz sahibi əmirdir və hər kəs onun dediyilə oturub-durur. Hətta, qorxduğum bir məqam daha var…

– Hətta!

– Bəli, ola da bilər ki, əmir sizi özünün gələcək rəqibi hesab etsin və arxanızdan xoşagəlməz işlər çevirsin. Eyni zamanda, bilmək lazımdır ki, bugünə qədər Basmaçılıq və buna bənzər hərəkatlara adi daxili məsələlərdən biri kimi baxılırdı. Ancaq, bir halda ki, bu prosesə siz bir rəhbər olaraq qatılırsınız, deməli, məsələ böyüyür, başqa rəng alır…

– Yəni, nə sayaq?

– Sadəcə olaraq, bolşeviklər bu hərəkata panislamizm damğası vuraraq, hərəkətə keçirlər. Hesabımca, belə bir yanaşma, hər kəsi sizin əleyhinizə çevirə bilər. Və bu vəziyyət bütün Türküstan ruslarının öz milli mənafeləri üçün bolşeviklərin yanında olmasına yol açar. Gerçək vəziyyət belədi. Məncə, Hacı Saminin təkidlərini bir kənara qoyub, dediklərim üzərində yaxşı-yaxşı fikirləşməniz işin xeyrinə olar…

Sakitcə dinləmişdi… Öz-özlüyündə bu zəkalı Türküstan aydınının tutarlı, ölçü-biçili dəlilləri qarşısında hər şeyi Əfqanıstandan başlamağın vacibliyi qərarına gəlmişdi. Türküstanda yubanmağın məqamı qaçırmaq, əlavə vaxt itkisi olacağını başa düşürdü. Zəki Vəlidi fürsət olduqca olub-keçənləri Ənvər Paşaya ətraflı danışır, vəziyyəti hərtərfli izah edirdi. Ənvər Paşa Zəki Vəlidinin savadına, dünyagörüşünə heyran idi, söhbətlərindən doymurdu. Bu söhbətlər onu tarixin dərinliklərinə aparır, düşüncələrini duruldurdu…

# İYİRMİ DÖRDÜNCÜ FƏSİL

***Ənvər – qızıl almanın izində ulu bir yolçu,***
***igid bir inqilabçıdır.***
***Hakan Boz***

Heç unudulmayacaq xatirələr hafizəsində əbədilik yer etmişdi... Doğma Anadoludan qardaş Azərbaycana, oradan da bütün Türküstan ellərinə doğru irəlilədikcə Ənvər Paşa hər yerdə xalqın sonsuz sevgisi ilə qarşılandığını daim minnətdarlıqla xatırlayırdı. Şəninə qoşulan mahnılar, marşlar qulaqlarında səslənir, yaddaşında dolanırdı:

*Xoş gəlişlər ola, qəhrəman Ənvər Paşa,*
*Bir əmr ver orduna, Qafqaz dağını aşa!*
*Əsgərin, millətin, bayrağınla çox yaşa!*

Ölümün ağuşunda ikən indi bu marş qürur hiss etdirməklə yanaşı həm də bir hüzn qoxuyur, qərib türkü kimi yaddaşının dolanbaclarında əks-səda verirdi… Azərbaycanlı qardaşlarının köməyinə yetişdikləri bir neçə il öncə də bir an kimi keçdi gözünün önündən: Bakının yardım istədiyi vaxt Ənvər Paşa qanı bir, dili bir, dini bir qardaşlarının çağırışına cavabsız qala bilərdimi?

Əsla! Bir qardaşını digər qardaşa köməyə göndərdi. Qardaşı Nuri Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu qardaş azərbaycanlıların o vahiməli, dəhşət saçan dar günündə yanında oldu. Tamamilə müsəlmanlardan təşkil olunmuş on iki minlik Qafqaz İslam Ordusuna səkkiz minlik Azərbaycan türkləri və bu nicat ordusunu gözləməkdə olan Dağıstandakı müsəlmanların da ayrıca xüsusi alay şəklində qatılması ilə əsgərlərin sayı iyirmi minə çatmışdı.

Amma bu yol çoxdan başlamışdı… Azadlıq, Turan və şəhadət arzularını birləşdirərək bunu yol bilmiş, ürəkdən inanmış, açığını deyək ki, bir dəfə də olsun bundan peşman olmamış, qorxub çəkinməmiş, maneələri maneə bilməmiş bir dava adamı kimi tanınmış, beləcə də tarixlərə düşmüşdü.

Deyilənlər başa gələcəkdi... Lap gənclik illərində atasının söylədiyi qədim qaqauz bayatısında nə deyilmişdisə, eynilə o cür, həmin qaydada davam edirdi həyat.

Bütün bunları düşünə-düşünə dodaqaltı gülümsünmüşdü… "Zəki bəylə bir az da çox oturub-dursam, deyəsən, bütün bu işləri buraxıb şeir guşəxanlığına çəkiləsi olacam. Heyif ki, zaman kəmfürsətdir. Məqamı əldən verəcəyimizdən qorxuram. Yoxsa Zəki bəylə söhbətlərə bir az daha artıq vaxt ayırardım. Hər fikri qiymətlidi. Şərqi, Qərbi dərindən bilir, gözəl anladır. Heyif ki, hərb həyatı bu sonsuz aləmlərin barından barınmağa imkan vermədi. Cismim ruhumca olanın yanında olmadı…"

Xəfifcə köks ötürdü. Amma cəld də özünü toparlamağa, bu duyğulu, xəyalı titrədən düşüncələrdən uzaqlaşmaq istədi. İndiki halda onun tərəddüdsüz irəliləyəcəyi bir yol vardı – Böyük Turana aparan yol.

... Meydanda ər kimi olanların yolunu tutmuşdu. Yaxşı, yaman, qatı yumşaq nə vardısa, bu yolun uğrunda tablayacaqdı. Sonacan duruş gətirəcəkdi. Ta gənclik illərindən alışmışdı bu yolların çətinliyinə.

Hələ 1913-cü ilin noyabr ayının 22-də ürəyinin bu parçası olan Naciyə Sultana yazdığı məktubda o günəcən keçib gəldiyi və bundan sonra da adlamalı olacağı yolların əsl üzü barədə düşüncələrini sərgiləmişdi. Bilirdi ki, dünən belə olub, bu gün belədi… Sabah da belə olacaq: "Bu gün Böyükdərə yolunda "Hürriyyəti-Əbədiyyə" təpəsinə getdim. Şəhidlərimizin ruhuna "Fatihə" oxudum. Günəş, bir-birinin ardınca şəhid olmuş bir çox silahdaşımın qaranlıq məzarlarını, ən dərin köşələrinə qədər göstərmək üçün, sanki mənə yardım edirdi. Keçmişin az və ya çox faciəli xatirələri zehnimi doldurmaqdaydı. Əllərimi qaldıraraq hər birinə rəhmət dilədim.

Rumeli dağlarında, gecələri bir-birimizin qollarına söykənərək, bir-birimizdən yapışa-yapışa qayaları aşdığımız dostum minbaşı Muxtar bəy və digərləri, birər-birər gözlərimin önündən keçdilər.

Nəhayət, dördkünc saqqalı, quru çöhrəsi ilə qarşımda canlanan Mahmud Şövkət Paşa əzmli gözlərini mənə dikdi..."

Həmin o hər biri ömrün hər məqamında göz önündə dayanan, quru çöhrələri və əzmli baxışları ilə baş verənlərin sorğu-sualını aparan, hesabatını istəyən, azadlığın simvolu olan "Hürriyyəti-Əbədiyyə" zirvələrində uyuyan silah qardaşlarının xatirəsi önündə qədəm qoyduğu bir dönməz yol başlamışdı. Aradan səkkiz ildən bir az artıq vaxt keçmişdi. Məkan o məkan deyildi. Amma həmin o duyğulu dəqiqələrin özündə də Ənvər Paşa bir-birinin ardınca şəhid düşmüş, qaranlıq məzarlarının ən dərin köşələrini ona göstərmək üçün günəşin belə yardım etdiyi yoldaşlarının xatirəsi düşüncələrini təqib etməkdəydi. Minbaşı Muxtar bəy baxışlarını hələ də yana çevirmişdi. Mahmud Şövkət Paşa öz zabitəli və mətin duruşu ilə gözləri önündəydi.

Eyni vaxtda da iki il bundan əvvəl Şimali Afrikadakı müqavimət günləri xəyalında keçməkdəydi. Onda da noyabr ayı idi. Liviyada baş verən bütün hadisələrin mərkəzindəydi. İta-

liya ilə Osmanlı dövləti arasında bağlanan barış anlaşmasının surəti məhz ona təqdim edilmişdi. O anlaşmada Osmanlı tərəfi Trablus torpaqlarını və on iki Egey adası qeyd-şərtsiz İtaliyanın xeyrinə tərk etməliydi. Zərlər atılmışdı. İstanbula dönmək vaxtı yetişmişdi. Bilməmiş deyildi ki, bu vəziyyətdən onu istəməyənlər yetərincə yararlanacaqlar. Ancaq Ənvər bəy 1911-ci ilin 25 noyabr tarixində barəsində nə deyilib-deyilməyəcəyinin fərqində deyildi. Qərarlıydı: "Məmləkətimin mənafeyi harada olmamı tələb edirsə, oraya gedəcəyəm…" Vətən çağırırdı. Balkanlardan gələn xəbərlər ətrafı sarmışdı, Balkan müharibəsinin başlaması artıq bir an məsələsiydi. Osmanlı mehmetcikləri vətənə dönməliydi. Vətən onları səsləməkdəydi...

Həmən yolçuluğun ilk gününü xatırlayırdı: "Bir vaqonda təkbaşınayam. Qatar Vardar dənizi boyunca irəliləyir. Son həftələrin ardıcıl baş verən hadisələrinin təsiri altındayam. Ay işığı var. Nəhrin sularında qara zolaqlar oynaşır. Vadinin sağı-solu dik yamaclardı… Gecə sakit. Amma gecənin sükutu içində mən dərdlərimi də özümlə bərabər götürürəm... Səlanik stansiyasına çatdıq. Orada yolumu gözləyənlər məni qarşıladılar. Dərhal cəmiyyətin mərkəz binasına getdik. Gecikmədən müzakirələrə başladıq. Və komitə üzvləri təkliflərimi bütünlüklə qəbul etdilər".

Trablus önündə italyan donanması toplarının səf-səf düzüldüyü vaxtlar idi. Qarşı tərəfin üstünlüklərini yetərincə qiymətləndirir: Dəniz savaşında güclü olacaqlarını bilir. Ağır toplara sahibdirlər. Ona görə də səhra döyüşlərinə güc verməyi məsləhət bilir. Osmanlı əsgərlərinin atlı ərəb dəstələrinə rəhbərlik etməsini tapşırır. Davamlı hücumların tərəfdarıdır. Kiçik dəstələr şəklində… İtalyanları səksəkə içində saxlamaq, imkan daxilində onları dənizdən quruya, daxilə çəkmək lazımdı… "Elə hərəkət etməliyik ki, mədəni Avropaya bizim barbar olmadığımızı və hörmət edilməyə layiq insanlar olduğumuzu göstərə bilək… Ya qalib gələcəyik, ya da ölürsək şərəfimizlə öləcəyik…"

Bu atəşin çağırışından cəmi bircə həftə sonra sentyabrın 24-də İstanbulda olduqca soyuq bir şəkildə qarşılanmışdı. Osmanlı dövlətinin hərbi naziri etinasız bir ədayla "Gəncsən, özünü yazıq edəcəksən" – demişdi.

Hərbi nazirin bu soyuq ədasının yaratdığı çaşqınlıq altında durğun və yorğundu…

Qırx bir illik bir ömür payı oldu, amma bunu başqa cür necə yaşayaydı?.. Bu yolu Vətən əsgəri kimi yüksələrək keçdi, amma tam bir paşa kimi hər yüksəldiyi vəzifəyə layiq oldu, heç qürurlanıb kimsəyə yuxarıdan aşağı baxmadı. Amma əlindən qeybətdən, sözbazlıqdan başqa bir iş gəlməyənlərin müzakirə hədəfinə çevrilməsi, ətrafındakıların inamsızlığı, onu yalnız xəyalpərvər, "damadi-şəhriyar"lıqla yüksəlmiş biri olaraq görməsi qürurunu incidirdi. Ənvərin dağlarda dövlət əleyhinə qalxan quldur dəstələri ilə savaşması, Trablus-qərbdə çox az qüvvə ilə italyanları geri oturtması, Ədirnəni geri alıb vətənə qazandırması, Çanaqqalada qazanılan zəfər də bu inamsızlıqların və qısqanclıqların kölgəsindən boy göstərə bilmirdi. Amma onu haqsızcasına "xəyalpərvər əsgər" adlandıranlar bilmirdilər ki, xəyal etməyə də zəngin dünyalı güclü ürək lazımdır, əsl paşa ürəyi…

## İYİRMİ BEŞİNCİ FƏSİL

*O gün ölümü axtardım. Amma onu tapmaq üçün haraya üz tutdumsa, şimşək kimi qaçırdı. Allahın məni başqa bir şey üçün saxladığını bilmirdim.*

*Ənvər Paşa*

...1911-ci ilin hadisələrini heç unuda bilmirdi, olanlar bircə-bircə gözləri önündən keçməkdəydi. Qahirə səfəri, Misirdə İslam başbilənləri ilə görüşləri, orada yaşananlar… İsgəndəriyyədən Liviyaya doğru yolçuluq... Nə qədər gəzmişdi, dolaşmışdı. Yox, bu, dünya səyahəti deyildi, nə də özü "səyyahi-aləm". Keçdiyi yollar hərb yolları idi. Ən sədaqətli dostları, yavərləri ilə qərbdən şərqə, şərqdən qərbə əriş-arğac "yol toxuyurdular".

Bu yolları müxtəlif qiyafələrdə, müxtəlif adlar altında, müxtəlif sənət sahibi olaraq keçmişdi. Süslü Arnavud geyimində, ağır, bahalı Buxara xanı xalatında, bədəvi libasında... Şimali Afrika çöllərini dəvə üstündə tacir qiyafəsində keçmişdi. Həmin o andakı qiyafəsini göz önünə gətirdikcə gülməkdən özünü zorla saxlayırdı. Başındakı ərəb çalması əynindəki hərbi geyimlə, uzunboğaz ingilis botları ilə heç cür uyuşmurdu. Hündür və yetkin dəvənin hürgücləri arasına yerləşdirilmiş kəcavə çox rahat idi. Aşağıya –

dəvənin qarnının altı boyunca naxışlı qotazlar asılmışdı. Balaca, qara rəngli çantasını çiynindən asmışdı. O durumunu əks etdirən foto da çəkdirmiş, şəkli Naciyəyə göndərmişdi. Ən çox o mənzərəni düşünürdü. Sevimli Naciyəsinin, dəlicəsinə aşiq olduğu qadının o şəkilə baxa-baxa hansı məqamda necə gülümsəyəcəyini, nə düşünəcəyini, gülüşünü gizlətmək üçün zərif əlləri ilə dodaqlarını necə qapayacağını gözlərinin önünə gətirirdi. Növbəti gündəki geyimi ilə bir səhra şeyxini xatırladırdı. Necə ki, bu barədə özü yazırdı: "Uzun bir mavi cübbəyə büründüm. Başımda qızıl işləməli bir agel. Bu, bir ərəb şeyxi geyimidir…"

On bir gündən sonra artıq Derkedəydi. Qərargahını burada qurmalıydı. Buradakı, qolağası Mustafa Kamal bəyin başçılıq etdiyi hərbi hissəni öz komandirliyi altında birləşdirəcəkdi. Bu insanlarla bir-birini çox yaxşı anlayacaqdılar.

İlk olaraq qərargah işlərini qaydaya salmış, Əyn-əl Mənsur deyilən ərazidə savaş öncəsi ciddi təlimlərə başlamışdı. Qadınların köməyindən sıx-sıx istifadə etməkdəydi. İndiyədək fəaliyyətsiz, hər şeyə uzaqdan baxan bu qadınlar artıq yemək bişirir, yaralıları arxaya daşıyır, onlara yardım edir, hətta şəhid olanların üstündə doğmaları ölübmüş kimi dil deyib ağlayırdılar. Və bu, indiyədək vəhşi kimi tanınan çöl ərəblərini təşkilatlandırmağa müvəffəq olmuşdu ki, nəticədə onlardan indi az bir müddət ərzində qurulmuş qərargaha şikayət üçün kimsə müraciət etməmişdi; o Əyn-əl Mənsur çöllüyündə yerli əhali tərəfindən şəhid olanlara, ağır yaralananlara görə Ənvər Paşaya heç bir etiraz edilməməsi, təəssüf, acı hissi keçirilməməsi paşanı çox duyğulandırırdı. Öz qəbiləsinin ondan artıq döyüşçüsünü – doğma oğullarını, kürəkənlərini itirmiş afrikalı bir ixtiyar günlərlə qərargahdan ayrılmır və şəhid düşmüş doğmalarıyla qürur duyurdu…

Ənvər Paşa yaxşı xatırlayırdı. Və bütün halıyla öz doğmalarını itirən o afrikalı ixtiyar bu saat ona soyuq bir əda ilə "Gəncsən, özünü yazıq edəcəksən" deyə boz üz göstərən, "Trablusda heç bir

şey yapılmayacaq" – deyə etinasızcasına üzünü yana çevirən Osmanlı hərbiyyə nazirindən daha doğma, simsar, dürüst biri olaraq görünürdü. Eyni zamanda o ixtiyar həmin durumunda nə qədər qəribə görünsə də Ənvər bəyin İstanbulda üz-üzə gəldiyi məhzun, mütəəssir, durğun və yorğun görkəmli Sultan Rəşaddan daha qərarlı bir vətənpərvər, hökmlü bir rəis təsiri bağışlayırdı… Ənvər bəy bütün bunların fərqindəydi. Ona görə də bütün ümidlərini ona və Osmanlı hərbi birləşmələrinə bağlayan bu Şimali Afrika məzlumlarının tərəfindəydi. Onlara acıyır, kömək üçün mümkün olan nə varsa, ortaya qoymaq istəyirdi: "Bu insanlara acıyırdım. Bunların hər biri qurbanlıqdır… Zabitləri onları zorla atəşə sürükləyirlər… Nə üçün döyüşdüklərini belə bilmirlər."

Həmin günlərdə Şimali Afrikanın Liviya sahillərində olan durum beləydi. Qərargah üçün ayrılmış ərzaq və maddi vəsait belə vaxtlı-vaxtında çatdırılmırdı. Gənc Ənvər ortaya çıxan bu çətinlikləri önləmək üçün gah komandir, gah bankir, gah da mühasib kimi gecəsini gündüzünə qatıb çalışmaqdaydı. Hər işi yerinə yetirirdi. Elə olurdu ki, gecə səhərə qədər haqq-hesab dəftərlərinin üzərində çalışırdı. Hətta çətinlik ucbatından bir puldəyişmə üsulu və bürosu da yaratmışdı. Misir sərhədlərindəki Selluma qədər, avtomobillərin rahat işləyə biləcəyi yolun çəkilməsinə də müvəffəq olmuşdu. Tərslikdən Qahirə bürosu xəbər vermişdi ki, komandanlığı üçün ayrılmış on beş min lirə artıq xərclənmişdir. Əlacsız qalıb kağız pullar çıxarmışdı… Bütün bunları öz vətəninin mövqe ucalığı, eyni zamanda gözünün önündə olan, əhvallarına hər an acıdığı, bir çox siyasi dairələrin qurbanlıq quzuya döndərdiyi Şimali Afrikanın o talesiz insanları naminə edirdi. On nəfərdən çox qəbilə igidini, doğma balalarını və kürəkənlərini şəhid vermiş ixtiyarın öz itkilərindən fəxarət duymasının qarşısında bu cür fədakarcasına çalışmağı özünə borc bilirdi.

İndi bu "dünyanın çadırı" sayılan Pamir dağı ətəyində ətrafında qalan iyirmi beş nəfər sədaqətli türkmən döyüşçüsü-

nün mütəəssir, üzgün çöhrələrində o, həm də ölkəsinin azadlığı naminə doğmalarını şəhid vermiş o ixtiyar afrikalının şəhidlər verdiyi üçün qürur duyan varlığını görürdü. Eyni zamanda, doğma Böyükdərə yolu üstündəki "Hürriyyəti-əbədiyyə" təpəsi üstündə şükranlıqla dəfn edilən şəhid silahdaşlarını, minbaşı Muxtar bəyi göz önünə gətirirdi. Mahmud Şövkət Paşa gözlərini yenə də ona dikib baxırdı…

Həmin anda Ənvər Paşa yurd savaşı səbəbindən bütün doğmalarını itirmiş həmin o afrikalı ixtiyarın ümid dolu baxışları ilə Mahmud Şövkət Paşa və minbaşı Muxtar bəyin imanlı nəzərləri arasında çox yaxın bir doğmalıq görürdü. Elə bil ki, hansı bir möcüzənin əlləri üstündə o afrikalı ixtiyarın, Böyükdərə yolu üstündəki müqəddəs şəhidlikdə uyuyan silah qardaşlarının sonuncu istinadgahı da bu saat, bu an uzaq Pamirin ətəyindəki dar, düşmən silahları tərəfindən mühasirəyə alınmış dərəyə köçürülmüşdü. Sapsağlam yanındaydılar. Sonsuz bir əminliklə ona möhkəm dayanmağı tövsiyə edirdilər… Dayanmadan anladır, toxtaqlıq verirdilər ki, məfkurəni gerçəkləşdirməyənə qədər gerçəyi məfkurəyə çevirməkdən başqa yol, özgə çarə yoxdur... Qocanın gənc Ənvərə peyğəmbərcəsinə dediyi söz öz yerini aldı. Amma Ənvər Paşa onun dediyi kimi, "özünü yazıq etmədi", amal olaraq seçdiyi türklük için savaşan, çarpışan bir azadlıq aşiqi kimi ömrü boyu arzuladığı şəhadətə ər meydanında – uzaq Çeğan təpəsində yetişdi…

## İYİRMİ ALTINCI FƏSİL

*Acizlər üçün çətin, qorxaqlar üçün*
*dəhşətli olan şeylər qəhrəmanlar üçün idealdır.*
*Ənvər Paşa*

İndi sonsuz duyğularla yada saldığı həmin o Misir, Şərqi Afrika, Trablus yolçuluğu boyunca imkan tapan kimi özüylə götürdüyü "Faust"u oxuyurdu. Uzanıb gedən o yollar boyunca qoca Hötenin bu ədəbi abidəsi onun gənclik şövqünə xüsusi bir ehtişam bəxş edirdi... "Faust"u vərəqlədikcə də zaman-zaman ömür yolunun üstündə görünüb yox olan mefistofelləri də xatırlayırdı...

Rəhbərlərindən biri olduğu "İttihad və Tərəqqi"nin təkan verdiyi möhtəşəm bir yürüşlə onu ömrünün ən yüksək şöhrət olimpinə götürən tale qarşısına heç gözləmədiyi halda qaçılmaz bir sıxıntı, əzabverici tənhalıq duyğusuyla çıxmaqdaydı. Haradaydı, gəlib hara yetişmişdi? Silah yoldaşları vaxtilə onun simasında yenilməz bir qəhrəman görürdülər. İllah da Makedoniyada və Gizli İhtilal Cəmiyyətində tanış olduğu, həmişə güvəndiyi, ən şübhəli sirlərini etibar etdiyi Kazım Qarabəkir Paşa… İndi kölgəsini qılınclayanların hər addımı barədə xəbər çatdırdıqları, ona yaxın adamların daşıdığı vəzifələri yasaq etmələrinə göstəriş verməsini dil-boğaza

qoymadan, israrla tələb etdikləri Kazım Qarabəkir Paşa görəsən, bu qaralamaları, qılınclamaları hansı ağrıyla dinləməli olurdu? Axı, vətəninin yüksəlişi yolunda hər an ölümə getməyə hazır olan, mərd, qorxmaz, amalı uğrunda hər şeyi göz altına almaqda bir göz qırpımı qədər tərəddüd etməyən silahdaşını, dünənki dostunu hər kəsdən yaxşı tanıyırdı. İllər geçəcəkdi, özlərindən sonra dünyaya gələcək nəsildaşları Ənvər Paşanın əsl xarakterini, həyat ideallarını həm də Qarabəkir Paşanın anlatdıqlarından biləcəkdilər: “Ənvərlə Manastırda qarşılaşdığımız ilk günlərdən onda bu qənaətləri görmüşdüm: Çarpışmalarda, vuruşmalarda və gizli cəmiyyət təşkilatında fədakarlıqlardan çəkinməmiş bir Ərkani-hərb zabiti Napoleon ola bilər!.. Hətta hökmdarlara xitab şəklində işlədilən “Şir” adıyla ilgilənirdi… Balkan müharibəsi sonlarında yapılan Babi-ali basqınında aparıcı rol oynaması və artıq “İttihad və Tərəqqi” Cəmiyyətinin onu ordunun başına keçirmək arzusunu büruzə verməsi, onu, taleyində Napoleon istedadı olmasına inandırmışdı…

Balkan savaşından sonra Beşiktaşdakı evində onu ziyarətə getdiyim bir gün, orada tanımadığım bir alman da gördüm. Alt qatdakı gözləmə otağında bu almanla yalqız qalmışdım. Divarda bir Napoleon rəsmi, masanın üstündə bir Napoleon heykəli vardı. Alman mənə bunları göstərərək dedi:

– Burada Napoleon! Orada Napoleon!

Və əlilə yuxarı mərtəbəni göstərərək əlavə etdi:

– Orada Napoleon!

Qarabəkir Paşa bu qeydində onun xarakterini, necə bir hərb adamı olmasını, lap gənclik illərindən başlayaraq ideala dönmüş bir mənsəb sahibinə çevrilməsini dilə gətirmiş olur…

Eyni ideallarla yaşamış insanların eyni yüksəliş yolunu izləməsi həyatın özündən gələn bir reallıqdır. Artıq xeyli arxada qalmış gənclik illərinin o romantik və möhtəşəm arzuları içində cövlan etməsəydi, aza qane olub sıradan bir hərbçi kimi ömrünü sona

yetirə bilərdi. O isə müəyyən bir missiya ilə həyata gələnlərdən idi! Ayaqlarını yerə möhkəm basmalı, arzuları naminə cəhd etməliydi!.. Taleyi belə yazılmışdı. Kökləri dərinlərdə olan və güclü qol-budağı ənginliklərə ucalası palıd ağacı kimi doğulmuşdu. O, məqsədləri yolunda ölümün özünü belə göz altına almağı bacarırdı. Bunu bütün siyasi, hərbi rəqibləri hələ lap gənclik illərindən bilir, anlayır və dönə-dönə qeyd edirdilər.

İdeallarına elə sadiq idi ki, ətrafındakılar bəzən bu vəziyyəti düzgün qiymətləndirə bilmir, anlamadıqları üçün də bunu "saxta Napoleon ədası" kimi dəyərləndirirdilər. Bəziləri isə bunu heyranlıqdan dilə gətirirdilər. Vaxtilə Səlanikdə baş verənlərin nəticəsində on minlərlə insanın alqışları altında, böyük bir izdiham arasında güc-bəla keçib, özlərini təsadüfən oradan keçən faytona atdıqları zaman Camal bəy heyranlıqla onu bağrına basmışdı və paşanın qazandığı şan-şöhrətinə işarə ilə:

– Ənvər, sən artıq Napoleon oldun!

Amma üstündən xeyli illər keçəcəkdi, onun ömür yolunun salnaməçiləri bir məlum həqiqəti dönə-dönə yada salmalı olacaqdılar: "Bir dəfə – 1920-ci ilin 1 May bayramı günü Moskvadakı Qızıl meydandan keçən yüz minlərlə insan axınını Moskva çayı sahilindəki Müsafirlər Evinin pəncərəsindən izləyərkən, Napoleonun həyatından bəhs edən bir albom üzərinə qırmızı rəngli bir qələmlə bunları yazacaqdı:

– Məni də Napoleona bənzətmişdilər; amma qəbul etmirəm. Çünki mən ikinci adam ola bilmərəm!"

Həqiqətən də o, "ikinci adam" ola bilməzdi. Çünki onun damarlarında ulu əcdadlarının, türk qövmünün ilkinliyindən qaynaqlanan boz qurd qanı axıb-çağlayırdı. Və bu səbəbdən də ikinci adam rolunda olmaq onun ruhuna yad anlayış idi.

Hərbi məktəbdə oxuduğu illərdə onunla bir yerdə təhsil alan dostları, xüsusilə də Fəxrəddin Altay tez-tez onunla zarafat edərdilər. Deyərdilər ki:

– Bax, Ənvər, sən gələcəkdə böyük adam olacaqsan. Səndə xüsusi əlamət var.

Xəfifcə gülümsünürdü: "Nədir o gizli əlamət? Nədə görürsünüz?"

– Qaşlarının arasında bəyaz səadət nişanəsi, ağ tüklər var…

– Eləmi? – deyib aynanın önünə keçirdi. Diqqətlə baxırdı. Deyilən nöqtədə nəzərə çarpan əlaməti barmaqları ilə sığallayıb yenidən dostlarının arasına qayıdırdı.

– Bax, bunu özünüz deyirsiniz ha! Elə isə indidən özünüzü yığışdırın. Əmrimi gözləyin. Dediklərimi yaxşıca dinləyin, sözümdən çıxmayın!..

Gülüşürdülər… Sonra da imkan tapan kimi, xəlvətə çəkilib ayna qarşısında iki qaşları arasında süslənən o bəyaz "xoşbəxtlik nişanəsi"ni diqqətlə süzürdü… Həqiqətən dostlarının zənn etdiyi kimi xoşbəxtlik bu iki qaş arası qədər yaxında idimi?!.

# İYİRMİ YEDDİNCİ FƏSİL

*XXI əsr türk dünyası əsri olacaq...*
*İlham Əliyev*

...Axund Yusif Ziya Ənvər Paşanın yanına gələndə günorta namazından xeyli keçmişdi. Səmimi şəkildə görüşüb hal-əhval tutdular. Ənvər Paşa üzgün görünürdü. Bu, Yusif Ziyanın gözündən qaçmadı; dostunun əhvalını düzəltmək istədi:

– Paşam, Allaha şükürlər olsun ki, artıq bolşeviklərin böyük bir bölüyünü də məğlubiyyətə uğratmışıq, əsgərlərimizin təminatı da hazırkı halda kafidir. Bir əskiklik ki yoxdur, elə isə niyə bu qədər kefsizsiniz? Nə baş verib?

– Əlbəttə, çox şükür, cəbhədə işlərimiz yolundadır. Bundan sonra daha da yaxşı olacağına ümid edirəm. Ancaq əhvalımın olmaması şəxsi səbəblərdəndir. Artıq bir neçə aydır ki, körpə oğlum Əli dünyaya gəlib. Hələ də nə üzünü görmüşəm, nə də bu cənnət mələyi oğlumu sinəmə sıxıb qoxusunu ciyərlərimə çəkə bilmişəm. Mən burada məmləkətimizin gələcəyi və bizdən sonrakı nəsillər üçün savaşarkən övladlarım üzümü görmədən böyüyür. Onların həsrətini çəkirəm. Əlbəttə, bu yolun sonunadək getməyə varam və gedəcəyəm, inşallah! Ancaq biz də insanıq, əlbəttə, qəlbimiz

daşdan-dəmirdən deyil, övlad həsrəti insanı üzüb-bitirir. Bircə təsəllim var ki, böyük Turan – İslam İmperatorluğu qurulandan sonra təkcə mənim balalarım yox, bütün türk millətinin övladları rahat, azad və xoşbəxt yaşayacaqlar!

Axund Yusif Ziya təsdiq əlaməti olaraq təbəssümlə başını yellədi. "İnşallah, Paşam, inşallah" dedi. Susdular, hər biri öz xəyal dünyasına yol aldı... Yusif Ziya Paşa bir az keçəndən sonra xəyallardan ayrılıb dostuna:

– Paşam, bu gün axşam silahdaşlarla Səngzar çayı sahilindəki yaylaqda toplanacağıq. Hər şeydən danışacağıq, milli-mədəni məsələləri müzakirə edəcəyik. Kaşğardan Həkim Törə, Səmərqənddən şair Vaslı, Zəki Vəlidi Toğan, Basmaçıların da bəzi böyükləri gələcək. İstəsəniz, siz də gəlib iştirak edin, həm baş verən yeniliklərdən hali olar, həm də şairanə söhbətlərdən feyziyab olarsınız, kədəriniz dağılar...

Dəvət cəlbedici idi; Ənvər Paşa razılaşdı. Axşamüstü əl-ayaq çəkiləndən sonra at belində bir xeyli yol gedib tanınmış dövlətlilərdən özbək Ömər Hacı əkənin ehtişamlı çadırına yetişdilər. Təndirdə bişirilən kabablarin xoş qoxusu ətrafa yayılırdı. Çadırın ətrafındakı çəmənlikdə xeyli at otlayırdı. Deməli, qonaqların çoxusu artıq gəlib çadırda yerləşmişdilər. Ağ saqqallı, nurani görkəmli, təmkinli Hacı Ömər Ənvər Paşa ilə Axund Yusif Ziyanı böyük ehtiramla qarşıladı. Yaxınlıqdakı cavanlardan birinə işarə ilə qonaqların atlarını kənara çəkib rahatlamağı tapşırdı. Məmnun olduğu bəlli idi; əziz qonaqları ilə ikiəlli görüşdü, "Əziz padşahımız Ənvər Paşa, dəyərli paşamız Yusif Ziya əfəndi, xoş gəlib səfa gətirmisiniz! Bizi bu mübarək gəlişinizlə müşərrəf etdiniz!" deyərək onları çadıra dəvət etdi.

Hacı Ömər bu yerlərin nüfuzlu böyüklərindən sayılırdı və ərdəmli xarakterinə və comərdliyinə görə yerli əhalinin hörmətini qazanmışdı. Tez-tez şəxsi sürülərindən heyvanlar ayırıb kəsdirir, ehtiyacı olanlara paylatdırardı. Bolşeviklərin işğaldan

sonra kollektivləşmək adı ilə camaatın varını-yoxunu talayıb əllərindən aldığı üçün, Hacının dediyi kimi sovet rejiminin "doymaq bilməyən iştahı"ndan qurtarmaq məqsədilə qışlaqdakı bütün əmlakını yığıb-yığışdırıb bu dağlara çəkilmişdi. Zənn edirdi ki, bolşeviklər buralara qədər gələ bilməzlər, çox keçməz ki, gəldikləri yerlərə çıxıb gedərlər... "Ya sabir, ya sabir" deyə-deyə səbirlə işin sonunu gözləməkdə idi.

...Çadırın içi xeyli geniş idi. Əlvan xalılar döşənmiş, xalçaya, kilimə tutulmuş çadırın divarları boyu sıra-sıra düzülmüş çıraqlar içərini işıqlandırırdı. Zəngin süfrə açılmış, növbənöv meyvələr və çərəzlər düzülmüşdü. Çadırdakı qonaqlar iki-bir, üç-bir astadan söhbətləşir, arabir soyulmuş meyvələrin dadına baxırdılar. Ənvər Paşa yanında axund ilə içəriyə daxil olanda qonaqlar hörmət əlaməti olaraq həmin dəqiqə ayağa qalxıb böyük sayğıyla salam aldılar. Ənvər Paşa qonaqlarla salamlaşıb Hacı Ömərin göstərdiyi yöndə üzünə məxmər, zərxara çəkilmiş yumşaq döşəkçələrin üstündə Yusif Ziya ilə yanaşı əyləşdi. Zəki Vəlidi də burada idi, uzaqda oturmuşdu. Qonaqları görüb oturduğu yerdən qalxıb gəldi, Yusif Ziyanın solunda əyləşdi, salamlaşıb hal-əhval tutdular. Bir azdan ziyafət başlandı. Süfrəyə təndirdə bişirilmiş quzu, toyuq kababları, sonra isə məşhur özbək plovu gətirildi. Qonaqlar səmimi şəkildə, deyə-gülə yeyib, elə yeyə-yeyə də həmin günlərin əsas mövzuları haqqında söhbət edirdilər. Süfrə yığışdırıldıqdan sonra gülab gətirildi, qonaqlar əl-üzlərini yuyub Hacı Ömərin dəvəti ilə geniş, gözəl döşənmiş, zəngin görünüşlü başqa bir çadıra dəvət edildilər. Hacı Ömər üzünü qonaqlara tutub dedi:

– Əzizlərim, qonağım olmaq şərəfini mənə bəxş etdiyiniz üçün minnətdaram. Başımızın üstündə qara buludlar dolaşır, özlərini bolşevik adlandıran şeytan yığını dinimizə, imanımıza, adımıza, namusumuza, malımıza, adətimizə, dədə-baba ənənələrimizə əl uzadır. Hələ bütün bunlar azmış kimi bir də canımıza əl uzatmaq, bizi məhv etmək istəyir. Allahdan arzum budur ki,

min illərdən bəri saxladığımız qiymətli inancımızı, əxlaqımızı, mövcudiyyətimizi qoruyub saxlaya biləк, başımızın üstündə iblisanə işləklər oynadan bu allahsız hökumətdən tezliklə qurtula bilək. İndi sizə dədə-babalarımızdan qalma təkcə maddi qiyməti deyil, mənəvi dəyəri də yüksək olan bir xəzinəni göstərəcəyəm. Çox istərdim ki, bu mənəvi xəzinəni qorumağın, gələcək nəslə çatdırmağın yolunu tapa bilək. Çünki bunlar təkcə mənim varım-dövlətim deyil, ümumilikdə bütöv bir xalqın keçmişini əks etdirən dəyərli varidatdır...

Ağzı açılmış sandıqlarda çoxlu qiymətli, nadir kitablar vardı. Hacı Ömər kitablardan birini götürüb yavaşca vərəqlədi. Qədimlik qoxuyan əlyazmanın xəfif xışıltısına elə heyranlıqla qulaq kəsildi ki, sanki ilk dəfə idi kitabı görürdü. Sonra Hacı Ömər üzünü qonaqlara tutub sözünə davam elədi:

– Bax, bu gördüyünüz kitab XVI əsrdə yaşayan məşhur özbək hökmdarı Ubeydullah Xanın türkcə, farsca və ərəbcə yazdığı şeirlər məcmuəsidir. Oğlu üçün yazdığı "Ey övladım" adlı vəsiyyətnaməsini də bu kitabın arasında saxlayıram. Dörd yüz ildən artıqdır ki, bütün bu qədim kitabları, rəsmli əlyazmaları, "Qurani-Kərim" nüsxələrini, dini dua yazmalarını, Nəvainin, Hafizin divanlarını qoruyub hifz edirəm. Üsyançılar milli mövcudluğumuzu təmsil etsələr də davamlı bir hökumət qura bilmirlər. Siz getdikdən sonra qırmızı bolşeviklər gəlib məni öldürsələr, bu xəzinəni də darmadağın edəcəklər. Öz ölməyimdən daha çox bu mənəvi irsin yox olacağına sarsılıb üzülürəm.

Hacı Ömər bu sözləri deyəndə özünü saxlaya bilməyib ağladı. Qonaqlar da qəhərləndilər. Hacı Ömərin xəzinəsində qiymətli qızıl və gümüş kəmərlər, üstündə fars dilində şeir yazılan nadir dəri nümunəsi, əcdadlarından qalma qədimi xalılar, milli mərasim geyimləri, nənəsindən qalma üst geyimləri və son dərəcə qiymətli zinət əşyaları da vardı. Yusif Ziya söhbət əsnasında Hacı Ömərə xəzinənin Ənvər Paşanın köməyi ilə Əfqanıstana aparılması

təklifini irəli sürdü. Ənvər Paşa əvvəlcə buna razılaşsa da, sonra keçiləcək yolların böyük əksəriyyətinin rus işğalında olduğunu xatırladaraq xəzinənin bolşeviklərin əlinə keçə biləcəyini dedi

Zəki Vəlidi isə xəzinənin Səmərqənd muzeyinə təhvil verilməsini təklif etdi. Basmaçılar hərəkatının rəhbərlərindən biri bu təklifin müqabilində bildirdi ki, xalqımızın əlindəki xəzinələri qorunması üçün muzeylərə versək, onlar bizim mübarizəmizin gələcəyinə inanmazlar, inamları itər.

Hacı Ömər söylənilənlərdən sonra dərin fikrə gedib handanhana dilləndi:

– Bu xəzinəni evimdən uzağa bilinməyən bir yerə göndərsəm, bu irsin sonrakı taleyi haqqında bir daha məlumat ala bilmərəm. Bəlkə də haqlısınız, bunları Səmərqənddə muzeyə təhvil vermək indilikdə də yəqin ki ən yaxşı çarə olar...

Ancaq yaxşı deyiblər – sən saydığını say... Hacı Ömərin də, oradakı qonaqların da ağlına gəlməzdi ki, bir-iki ayın içindəcə Qızıl Ordu indi dayandıqları yerə qədər gəlib çıxacaq, hər şeyi yağmalayacaq və o xəzinənin sonrakı taleyi bilinməyən bir məchulluğa gömüləcəkdi... Oradakı insanların demək olar ki, hamısı sonrakı bir-iki il ərzində şəhid olacaq, bütün bu söhbətlər, xatirələr və xoş görüşlər uzun müddətə tarixin yaddaşının uzaq küncünə gizlədiləcəkdi...

...Ziyafət isə Mövlana Cəlaləddin Ruminin “Məsnəvi”sinin hikməti haqqında ibrətamiz, mənalı söhbətlərlə davam edəcəkdi. Həm Yusif Ziya, həm Zəki Vəlidi saatlarla təsəvvüf mədəniyyətinin məcazlarına, Mövlananın fəlsəfəsinin dərinliklərinə baş vuracaqdılar. Ənvər Paşa və digər qonaqlar isə tam bir sufiyanə sükutla onları dinləyəcəkdilər... Sövq-təbii hamısı hiss edirdi ki, irəlidə böyük tufan olacaq, bu səssizlik isə tufandan qabaqkı sakitlik idi...

# İYİRMİ SƏKKİZİNCİ FƏSİL

*Biz türklər tarix boyunca hürriyyətin və istiqlalın timsalı olmuş bir millətik.*
*Mustafa Kamal Atatürk*

Ənvər Paşanın əsl kimliyini, birincilik varkən ikinci adam ola bilməməyinin həqiqi tarixçəsini Məşrutiyyət mübarizəsi günlərinin yaxın və ən etibarlı silahdaşı Niyazi bəy bilirdi. Hər ikisi o dönəmin ən parlaq ulduzları kimi tanınırdı. Qələbə yolunu birgə keçmişdilər. Söz sahibi olduqları Cəmiyyət daxilində yeganə dövlət vəzifəliləri idilər. Eyni uniformanı daşıyırdılar. Fəqət, biri sakit təbiətli, iddiasız, lazımi halda bir tərəfə çəkilib, adi həyatını yaşamağa nail olan, o birisi çılğın, ehtiraslı, romantik…

Bu fərqli xarakterlərinə baxmayaraq, Hürriyyət elanının ilk günlərində eyni şöhrəti bölüşür, mənəvi ünvanlarında millətin sayğısını daşıyırdılar, adları bərabər çəkilirdi. Ölkənin dörd bir yanında yeni doğulan oğlan uşaqlarına onların şərəfinə "Ənvər" və "Niyazi" adları qoyulurdu. Hər ikisinin adını daşıyacaq iki zirehli hərbi maşının, iki böyük hərb gəmisinin dövriyyəyə buraxılması üçün ianələr toplanırdı. Sultan Əbdül-

həmidin özü belə bu təkliflərə rəvac verirdi. Öz adından beş min altun ayırmışdı. Və belə olan halda onların tez, çox tez bir vaxt ərzində yollarının ayrılacağını heç kəs gözləmirdi. Aralarında heç bir inciklik belə baş verməmişdi. Bu ayrılığın niyə baş verməsi barədə düşünməyə, səbəbini araşdırmağa belə lüzum görməmişdilər...

Ancaq indi, o unudulmaz, möhtəşəm yaşantıların, bəxt ulduzunun qüruba doğru hərəkət etdiyi bir məqamda Ənvər Paşa xəyalən Hürriyyət silahdaşı Niyazi bəyi yanında görmək, onunla halallaşmaq istəyirdi:

"Bəlkə ötkəmliyimlə, hədsiz istəklərimlə könlünə toxundum? Gənclik ehtiraslarımı boğa bilməməyimin yanlışlıqlarını, dostluğumuzun üzündən keçib, mənə açıq-açığına söyləyə bilməməyinin sıxıntısındanmı bir qırağa çəkildin?"

– Qətiyyən! Elə şey olarmı? Səndən inciyə biləcək bir halmı gördün məndə? Mən ki, səni həmişə özümün yüksəlməyimin, yetişə bilməyimin tək səbəbi bilmişəm… İndi də eyni fikirdəyəm.

– Hürriyyət elanının ilk məqamında dağdan Səlanikə qayıdan kimi sənin ünvanına bir teleqraf göndərmişdim. Yola saldıqdan sonra soyuq bir ədayla yazıldığını fərq etdim. Təəssüfləndim. Ancaq gec idi. Ox yaydan çıxmışdı…

– Ancaq mən o soyuq ədanı heç hiss etmədim. Mənim üçün əsas olanı o idi ki, "Yaşasın Vətən, Yaşasın Millət, Yaşasın Hürriyyət!" yazmışdın! Əsas olan bu idi…

– Orası elədi… Ancaq yenə də mən dünənki silah qardaşıma, bütün çətinliklərə bərabər sinə gərdiyim məslək dostuma elə soyuq ədayla başlayan, sadəcə, "Manastırda Niyaziyə!" sözlərilə başlayan bir teleqraf göndərməməliydim. Sən daha artığına layiq idin.

– Neynəmişdim ki? Sadəcə, Vətən, millət önündə vicdani vəzifəmi yerinə yetirmişdim…

– Mən ki, səndən artığını etməmişdim!.. Eyni yükün altına birlikdə çiyin vermişdik. Eyni taleyi göz altına almışdıq. Nəticəni birlikdə qazanmışdıq. Ancaq vəzifələr, imtiyazlar təkcə mənim adıma yazıldı. Ziyafətlərin önündə mən oldum. Xaricdən gələn dövlət başçılarının önünə Sultanla çiyin-çiyinə mən çıxdım… Sənsə kirimişcə doğma kəndinə çəkildin. Məktəbdarlıq işinlə məşğul oldun. Sadə, iddiasız həyatına qane oldun…

– İnan ki, bu məsələdə səni üzəcək zərrə qədər bir təfərrüat yoxdur… Bu, bir təbiət, xarakter məsələsidir. Tale işidir. Sən uzaq üfüqlərə, yeni məqsədlərə doğru şığıyan bir alov kimiydin. Qarşıdakı bütün sədləri idealların uğrunda yarıb keçməyə hazır dağ çayıydın… Dayana bilməzdin. Mənsə taleyin verdiyinə qane olan, səhra boyu axıb keçən çay kimi. Həm də yalqız idim. Mənə hərəkət verən, səfərbər edən güc yox idi. Cəmiyyətimizdə məqsədə doğru yürüyənlər mənim hərəkətsizliyimi gördükcə yanımdan ötüb, sənə can atırdılar. Onlara yolu açası güc, ehtiras lazım idi. Bu güc sən idin. Parisdən gizli şəkildə məmləkətə gəlib, Səlanik heyətinin başçısına çevrilən Nazim bəy bu gücü yaxşı qiymətləndirirdi. Parisdəki "Gənc türklər"lə ən yaxın əlaqəsi olan Nazim bəy öz seçimində kimə güvəndiyini yaxşı bilirdi. Eləcə də Səlanik mərkəzində əsas söz sahiblərindən biri olan Tələt Paşa! O, vəziyyəti dərhal qiymətləndirdi; Makedoniyanı və uğurlarınızı eşidəndə dərhal sizi Səlanikə dəvət etdi. Sizi Səlanik stansiyasında o qarşıladı, xalqın önünə ilk çıxışınızı təmin etdi. Bu, bir təşkilatçılıq işi idi. Öz gücünə güc qatmaq üçün Tələt Paşa yubanmadan bunu etdi. Qısa vaxt ərzində Tələt-Ənvər cütlüyünün parlaq dönəmi başladı.

– Qarışıq və hər şeyin sürətlə baş verdiyi bir dövr idi… Gözləməyin, uzun-uzadı götür-qoy etməyin vaxtı deyildi. Hətta dostların fikrini öyrənməyə belə vaxt etmək olmurdu… Ancaq xatırlayıram, Hürriyyətin elanından sonra Məşrutiyyətin tanıdıl-

ması məqsədi ilə tərtib edilən bir təşviqat qrupuna qatılmaq üçün sən də İstanbula dəvət edilmişdin.

– Ancaq o iş yarıda durduruldu…

– Vəziyyət elə gətirdi… Ancaq o zamanda da, elə indinin özündə də hesab edirəm ki, Tələt Paşayla bağlı mənə deyəcəklərin vardı. Demədin…

– Düşüncəsindəki sui-qəsdçilik, zorakılıq duyğusu mənə yad idi. Qəbul etmirdim. Zəki, qətiyyətli birisiydi. Amma təhrikçiydi. Dinc, hüquqi qaydalar üzərinə gizli şəkildə qoşulduğu, sıx əlaqədə olduğu masonçuluq anlayışı ilə gedirdi. Ümumi məqsəd içində məhz özünün çatacağı hədəflər olmamış deyildi. Səni qanadlandırırdı, irəli verirdi. Padşah kürəkəni olaraq imtiyazlarından yararlanırdı. Ancaq bu irəliləyiş həm də gizli mason həmlələrinə yol açırdı… Səlanik Mərkəz komandanı Nazim bəyin qətlə yetirilməsinə, saray çevrilişinə, Sultan Əbdülhəmidin taxtdan endirilməsinə aparırdı…

– Məmləkəti içindən yeyən, çökdürən, rəzil edən bir xəstəliyi müalicə etdiyimizi düşünürdük…

– Ancaq sivil qaydanı qoyub, zorən-təbiblik etmək cəhdi də olmamış deyildi. Tam bir masonçuluq duyğusuyla. Və, əlbəttə, Tələt Paşanın istəyincə! Doğrudur, o illərdə Misiri yenidən fəth etmək, itirilən Afrika torpaqlarını təkrar qazanmaq üçün artıq sənin önündə dayanacaq kiçicik bir əngəl belə yox idi. İş otağının divarından asdığın və heyranlıqla seyr etdiyin şəklin sahibi Napoleon və yeni bir Böyük Fridrix ola bilmək imkanı cəlbedici bir istək kimi vücudunu sarmışdı. Amma gözlənilməz, ağlasızmaz nəticələr də vardı, bu sonuncu ən bəd əlaməti Birinci Dünya savaşından gəlməkdəydi. Camal və Tələt bəylər Osmanlı dövlətinin bu savaşa mütləq qatılmalı olması fikrini sənə təlqin edirdilər. Etdilər və nail oldular da… Necə ki, səni Nazim bəyin, Sultan Əbdülhəmidin üstünə qaldırmağa nail oldular, sui-qəsdlərin, saray çevrilişlərinin əsas iştirakçısına çevirə bildilər...

– “Xəstə adam” halına gətirmişdilər məmləkəti…

– Rus çarizminin Osmanlı İmperatorluğuna yapışdırdığı bir yarlıq idi bu… Müəllifi də “Avropa jandarmı” kimi biabırçı ad alan I Nikolay olub. Özünə yaxın dairələrdə, hətta yazışmalarında o, türk sultanı və ya Osmanlı dövləti yerinə təhqiredici epitet olan “xəstə adam” ifadəsini işlədirdi. Çürüməkdə və ölməkdə olan çarizmin öz adını başqasına qoymaq cəhdini bir çox Osmanlı aydınları, başbilənləri görməzdən gəlir, öz məramlarına uyğun şəkildə yayınlayırdılar. Gənc beyinləri məqsədli şəkildə yönəldir, təhrik edirdilər. Gəncliyin romantik duyğularını sui-qəsdçilik ideallarına yönləndirirdilər. Bax, elə sən, 1912-ci ilin may ayının son günlərində Trablus ətraflarında olduğun zaman, italyanların top atışının qarşısını aldıqdan sonra qərargahına sığınmış bir ceyranla necə davrandığını xatırlayırsanmı?..

– Xatırlamamağım mümkünsüzdür… Naciyəmə də yazmışdım bu barədə: “İndi ətrafımda çox gözəl bir şey var; bir neçə gündür əməllicə əhliləşən bir ceyran məni yaxşı tanıyır, hər yerdə məni təqib edir yatağımın yanında yatır. Bu gün italyanların top atışından qayıdanda ceyranı xalının üzərində boynunu sallamış, başı yana düşmüş, zəifcəsinə nəfəs aldığı bir halda gördüm. Zənn etdim ki, elə indicə öləcək. Bilməzsiniz bu, məni necə üzdü… Bir dostumu itirə biləcəyim əndişəsinə qapıldım. Həmən yerə çökdüm, onu qollarım üstünə aldım, “Mənsurə” adı verdim, ona bu adla səsləndim. Nəhayət, başını yavaşca qaldırdı, gözlərini mənə dikdi, tərli burnunu yavaşca yanağıma toxundurdu, dilinin ucunu göstərərək sanki təşəkkürünü bildirmək istədi. Onun bu halı məni kövrəltdi. Həqiqətən ağladım. Bilməzsiniz, necə duyğulandım… Ağıla gələcək böyüklü-kiçikli min bir şeydən sonra ruhumun bu yalqızlığından qorxunc acı çəkirdim…” Eynən belə! Niyə xatırlatdın?

– Adi bir nəvazişdən həyat nəşəsi tapan Mənsurə adlı bir ceyranın halına ağlayan, pərişan halda ruh yalqızlığı yaşayan Ənvər

bəyin beş-altı ay sonra Camal və Tələt bəylə bərabər Nazim bəyin üstünə silah çəkməsi, Osmanlı sultanı İkinci Əbdülhəmidin sonunu gətirməsi mənə ziddiyyətli göründü. Bizi bir araya gətirən "İttihad və Tərəqqi" Cəmiyyətinin marşı olaraq birgə səsləndirdiyimiz şərqinin sözlərini xatırlayırsanmı? Onda necə də məsud idik, gələcəyə böyük ümidlərimiz vardı…

– Elə o adla da tanınırdı həmin marş; "İttihad və Tərəqqi" – böyük vicdan marşı…"

– Bir səslə oxuyurduq:

*Vicdanı muazzam olan Osmanlılarız biz,*
*Peymanına qanun qoyan Osmanlılarız biz.*
*Arzusunu pək güc bulan Osmanlılarız biz,*
*Əzmində səbatkar olan Osmanlılarız biz!*

– Sonradan dostların əlavə etdiyi, hər ikimizin adını qoşa qanad kimi birləşdirib sıx-sıx xatırladıqları misraları xatırlayırsanmı?

*Ənvərlə Niyazi – unudulmaz bu ismlər,*
*Tarixi-mədaniyə əmanət bu cismlər!..*

– O şərqi oxunan sözlərdə bir yerdəydik… Ancaq yanımca qaçmırdın. Sakit dünyana çəkilmişdin. Rahib kimi…

– O səbəbdən ki, səni əhatə edənlərin, ən əsası, Tələt Paşanın mason çevrələrindən uzaqda durmağı bacarmalıydım. Tələt Paşaya elə gəlirdi ki, o, gizlicə əlaqə qurduğu mason missionerlərindən bir alət, oyuncaq kimi istifadə edir, əslində isə dönməz bir Bəktaşi təriqətinə bağlı birisidir… Ancaq unudurdu ki, guya, gerçəkdən müəyyən məqsəd naminə əlaqələr qurduğu həmin o mason təşkilatı missionerlərinin də öz gizli və daha mühüm istəkləri var. Özlərini "İttihad və Tərəqqi" Cəmiyyətinə yaxın göstərirdilər. Əlaqə qurmağa can atırdılar. Amma əslində burada yaxın olacaqları şəxslərin vasitəsilə Sultan İkinci Əbdülhəmidə yol axtarırdılar. Ondan istəyəcəkləri vardı. "İttihad və Tərəqqi"ni

Sultanı zəiflədəcək güc kimi gördüklərindən Tələt Paşayla münasibəti dərinləşdirməyə can atırdılar. Bəlli hədəfləri vardı; İsrail dövlətini yaratmaq üçün Sultan Əbdülhəmiddən Fələstin torpaqları çevrəsindən kiçicik bir ərazi istəyəcəkdilər. İlk istək bu olacaqdı. Hər şeyi ölçüb-biçmişdilər. Teodor Herzl istəkləri qarşılığında Osmanlının Avropaya olan bütün borclarını ödəməyə yardımçı olacaqları vədini verirdi. Ancaq istəyini birbaşa yox, sultanla yaxınlığı olan polşalı əsilzadə Nevlinskinin aparıcılığı ilə edirdi.

– Bu deyilənlər hələ 1902-ci illərə qədər olan dövrün söhbətləri idi… Tələt Paşanın mənimlə bərabər hürriyyət yoluyla yürüdüyümüz vaxtlardan xeyli əvvəlki söhbətlər…

– Eləydi. Xeyli illər əvvəlki söhbəti idi. Ancaq bitməmişdi. Ümid gələn sabahlara idi.

– Sultanın, Herzlin Fələstin torpaqları hesabına bir dövlət qurmaq istəyinə qarşı verdiyi cavabı Osmanlıda bilib-eşitməyən yox idi… Qürur doğuran, gözyaşardıcı bir cavab olmuşdu: "Bir qarış belə torpaq satmaram. Zira, bu torpaqlar mənə yox, millətimə aiddir. Millətim bu imperatorluğu savaşaraq və qanıyla suvararaq qazandı. Bizdən ancaq qanla qoparıla bilər. Yəhudilər milyonlarını saxlasınlar, imperatorluq bölüşdürülən zaman Fələstini bedavaya, yəni, pay olaraq ala bilərlər… Ancaq cəsədimiz paylaşa bilər. Sağ olduğumuz müddətcə bir parça belə qoparılmasına razı ola bilmərik. Ölərəm, ancaq bir addım torpaq belə verməram…" Sultanın belə dediyi hər kəsə məlum idi…

– Məlum idi, ancaq biz məhz "Bir qarış belə torpaq satmaram" deyən, mason istəklərini yerindəcə durdurmağı qətiyyətlə bacaran Sultanın üzərinə yeridik. Onu pərişan etdik… Sultanın sağ olacağı müddətdə Fələstindən bircə qarış torpaq belə qopara biləcəklərindən ümidlərini kəsən Herzl, macar yəhudisi Vamberini dövriyəyə soxdu. Bu söhbət də alınmadı. Məqsədə çatmağın yolunu Sultanın sonunu gətirməkdə gördülər. Bu işi hər vəchlə

sürətləndirdilər. 1903-cü ildən mason təşkilatına üzv olan Tələt Paşayla yaxınlaşmağın yolunu tutdular. Üzdə hər kəs öz yoluyla gedirdi. Pərdə arxasında isə hərənin öz istəyi, öz məramı vardı. Bu halı müşahidə etmək, gözün ağının qaraya qarışmasını görə-görə irəli getmək mənə ağır gəlirdi. Öz yanlışım ucbatından kiməsə zərər verəcəyimin qorxusu məni tənhalığa çəkilməyə məcbur etdi.

– Bunları öz aramızda danışa bilərdik…

– Səndə özgə bir hal var idi o zaman…

– Millət bizi bir gözdə tuturdu, ikimizə də güvənirdi. Demirdilərmi: "Əsgər bir qılıncdır! Amma, ey Ənvər, ey Niyazi! Bu qılınc sizin və sizinlə bir sırada yürüyən silah, əqidə dostlarınızın əlində zalımları məhv edən bir müqəddəs silah oldu!" Demirdilərmi məhz bizim sayəmizdə ordumuz artıq bir təzyiq və zülm vasitəsi olmayacaq? Hər ağızdan eşidilmirdimi ki, "ordumuz və əsgərimiz artıq, daxilə və xaricə qarşı hürriyyəti, azadlıq və müstəqilliyi mühafizə etmək üçün çəkilmiş bir qılınc, əbədiyaşar bir idrak olacaq". Bu deyilənlər ilk növbədə, sənə, Niyazi bəy, sənə və mənə xitabən dilə gətirilirdi. Sən və mən var idik…

– Məni qorxudan və kənara çəkilməyə vadar edən məsələ də məhz o "mən"lə bağlıydı. Mən "mən" deyə bağıra, önə çıxa bilən birisi ola bilməzdim. Təbiətim buna yol verməzdi. Eyni zamanda sizi də çıxdığınız yoldan geri döndərməyə cəhd edə bilməzdim. Yanlış anlaşıla bilərdim. Şöhrətinizi qəbul edə bilmədiyim düşünülərdi. Bizi bir-birimizə qarşı qaldıra bilərdilər. "Altun Hürriyyət"in əsas sütunları kimi vəsf edilən səni və məni üz-üzə qoya bilərdilər. Hər gün artıqlaması ilə görürdüm ki, həm bir qədərçi, həm də öz qədərini yaradan birisi olaraq səni seçdiyin yoldan döndərə bilmək mənim gücüm-qüvvətim daxilində deyil. Qasırğa önündəki qayıq kimiydim. Gün işığının qarşısına çəkilmiş pərdə kimiydim. Basıb keçəcəkdin. Ancaq sən həm də

məni mən olaraq yaradan, mənim yetişməyimin, yüksəlməyimin səbəbkarıydın. Haqqına qarşı dura bilməzdim. Özümə rəva görməzdim bunu. Ona görə də sakitcə öz qəsəbəmə, ucqar guşəmə çəkilməyə qərar verdim…

Bütün bu mükalimələr Niyazi bəylə xəyali dialoqları idi. Ancaq bu xəyal o qədər real və inandırıcı idi ki…

## İYİRMİ DOQQUZUNCU FƏSİL

*Türküstanda bir bozqurd – Ənvər Paşa.*
*İlyas Kara*

Niyazi bəylə bu xəyali söhbətləri paşanın gözləri önünə Körpülüdən Səlanikə səfər etdiyi dönəmi gətirdi…

…Tələt bəyin rəhbərliyi altında qələbəlik bir qarşılanma mərasimi hazırlanmışdı. İlk təqdimatı da o etdi:

– Hürriyyət qəhrəmanı minbaşı Ənvər bəy çox yaşasın!

Şəhər bağçasında bütün Rumelinin müfəttişi, vali, komandirlər, yüksək çinli vəzifə sahibləri və tanınmışlar böyük sayğıyla pişvazına çıxmışdılar. Bu qələbəlik qarşısında etdiyi ilk çıxış da Ənvər Paşanın yadındaydı: "Vətəndaşlar! Haqqımda lütf ilə göstərilən məhəbbətə görə təşəkkür edirəm. Mən buna layiq olmaq üçün bir şey etmədim. Hər bir Osmanlının sevə-sevə yerinə yetirəcəyi bir vəzifə, bir tale əsəri olaraq bu imkan mənə verildi. Əgər bunu haqqıyla ifa edə bildimsə, bu mükafat bəsimdir.

Şükürlər olsun, Məşrutiyyəti həyata keçirdik. Hürriyyətimizi aldıq. Fəqət, bununla vəzifəmizi bitmiş hesab edə bilmərik. Tərəqqi yolunda atdığımız bu ilk addımı müvəffəqiyyətlə irəlilətmək üçün, çox çalışmaq və diqqətli olmaq lazımdır.

…İnanıram ki, bundan sonra müsəlman və qeyri-müsəlman olmasından asılı olmayaraq hər bir vətəndaşımız əlbirliyi ilə çalışacaq, millətimizi, vətənimizi daim yüksəltməyə çalışacaq".

Bu səmimi müraciət onu qarşılayanları daha da coşdurdu. Hər tərəfi sürəkli "Yaşasın! Yaşasın!" nidaları bürüdü. Bələdiyyə başçısı Adil bəy xalq adından ona təşəkkür etdi. Fuad bəylə, Camal bəylə bərabər avtomobilə mindilər. Hürriyyət meydanından keçib Bəyaz Qüllə meydanına doğru irəlilədilər. Bu möhtəşəm qələbəliyi, ona olan hədsiz xalq sayğısını görüb-izlədikcə xəfif bir duyğusallıqla göz yaşını tuta bilmir, ağlayırdı…

…Hər şey dünən olubmuş kimi təsir bağışlayırdı. Duyğularını anlada bilmək üçün şair olmaq istədiyi günlərin xatirəsini yaşayırdı. O xatirələr romantik duyğularla süslənib onu ali məramı yolunda savaşa aparırdı. Hürriyyət savaşını ilahi eşq şəklində təqdim edirdi: "Sənin eşqin savaş və hürriyyətdi... Bu savaşın ətəyinə baş qoyacaqsan, əbədiyyətini onda tapacaqsan".

...Ənvər məmnun idi. Ömrünü həsr etdiyi, həyatının mənası bildiyi idealları naminə çıxdığı savaşda hər cəfaya, ölümün özünə belə hazır idi. Gözünü qırpmadan ölümün üstünə yeriyirdi. Deyilənlərin, nəql edilənlərin hamısını ruhən yaşamışdı. Öz möhtəşəm xəyalı – İslam Turan Birliyi ideyasının dönməz aşiqi olaraq bu yerlərə gəlmişdi.

Bu məhəbbətin daşıyıcısıydı. Dində, məsləkdə, mübarizədə mətanətli olmağı gözəl əxlaqdan hesab etmişdilər, doğru yolda əzm göstərməyi buyurmuşdular. "Bir tək şəhidin imanı bütün salehlərin imanı kimidir..." Elə bu saf əqidə ilə, təmiz imanla yaşadığı üçün ölümü bir evin yox, bir elin matəminə çevrilmişdi. Həm də təkcə öz el-obasının, öz ölkəsinin yox, digər məmləkətlərin də.

Ənvər Paşanın şəhidliyinə ithafən məşhur özbək şairi Çolpanın yazdığı ağı bütün Türküstanın qəlbindən gəlirdi, bütün Turan ellərinin dilindəydi:

*Fəryadım dünyanın tümünü boğsun,*
*Ümidimin ipin qoparsın, atsın.*
*Qəzəbdən titrəyən gənc bir igidin,*
*Mərmilər qəlbinə daş kimi dolmuş*

*Dağlarda azadə gəzən geyikin,*
*Qara gözlərini matəm bürümüş.*
*Dəryalar, dalgalar titrədən bir ər*
*Zərbələr altında yıxılıb qalmış…*

Ənvər Paşanın da qısa, fəqət zəngin və fırtınalı ömrü qədim türk ənənəsinə uyğun olaraq böyük sərkərdələrin keçdiyi mübarizə yolu kimi vəsf olunaraq nəzmə çəkilirdi:

*Qurtuluş ulduzu yoxluğa dalmış,*
*Sənin son nəfəsini düşmənlər çalmış…*
*Mərmərə boyları, Ədirnə yolu,*
*Çatalca ovası, Boğaz keçidi,*
*Karpat zirvələri, Trablus çölü,*
*Gözəl Səlanikin şirin bağları…*
*Şəhidlər üzündə yansıyan nurlar,*
*Bizə qan ağlatdı bu qara xəbər…*

Şair bununla kifayətlənmirdi, qanlı daşnak terrorunun Berlin küçələrində və Tiflisdə tüğyan edərək digər qəhrəman türk paşalarının da sonuna çıxdığını yazırdı. İndi isə milyonlarla türkün son ümid kimi söykəndiyi Ənvər Paşanın da Bəlcivanda qana boyandığını sonsuz hüznlə dilə gətirirdi:

*Berlin küçəsində qan dalğaları*
*İgidin birini qoynuna aldı.*
*Tiflis canavarı bir qurtuluş ərini*
*Qızıl qanın töküb torpağa sərdi…*
*Tarixinin rəngini çox qanlar ilə*

*Boyayıb doldurmuş olan Bəlcivan*
*Ən son ümidin də qana boyandı…*
*Ah! Necə uğursuz zamanlar gəldi.*
*Fəryadım dünyanı boğub öldürsün,*
*Qapqara bəxtimə şeytanlar gülsün…*

Osmanlı İmperatorluğunun Baş Qərargah rəisi, Turan Orduları Baş komandanı İsmayıl Ənvər Paşanın – belə böyük bir türkün mənfur erməni gülləsi ilə dünyadan getməsinə şeytanlar gülürdü… Ancaq mələklər Allah dərgahında şəhid Ənvər Paşanın əbədiyyətə qovuşmasını bayram edirdilər.

Livanın tanınmış ziyalılarından biri olan Əmir Şəkip Aslan Ənvər Paşanın şəxsiyyəti, insani məziyyətləri haqqında yazırdı: "Onu tanıyanların hamısı onun şəxsində bir tərəfdən heç bir kimsəyə boyun əyməyən şücaət və qəhrəmanlığın, digər tərəfdən isə utancaqlıq, təvazökarlıq, incəlik və mərhəmət kimi insani fəzilətlərin hamısını bir yerdə toplanmasına şaşırıb qalırdılar. Zəmanəmizin müsəlmanları arasında onun himmət və məqsədlərinin başgicəlləndirən ucalıqlarına, əzm və iradəsinin hədəf aldığı uzaqlıqlara, atəş kimi parlaq və yandırıcı şəxsiyyətinin yüksək səviyyəsinə asan şəkildə yaxınlaşacaq heç bir kimsə yoxdur.

İdarəçiliyinə qarşı nifrətinə görə ən qatı düşmənlərindən olan birisi Ənvər Paşanı tanıyanda onu sevmədiyi üçün içində günahkarlıq hiss etməyə başlayır. Dəfələrlə bizə açıq şəkildə deyiblər ki, bir sıra şəxslər Ənvər Paşayla görüşməzdən əvvəl ürəklərində ona qarşı bir kin, düşmənçilik bəsləyirlər, onunla görüşüb tanış olduqdan sonra ürəklərində kin alovunun yerini etibar və səmimiyyət alır".

Ənvər Paşa dolu sünbül kimi idi, dən tutduqca başını aşağı əyərdi, yəni, rütbəsi, mövqeyi, vəzifəsi nə qədər yüksəlsə, təvazökarlığı da bir o qədər artardı.

Haqqındakı çoxtirəli fikirlərə, üzləşdiyi uğursuzluqlara baxmayaraq, o şübhəsiz ki, türk tarixinin sayılıb-seçilən şəxsiyyətlərindən idi. Ənvər Paşa bu şan-şöhrətə təsadüfən çatmamışdı, bunları özünün cəsarəti, şücaəti, əzmi və imanı ilə qazanmışdı...

## OTUZUNCU FƏSİL

*"Könlümdə yeri ayrı Gəncənin..."*
*Ənvər Paşa nəslinin davamçısı*
*Burak Ənvər Sadıkoğlu*

O zamanların vacib təbiri ilə desək, Bakı Türküstanın qapısı idi, onu heç bir vəchlə erməni daşnaklarının və bolşevik qan-içənlərin zülmü altında tək qoymaq olmazdı. Ənvər Paşaya görə Bakı həm də onun arzularındakı Turana açılan bir qapı idi.

Lakin bu işin öz maneələri, gözlənilməyən yerdən çıxacaq əngəlləri vardı. Deyək ki, həmin vaxt Almaniya Osmanlı dövləti ilə müttəfiq idi və Brest-Litovsk müqaviləsinə əsasən, Almaniya Qafqazda müəyyənləşdirilən sərhədlərə xüsusi həssaslıqla yanaşırdı. Lakin almanların həmin dövrdə Bakı nefti və Gürcüstan üzərində gizli hesabları olduğuna görə Osmanlı dövləti ilə müttəfiq olmalarına baxmayaraq, türk ordusunun Azərbaycana daxil olmasına qətiyyətlə qarşı çıxırdı. Bunu Ənvər Paşa yaxşı anlayırdı və bütün bu kimi səbəblər onun işini çətinləşdirirdi. Almaniya, Rusiya və digər böyük dövlətlərin diqqətini öz üzərlərinə toplamamaq və ittihamlarından qorunmaqdan ötrü qurulan Qafqaz İslam Ordusunun Azərbaycanda yaşayan türk və müsəlmanlardan təşkil olunmuş kimi təqdimatına çalışırdı. Ordunun adı da məhz bundan

qaynaqlanırdı. Qafqaz İslam Ordusunun qurulub ərsəyə gəlməsi üçün Ənvər Paşa canını, vaxtını, enerjisini bu işə sərf etməkdən çəkinmirdi. Dünya güclərinin diqqətini çəkməmək üçün ordunun qurulması üçün gizli fəaliyyət göstərməyə cəhd edirdi, məhz buna görə də əmisi, qardaşı və çox güvəndiyi dostları, o cümlədən qardaş qədər yaxın bildiyi Yusif Talıbzadə, alovlu vətənpərvər Əhməd bəy Ağaoğlu ilə birgə bu işi həyata keçirməyə çalışırdı.

Bundan sonra müharibənin qızğın vaxtında 1915-ci ilin fevralında gələcəkdə Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən olan Fətəli xan Xoyskinin qardaşı oğlu zabit Əmir Arslan xan Xoyski sərhədi gizlicə keçərək Ərzurumda Ənvər Paşanın qərargahına gələrək onunla görüşmüş, ona müstəqil Azərbaycan dövləti qurmaq naminə bir hərəkət planı təqdim etmişdi. Bunun da əsasında Qafqaz cəbhəsi planı hazırlanmışdı. Plan da, istək də Ənvər Paşanın xoşuna gəlmişdi. Aydın görünürdü ki, Azərbaycanın, bütöv götürüldükdə Qafqazın müstəqillik yolunda artıq planları qətiləşməkdə idi... Lakin yaxşı deyiblər, sən saydığını say...

...Azərbaycana, Turan qapısı sandığı bu doğma və qardaş ölkəyə yaxın olmaq üçün Ənvər Paşa gördüyü işləri, həmçinin Trabzona səfərini xatırladı... Həmin vaxtlarda Ənvər Paşa Türkiyənin siyasətini müəyyən edən mühüm dövlət adamlarından biri idi. Görüşdə Osmanlı və Azərbaycan türklərinin qarşılıqlı münasibətləri haqqında gözəl planlar qurulmuş, ümid və arzularla dolu gələcək haqqında söz açılmışdı…

Azərbaycandan gələn nümayəndələr çılğın, dəli-dolu, şücaətli, amma bir o qədər də işini bilən Ənvər Paşanın ciddi xarakterinə, inam dolu sözlərinə heyran olmuşdular.

– Əziz qardaşlarım, ümid edirəm ki, sizinlə bu xoş görüşümüzün uğurlu nəticələri Azərbaycanın gözəl istiqbalı üçün bir vəsilə olacaq. Azərbaycan türklərini özümüzdən ayırmıram, biz eyni kökdənik, eyni soydanıq. Üstəlik də şükür, əlhəmdülillah,

hamımız müsəlmanıq, Həzrəti Məhəmməd ümmətiyik. Biz imkan verməri k ki, erməni mənfurları, ingilislər, bolşevik gavurları gözəl Azərbaycanı parçalayıb bölüb öz bildiklərini eləsinlər. Bakı Türküstana, Turana açılan qapıdır, Gəncə iki gözümüzdür, Qarabağsa ürəyimizdir. Sizin xoş istiqbalınız və tərəqqiniz elə bizim də gözəl gələcəyimiz deməkdir. Birlik ən ümdə vəzifəmizdir. Ancaq birləşərək, qüvvələrimizi səfərbər edərək məmləkətlərimizi gavurlardan, dinsizlərdən qoruya bilərik, hədəfimiz olan Turanı qura bilərik.

Azərbaycan nümayəndə heyəti Ənvər Paşanın şövqlü, güclü inam oyadacaq nitqini böyük ruh yüksəkliyi ilə dinləmiş, ümidləri daha da artmışdı. Rəsmi görüşdən sonra Ənvər Paşanın da iştirakı ilə Trabzona xas dadlı, ləziz təamların olduğu ziyafət verilmişdi. Trabzonun yağlı pidəsi, Akçaabad küftəsi, laz börəyi, qara kələmdən bükülən dolma, fındıqlı Hamsiköy südlü aşı ağızları dada gətirmişdi, elə Osmanlı türklərinin dediyi kimi, "tatlı yeyib tatlı danışmışdılar…"

Ənvər Paşanın həmin səfərindən az sonra, Nuri Paşanın 1918-ci ilin may ayında 30 zabiti 25 atlı əsgəri ilə Yevlaxda duz-çörəklə qarşılanması mərasimi yerli qəzetlərin birində dərc edilmişdi. Qarşılayanlar adından mühəndis Behbudovun salamlaması və Nuri bəyin qısa cavab nitqindən sonra dərhal Gəncəyə yola düşdüyü xəbər verilirdi. Nuri Paşanın rəhbərliyi ilə Gəncəyə daxil olan türk əsgərlərinin qarşılanma səhnəsini Ənvər Paşa ilə çox yaxşı münasibəti olan Nağı Şeyxzamanlı sonralar özünün "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabında yazacaqdı:

"Qarşılama mərasimi belə olmuşdu: Gəncə camaatı şəhər meydanına yığılmışdı. Dövlət dairələri və məktəblər tətil etmiş və şagirdlər dəstə halında düzülmüşdülər. Müharibə vaxtı rusların işğal etdikləri Türkiyənin şərq vilayətlərindən toplanaraq "Cəmiyyəti-Xeyriyyə" tərəfindən Azərbaycanın hər şəhərindən uşaq evlərinə yerləşdirilən sahibsiz uşaqlardan dörd yaşından yu-

xarı olanlar da dəstə şəklində meydanda idilər. Meydanın ətrafını bürümüş qadınlı-kişili xalq əsgərlərə baxırdı. Sevincdən hər kəsin gözləri yaşlıydı…"

Ənvər Paşa beləcə özünün birbaşa təşəbbüsü və məqsədyönlü fəaliyyəti ilə hər şeyi nizamlayaraq, gücləri səfərbər edərək qardaş Azərbaycan xalqını ən lazımi anda tək qoymayıb, qəlbimizin ən qəlbi yerində özünün əbədi fəxarət heykəlini ucaltmışdı. Bu, elə bir mənəvi zirvədir ki, oraya yüksəlmək hələm-hələm qəhrəmana nəsib olmur...

Bu məqamda bir haşiyəni çıxmağı da özümə borc bilirəm; bu ilin isti yay günlərində mən İstanbulda "Abideyi-Hürriyət"ə qəhrəman türk paşalarının məzarlarını ziyarətə getdiyim vaxt Ənvər Paşanın nəticəsi – oğlu Əlinin nəvəsi, tarixçi Ənvər Burak Sadıkoğlu da Bakıya gəlib ki, Qarabağ Zəfəri niyyətinə etdiyi qurbanları kəssin. Səfər çərçivəsində babaları Ənvər və Nuri paşaların gəzdiyi yerləri böyük qürur hissi ilə gəzib-dolaşıb, istiqlal tariximizdə önəmli rol oynayan Gəncədə Qafqaz İslam Ordusunun qərargahında da olub, Qarabağ qaziləri, şəhid ailələri ilə görüşüb, onlarla birgə Zəfər fəxarətimizi bölüşüb. Türk dünyasının qüdrətli sərkərdəsinin nəslinin davamçısı Ənvər Burakın səfər boyu Azərbaycan mediasına verdiyi müsahibələri oxuduqca riqqətə gəldim: "Qarabağ Azərbaycan və Türkiyə üçün, eyni zamanda bütün türk dünyası üçün bir vətən torpağıdır. Azərbaycanın ayrılmaz bir parçası olan bu torpaqlar çoxminillik türk tarixinin izlərini özündə daşıyır. Min illər boyu türk torpağı olan Qarabağ işğalda qala bilməzdi və bir gün buranın işğaldan azad olunacağına əmin idik. Müharibə başlayanda da işğalın bitəcəyinə inamım tam və qəti idi. Çünki Azərbaycan Ordusu özünə güvənirdi və haqlı idi. Təbii ki, şanlı Azərbaycan Ordusu müharibə boyu öz gücünü xalqının mənəvi dəstəyindən aldı. Xalq-dövlət-ordu birliyi ilə Qarabağ işğaldan azad edildi. Çox şükür ki, Ermənistan tərəfindən haqsız və hüquqsuz şəkildə işğal edilən torpaqlarımız

azaddır. Siz Azərbaycanda nə hiss etdinizsə, biz də burada eyni duyğuları yaşadıq. Bu, bu gün də, sabah da belə olacaq. Qarabağın işğalı Türkiyə türklərinin qəlbində bir yara idi. Qardaş dar günündə qardaşının yanında olmalıdır. Babam Ənvər Paşa və qardaşı Nuri Paşa Qafqaz İslam Ordusu ilə qardaşlarının köməyinə necə çatdısa, bu gün də eyni hisslərlə Türkiyə və Azərbaycan qardaşlığı daha da güclənir, qüvvətlənir. Bunu görmək bizim üçün qürurvericidir. Yaşadığımız müharibə və qazandığımız zəfər Türkiyə və Azərbaycan qardaşlığının nə qədər önəmli olduğunu bir daha dünyaya göstərdi. Bu möhtəşəm zəfər həm də bütün türk dünyasında qardaşlıq əhval-ruhiyyəsini, özünə inamı gücləndirdi və qürur qaynağı oldu. Hazırda müharibə dövründə daha da güclənən qardaşlıq əlaqələrimizi bütün sahələrə yaymalıyıq. "Bir millət, iki dövlət" düsturu ilə hərəkət etməyə davam etsək, heç kim bizə qalib gələ bilməz".

Ənvər Paşa soyunun davamçısının səsləndirdiyi bu fikirlərlə tanış olduqca gen yaddaşının, nəsil faktorunun nə qədər önəmli olduğunu bir daha özlüyümdə təsdiqlədim: "Ot kökü üstə bitərmiş...". Məşhur bir türk məsəli də bu arada özünü xatırlatdı: "Türk balası qurd olar, basdığı yer yurd olar..."

## OTUZ BİRİNCİ FƏSİL

*Ənvər bəy tarixin böyük çevrəsində dəyərləndiriləndə qorxusuz, idealist, vətənpərvər və qəhrəman bir komandir olaraq qarşımıza çıxacaqdır.*

***Hakan Boz***

May ayında Mogilada Balkan quldur dəstəsinə qarşı mübarizəyə də bu düşüncələrlə, ona güvənən, dəstək olan əsgərlərlə bir yerdə başlamışdı… İlk dəfə həqiqi güllə yağışının içinə də onda düşmüşdü. Sentyabr ayında isə öz istəyinə görə artıq 20-ci Piyada alayının birinci taborunda xidmət etməkdəydi. İstəyirdi Bolqarıstan hüdudlarındakı bölgələri daha yaxından tanısın. Xidmət etdiyi bölgədə müşahidə məntəqələri ləğv edildiyindən Koçanadakı 19-cu Piyada alayının 1-ci taborunda birinci bölük komandanı vəzifəsinə gətirildi.

1904-cü ilin aprelində isə artıq Üsküpdəki 16-cı süvari alayının bir bölüyünə göndərilmişdi. Bu təyinatdan razıydı. Hər şeyi özü ölçüb-biçib sərbəst qərar vermək üçün imkan tapmışdı. Amma işin bəd tərəfi də vardı. Ucqar bölgədə elə də sərt qanunlar altında xidmət etməyə alışmamış zabitlər onun gəlişindən razı qalmamışdılar. Tapşırığı görməzdən gələn bir zabitə cəza vermək məcburiyyətində belə qalmışdı. Başa düşmüşdü ki, məmur olan

kəslərdən könüllü olaraq bir işi yerinə yetirməsini istəmək elə də asan başa gəlmir. Buna görə də dövlət işinin son nöqtəsinə qədər yerinə yetirilməsini məsul şəxslərdən tələb etmək mütləqmiş. Belə olmasa dövlət uçuruma yuvarlana bilər… Bəzilərinin rüşvət hesabına vəzifə tuta bilməsinin örnəyinə də ilk dəfə burada rastlaşdı. Bütün bunları gördükcə uzun-uzadı fikirləşir, özü üçün planlar qururdu: «İşlər bu cür gedərsə, bu gərəksiz, qəbuledilməz hadisələrə son verib, Əbülhəmid istibdadı yerinə qanuna əsaslanan bir dövlət yaratmaq gərəkdir. Yoxsa ayrı bir yol qalmayacaq, atılan addımlar boşa çıxacaqdır…»

Başqa səbəblər də vardı. Avropanın diktə etdiyi yeniliklər gözünün qabağındaca ölkəsini parçalanmağa doğru aparırdı. Xüsusilə, xristianların Avropa tərəfindən dəstəklənməsi məmləkətində gözgörəsi bir ayrı-seçkilik durumu yaradırdı. Yerli məmurlar artıq hər hansı bir xristianın tələb və istəyi qarşısında ikiqat əyildikləri halda, müsəlman olanın ağrı-acısına göz yumurdular. Sıradan bir xristiana qarşı olan adi haqsızlıq tezliklə aradan qaldırılır, günahkar cəzalandırılırdı. Müsəlman olanın səsini belə eşitmək istəyən yox idi.

Bütün bunları görən gənc Ənvərin qəlbində Sultan Əbdülhəmid idarəçiliyinə qarşı gizli bir kin oyanırdı. Cəmi iki aydan sonra o, Üsküpdən Manastrdakı qərargaha bu dağınıq fikirlərlə başbaşa qayıtmışdı.

1906-cı ilin mart ayından başlayaraq onu şöhrətə aparan pillələr bir-bir önünə çıxdı. Bir-birinin ardınca ağır döyüşlərdə iştirak etdi. Göstərdiyi şücaətə görə medallarla təltif edildi. Bunun ardınca da rum, bolqar və serb terrorçu qruplaşmalarına qarşı mübarizəyə göndərildi. Ancaq həmin o dəqiqələrdə yalnız xidməti iş, hərbi həyat haqqında yox, daha çox məmləkətinin xilası, imperatorluğun qurtuluş yolları barədə düşünürdü. Duman çəkilməli, sis dağılmalıydı. Dövrün qabaqcıl fikirli bir çox ziyalıları kimi, o da çıxış yolunu hökumətin dəyişməsində görürdü...

…Camal bəylə, Tələt bəylə, əmisi Xəlil bəylə, kiçik qardaşı Kamil bəylə olan müzakirələrində Tofiq Fikrətin şeirləri tez-tez söhbətin mövzusu olar, sonda gəldikləri nəticə çox vaxt: "Tofiq Fikrətin şeirləri hürriyyətin xalq üçün yeganə qurtuluş yolu olduğunu bəyan edir…" – olardı. Razılıqla:

– Hər misrası qurtuluşa səsləyən marş kimidir…

– Tofiq Fikrətin şeirləri milli varlığımızın şeir dili ilə vəsfidir…

*Çeynəndi yetər, varlığımız cəhl ilə qəhrə,*
*Doğrandı mübarək vətənin bağrı səbəbsiz.*
*Birlikdə bu gün tapmalıyıq dərdinə çarə*
*Can qardaşı, qan qardaşı, şan qardaşıyız biz.*

Bu şairanə söhbətlər eyni zamanda da onları illərlə könüllərində yaşatdıqları ideallara doğru aparırdı. Qardaşı Kamil bəylə bir gün oturub xeyli müddət Tofiq Fikrətin şeirlərini müzakirə etdiyini xatırladı.

Ənvər Paşa şairin "Kiçik əsgər" şeirini az qala əzbər bilirdi. Kamillə söhbətində şeirin hər misrasında vətənsevərliyin olduğunu vurğulayırdı. Təbiətən duyğulara böyük önəm verməsi şeirə, musiqiyə bağlılığını şərtləndirirdi.

– Kamil, baxsana, nə qədər sadə, amma eyni zamanda ehtişamlı yazıb:

*Kiçik əsgər, kiçik əsgər,*
*Vətən səndən xidmət istər!*
*Vətən üçün çəkər əmək*
*Hər kəs; bu borcu hər kəsin.*

*Vətən demək anan demək,*
*Sən ananı sevməzmisən?*
*Vətən səndən həyat umar,*
*Sən yaşarsan, o canlanar,*
*Vətən üçün ölmək də var,*
*Fəqət borcun yaşamaqdır…*

*Kiçik əsgər, dinlə bunu,*
*Saqın, boşa silah atma.*
*Qılıncını, qurşununu,*
*Haqsızlığa qarşı saxla…*

Kamil bəy belə anlarda qardaşının gözlərinin necə şövqlə parıldamasına, bir vücudda həm sərt hərbçinin, həm də incə qəlbli şeir-sənət xiridarının necə bir arada var olmasına heyrət edirdi. Kamil bəy də savadlı, mütaliəli şəxs idi, ancaq Ənvər Paşanın mütaliəsi, çox dil bilməsi, musiqi və şeiri daha çox sevməsi onu bütün bacı-qardaşlarından xüsusilə fərqləndirirdi.

Tofiq Fikrətin elə həmin şeirdə yazdığı kimi haqqın bərqərar olması üçün qüvvət lazım idi. Onların hər birinin də istəyi vətəni yuvarlandığı parçalanma uçurumundan xilas etmək idi. Sevdikləri şairin yazdığı kimi "xəstə Vətəni" canlandırmaq istəyirdilər. Qanunların ayaqlar altında tapdanmasının qarşısını almaqda israrlıydılar. Günlər boyu yalnız xəyallarında qura bildikləri bir kabineti gerçəkləşdirməyi qərara almışdılar. Məqsədə yetmək naminə Tələt bəy ilk növbədə teleqram yollayıb onu, Fəthini, Haqqını, Xəlili və Əbülqadir bəyi yanına çağırdı. Bir yerdə görəcəkləri işi diqqətli şəkildə ölçüb-biçdilər. Məsləhətləşmə gecədən səhərə qədər davam etdi. Məqsədə yetişmək üçün bütün mümkün tədbirlər həyata keçirildi. Bəlkə də bu cür məqsədyönlü hərəkət etdikləri üçün artıq Babı-ali basqınından bircə il keçməmiş artıq Ənvər Paşa şöhrətinin ən uca zirvəsindəydi. Osmanlı İmperatorluğunun əsas söz sahibi kimi göz önündəydi…

## OTUZ İKİNCİ FƏSİL

*Ya Rəbb! Mənə Vətənimə, millətimə və dinimə yaxşı xidmət etməyi nəsib eylə.*

***Ənvər Paşa***

İndi ölümün nəfəsini lap üzərində hiss elədiyi məqamda xatirələr bir-bir oyanır, illərin o başını bu başına çəkirdi. Hər addımbaşı Sarıqamış ağrısını oyadan bolşevik mühitinin çirkin münasibətləri ruhunu dəlib keçirdi. Bütün bu xatirələr burulğanı içində olmasına baxmayaraq o, özünü ələ almağı bacarırdı. Üzünü çevirib xəfif bir təbəssümlə çıxdığı yol boyunca onu əhatə edən aləmi gözüdolusu seyr edirdi. Geridəqalmışlığın, özbaşınalığın yaratdığı xaos onu əndişələndirirdi. Lakin həmin andaca müsafiri olduğu Türküstan torpağının hər guşəsindən ruhuna rayihə qatan İslam ətri səbrinə əlavə dözüm qatırdı... Öz xatununa adəti üzrə bu barədə "mənəvi hesabat" verməyi də unutmurdu: "Dünən Buxara və Xivə mərkəzlərinə ümumi vəziyyət barədə yazdım. "Ulu Turan İhtilal Orduları Komandanı və Mərkəzlər Mərkəzi Rəisi Ənvər" deyə imzamı atdım. Haqq bu böyük işdə utandırmasın. Sən bu biçarə türk və müsəlman ölkəsi üçün dua et. Artıq ox yaydan çıxdı. İnşallah, geri ancaq müvəffəqiyyət qazanandan sonra dönərəm".

Ətrafına cəm olmuş Türküstan vətənpərvərləri əhatəsində Buxara ətrafından qazax torpaqlarına doğru çəkilib, Tacikistan, Əfqanıstan sərhədləri səmtinə doğru hərəkət etdikcə oranın ziyalılarından bu bölgələrdə İslamın qəbul edilməsi tarixini eşitmişdi... Orta Asiya türklərinin İslam dini ilə ilk yaxın tanışlığı Talas döyüşü günlərində başlamışdı. Ehtimal olunur ki, o tarixi döyüş Orta Asiyaya İslam dininin mübarək qapısını açmış, bu bölgələrə Çin basqınlarına son vermişdi. Haradasa, gözü yetdikcə nəzər saldığı bu ucsuz-bucaqsız, bərəkətli, hər qədəmindən islami dəyərlərin boy göstərdiyi bölgələrdən, bəyaz, pəmbə buludlu göylərdən, sakit çayların axışından o, bu torpağın imanlı şeyxlərinin nigaran səslərini eşitməkdəydi.

– Necə əndişələnməyək? Adına Moskva deyilən bir allahsızlıq ocağından hələ 1860-cı illərdən bəri üstümüzə şığıyan, imanları puç edən, müsəlmanları küfrə bələyən şeytanlığı necə görməzdən gələk? Sayları çox, imanları yox...

Eynilə o da Şeyx Übeydullah Əhrar Səmərqəndi kimi sinəsini irəli verib, Turan – İslam sevdalı köksünü nişan verə-verə:

– Baxın, illər boyu burada sizlərə kömək edəsi, yanınızda olası ordu yetişdirmişəm… Bu uzun yolçuluğa, sizlərin hüzuruna bu ordu ilə bərabər gəlmişəm. Trablus bölgələri, Afrika çarpışmaları, Qafqaz, Bakı zəfərləri, Dağıstan, Misir, Almaniya sözləşmələri, anlaşmaları boyunca o ordunu sizlərə sayğı dolu köksümün altında, duyğulu ürəyimdə sevə-sevə bəsləmiş, toparlamışam.

Bu düşüncələrə daldığı dəqiqələrdə vaxtilə sədrəzəmə yazdığı bir məktubda qeyd etdiyi fikirlər təqib etməkdəydi onu: "Faydalı bir şəkildə iş görə biləcəyimə ümid bəslədiyim Qafqaza hərəkət edirəm. Bu şəkildə, bütün həyat və varlığımı yüksəlişinə həsr etdiyim məmləkətimdə qalaraq dinimə, millətimə, padşahıma xidmət edə bilməməyimdən doğan üzüntüm çox böyükdür. Fəqət, Qafqazda bir İslam istiqlalının gerçəkləşməsinə yardım edə bilmək ümidi üzüntümü bir az azaldır…"

…Moskvaya gəlişinin ilk günlərində Mustafa Kamal Paşaya yazdığı və siyasi baxışlarını, işlərin gedişini açıq-açığına anlatdığı məktubunda da əsl niyyətinin İslama xidmət işi olduğunu önə çəkmiş, fəaliyyətinin və əldə edə biləcəklərinin davam etməsi üçün dua etdiyini, bir türk övladı olaraq həmişə İslam millətləri arasında iş aparıb, onların istiqlalı naminə çalışacağını yazmışdı… Bu məsələdə sovet liderləri də, hər şeydən əvvəl, Ənvər Paşanın islam dünyası barədə olan, hər vəchlə həyata keçirməyə can atdığı düşüncələrindən özləri üçün faydalanmağa can atırdılar. Onlar sadəcə müəyyən məqama qədər ona dəstək vermək və ümidləndirmək məsələsində həmrəy idilər.

Moskva islam məmləkətlərində Ənvər Paşanın varlığına olan sevgini yetərincə görür və bundan öz məqsədləri naminə istifadə etməyə çalışırdı. Ancaq bu qayğının haracan ola biləcəyini də müəyyənləşdirməmiş deyildilər. Çünki vaxt gələcəkdi ki, Ənvər Paşanın möhürləndiyi "panislamçı, pantürkçü" yarlıqları onun özünə mane olacaqdı. Krım Milli Hərəkatının öncüllərindən olan Cəfər Seyid Əhməd bəy də bolşeviklərin Ənvər Paşayla bağlı bu planlarını açıq bir gözlə izləmiş, Moskvanın türk xalqlarını parçalamaq, ayrı salmaq yolu ilə "ayır-buyur" siyasəti yürütdüyünü ona anlatmışdı :

– Bir çox türk xalqlarının arasında anlaşmazlıqlar, daxili çəkişmələr var. Bolşeviklər bu durumdan faydalanıb, öz istəklərini qəbul etdirməyə qərarlıdırlar… İşlərin belə getdiyi bir məqamda bizlərin yeganə ümid yeri sizsiniz, paşam… Bolşeviklər Osmanlı türklərinin İslam aləmindəki siyasi qüdrətindən kifayət qədər faydalanmaq istəyirlər. Qərb ilə anlaşması ehtimalının baş tutmayacağını gec-tez anlayacaq bolşevik siyasəti bütün gücü ilə üzünü Şərqə çevirəcək, qüvvəsini göstərmək naminə böyük sarsıntılar törədəcək. Bu yolla Qərbə gücünü nümayiş etdirməyə çalışacaq. Onun bu əməllərinin istinad yeri, şübhəsiz ki, türklərdir. İlk növbədə də sizsiniz. İslam dünyasından yüksələcək alovlar,

ancaq türklərin qara gününü aydınlatmaq məqsədilə yüksələ bilər… Türkün qurtuluşu ideyası irəli sürülərək İslam dünyasının ayağa qaldırılacağı reallığını anlayan bolşeviklər, sizin hər şərtinizlə məqsədli şəkildə razılaşacaqlar. Məncə, bolşeviklər də, dünənki almanlar qədər, bizim üçün ancaq öz siyasi qüdrətlərinə söykənərək özümüzə güc toplaya bilməmiz üçün bir vasitə rolu oynaya bilər…

Xatırlayırdı… Cəfər Seyid Əhməd bəyin bu məlumatları ilə tanış olduğu vaxt – 1920-ci ildə bayram namazını Moskvadakı qərargahına ən yaxın olan iki camidən birində qılmışdı. Ətrafında baş verənlərdən çox məmnun idi. Bütün qələbəlik boyu yeganə istəyi imkan tapıb bu izdiham və sonsuz sayğı barədə canının bir parçası olan Naciyəsinə yazmaq fürsəti tapmaq idi. Yazmaq, yolunu gözləyən könül dostuna necə mübarək bir yolda irəlilədiyini anlatmaq istəyirdi:

"Xalqın mənə göstərdiyi məhəbbət həqiqətən də fövqəladə idi. Çox duyğulandım… Bu yerlərin qaydasına görə, camidə toplandıqdan sonra bayıra çıxılır. Sonra beş yüz metrlik bir məsafədən təkbir gətirilərək içəri girilir. Namazdan sonra, artıq məni evinə çay içməyə dəvət edənlərin sayı-hesabı yox idi. Nəhayət, evə gəldik. Ziyarətə əfqan-əcəm ellərindən olan bir çox insanlar da qatılmışdı. Görüşdük. Fəqət, ağlım-huşum, fikrim-zikrim yalnız sənin yanında olduğu üçün, doğrusu, çox dalğın və durğun idim. Günortadan sonra böyük bir ziyafət verildi. Ziyafətdə bütün Əfqanıstan, Buxara, Xivə, İran, xülasə, bütün Şərq-İslam milləti təmsilçiləri var idi. Bir çox sözlər söyləndi. Hər zaman ümid etdiyim bir şəkildə, İslamın inkişafa, yaxşılığa doğru getməyə qərarlı olduğunu, bu fikirdə olduğunu görüb, sevindim…Həqiqətən, məni səndən qoparıb buralara qədər sürükləyən Cənabi Haqqın çiyinlərimə yüklədiyi müqəddəs bir vəzifədir. Bu, cihad vəzifəsidir. Bu, elə vəzifədir ki, ona əməl edənlər cənnətə girməyə haqq qazanır. Allaha and olsun ki, sadəcə, cihadı arzulayıb dur-

muram, həqiqi mənada cihad edirəm. Hər nə qədər səndən ayrı qalsam da, sənin sevginlə çırpınan qəlbimi param-parça etsəm də, belə böyük bir imtahan verdiyimə görə xoşbəxtəm. Bu fani, dünyəvi şeylər içində sənin sevgindən başqa mənim iradəmi saran heç bir şey yoxdur.

Fəqət, şükürlər olsun ki, Allah əmrini yerinə yetirərkən sənə olan sevgimə belə boyun əymədim. Bundan sənin də ayrıca bir xoşbəxtlik duymağın gərəkdir. Sənin elə bir həyat yoldaşın var ki, sənə olan eşqini Allaha olan eşqinə fəda edəcək qədər qüvvətli bir imanı vardır. Hər nə qədər qadınlar üzərində qılıncla cihad etmək borc olunmursa da, onlar özlərini bu ilahi borcdan qurtara bilməzlər. Sənin cihad etməyin isə bütün dünyadan üz çevirib Allaha yönəlməyin, onu sevməyindir. Bir də mənim bu cihad əzmimin daha da qüvvətlənməsinə yardımçı olmağındır. Və bir daha söyləyirəm! Saqın, sən ərinin bir hərb meydanından sağ-salamat qurtulub gəlməsi üçün dua etməyəsən. Bu, bir növ özünü düşünmək olar ki, Allah da bundan razı qalmaz. Sən Allaha öncə ərinin etdiyi xidmətləri qəbul buyurması üçün dua et ki, müzəffər bir komandir olaraq dönsün və ya şəhidlik mərtəbəsinə layiq olsun!”

Sevimli Naciyəsinə yazdığı son məktubun sətirləriydi yaddaşındakı… Həmin məktubu indi az qala cümlə-cümlə xatırlayır, yenidən fikrində dolandırıb həyəcanlanırdı: “Sənin yazdığın o son məktubu aldım, onu daima qəlbimin başında daşıyacağam. Sənin o şirin üzünü indi görmək mümkün deyilsə də, nazik barmaqlarının bu məktubun kəlmə və sətirlərini necə düzdüyünü xəyal edirəm. Bunlar bir zamanlar mənim saçlarımı darayan, yenə o nazik barmaqlar deyilmi? Elə isə indi mən səndən çox uzaqlarda bir qan və atəş dəryasında qəhrəmancasına çarpışmaqdayam. Bu isə sənin incə qəlbini üzməkdədir. Sən məktubunda məndən şikayətlənərək qılınc və hərbi sevdiyim qədər heç bir şeyi sevmədiyimi yazırsan… Söylədiyin yalan deyil! Mən heç bir

şeyi deyil, sadəcə, səni sevirəm deyə bilmərəm. Desəm də yalan olar. Fəqət, sən bilirsən ki, mənim haqqımda yanlış təbliğat aparan bəzi bədbəxtlərin iddia etdikləri kimi, mən bu uzaq diyarlara sərvət axtarmaq, zəngin olmaq və ya hakimiyyətimi qurmaq üçün gəlmədim..."

Ənvər Paşa könlündəki şəhadət arzusunu və böyük ideallarına bəslədiyi sevgini daim həsrətini çəkdiyi sevimli xanımına çəkinmədən yaza biləcək qədər qətiyyətli cəngavər idi...

## OTUZ ÜÇÜNCÜ FƏSİL

*Bu millətin övladlarının fədakarlıqları,*
*qəhrəmanlıqları üçün meyar yoxdur.*
***Mustafa Kamal Atatürk***

Hələ 1919-cu ilin oktyabr ayının ilk günlərində Berlindən Moskvaya gizli şəkildə hərəkət etdiyi təyyarədə Bəhaəddin bəylə bərabər gözlənilmədən qəzaya düşmüşdü. Ənvər Paşa həmin səfərə Əli bəy adıyla çıxmışdı. Qəza əlverişsiz hava səbəbindən baş vermişdi. Yerli polis onların durumlarından şübhələnmiş, ciddi sorğu-suala başlamışdı

– Kimsiniz, haraya uçmaq istəyirdiniz?

– Rusiyadakı türk əsirlərini məmləkətlərinə aparmaq tapşırığını almış bir türk doktoruyam – demişdi Bəhaəddin Şakir. – Bu isə Əli bəydir. Tibb işçisidir. Mənimlə bərabər işləyir. Əslən bolqardı.

Ənvər Paşanın bolqarca çox yaxşı danışmasına baxmayaraq anadangəlmə “insan sərrafı” ingilisləri inandıra bilməmişdilər. Bu durumu göz önünə gətirən paşa sonralar taleyin xoş anlarına şükürlər edirmiş:

– İşin ciddiləşdiyi bir vaxtda içlərindən birinin çox diqqətlə mənə nəzər yetirdiyini hiss etdim. Mən də ehtiyatla ona baxdım.

Baxışlarımız bir-birinə dirənib qaldı. Əvvəllərdən tanıdığım alman zabiti Fiser idi… Hiss etdim ki, o da məni tanıyıb. Deyəsən nə baş verdiyini anlamışdı. Üzümə baxa-baxa susdu. Kiməsə heç nə demədi. Xeyli çək-çevirdən sonra bizi həbsxanaya apardılar. İngilislər şəklimizi çəkdirib, kimliyimizi araşdırmaq üçün İngiltərəyə göndərdilər. Alman zabiti arada imkan tapıb mənə toxtaqlıq verdi:

– Səbirli ol! Rəsmi nümayəndəliyimizə bu barədə məlumat vermişəm. Qaçırılmağınıza kömək edəcəklər…

Baxışlarımla təşəkkürümü bildirdim. Sonrakı günlərdə yaxından görüşmək mümkün olmadı. Ancaq bir neçə alman guya içkiliymiş kimi saxlandığımız hücrənin yaxınlığında sərxoşcasına mahnı oxumağa başladılar. Mahnının sözləri arasında bizə anladırdılar ki, işlər qaydasındadı, hazırlaşın, bir təyyarə hazırlanıb…

Sonra da o mahnı vasitəsilə nə etməli olduğumuzu, həbsdən hansı yolla qaçacağımızı anlatdılar bizə. Qərarlaşdırılan günü və saatı bildirdilər.

Deyilən vaxt həbsxananın həyətinə qəzaya uğrayıbmış təsiri oyadan bir alman təyyarəsi endi. Həmin an mən yaraqlı-yasaqlı bir ingilis əsgərinin önündə hava almaq üçün bağçada gəzişirdim. Vaxt itirmədən hücum edib nəzarətçi əsgərin silahını əlindən aldım. O özünü toparlayana qədər cəld tərpənib təyyarəyə atıldım. Bir az sonra təyyarədə yenidən Berlinə dönürdüm…

Sonrakı uçuş oktyabrın 31-də oldu. Ancaq bu dəfə də təyyarə havaya qalxandan on dəqiqə sonra bir evin üstünə düşdü. Yenə xilas olmağı bacardım. Bu əsl möcüzəydi. Həmin dəqiqələrdə düşünürdüm ki, hərbi məktəbdə mənimlə bərabər oxuyan dostlarım: “Səndə sirli bir əlamət var, seçilmişlərdənsən” söyləyərkən necə də haqlıymışlar… Deyilənlərin doğru olduğunu, Yaradanın xoş nəzərinin üstümdə olduğunu bir daha fevralın 23-də bazar ertəsi günü yenidən uçduğum təyyarənin parçalanıb yerə düşdüyü an sağ-salamat xilas olduğumu görüncə anladım… Ölüm

məndən qaçırdı. Anlayırdım ki, Allah məni daha mühüm işlər üçün salamat saxlamağı məsləhət bilirmiş…

Bu möcüzəli qurtuluşların, sıralanmış qəzaların ardınca daha biri gəlirdi. Fərqli ayın, günün fərqli bir saatında. 1920-ci ilin 22 mart günündə. Bu dəfə də tale onun üzünə gülmüşdü, növbəti qəzadan xilas olmuşdu. Bu yolçuluğa bir alman-musəvi kommunisti adı altında çıxmışdı. Mindiyi təyyarə yenə qəzaya uğramış və polis tərəfindən tutularaq Riqa həbsxanasına aparılmışdı. Təyyarəçini – qəzaya uğramış təyyarənin pilotunu dərin minnətdarlıq duyğusu ilə xatırlayırdı. Pilotu döymüş, işgəncə vermiş, təhdid etmişdilər, lakin Ənvəri ələ verməmiş, kim olduğunu bildirməmişdi. Arada paşanın özü ilə də eyni cür davranmaq istəmişdilər. Ancaq onun əsilzadə görkəmini seyr edib, əhəmiyyətli bir şəxsiyyət olduğunu hiss etdikləri üçün toxunmamış, fikirlərindən dönmüşdülər.

Məhbuslar arasında rəsm çəkib satmaqla bir az pul da toplayıbmış. Həbsxana müdiri naməlum dustağın şəkil çəkməsindən xəbər tutunca yanına çağırmışdı:

– Eşitmişəm gözəl rəsm çəkmək qabiliyyətin var…

– Gözəl olanı çəkməkdən xoşum gəlir.

– Təklif etsəm mənim də rəsmimi çəkərsənmi?

– Əlbəttə! Üstəlik, sizin üçün pulsuz çəkərəm. Qarşılıq istəmərəm. Ancaq burası çox əlverişsizdi. Bir rahat yer ola bilsəydi…

– Bizim evə gedərik. Rahatca işləyərsən.

Razılaşmışdılar. O vaxt Ənvər Paşa bu imkanı xilas olmaq üçün Allahın ona inayət etdiyi bir lütf bilmişdi. Həbsxana müdirinin xidmətçisi olan alman qadınla alman dilində ünsiyyət qurmuş, olanları anlatmış, xilas olmasına kömək istəmişdi:

– Riqada məhbus həyatı yaşayıram. Adım Malessadı. Xahiş edirəm, imkanınız varsa, sizin üçün çətin deyilsə, Malessa adlı bir alman vətəndaşının burada həbsxanada olduğunu Vangenhenmə yazın.

– Belə danışaq… Siz istədiyinizi ətraflı yazın. Ünvanı göstərin mən məktubunuzun göndərilməsi üçün əlimdən gələni edəcəm. Görürəm ki, çox mədəni, artistokrat bir insansınız. Gecikmədən yazın. Arxayın olun ki, istəyinizi yerinə yetirərəm.

Dedi və yerinə yetirdi də!

Ənvər bəyin Malessa adıyla yazdığı məktubu ünvanına çatdırmağa yardım etdi. Almanlar isə bu ad altında kimin səfərə çıxdığını yaxşı bilirdilər. Teleqraf açıb, Litvadan dərhal təxliyə edilməsini istədilər. Alman vətəndaşı olaraq, iki dövlət arasındakı razılaşmaya əsasən Malessa, əslində Ənvər Paşa həbsdən azad edilib, alman tərəfə təhvil verildi.

Əvvəl Berlinə, oradan da Moskvaya uzun bir yolçuluq… Bütün bu çətinliklərə yalnız azad, müstəqil Türk-İslam birliyinin yaradılması naminə qatlaşırdı…

Ənvəri tanıyan hər kəsin ona hörməti və rəğbəti yaranırdı. Bu, ona sayğı göstərən yeganə alman qadını deyildi. Bir də Hanna vardı – Hanna Blok… Hannanı hələ Naciyəyə aşiq olmamışdan əvvəl tanıyırdı. Ənvər Paşa çox gənc ikən bir ara tənhalığın verdiyi hədsiz yalqızlıq hissi ilə bu qadınla səmimi bir münasibət qurmuşdu. Hanna bezmədən, usanmadan, hətta bəzən Ənvər heç cavab verməsə belə dayanmadan ona eşq məktubları yazırdı… Sevgisini söyləməkdən yorulmurdu, onun üçün hər fədakarlığa hazır idi. Gənc Ənvər bəzən bu məktublardakı sonsuz qadın sevgisindən çəkinirdi. Çünki bilirdi ki, belə dəlicəsinə sevgilər bəzən sadəcə gəmiləri deyil, bütövlükdə limanları belə yandırıb külə döndərə bilərdi… Bəzən Hannanın məktublarına cavab yazmağa heç vaxtı olmurdu, bəzən də bilərək cavab yazmırdı, yazmağa həvəsi olmurdu. Nə vaxtsa alman qadın tənhalığında könlünə məlhəm olmuşdu, bu sədaqətinə və eşqinə görə ona çox minnətdar idi, ancaq onu həyatının sevgisi hesab etmirdi. Bir türk paşasının qəlbinin sultanı da ancaq bir türk qadını ola bilərdi. Və bir neçə il sonra həyatının qadını olan, "bircəciyim, dəyərli

almazım" dediyi Naciyəyə dəli kimi sevdalananda əsl sevginin nə olduğunu dərindən dərk edəcəkdi. Hanna isə dayanmadan, hətta paşa şəhid olduqdan sonra belə ona sevgi məktubları yazmağa davam edərkən Ənvərin qəlbi daim Naciyə ilə döyünürdü, ondan minlərcə kilometr uzaqlarda belə öz alagöz sultanının xəyalı ilə nəfəs alırdı. Bu sevgi onu ən ağır şəraitdə belə ayaqda tutan əsas səbəblərdən biri idi. Naciyədən gələn məktublar onun ümid yeri, pənahı, mənəvi güc qaynağı idi. Bəzən uzun müddət yazdığı məktublara cavab gəlməyəndə, bəzən Naciyənin inciyib cavab yazmadığı dönəmlərdə qəfildən Hanna yadına düşərdi. Ümidsizcəsinə aşiq olan sadiq Hannanın əzablarını onda dərindən anlayır, ona yazığı gəlirdi. Ancaq neyləmək olar, qəlbə hökm etmək mümkünsüzdür. Hələ üstəlik bu qəlb başqa bir qadına aiddirsə…

Ürəyi Naciyə Sultan üçün çırpınırdı. O zamanlar gənc Ənvər yaman əndişə içindəydi: Naciyə Sultanla bir-birini anlaya, isinişə biləcəkdilərmi? Saray həyatının naz-neməti içində böyümüş Naciyə Sultan gecəsi-gündüzü hərbi xidmətdə, nəticəsi bəlli olmayan savaşlarda, siyasi çarpışmalarda ömrü keçən bir şəxslə yola gedə biləcəkdimi? Əsgər ocağını özünün evi-eşiyi, həyatının amalı bilirdi. Bəs, uzlaşdıra biləcəkdimi bir-birindən çox uzaq olan bu iki ocağın istəklərini? Evlənəcəyi qız bircə dəfə olsun belə İstanbuldan kənara çıxmamışdı. Dünyanın hər cür isti-soyuğundan xəbərsiz idi. Dözə biləcəkdimi Ənvərin sirli, müəmmalı həyatının gedişatına? Onun sonsuz xəyalpərvərliyi, macərəpərəstliyi bu saray çiçəyinin istehzası, gülüş hədəfi olmayacaqdı ki? Hər gün beynində bu fikirlər dolaşmaqdaydı. Yatanda da, duranda da, gündəlik işləri ilə məşğul olanda da, dostları ilə deyib-güləndə də ancaq bu barədə düşünürdü.

Bütün ömrü iki əsas sütunun üzərində bərqərar olmuşdu: Ailəsinə, doğmalarına olan sevgisinin və məmləkətə, Allaha, türkçülüyə bəslədiyi məhəbbətin üzərində. Və çox vaxt ikinci

sıralama hər şeyin önünə keçirdi. Məqsədə yetmək naminə bir araya gəlməyin, müttəfiqlərlə əlaqələrin genişləndirilməsinin vacibliyini hər fürsət olduqca Mustafa Kamal Paşaya çatdırırdı. Avropanın durumunun çox qarışıq olduğunu anladırdı. Almaniyada sosialistlərin gücdən düşdüyünü, hökumətin millətçilərlə demokratların əlinə keçdiyini, bütün Avropada ingilislərin əleyhdarlarının olmasını, fransızların da bu gedişdən məmnun olmadıqlarını, ancaq qorxularından səslərini çıxara bilmədiklərini, Avropanın bu qarışıq durumunun məmləkətləri üçün bir fürsət olduğunu diqqətə çatdırırdı. Təbii ki, cəhdləri cavabsız da qalmırdı. İlk fürsətdə məsləhətini verir, ayıq-sayıq olmasını tapşırırdı: "Türküstan, Əfqanıstan və Əcəmistan kimi müsəlman ölkələrində təşkilati iş aparan zaman çalışın ki, rusları şübhələndirməyin. Çalışın ki, panislamist bir fikrin ortaya çıxmasına ipucu verməyin…"

Bu məsələdə hər iki böyük türk paşasının fikri bir idi. Hər ikisi dünyanın nizamını türk varlığının üstün mövqeyi üzərində qurmağı hədəfləmişdi. Əsas istəkləri məmləkətin müstəqillik təməlini möhkəmləndirmək, dövləti qoruyub gücləndirmək idi…

## OTUZ DÖRDÜNCÜ FƏSİL

***Makedoniyadan Pamir dağlarının ətəklərinə qədər doğulan minlərlə uşağa Ənvər Paşanın xatirəsinə Ənvər adı qoyulurdu... İdealları uğrunda can verməyi bilənlər doğulan uşaqların isimlərində əbədi yaşayarlar...***

…Dövrün reallığını təşkil edən hadisələri bütün incəliklərinə qədər diqqətlə izləyən Ənvər Paşa 1920-ci ilin avqust ayının 25-də Moskvadan yaxın silahdaşı Camal Paşaya yazırdı: "Burada bütün İslam təşkilatları nümayəndələri ilə əlaqə saxladım. İstər kommunist olsunlar, istər olmasınlar, İslam aləmi naminə ortaya qoyulacaq qurtuluş təşəbbüsünə bütün qəlbləri ilə qatılırlar. Kazan müftisindən tutmuş Sultan Qaliyevə kimi… Beləliklə, əhvali-ruhiyyənin bu cür olduğu bir zamanda İslam dünyasına daha çox fayda verəcək işlərin həyata keçiriləcəyi fikirindəyəm".

Məmləkətinin rəhbərləri isə türk-ərəb birliyinin yaradılması barədə fərqli fikirdəydilər: "İndiki halda hər kəs öz millətinin qurtuluşu üçün təkbaşına mübarizəsini aparsın. Qurtuluşdan sonra bir konfederasiya qurmaq barəsində düşünə bilərik…" Bu düşüncənin tam şəkildə dəstəkləyən Mustafa Kamal Paşa bir daha Ənvər Paşaya yazdığı məktubunda dönə-dönə israr edirdi:

"Aman, panislamizm və pantürkizm görüntüsü vermədən çalışmalarını davam etdir!"

Üstündən ikicə il keçdikdən sonra, Buxara yaxınlığından qazax, türkmən, Əfqanıstan bölgələri istiqamətinə yolçuluğa çıxdığı vaxt Ənvər Paşa qəlbinin dərinliklərində Mustafa Kamalın həmin o israrla çatdırdığı müdrik məsləhətlərinin kökündə dayanan əndişənin səbəbini anlamağa başlamışdı. Bolşevik təfəkkürü günlər keçdikcə panislamizm-pantürkizm təhdidini israrlı bir silaha çevirmişdi.

Xalqını sevirsən – deməli, pantürkistsən!

Millətinin azadlığı naminə çalışırsan – deməli, panislamistsən!

Bu yolda kimlərləsə birləşmisənsə – deməli, vətən xainisən! Asisən! Marksizmin-Leninizmin düşmənisən! İslamçısan!

...Mustafa Kamal Paşa haqlıymış… Qırmızı bolşeviklərin türklərin və İslam aləminin hər cür azadlıq istəyinin üzərinə pantürküst, panislamist damğasıyla getməsi əvvəlcədən hazırlanmış, vaxtı yetişəndə hərəkətə gətirəcəkləri bir plan, təzyiq üsulu imiş.

Dörd bir yandan hücumlar, təhdidlər! Amma sağlam bir niyyətlə yolçuluğuna çıxdığı Böyük Turan birliyi, Türk-İslam qardaşlığı naminə bütün bunlara dözməliydi.

Və siyasi meydana bir Ənvər Paşa çıxmalıydı ki, Anadolu ellərindən keçib, Qafqaz, Orta Asiya, Əfqanıstan, Hindistan, Şimali Afrika müsəlmanlarının bir araya gəlib müstəqil, azad həyat uğrunda şərə qarşı böyük mübarizəsinin başında dayansın...

...Ənvər Paşa adətən az yatardı. Saatlarla otağının işığı sönməzdi; ya nəsə oxuyar, ya məktub yazar, ya da xəritələri qarşısına töküb saatlarla onların üzərində plan qurar, düşünərdi. Bəzən sübh namazına qədər eləcə oturar, düşünər, düşünərdi... Yuxunun vacib olduğunu qayğı ilə ona xatırladan yavərinə: "Xoşbəxtlərin yuxusu gəlməz. Boş ver..." deyə zarafata salardı. Öz əqidə və məramına yorulmadan xidmət göstərdiyinə görə həqiqətən özünü xoşbəxt sanırdı.

Bu gün isə nədənsə hava qaralandan bəri yaman yuxusu gəlirdi. Hər kəs qərargahlara və çadırlarına çəkiləndən sonra namazını qılıb elə pallı-paltarlı sərt, narahat yatağına uzandı. Yorğanın bir ucunu üstünə çəkib dərin yuxuya getdi...

Yuxuda İstanbuldaydımı, Berlindəydimi, haradaydısa dəqiq bilmədi, ancaq ailəsi – Naciyə də, qız balaları da yanındaydı. Xanımı ilə əl-ələ tutub oturmuşdu, uşaqlar yanlarında atılıb-düşür, oynayır, hərdənbir yaxına gəlib atalarına sarılırdılar. Naciyənin ala gözləri kədərli idi, tutqun baxışları hərdən uzaqlara zillənir, hərdən də incik-incik Ənvərinə nəzər salırdı.

– Naciyəm, Sultanım, niyə üzümə baxmırsan? Heç bilirsən sənin üçün necə darıxmışam? Sənin eşqin olmasa bəlkə də yaşaya bilməzdim.

– Ənvər, iki gözüm, mən də sənin üçün darıxıram, aylarla səni görə bilmirəm, olmaz ki, artıq hərbi buraxıb o Bəlcivandan yanımıza qayıdasan? Uşaqlarımızı bərabər böyütsək, bir az da özümüz üçün, ailəmiz üçün yaşasaq...

– Heç elə şey olarmı, Ruhum? Hərbçi ömrünün sonuna kimi hərbçidir. Hərbçi sağ qalarsa qəhrəman qazi, ölərsə şəhid olar. İstəyirəm ki, oğlum Əli də böyüyəndə mənim yolumu davam eləsin. Səndən bircə istəyim var, mənim üçün həmişə dua et, Naciyəm!

Mahpeykər gəlib boynunu qucaqladı, Türkan qucağına çıxmağa çalışdı, bacarmadı, kiçik qollarını atasına sarı qaldırıb "məni qucağına al" deyib nazlandı. O da sevimli qızını bağrına basıb qoxusunu ciyərinə çəkdi. Otağın qapısı açıldı, dayə qucağında körpəcə Əli ilə içəri daxil oldu, baxışlarını yerə dikib paşaya yaxınlaşdı, oğlunu ona uzatdı. Ənvər Paşa ani şaşqınlıqla "aslancığazım" pıçıldayıb balaca Əlini qucağına aldı. Diqqətlə uşağın üzünə baxıb doğma cizgilərdə özünü aradı. Uşaq ağıllı gözlərini geniş-geniş açıb atasına baxırdı. Totuq barmaqlarıyla atasının bığlarından yapışıb dartdı, şən-şən qığıldadı. Ənvər Paşa güldü, Naciyəyə tərəf

çevrilib xoşbəxtlik və minnətdarlıq dolu nəzərlərlə onu süzdü. Bu anlar həyatının ən bəxtəvər anları idi. Bu dəqiqələrin bitməməsini, lap sonsuzluğa qədər uzanmasını istərdi...

Gözünü açanda bir müddət yuxunun təsirindən harada olduğunu kəsdirə bilmədi. Yenidən gözünü yumdu ki, ailəsindən ayrılmasın, amma gec idi. Oyanmışdı, bütün bunların bir yuxu olduğunu dərk eləmişdi. Türkanının, Əlisinin körpə qoxusu hələ də burnunda idi. Qulağında hələ də Mahpeykərin şən gülüşü cingildəyirdi. Elə yarıoyaq vəziyyətdə düşündü ki, hələ də dünyaya gələn oğlunun üzünü görə bilməyib, ancaq yuxuda Əlinin simasını elə aydın görürdü ki... Eynən ona göndərilən fotodakı kimi sevimli, yumrusifət körpə idi. Gözü doldu, göz yaşını silmək istədi, qəfildən hönkürdü, qalxıb yatağının içində oturdu. Bu illər ərzində ilk dəfə ailəsindən ayrı yaşamağın, intizarın, həsrətin nə qədər ağır olduğunu dərindən dərk elədi sanki. Dan yeri sökülürdü. Qalxıb dəstəmaz aldı, sübh namazının vaxtı idi.

...Bir azdan əsgərlər üçün tut qurusu və tut halvası gətirəcəkdilər, ərzaqın ədalətlə bölüşdürülməsinə nəzarət etməli, əsgərlərə xərclik də paylamalı idi. Bu gün ertədən Dövlətmənd bəylə görüşüb bəzi məsələləri müzakirə etməliydi. Yenicə işıqlaşmağa başlayırdı, səhərin xoş sərinliyində açıq havadaca oturub Dövlətmənd bəyi gözləməyə başladı.

Qərargah qurduqları Bəlcivan, Abıdərya kəndi səfalı məkanda yerləşirdi. Şərqi Buxaranın ən gözəl yerlərindən biri olan Abıdərya üç tərəfdən Aladağ, Qaradağ, Qaratəkin dağları ilə əhatə olunmuşdu. Vadilər boyu üzüm bağları uzanıb gedirdi... Allah bu yerlərdən öz nemətlərini əsirgəməmişdi...

Dövlətmənd bəy Bəlcivan qalasında qalırdı. Səhər ertədən qərargaha gəlib Ənvər Paşa ilə görüşmək istəməsinin səbəbi onun canının qorunması ilə bağlı narahatlığı idi.

Ənvər Paşa sübhün alatoran işığında Dövlətmənd bəyi yerişindən tanıdı. Qalxıb onu qucaqladı. Dövlətmənd bəy "Yaxşısınız,

maşallah, paşam, yenə erkəndən oyanmısınız" deyə silahdaşını ürəkdən salamladı.

Ənvər Paşa gülərüzlə dostunun salamını aldı, ona uğurlu sabahlar arzuladı. Dövlətmənd bəy ehtiyatla sözə başladı:

– Paşam, əldə etdiyimiz məlumatlara görə, bolşevik əsgərləri Abıdəryaya hücum edəcəklər. Açığı, sizin həyatınıza görə əndişəliyəm.

Ənvər Paşa gülümsəyib sakitcə cavab verdi:

– Elə buna görə narahat olmusan? Mən də dedim görəsən hansı vacib xəbər var?

– Paşam, canım sizə qurban, bu bəyəm balaca məsələdi? Hamımız sizə görə nigaranıq. Bilirsiniz ki, sovet əsgərləri də, xüsusilə də orada xidmət edən murdar ermənilər hər vəchlə sizin həyatınıza qəsd etmək istəyirlər. Hər şey bir kənara, ermənilərin xainliyini, satqınlığını, fürsət düşən kimi hücum etmələrini siz ki, yaxşı bilirsiniz.

– Dövlətmənd bəy, əcəl Allahın qədəridir, istəsək də alnımıza yazılan taledən qaça bilmərik. Ona görə də narahat olsaq belə, bunun bizə bir faydası olmaz. Əgər əcəlim çatıbsa, heç kim buna mane ola bilməz, əgər ölüm anım uzaqdadırsa, hansısa mənfur erməni mənə neyləyə bilər? Hər şey böyük Allahın əlindədir. Onun təqdiri nədirsə, ona razıyam. Nə olacaqsa vaxtında olur, onun izni olmadan bir yarpaq belə qımıldaya bilməz, bunu sən də bilirsən...

– Paşam, haqlısınız, ancaq yenə də biz ehtiyat tədbirlərimizi görək. Dəstabad indilikdə daha təhlükəsiz bir yerdir. Xahiş edirəm, icazə verin, qərargahınızı lap tez zamanda oraya köçürək. İsrar edirəm, lütfən, xahişimi yerə salmayın. Mənim bildiklərimi bilsəniz...

Ənvər Paşa dostunun necə narahat olduğunu görüb razılaşdı:

– Yaxşı, Dövlətmənd bəy, Qurban bayramından sonra qərargahı Dəstabada köçürərsiniz...

Dövlətmənd bəy rahatlaşıb çıxıb getdikdən sonra Ənvər Paşa qəribə bir hüznlə elə dayandığı yerdəcə saralmış, seyrək otlu çəmənliyin üzərinə oturdu. Torpağın xoş qoxusu, sübhün rayihəsi könlünə qəribə bir rahatlıq gətirdi. Ənvər Paşa onu canından da çox sevən Dövlətmənd bəyə təxminən bir həftə əvvəl yuxuda necə, hansı şəraitdə şəhid olduğunu gördüyünü danışmadı. Bildi ki, danışsa, dostu nigaranlıqdan özünə yer tapmayacaq, narahatlıq onu üzüb bitirəcək.

Ənvər Paşa özü isə artıq hər şeyə hazır idi. Bilirdi ki, taledən qaçış yoxdu, Allah necə məsləhət bilibsə, hər şey elə də olacaq...

Ənvər Paşa hələ 1921-ci ilin sentyabrında Hacı Sami və Bartınlı Mühiddin bəylə Batum – Tiflis – Bakı – Krasnovodsk – Mərv – Cərcov yolu ilə Buxaraya gələn gündən məramını açıqlamışdı. Ənvər Paşa Türküstan ellərində fəaliyyətə başlayanda Buxarada gələcəyin alimi, indiysə özünün yerli Turançı silahdaşı Zəki Vəlidi Toğana mübarizəsinin səbəbini belə anlatmışdı: "Mərhum Tələt Paşa kimi Berlin küçələrində bir erməni gülləsindən ölmək istəmirəm. Canımın Türk millətinin xilası yolunda fəda olunması gərəkdir. Qazi olmasaq da, şəhidik".

Buna görə də digər "İttihad və Tərəqqi"nin öndə gedənləri sayaq Avropada küçə ortasında arxadan vurulmaq yerinə savaş meydanında düşmənlə üzbəüz, mərdcəsinə vuruşaraq ölməyi üstün bilmişdi. Ölsə də boş yerə ölməyəcəkdi; onun başçılıq etdiyi Basmaçı inqilabları dalğası Qafqazdan başlayaraq Orta Asiya bozqırlarına qədər yayılacaq və Sovetləri bir xeyli zərərə uğradacaqdı.

Ənvər Paşa Zəki Vəlidi Toğana "erməni gülləsi"ndən danışarkən bunu elə-belə, sözgəlişi demirdi. Dostu Tələt Paşa xain erməni gülləsinə tuş gəlməzdən əvvəl də Ənvər Paşa ermənilərin satqınlığından, xəyanətkarlığından yetərincə çəkmişdi...

...1915-ci ilin may ayının 27-də "Təhcir qanunu" rəsmən qüvvəyə mindikdən sonra Tələt Paşanın bu qanunun tətbiqinə

başlaması ilə təkcə özü deyil, Ənvər Paşa da erməni terrorçularının "qara dəftər"inə düşmüşdü... Çünki Tələt Paşa erməni dilini mükəmməl bilən türk gizli kəşfiyyatının üzvlərindən xeylisini ermənilərin arasına məhz Ənvər Paşanın birbaşa göstərişiylə yollamışdı. Həmin sınanmış adamlar yalnız və yalnız Ənvər Paşayla Tələt Paşaya hesabat verməli idilər.

...İstanbulun onun və Anadolunun müqəddəratı həll olunan guşələrinin birində, hərbi nazirlikdə üç türk paşası baş-başa vermişdi: Ənvər Paşa, Tələt Paşa, Camal Paşa... Onlar həmin an Türkiyənin üç dağ zirvəsinə çevrilib Anadolunu gözlənilən bəlalardan xilas etməyə çalışırdılar. Erməni quldurlarının xislətinə bələd olan həmin paşalar bu təhlükənin qarşısını almağa, düşməni dəf etməyə çalışırdılar.

Hər üç paşanın yaddaşında erməni şovinistləri ilə bağlı xoşagəlməz "xatirələr" yer almışdı. Hər üçünün erməni təhlükəsinə qarşı ortaq fikri vardı: Erməni millətçiliyi məsələsini əsaslı şəkildə kökündən həll etmək lazımdı...

Ənvər Paşa erməni şovinizminin yaratdığı təhlükənin ciddiliyini hiss edirdi. Həmin təhlükə yanğını Şərqi Anadoludan başlanmışdı. Çanaqqalada düşmən güclərlə vuruşan türklərə arxadan namərd erməni xəncərləri saplanırdı...

...Ənvər Paşa sonralar da Almaniyada arxasınca qara kabus kimi gəzən erməni təhlükəsindən xəbərdar oldu. Hər gün müştərisi olduğu türk restoranının xidmətkarı bir gün hesabla bərabər Ənvər Paşanın qarşısına qiyməti ömrünə bərabər başqa bir haqq-hesab xəbərdarlığı da qoymuşdu. Hesabın altındakı vərəqdə yazılmışdı: "Paşam, buralardan təcili yolçu olub, izinizi itirməlisiniz. Arxanızca quyruqlarını basdığınız qara gürzələr düşüb. Kimlərin olduğunu özünüz anlayırsınız. Bir zamanlar xeyirxahlıq etdiyiniz xeyirxahınız". İlk dəfə onda bir payız günü, burnu həmin yerlərin səhər qırovları ilə deyil, qürbət acısıyla göynədiyi zamanlar arxasınca sürünən "ilan" təhlükəsindən

xəbərdar olmuşdu. El arasında deyirlər ki, yeddi qardaş qızıl ilanların birini yanlışlıqla öldürəndə qətl edənin arxasınca altı qızıl ilan qisas almaq üçün sürünür... Ənvər Paşa onda həyatını qurtaran o kiçik vərəqi oxuyanda həmin qızıl ilanları düşündü. Deməк, onun və məsləkdaşlarının arxasınca erməni terrorçuları zəhərli qızıl ilanlar kimi sürünürmüş... Başqa yol qalmamışdı; daim ehtiyatlarını dəyənəyə döndərib hər yerdə, hər zaman onlara hücum etmək üçün fürsət gəzən həmin "ilanlar"ın başını əzməyə hazır olmalı idilər...

## OTUZ BEŞİNCİ FƏSİL

*Amal uğrunda ölmək əbədi yaşamaqdır.*
*Şeyx Məhəmməd Xiyabani*

Atlı dəstə tacik torpaqları boyunca keçib Pamir dağları silsiləsinə doğru irəliləməkdə idi. Uzaqdan başı dumanlı, ala-tala qar örtüyünə bürünmüş, daha çox açıq-şabalıdı çöhrəli dağ silsiləsi görünməkdəydi. Ətrafı qəribə bir bozluq sarmış kimiydi. Soyuq və quru iqlimin bu yerləri davamlı şəkildə təhdid etdiyi və öz əsarəti altında saxladığı göz önündəydi. Dağ silsiləsinin ətəkləri boyunca şoran çöllüklər uzanıb getməkdəydi. Şoranlığın çəmən zolaqları və küləklərin sovub-sovurduğu qum təpəcikləri bir-birini əvəzləməkdəydi. Bu tipik dağ səhrasının üfüq nöqtəsindən xırdaca zirvələr boy göstərməkdə, fikri-xəyalı min yerə çəkməkdəydi… Bura tarixlərə zinət verən, Şərq şeiriyyətinin uğurlu, ürəyə toxunan təşbehi kimi işlənən Bədəxşan çölləri idi. Adam inana bilmirdi ki, bu saat ayaqları altındakı ürəksıxan boz düzlər öz bağrında dünyanın ən qiymətli ləlini-cəvahiratını saxlayıb gizləməkdədir.

Turan İhtilal Ordusu Türküstan Cəbhəsi Komandanı və Buxara İslam Ləşkərinin Əmiri Ənvər Paşa ucsuz-bucaqsız çöllüklərə, xeyli uzaqlardan diqqət çəkən vadilərə nəzər yetirdikcə çox is-

təyirdi ki, bu dəqiqələrdə az qala hər addımbaşı önünə çıxan mavi dəniz mənzərələri ilə süslənmiş doğma Anadolu torpaqlarında olaydı. Trabzon-Batum arası sıx meşələrlə örtülü, Qara dənizi ağuşuna alan dağların havasını alaydı. O yaşıl ormanlar, vadilər boyunca irəlilədikcə Qara dənizin füsunkar bir şəkildə uzanıb gedən sahillərini seyr edəydi. Ləpələrin balıqçı qayıqlarını yüyrük kimi yırğaladığı, atıb-tutduğu mənzərələrə baxaydı...

...Bir-iki ay öncə ətrafına cəm olmuş minlərlə türkməni göz önünə gətirdi. Bu qələbəlik bolşeviklərin yuxusunu qaçırmaqdaydı. Moskva təşviş içindəydi. Orta Asiyanın oyanışından qorxuya düşmüşdülər… Deyəsən, otuz-otuz beş il əvvəl bu yerləri – türkmənlərin ana vətənini qanla suvararaq zəbt etdiklərini, torpağın əsl sahiblərinə kölə kimi davrandıqlarını unutmuşdular. İndi isə onların "sizə azadlıq gətiririk" tipli boş təbliğatına kim inanacaqdı? Axı bu qanlı işğalın canlı şahidləri hələ çox idi.

Odur ki, qələbəliyin qarşısını almaq üçün təşvişə düşən bolşevik başbilənləri yubanmadan hərəkətə keçmişdilər. Dişlərini qıcadaraq bütün qüvvələrini səfərliyə almışdılar. Lakin bunlar az əvvəl baş versə də, o yüksəliş hərəkatı artıq geridə qalmışdı. Paşa acı-acı düşündü: "İndi hanı o qələbəlik, o coşqun seli, göy gurultusunu andıran o qeyzə gəlmiş xalq? Nədən sıraları az bir müddət ərzində belə seyrəlmiş, bir ovuc qalmışdılar? Cəmi üç-dörd ay bundan əvvəl "Xilaskarımız olaraq gəlişinizi gözləyirik" – deyərək ümid verən türkmən başbilənlərinin sayı nədən belə "əridi"? Hara yoxa çıxmışdılar? Yoxsa başının üstünü xəyanət buludları almaqdaydımı? Yoxsa o yenə böyük xəyallar qurarkən kimlərsə arxa planda o ideyaları qayçılayıb məhv etməklə məşğul idi?"

Suallar ağır, cavabları da yox... Ancaq buracan gör, hansı çətin yolları keçib gəlmişdi? Nələri göz altına almışdı, nələrdən vaz keçmişdi… Sonsuz düşüncələrinin əsas mərkəz nöqtəsi olan Turan birliyi ideyası onu sardıqca indi keçib getdiyi bu yerlərin

xəyalına daldığı çox anlar olmuşdu. Osmanlı İmperatorluğunun hərbi naziri məqamına yüksəldiyi ilk günlərdə belə, müxtəlif vəzifələr tapşırdığı hər bir zabiti, Turan dünyasına xidmət edəcək sadiq əsgər qismində görürdü. Ehtiyat zabitlərinin böyük Turanın şəninə sonsuz ehtiramla oxuduğu marşı zövqlə dinləyirdi:

*Yol göründü, qalxın,*
*Gedirik iştə, Turan bizi gözləyir.*
*Bir tərəfdən Qahirə,*
*Bir tərəfdən Batum, Qars...*
*Bir tərəfdən hind, əfqan,*
*Bir tərəfdən Farsistan bizi gözləyir,*
*Şanlı günlərdəyiz…*
*Dağ, dərə, təpə aşın,*
*Durmayın, meydan bizi gözləyir…*

Balkan savaşı dönəmində hərbi məktəblərdə təlim keçən on səkkiz – iyirmi beş yaşlı gənclərin hələ o vaxtdan açıq-gizli söhbətlərində Turan birliyi mövzusu sıx-sıx keçməkdəydi. 1913-cü ilin sonlarından hərbi nazir məqamına yüksələnə qədər də Ənvər Paşanın hafizəsində turançı düşüncələri ən mühüm hədəf kimi möhkəmlənmişdi. Mübarizəsi bu istiqamətdə idi, fikirləri vaxtaşırı bu mövzuya səfərbər olurdu. Türk aydınları onun turançı ruhunun pərəstişkarına çevrilmişdilər. Türklərin mürşidi Ziya Gökalp Ənvər haqqında, onun "cihad" adlandırdığı mübarizəsi haqqında şeir də yazmışdı:

*Biz hamımız şübhələrin içində*
*İkən, vardı səndə böyük itminan.*
*Ərşdən sənə ya ilahi bir müjdə*
*Verilmişdi, yaxud qüdsi bir fərman.*
*Bilirdin nədir Haqqın muradı,*
*O imanla açdın böyük cihadı…*

O şeirdə Gökalp türklərin tərəddüd və şübhələr içində olduğu bir vaxtda Ənvər Paşanın varlığını saran inam duyğusunu bədii təfəkkürlə vəsf edirdi. Paşaya ilahidən gələn bir fərman verildiyini yazırdı. Cihadına çıxdığı yolun uzaqdan başladığını söyləyirdi. Eyni zamanda inanclı, imanlı olduğunu bəyan edirdi ki, bütün böyük fatehlər Haqq aləminin seçilmişləridir. Cənabi Haqq belələrini müjdələyir və xalq da cani-könüldən dəstəkləyərək onların ardınca gedir.

Türküstan torpaqlarının ucsuz-bucaqsız çöllərilə irəliləyib Tacikistan sərhədlərinə doğru sonu bilinməyən bir yolçuluq başladığı məqamda Gökalpın o unudulmaz şeiri Paşanın zehnində sıx-sıx dolaşmaqdaydı. Sanki hər misra Ənvərə təskinlik verməkdəydi ki, sən bu yola hədər yerə çıxmamısan. Bu, sənin missiyandır, taleyindir, əqidə yolundasan. Türkçülüyün fikir atası Gökalp da böyük Turanı bütün türklərin vətəni kimi görürdü. Hər kəsin dilinin əzbərinə çevrilmiş məşhur misraları isə təkcə Ənvər paşaların deyil, türkçülük yolunda addımlayan hər bir turançının virdinə çevrilmişdi:

*Nəbzlərimdə vuran duyğular ki, tarixin*
*Birər dərin səsidir, mən səhifələrdə deyil,*
*Güzidə, şanlı, nəcib irqimin uzaq və yaxın*
*Bütün zəfərlərini qəlbimin dərinində*
*Nəbzlərimdə oxur, anlar, eylərəm təbcil…*

*Nəbzlərimdə əvət, çünki elm üçün mübhəm,*
*Qalan Oğuz Xanı qəlbim tanır tamamilə.*
*Damarlarımda yaşar şanü ehtişamıyla,*
*Oğuz Xan, iştə budur, könlümü ilhamlandıran:*
*Vətən nə Türkiyədir türklərə, nə Türküstan,*
*Vətən, böyük və əbədi bir ölkədir: Turan!*

Bunları düşünüb xəyal etdikcə ruhu təzələnir, əhvalı düzəlirdi. Lakin onun Moskvadakı fəaliyyətinə bolşeviklərin vurduğu panislamist, pantürkist damğası və bunun ağır, təhlükəli nəticəsinə dair Mustafa Kamal Paşanın xəbərdarlığı yadına düşən kimi sanki bu şirin yuxudan diksinib ayılırdı...

# OTUZ ALTINCI FƏSİL

*"Bu gecə altında yatdığım qaraağaca cib bıçağımla adını qazıdım. Sənin Ənvərin..."*

***Ənvər Paşanın Naciyə Sultana məktubundan***

...Sevimli Naciyəsi ilə keçən anlarını yenidən gözünün önünə gətirdi. Həmişə olduğu kimi yenə ürəyindən sevgilisinin yanında olmaq keçirdi. Naciyə Sultana yazdığı ən duyğulu məktubların əvvəli sevgi iltimasları ilə başlayar, sonunun necə davam etməsini heç özü də xatırlamırdı. Çünki həmin sətirləri yaza-yaza daha çox göz yaşlarını gizlətməyə, özünü toxtaq tutmağa çalışırdı. Daha çox ötənləri xatırlayırdı. Zəhmi düşmən ödünü partladan hərb sərkərdəsi olmaqdan daha çox, dönüb bir özgəsi olurdu; qovuşmayınca Məcnun misallı birinə çevrilirdi…

Harada olursa-olsun, xəyallarının sultanı olan Naciyəsinə ən atəşin duyğularını ifadə edən məktublarını ünvanlayırdı. Necə çətin şəraitə düşməsindən asılı olmayaraq könlünün sultanına, yalnız ona ən pünhan yaşantılarını yazır, anladırdı. Ölümün, hər cür atəşin, qasırğanın gözünün içinə belə dik baxa-baxa, Naciyəyə məktub yazanda qəlbi nanə yarpağı kimi titrək, xəfif olurdu. Naciyə Sultana yazırdı ki, xatırlayırsanmı, məmləkətdəki sə-

yahətlərim zamanı da sevgi dolu məktublarım əlinə yetişərdi? "O məktublara ürəyimi, sənli düşüncələrimi, əsl, gerçək, hər kəsdən gizli saxladığım özümü, qəlb titrəyişlərimi əmanət edib göndərirdim sənə. Əvvəlki məktubların birində də demişdim. Bilməm nədəndir, yaşım irəlilədikcə elə bir boşluğa düşürəm ki, bunu ancaq yenə… sən dolduracaqsan. Ah, Naciyəciyim… Hanı o gün ki, ikimiz baş-başa verib də, ciddi düşüncələrimizi bir-birinə qataraq yaşaya bilək?.. Yox, yox, tez ol gəl, Naciyəm, bərabər olalım…"

Bu ucu-bucağı görünməyən Türküstan çöllükləri boyunca başının atlı dəstəsi ilə irəlilədiyi günlərin yaşantıları, istəyi beləydi. İlk dəfə olaraq sonsuz bir coşqu, intəhasız duyğu ilə Naciyəni yanında görmək istəyirdi. Gəlməsi, ona yetişməsi üçün tələsdirirdi. İzaholunmaz bir duyğuyla ona "Gəl!" çağırışı edirdi. İlk dəfə idi ki, canından əziz bidiyi, ən gözəl varlığı hesab etdiyi insanı çətinliklərin, sonu bilinməyən fırtınaların qoynuna çağırarkən ehtiyat eləmirdi. Bütün duyğuları "haydı, yubanma, gəl, Naciyəm" hayqırırdı.

Ancaq necə, hansı yollarla, hara gələydi o sevimli Naciyə?

Uşaqlığından sultan sarayının qayğısız ağuşunda böyümüş, məmləkətinin hərb aslanı kimi sevilən bir türk paşasının xanımı olmuş Naciyə Sultan indi qolu-qanadı sınmış quş misalındaydı. Sevimli Ənvərinin atəşin "Gəl!" çağırışına yalnızca, "Mənə "gəl" deyirsən, ancaq demirsən ki, necə, hansı yolla gəlim? Mənə "gəl" deyirsən, fəqət, heç düşünmürsən ki, yaşadığım bu mühit əzəlki İstanbul deyil, bir cəhənnəmdir artıq. Xor görülmüş, tərk edilmiş bir qadının yardımçısı Allahdan başqa kimsə olmaz. Zamanında mənə yaxın olmaq istəyən insanlar indi məni zəhərləməkdən başqa işə yaramırlar… Elliklə peyğəmbər olsalar belə, heç birindən nicat, şəfqət istəmək zillətini özümə rəva görməyəcəm…" İndilikdə gəlmək, gəlib də öz ürək dostuna, ömrünün-gününün sultanı, paşası olan Ənvərinə qovuşa bilməyəcəyinin səbəbini belə anladırdı.

Ancaq aylar öncəsi özünün də atəşin bir “Gəl!” çağırışı olmuşdu. Ətrafında baş verən sayğısızlıqdan bezmiş, cana doymuş, təkliyin ağır yükünü daşımağa çətinlik çəkən Naciyə Sultan yeganə ümid yeri olan Ənvərinə hər şeyi açıq-açığına yazmışdı: “Məni bu uğursuz insanların əlindən qurtar. Mənə verdiyin vədləri xatırla! Məni İstanbuldan alıb götürmək, uzaqlaşdırmaq üçün bir yol tap. Dünyada səndən başqa mənə yardım edə biləcək kimsəm yoxdu. Allah eşqinə, məni daha artıq gözlətmə…”

Naciyə Sultan bu çağırışı paşa Moskvada olarkən yazmışdı. Ənvər isə “bir az döz, səbir elə, bütün dünyanı ayaqların altına atacağam” deyə ümidli məktublar göndərirdi. İndi Naciyə xanım həmin vədləri xatırlatmalı olurdu. Amma o vədlər verilən vaxt elə bir məqam idi ki, paşa üçün Naciyə xanımın Moskvaya gəlməsi çox namünasib idi. İşlərin hansı səmtə gedəcəyini yalnız Allah bilirdi. Ona görə də necə olursa-olsun, Naciyə Sultanın gəlmək istəyinin qarşısını almalıydı. Buna məcbur idi. Qəlbinə toxunmadan, incitmədən “Gəlmə! Bir az da gözlə, səbir et!” söyləmək məcburiyyətində idi. Bunun üçün qəribə, heç kəsin ağlının almayacağı bir səbəb də tapmışdı; oğul övladları yenicə doğulmuşdu. İndilikdə evin kişisi o sayılırdı. Və elə bu incə məqamı da əlində tutalğa edərək yazmışdı ki, israrla gəlmək istəyirsən… “Fəqət, əcaba, mini-mini, körpəcik aslancığımız sənə gəlmək üçün izn verəcəkmi? Yox, yox, ondan izn almadan, heç bir qərarımız olmaz!..”

Həmin o məktublarda paşa öz xanımını “ruhum, əfəndiciyim” – deyə əzizləyir, sakitləşdirirdi. Yazırdı ki, “Səni bütün ruhumla qucaqlayır, öpür, yavrularımla bərabər Allaha əmanət edirəm. Məni sev və öp, Naciyəciyim!”

Yalqızlığından doğan könül istəyini heç vəchlə gizlətmirdi: “İndi, sevgilim, bu gecə də yenə səninlə yalqızam. Bir azdan, yanımda olmasan da, sənin xəyalınla bərabər yatağıma uzanacaq, yorğanı üstümə çəkəcəm. Əcəba, sən nə düşünürsən?! Məni düşünürsənmi?..”

İllərdi tənhalıq acısı yaşayan Naciyəsindən, üzünü görmədiyi balalarından çox nigaran idi. Bu ağrılı xəyallarını "cicim" deyə əzizlədiyi sevimli həyat yoldaşının halını soruşmaqla ört-basdır etmək istəyir: "Kim bilir, mən bu sətirləri yazarkən cicim neçənci yuxusundadır?.."

Beləcə qəribsədiyini ayrı-ayrı ünvanlara yönəltmək, nigaranlığını başqa bir səmtdən anlatmaq istəyir: "Nə edirəmsə sənin yolunda edirəm, Naciyəm…" yazır, son olaraq səbirli olmağı tövsiyə edirdi o məktublarda. Gənc yaşda tək qalan xatununun nələr çəkdiklərini yaxşı anlayırdı. Ancaq indi, sonu məlum olmayan Tacikistan – Pamir dağları boyunca yolda hansısa bir daxili fəhmin gücü ilə o, ilk dəfəydi ki, sonun necə olacağını gözə almadan öz könül sultanına atəşin "Gəl!" çağırışı edirdi… Ümidsizcəsinə, həyata keçməyəcəyini bildiyi dəlicəsinə bir arzuyla…

Və Naciyə Sultanla bağlı bütün olub-keçənləri yenidən xəyalında canlandırırdı… İllər əvvəl heç ağlına gələrdimi belə bir izdivac?.. Görmüşdümü? Onun xəyalıyla gecələr boyu heç düşündüyü olmuşdumu? Yuxusuz gecələr, eşq iztirabları yaşamışdımı? İlk təklif haradan gəldi? Niyə, hansı istəyin vasitəsilə? Naciyə Sultanla hansısa bir təsadüf nəticəsində qarşılaşdığı, üzüzə gəldiyi olmuşdumu heç? Baxışmışdılarmı?.. Bildiyi bir şey vardı, Naciyə həyatının qadını, ömrünün tək və əbədi sevgisi idi! İnandığı İslam da təsadüf deyə bir şeyin olmadığını, əslində hər şeyin təvafüq olduğu inancını irəli sürürdü. Yəni, hər şeyin və hər kəsin nizamlanmış şəkildə bir-birinə rast gəldiyini. Heç bir şey təsadüf deyildi onun inancına görə… Hər şey olacağına varır, nə baş verməliydisə, məhz o olurdu. Ənvər Paşa hər necə adlandırılmağından, mahiyyətin necə aşkar olmağından asılı olmayaraq bu təsadüfmü, təvafüqmü deyilən anlayış üçün Allaha ürəkdən minnətdar idi.

Naciyə Sultanla bağlı hər şey təfərrüatlarınacan yadında idi, sadəcə hər dəfə o xatirələri yaddaşında yeniləyir, hər dəfə də ya-

şantılarında yeni bir rəng tapırdı … Qəlbi hər an Naciyənin sevgisi ilə döyünürdü, özünü ondan ayrı təsəvvür etmirdi. Naciyəni hər dəfə xatırladıqca Füzulinin "Məndə Məcnundan füzun aşiqliq istedadı var, aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var…" beytini pıçıldayardı. Onun ismini öz-özünə söyləməkdən yorulmazdı.

...Bir gün bir yerdəykən söhbətlərinin mövzusu adlarının mənası haqqında olmuşdu. Aralarında bu mövzu ilə bağlı şirin, duyğulu və unudulmaz bir söhbət baş tutmuşdu. Naciyə Sultan nazla sözə başlamışdı ki, Ənvərim, hər şeyi oxuduğunu, bildiyini deyirsən, ismimin mənasını da öyrənmisənmi?

– Əlbəttə ki, oxumuşam, öyrənmişəm, Sultanım. Naciyə sözünün kökü ərəbcədən gəlir. Bir neçə mənası var: "Salamatlığa qovuşan", "Cəhənnəmdən qurtulan", "Cənnətlik" deməkdir.

– Mən də Ənvər adının mənasını öyrənmişəm. "Parlaq və nurlanmış" deməkdir. Oxumuşam ki, insanlara verilən adlar insanların xarakterinə və taleyinə müəyyən dərəcədə təsir edirmiş. Eşitdiyimə görə, Ənvər ismini daşıyanlar özlərinə böyük hədəflər müəyyənləşdirib bu hədəfə nail olmağa çalışarlarmış. Eşqə böyük önəm verirlər, sevgi onların həyatında çox əhəmiyyətli yer tutur, sevdikləri insanları sonunadək sahiblənirlər. Özlərinə çox güvənirlər və bunun sayəsində öhdəsindən gəlməyəcəkləri bir məsələ yoxdur.

Ənvər Paşa həyat yoldaşının bu bilgiləri öyrənib onunla belə həvəslə bölüşməsindən xeyli fərəhləndi, sevgi dolu baxışlarla onu süzüb dedi:

– Sən də adının mənasındakı kimi cənnətliksən, salamata qovuşanlardansan, inşallah. Sən mənim bu dünyadakı cənnətimsən, Naciyə. Həyatıma daxil olduğun andan öz Ənvərini daha da nurlandırdın, ömrümü daha da parlaq, işıqlı elədin. Ruhum, səni tanıyana qədər sadəcə nəfəs alıb verirəmmiş, heç yaşamırammış, mən səndən sonra yaşamağa başladım…

Ənvər Paşanı öyrənmək üçün arxivə nəzər salanda, onun istər rəsmi, istər qeyri-rəsmi göndərdiyi hər teleqramını, yaxud da sevdiyinə yolladığı hər məktubunu incələdikdə paşanın necə bir intellektə, geniş dünyagörüşünə, mütaliəyə, ən başlıcası da həssas bir qəlbə malik olduğunu aydınca görmək olar. Bu gün – yüz ilin ayrılığında belə onun səmimi, hüzn dolu məktubları Ənvər Paşa şəxsiyyətini ortaya qoyur: "Sevgilim, artıq sizi Allaha əmanət edirəm. Allah bilir, qəlbimin içindən qaynayıb gələn bir səs, sənə bir kərə daha belə bir məktub yazmayacağımı söyləməkdədir. Kim bilir, bəlkə mən həmin səhər şəhidlər zümrəsinə qatılacağam. Bax! Mənim ölümümə üzülməyəsən, səbirli ol! Hələ bir düşün, mənim şəhid olmağım sənin üçün bir iftixar qaynağıdır. Naciyə! İndi səndən ayrılmaq zamanı gəldi, bu anda sanki səni qucaqlayıram. Allah nəsib edərsə, səninlə bir daha heç ayrılmamaq üzrə Cənnəti-əlada görüşəcəyik. Allah əmanətində. Səni sevən Ənvərin".

Təsadüfi deyildi ki, sonralar onun arxivində araşdırmalar aparan tədqiqatçılar yazacaqdılar ki, əgər Ənvər Paşa böyük komandan, dövlətin hərb naziri olmasaydı da romantik sevgi məktubu yazarı kimi dünya səviyyəsində tanınacaqdı. Naciyə Sultana ünvanladığı yüzlərlə səhifədən ibarət o məktublar böyük bir eşq, kübarlıq və əsl nəzakət örnəyi idi. Ənvər Paşa təkcə hərbi xadim deyil, həm də bir sultan qızını "paşa – paşa sevmək" nümunəsini tarixə bəxş edən bir şəxsiyyət idi.

Naciyə Sultana yazdığı eşq məktubları onun tarixdə təkcə hərbçi, komandan kimi deyil, həm də zərif qəlbli aşiq kimi əbədiləşməsinin qarantı olub…

## OTUZ YEDDİNCİ FƏSİL

***Ənvər Paşanın bir macəra arxasınca qaçdığını söyləyənlər tarixi təhrif etməkdədirlər və utanmalıdırlar. Ənvər Paşa, heç şübhəsiz, son dönəm türklüyünün idealist, qəhrəman əsgərlərindən biridir.***

***Camal Kutay***

Taledən gözlənilməz zərbələr aldığı hər məqamda, ailəsi, doğmaları üçün burnunun ucu göynəyəndə Ənvərin tək tutalğası şirin xatirələr olurdu. Naciyə ilə bağlı xatirələrsə ən xırda təfərrüatlarınacan yadında idi...

...İttihadçı dostları ona Naciyə Sultanla evlənməsini təklif etdiyi dönəmlərdə Ənvər bəy yuxusunu gözdən alası, ruhunu dara çəkəsi bir qadın sevdasında deyildi. Ürəyi tamam başqa bir eşqlə döyünürdü. Bütün məhəbbətini bir hərbçi həyatının gedişatına bağlamışdı. Ənvər bəy bir vətən, millət sevdalısıydı. Bu milləti, bu vətəni "xəstə adam"a çevirən saray üsuli-idarəsinə qarşı barışmaz mövqedəydi. Başında dönməz dirəniş sevdası çağlayırdı. Özündən bir yaş böyük olan əmisi Xəlil bəyin məsləhətilə "İttihad və Tərəqqi" Cəmiyyətinə qoşulmuş (bu zaman cəmiyyətin Əhməd Riza, Tələt Paşa, Camal Paşa, Doktor Nazim, Ziya Gökalp, Bəhaəddin Şakir, Xəlil Mentəşə kimi hünərpərvər, sanballı üzvləri var-

dı), qısa vaxt ərzində burada əsas simalardan birinə çevrilmişdi. Hürriyyətin gənc qəhrəmanı olmaq şöhrəti onu gözləyirdi. İstəkləri uğrunda yürüşə çıxmağın məqamını gözləyirdi. Bu yürüşün mümkün olduğu qədər qansız-qadasız, az qurban bahasına başa gəlməsinin yollarını düşünür, planlarını buna uyğun qururdu.

Lakin qurbansız da ötüşmək olmur… Ənvər bəyin çox dəyər verdiyi dostu və silahdaşı Muxtar bəy bu yolun ilk şəhidi oldu. Həmin o illərdə Ənvər bəyi tamamilə fərqli, başqa bir "gəl!" nidası özünə çəkməkdəydi. Bu, dərd içində boğulan Vətənin çağırışıydı. Və Ənvər bəyin dönməz iradəsi büsbütün bu "gəl" çağırışına – "buradayam, gəlirəm" deyə cavab verirdi. Ən böyük eşqi, məhəbbəti bu idi. Özgə bir sevdası yox idi.

İlk hərbi məktəbdə onunla bərabər təhsil alan dostları qaşlarının arasında yuvarlanmış bir topa tükü göstərərək "bu, xoşbəxtlik əlamətidir, sən bir gün fateh, cahangir olacaqsan" fikri bir gün gerçəyə çevriləcəkdi.

Həmin gerçəklərin başlanğıcı 1909-cu ildə öz yerini tapacaqdı… Məhz onun təşəbbüsü və iradəsi ilə Sultan Əbdulhəmid taxtdan endiriləcək, əvəzində kölgə bir padşah olaraq xatırlanan beşinci Sultan Mehmed Rəşad taxta çıxacaqdı. Və Naciyə Sultanla Ənvər Paşanın evlilik təklifi də həmin Sultan Rəşaddan gələcəkdi…

Gözlənilməz olsa da, çox cazibədar, daha böyük gələcəyə yol açası bir təklif idi… Bu təklif Sultan Rəşaddan gəlmişdi; Ənvərə mənəvi bir borcu vardı. O borcu qaytarmaq, edilmiş yaxşılığın qarşılığını vermək istəyirdi. Vəfat etmiş qardaşı Şahzadə Süleymanın qızı Naciyə Sultanla Ənvər bəyi nikahlamaq qərarına gəlmişdi. O zaman Ənvər bəy Berlindəki Türk səfirliyində hərbi atteşe kimi çalışırdı. Nikahlanacağı xanımın üzünü belə görməmişdi. Lakin yaşının az olduğunu da bilirdi. Belə bir izdivacın onun arzularına, qurduğu xəyallarına qovuşması üçün geniş imkanlar açacağının fərqindəydi. Bu evliliyin onun gücünün üstünə güc gətirəcəyini bilirdi…

Məsələdən hali olan yaxın dostlarının da əlinə Ənvər bəylə zarafatlaşmaq üçün yaxşıca fürsət düşmüşdü:

– Qaşlarının arasında yuva quran o sirli xoşbəxtlik tükündən birini də çəkib bizə bağışla, Ənvər bəy, bağışla ki, bəlkə bizim də üzümüzə bir qapı açıla, bəxtimiz gülə…

– Padşah kürəkəni ola bilməsək də, gələcəkdə "damadi-Şəhriyar" ilə bir qabdan su içdiyimizin nağılını danışacağıq uşaqlarımıza…

– Gecikmədən evlənməliyik. Oğlumuzun olması üçün! Qapına elçi düşək, özünü çəkib durasan, "mən kim, siz kim" deyib get-gələ salasan bizi…

Sevinclə deyənlər də vardı, qibtə hissilə yanaşanlar, həsəd aparanlar, qısqananlar da… Ənvər bəy bütün bunlara xəfif, sirli bir təbəssümlə qarşılıq verirdi. Ağlının dərinliklərində isə suallar qaynayırdı… Sultan Rəşadın belə bir təklifdə bulunmasının səbəbini anlamaq istəyirdi. Xoşluqla qarşılasın, ya cavabı taleyin ümidinə buraxsın?.. Belə bir evliliyə onun məslək, əqidə yoldaşlarının necə baxacaqları fikri bütün düşüncəsini zəbt etmişdi. Bütün təşəbbüslərinə, hərəkətlərinə şübhə ilə yanaşacaqdılar. Bu evlilik onların siyasi baxışları, səmimiyyəti arasına bir pərdə kimi düşəcəkdi. Uğurlarını sultan kürəkəni olmasının ayağına yazacaqdılar. Ürəklərindəkini dilə gətirməkdən çəkinəcəkdilər. Hökmünün, zabitəsinin saraydan gəldiyini düşünəcəkdilər. Amma illər boyu qəlbində, ağlında-huşunda bəslədiyi məqsədə yetmək üçün bu izdivacın qarşısında geniş qapılar açacağını da fərq edirdi. Sultandan gələn təklifə biganəlik göstərmək bu qapıların ağzına paslı bir qıfıl vurmaq olardı. Odur ki, düşünmək, səssizcə götür-qoy etmək, ölçüb-biçmək və qəti qərar vermək zamanı gəlmişdi.

Bu səbəbdən də, vaxt qazanmaq, bu evliliyin sadəcə siyasi bir izdivac olmadığına özünü inandırmaq üçün səfirlikdə bir az da artıq xidmət göstərməyə qərar verdi. Düşünüb-daşınmaq, özü-

nün qəlbincə olan və hər iki tərəfi razı salmaq üçün vaxt qazanmağın yeganə yolu bu idi.

Vaxt keçirdi… Padşahsa öz istəyində qərarlıydı. Nişan mərasiminin lap yaxın vaxtlarda keçirilməsini istəyirdi. Padşahın bu istəyi gecikdirilmədən Ənvər bəyə çatdırılırdı. Həyatında çox mühüm rol oynayacağı bu evliliyin onun tərəfindən yubadılması padşahı hövsələdən çıxarırdı. Sultan ağıllı, dünyagörmüş adam idi. Hakimiyyət taxtına necə bir mərəkə, qovğa qarşılığında yüksəldiyini də yaxşı bilirdi. Növbəti üsyan tufanının haçan, hansı siyasi tələblər pərdəsi altından qopacağına elə bir təminatı yox idi. Ona görə də istəyində təkidliydi. O qədər təkidli ki, Sultan Əbdulhəmidin çox sevdiyi və dəyər verdiyi oğlu Bürhanəddinin də bu işin tezliklə başa gəlməsinə kömək etməsini istəmişdi. Bürhanəddinin Ənvərlə çox yaxın, səmimi dost olduğunu Sultan yaxşı bilirdi. Məhz onun istəyi ilə Bürhanəddin öz ağıllı, isti məsləhətləri ilə Ənvərin qəlbində Naciyə Sultana qarşı isti duyğular oyatmalıydı. Almaniyada təhsil almış, alman imperatoru Vilhelm ilə tanış olan, imperatorun oğlu ilə dostluq edən Bürhanəddinin məsləhətləri Ənvər bəy üçün cəlbedici olmaya bilməzdi. Bir-birini yaxşı tanıyır, dəyərlərini yaxşı bilirdilər.

Bir tərəfdən yaxın dostları, bir tərəfdən də qardaş kimi xətrini istədiyi Bürhanəddinin bu izdivacın uğurlu olacağı barədə söylədikləri Ənvər bəyin düşüncələrinə hakim kəsilməkdəydi: "Ənvər, Naciyə Sultan ağıllı, tərbiyəli, qəlbən nazik birisidir. Sultan Rəşadın da sənə böyük hörməti var. Qətiyyətini, mənən pak və imanlı olmağını yüksək qiymətləndirir. Böyük gələcəyinə inanır. Xoşbəxtliyini istəyir. Naciyə Sultan onun canının bir parçasıdır. Bu izdivacın sizin gələcək həyatınız üçün xeyirli olacağına əminəm. Qanlarımız qovuşmalıdı. Bu izdivac qətiyyətin, cəsarətin taxt-tacla etibarlı birliyinə, təminatına çevrilməlidi, gücümüzə güc qatmalıdı, daxildən və xaricdən gələn təzyiqlərin önündə divara çevrilməlidir..."

İş yoldaşları da fikrinə təsir etməyə çalışırdılar:

– Gerçək bir Napoleon olmağın yolu açılır üzünə, bu, bizim üçün də sevinclidi.

– Əvvəl-axır evlilik məqamı da gəlməliydi… Gəldi, özü də gec oldu, güc oldu, Ənvər bəy, başına qonan şahlıq quşunu uçurmaq, əldən vermək olmaz. Gecikərsən, bir də göz açıb görərsən ki, bərədə yem gözləyən necə şahinlər varmış…

Ənvər bəy deyilənlərə ancaq sirli təbəssümlə cavab verirdi. Bildiyinə görə, Naciyə Sultan üç il olardı ki, Sultan Əbdülhəmidin oğlu Əbdürrəhim ilə nişanlıydı. Birdən-birə padşah Rəşadın bu nişanı pozub, evlilik üçün onun namizədliyi üzərində dayanmasının səbəbləri üzərində baş sındırıb dururdu. Bugünə qədər üzünü görmədiyi, bircə kəlmə olsun belə kəlmə kəsmədiyi Naciyə Sultanı xəyalən gözləri önünə gətirməyə çalışırdı…

Xəyali bir söhbət qururdu öz aralarında:

– Görmək, hiss etmək istəyirəm səni. Başını qaldır, gözlərimə bax…

– Sinənə taxdığın medalların, ulduzların, hərbi geyiminin zəhmi gəlir üstümə. Sən böyük bir komandansan, tezliklə nazir olacağın haqqında söz-söhbətlər dolaşır. Heç biri gözümdə deyil! Mənim sultanım, paşam olmağını istəyirəm. Saraya, səltənətə bağlılığınla yox, qəlbimə, ruhuma hakim olmağınla…

– Necə, hansı şəraitdə qarşılaşacağımızın xəyalını qurmaqdayam. Gözəl olduğunu deyirlər…

– Gözəllik görən gözdədir, sevən qəlbdədir. Lakin bütün hallarda məni görüncə şaşıracağını xəyal edirəm. Paşa geyimində özünü çəkib duracaqsan. Mən də körpəcə yavru kimi şaşırmış durumda… İlk görüşümüzə hərbi uniformada gəlməyini istəmirəm. Zəhminin ağır olacağından qorxuram.

– Sən mənim zabit uniformama yox, qəlbimə, gözlərimin içinə bax. Orada özünə isti bir yuva tapacaqsan… Şəklimi göndərirəm sənə. Bax, qoy könlün isinişsin, mənə alış, öyrəş…

– Öyrəşməkdən qorxuram… Bu öyrəşmələrdən sonra tənhalıq, yalqızlıq saatlarına, ayrılıq anlarına dözə bilməyəcəyimin qorxusunu yaşayıram…

– Hə, bu, çox yaxşıdı. Vaxtından əvvəl böyüməyin, dərk eləməyin əlamətidi. Sevinmək lazımdı buna.

– Mən tərəddüddəyəm. Ətrafımda dolaşan rəfiqələrim isə söz atmaqlarından qalmırlar ki, kaş yerinə olaydıq, bəxtəvər olduğumu deyirlər. Sıxılıram.

– Şəklimi göndərirəm. Gözlərimə bax. Təbəssümümü gör! Ənginlik, genişlik açılacaq qarşında. Elə biləcəksən qaranlıqlar, buludlar yaxasını açır, bəxtinə gün doğur…

– Şairanə danışırsan!

– Ruhumun qaynağı belədi. Zərli uniformamın, köksümün altında bəslənən ürəyin havası belədi. Şair olmaq həvəsimi səngər rütubəti, cəbhə soyuqları alıb apardı. Son işartıların sönməməsi üçün gəl, yetiş! Görmək istəyirəm səni… İstəyirəm ki, vətənimdən sonra sevdiyim ikinci varlıq sən olasan…

Naciyə Sultan isə Ənvər bəylə evlilik söhbəti ortaya çıxanda şaşırıb qalmışdı. Sultan Əbdülməcidin oğlu şahzadə Səlim Süleymanın yeganə qızı olan Naciyə xanədana mənsub bütün sultanlar kimi mükəmməl təhsil almışdı. Həddi-büluğa çatar-çatmaz əmisi Sultan İkinci Əbdülhəmidin oğlu şahzadə Əbdürrahimlə nişanlanmışdı. Az keçməmiş bu nişanı pozan Sultan Mehmed Rəşad Naciyə Sultanın Ənvər bəylə evlənməsini uyğun bilmişdi. Ortalıqda isə çoxlu söz-söhbət dolaşmaqdaydı – Nazim Paşa öldürülmüşdü... Mahmud Şövkət Paşa qətlə yetirilmişdi…

Bu hadisələrin hər birinin içində Ənvər bəyin əlinin olması barədə gəzən şayiələr saray divarları arasında belə onun qulağınacan gəlib çatmışdı. Şahzadə Yusif İzzət Əfəndinin müəmmalı bir şəkildə vəfat etməsi, ölümün intihar səbəbindən baş verməsi söyləndiyinə baxmayaraq Ənvərin bu ölümdə də suçlandığını bilməmiş deyildi.

Bütün bunlar barəsində düşünmək gənc xanımı xəyal qırıqlığına uğradırdı. Ancaq saray həyatının da öz qanunları vardı. Əmisi Sultan Rəşad bəy belə məsləhət bilirdi. Qərarlıydı. Etiraz etmək mümkünsüzdü…

Padşahın davamlı təkidləri səbəbindən bir dəfə nişan günü təyin edildi. Lakin Ənvər bəy vaxtı uzatmaq, Naciyə Sultana olan münasibətini aydınlaşdırmaq, ölçüb-biçmək, qəti qərara gəlmək səbəbilə nişan gününü başqa bir vaxta saxlatmağı bacardı. Hər necə olsa da, üzünü görmədiyi, tanımadığı biri ilə ailə həyatı qurmaq ona qəribə gəlirdi. Bu barədə düşündükcə qəribə hisslər keçirirdi. Dostları ciddi-cəhdlə işi yubatmamağı məsləhət görürdülər:

– Padşahdı də! Əlinin üstündə əl yoxdu. Bir də gördün fikrini dəyişdi, yeni bir nişanlı çıxdı ortaya… Gedib diz çöküb yalvaracaqsan ki, əfv diləyirəm, cavanlıq etmişəm? Bir də ki, dədəbabadan qalan adətimizdi. Böyüklərimiz də bu sayaq evlənib. Görmədikləri, bilmədikləri birisi ilə ailə qurublar. Sonra isinişiblər bir-birlərinə. Körpələr dünyaya gəlib. Ailə qayğıları birgə həyatın bağlarını möhkəmlədib, onları bir çatı altında birləşdirib, bir-birinə əbədi bağlayıb.

...Nəhayət, 1911-ci ildə nişanlanmışdılar. Allahın yazdığı alın yazısına hökm etmək müşkülmüş… Nikah mərasiminə Ənvər bəyin özü qatıla bilməmişdi. Cəbhədəydi. Sorağı gah Berlindən, gah Əfqanıstandan, gah Hicazdan gəlirdi. Bütün İslam aləmində – Ərəbistanda, Balkanların müsəlman yaşayan qismində yeni doğulmuş uşaqlara onun adı verilirdi. Trablus-qərbdə ərəb qəbilələrini birləşdirirdi. Ərəb evlərinin divarlarında Ənvər Paşanın rəsmləri asılır, adı dillərdən düşmürdü. Artıq minlərin, on minlərin Ənvəriydi, işığıydı…

Xəyali söhbətlərində “ilk görüşümüzə uniformasız, adi geyimdə gəl” söyləmişdi Naciyə Sultan. Yüksək rütbənin, rəsmi uniformanın zəhmi altında sıxılmasın deyə…

Niyə bu xatirələri dönə-dönə xatırlayırdı? Hər dəfə də sanki indicə baş veribmiş kimi həyəcanlanırdı. Yenidən xəyallara dalırdı. Bir daha Naciyə Sultanı gördüyü günün xatirəsinin şirinliyinə gömülürdü. Bəlkə də bu görüşü hər gün xatırlasa belə yenə də bezməz, usanmazdı...

Uzun müddət canını üzən, ona olmazın ağrılar yaşadan appendisit üzündən bir dəfə əməliyyat olunmuşdu Ənvər bəy. Ancaq keçib-getməmişdi. Həkimlər yeni bir cərrahiyyə müdaxiləsinə ehtiyac olduğunu söyləmiş, həmən xəstəxanaya götürmüşdülər.

Sadiq dostları Tələt bəy, Xəlil bəy, Orxan Abdi bəy həmin gün lap erkən kəsdirmişdilər əməliyyat otağının qapısını. Olduqca əndişəli, həyəcan içindəydilər. Elə həmin dəqiqələrdə Ənvər bəyi qəlbən sevən, ona xüsusi dəyər verən Yaqub Cəmil da xəstəxanaya daxil olmuş, tapançasını çəkmiş və açıqca bildirmişdi: "Əgər Ənvər bəyimizin başına bir iş gələrsə, əməliyyat nəticəsiz keçərsə, əvvəl-əvvəl onu müalicə edən həkimi güllələr, sonra tapançamı öz başıma çaxaram". Üstəlik, sağa-sola atəş açmağından da qalmamışdı.

O görüş tarixini heç unutmurdu, təkrar-təkrar xatırlamaqdan da böyük zövq alırdı. Hər dəfə də ürəyinin istəyi ilə xəyalında həmin şirin xatirəyə nələrsə əlavə olunurdu …

…Əməliyyat uğurla keçmişdi. Bir tərəfdən də rütbəsi daha da yüksəlmişdi. Səbirsizliklə xəstəxanadan çıxacağı günü gözləyirdi. Saatlarını, dəqiqələrini Naciyə Sultana məktublar yazmaqla keçirirdi. Onu görmək, nəfəsini, qoxusunu duymaq istəyirdi. Bu barədə yazırdı. İstəyini boğa bilmirdi. Bu atəşin istəkləri cavabsız qalmadı. Naciyə Sultan görüşünə gəldi. İlk dəfə burada üz-üzə gəlmiş, baxışmışdılar. Naciyə Sultanın xəyali söhbətləri zamanı istədiyi qiyafədə idi. Zərli uniformasız, orden-medalsız bir geyimdə. Bu geyimdə kövrək, qarşısında açılmış aləm önündə özünü itirmiş, şaşırmış, məsum bir gənc durumundaydı Ənvər bəy. Elə bil bütün məmləkətin, müsəlman ölkələrinin qəhrəmanlığına heyran

kəsildiyi o ehtişamlı hərbçi deyildi. Qırıq-qırıq, nəfəsini dərə-dərə danışırdı. Öz könül dostunu belə xəstə yatağında, bu şəraitdə qarşılamasının xəcalətini çəkirdi elə bil.

Elə bu ilk görüşün təsirilə aradan iki gün keçəndən sonra – 1913-cü ilin 21 dekabr tarixində növbəti məktubunu göndərmişdi Naciyə Sultana: "Məni bir minbaşı ikən qəbul etdiniz. Mənimlə nikahlandınız. İndi bir miralayam (polkovnik – red). Sizi gördüm. Təşəkkürə gələcəyəm. Bu rütbə yüksəlişimə indi, bir də səhhətim və afiyətim əlavə edildi…" Bunlar yazdıqları idi. Yazmağa utanıb ürəyində böyütdüyü duyğular isə daha munis, daha zərif idi: "Qədəmlərin düşərli oldu… Səni duydum. Ürəyimcə olduğunu hiss etdim. Belə olacağını bilsəydim, nişan günümüzü bircə an belə gecikdirməzdim. Görüşünə tələsərdim. Sənsiz bu hərbi rütbələr, dillərə düşən şan-şöhrət nəyimə gərəkmiş. Qaşsız üzük, haləsiz ay kimiyəmmiş. Yəni artıq səni hər şeyim bilirəm. Ömrümə aydın səhər kimi açılırsan, məni mənə qaytarırsan. Yaxşı ki varsan, Ruhum..."

## OTUZ SƏKKİZİNCİ FƏSİL

*Mənim bir məfkurəm var: Vətənimin rifah içində olmasına çalışmaq və onun mənfəətini qorumaq...*
*Ənvər Paşa*

Ölüm ayağında – Çeğanın bəstəboy təpələrinin birinin üzərində qürubun da onun şəhidliyinə şahid olduğu o göz qırpımı qədər azacıq zamanda ömrünün xatirələri gah tarixi nizamla, gah da pərakəndə şəkildə yaddaşının üfüqlərində görünüb yox olurdu... Hafizəsinin ucqarlarında olan-qalan hər şey sanki açılıb ortalığa tökülmüşdü və elə bil hansısa sirli bir qüvvə onu yaddaş saxlancının gizlinlərinə yenidən baxmağa vadar edirdi...

Naciyə Sultanla evləndikdən sonra bütün həyatı boyu öz fəaliyyətinə sevimli qadınının gözüylə baxmağa çalışmış, daim onun baxışlarını üzərində hiss etmişdi. Elə bu an, bu dəqiqələrdə yanında olmasını, nəvaziş göstərməsini nə qədər arzulayırdı!

...Ən qızğın döyüşlərdən sonra da elə ilk fürsətdə qələm-kağız götürüb heç nə olmamış kimi sevgi ovqatına köklənib Naciyəsinə məktub yazırdı. Məktublarını isə bir qayda olaraq odlu eşq cümlələri ilə zinətləndirirdi: "Sultanım, eşqiniz məni yandırıb-yaxdı!.. Gözlərim önündəki dənizin mavilikləri içində yox olduq-

ca, xəyalımda sizi, yanımdakı yataqda gecə halınızı düşünürdüm. Zehnimi, düşüncəmi beləcə işğal etməkdəydiniz!".

Bu səmimi, atəşin məktubları oxuduqca Naciyə get-gedə Ənvərə daha çox bağlanırdı. Gələcək ömür-gün yoldaşının bu qədər nazik qəlbli olması əzəlki düşüncələrini, tərəddüdlərini ağlından qovub çıxarırdı. Xoşbəxt idi. Öz-özlüyündə dönə-dönə razılıq edirdi taleyindən: "Ənvəri tanıyanların bir çoxu onu yanlış anlamışlar. Sərt, əsəbi olduğunu söyləyirdilər. Ancaq düşünürəm ki, dünyada onun qədər munis, yumşaq qəlbli birini düşünmək mümkünsüzdür..." Ənvər sarıdan qəlbi rahat idi.

Toyları 1914-cü il martın 7-də olmuşdu. Qonaqlar tək-tək seçilmişdi. Ancaq sultanlıq, padşahlıq ədası yenə də özünü göstərmişdi. Yazılan dəvətnamələrdə Ənvər bəyin adı belə qeyd edilməmişdi. Sadəcə, yazılmışdı: "Naciyə Sultanın evliliyi 5 mart 1914-cü ildə Türkiyə saatı ilə sabah təqribən 10-da keçiriləcək".

Bu "5 mart" sözündə bir yanlışlıq vardı. Nədənsə iki gün əvvəli bildirirdi. Bu barədə söz düşəndə Ənvər bəy xəfifcə gülümsünüb "yanlış da bir naxışdır" deyirdi.

Bu evlilik təkcə Osmanlı coğrafiyasında deyil, bütün Avropada, Amerika siyasi dairələrində, İslam ölkələrində maraqla qarşılanmışdı.

Toy Nişandaşındakı sarayda keçirildi. Bütün ailə, yaxın-uzaq qohumlar dəvətliydi. Sadəcə maraq üçün gələn dəvətsiz qonaqlar da vardı. Gənc gəlinin başdan-başa inci, qızıl və almazlarla bəzədilmiş toy libası baxanları heyran qoymuşdu.

Bütün bunları sonralar Naciyə Sultan Ənvər Paşaya danışmışdı. Bu danışılanlar get-gedə şirin xəyala, əfsanəyə çevrilirdi.

...Ənvər Paşa isə ondan sonra da yenə cəbhədən-cəbhəyə atılmaqda, ölkədən ölkəyə, şəhərdən şəhərə can atmaqdaydı.

Arxada – İstanbulda isə gənc Naciyə öz tənhalığı və kədərilə baş-başa qalmışdı. Sadəcə, uzaq, tanımadığı ölkələrdən adına yazdığı məktublardan canı qədər əziz bildiyi Ənvərinin nəfəsini

alırdı. O məktubları göz yaşıyla isidirdi, sevgilisinin əllərinin toxunduğu o kağızların qoxusunu ciyərlərinə çəkirdi, təsəllilərə sığınıb xoş günlərin geri dönəcəyinə ümid edirdi. Nigaran, bir-birindən səksəkəli günlər isə onu anbaan ümidlərin bitdiyi yerə sürükləyirdi. Evləndikdən sonra günlərini Bursada Ənvər Paşayla keçirdiyi xoş günlərin xatirəsinə dalmaqla keçirirdi. Quruçeşmədəki xudmani evin divarları arasında keçən xoşbəxt günlərinə qayıtmaq istəyirdi.

İlk övladları olan Mahpeykər burada dünyaya gəlmişdi. Ənvər Paşa bir də geri dönüşü olmayan yollara da ilk dəfə bu yayladan çıxmışdı. Onda məmləkəti tərk etməkdən başqa yolu qalmamışdı. Onda düşünürdü ki, üz tutduğu məmləkətlərdə vətəni, milləti üçün daha gərəkli işlər görməyə imkanı olacaq. Gənc, sevgili Naciyəsi ilə bərabər getmək istəmişdi. Naciyə Sultan ürəyi istəsə də, körpə Mahpeykərlə bərabər yola çıxmaqdan qorxmuşdu.

– Mənimlə gəlməyini istəyirəm. Arxam, həyanım olarsan. Yanımda olduğunu hiss etdikcə gücüm-qüvvətim, təpərim artar. Nəfəsinlə isinərəm, Ruhum!

– Ənvərim, Mahpeykərin nə halda olduğunu görmürsənmi? Bir yavrumuzun da yolunu gözləməkdəyik. Yoxsa qıyarammı mənsiz gedəsən?

Həya etmiş, "sənsiz qala bilərəmmi?" – deməmişdi. Kirpiklərindən süzülən göz yaşını gizlətmək üçün üzünü yana çevirmişdi. Hələ ümidliydi. İşlər yoluna düşən kimi dönəcəyinə, yenidən qovuşacaqlarına inanırdı. Bilməzdi ki, ayrılıq var, ölüm var. Bilməzdi ki, bu doğma məmləkətlərində olan son görüşləridir. Bilməzdi ki, bu ayrılıqdan sonra yarı-yoldaşı ara-sıra aldığı xəbərlər, uzaq ellərdən əlinə çatan məktublar olacaq. Bu xəbərlər Berlindən, Moskvadan, Bakıdan, Buxaradan, daha neçə-neçə şəhərlərdən gələcəkdi, vaxtaşırı Ənvərinin necə çətin yollardan keçdiyinin xəbərlərini alacaqdı… Düşmən sevinməsin deyə hər

dəfə göz yaşlarını içinə axıdacaqdı. Hər dəfə doğmalarından ayrıldığı üzüntülü son dəqiqələrdə onu hədsiz kədər içində yola salan Naciyəsi özünü qorumağı, ehtiyatlı olmağı təkrar-təkrar tapşırırdı: "Allah sənin acını yaşatmasın mənə, Ənvərciyim..." Onun şücaətinə, iradəsinə güvənirdi, bu, Naciyəyə ümid verirdi. Axı o, Ənvəri həm də sorağı hər yana yayılan mərdliyinə, cəsarətinə görə sevmişdi...

## OTUZ DOQQUZUNCU FƏSİL

*Onu yaxından tanıyan hər kəsin üzərində birləşdiyi ortaq nöqtə Ənvərin bir insan olaraq mükəmməl əxlaqi dəyərlərə sahib olmasıdır.*

***Ramazan Balçı***

…Xatırladığı ən ağrılı günlərdən biri də fransızların Quruçeşməyə daxil olduğu gün olacaqdı. Fransız generalı Desperey Ənvər Paşaya bəslədiyi kin – nifrətini Naciyə Sultana püskürmüşdü. İyirmi dörd saat müddətinə Quruçeşmədəki rahat və ehtişamlı evi tərk etməsini istəmişdi… Naciyə Ənvərli günlərinin son xatirəsini yaşadan bu malikanədən ayrılmaq, onunla sonuncu saatlarını yaşadığı evin divarları arasından çıxmaq istəmirdi. Xəstəyəm, – demişdi, – körpə balam da ikitərəfli sətəlcəmdi. Həkim gözləyirəm.

Soyuq əda ilə "Yox!" – deyib durmuşdu işğalçı zabit, – Komandirimiz belə istəyir! Burada, bu otaqda yerləşməlidir. Yığışın!

– Dedim axı, balam xəstədi. Qızdırma içində yanır. Lütfən, özünüz də baxın! Həkim gözləyirəm. İmkan verin, gəlsin, baxsın, sonra… – Bu dar macalda belə öz aristokrat təbiətinə xəyanət etməmiş, kobud, rəhmsiz fransız zabitiylə nəzakətlə, "Lütf edin" xitabıyla danışmışdı.

Dinləməmişdilər, eşitmək belə istəməmişdilər. Naciyə Sultan həmin o anda qürurlu, ötkəm, ancaq eyni zamanda da kövrək, həssas Ənvərini düşünmüşdü: "Görəsən bu zabitin yerinə Ənvər bəy olsaydı nə edərdi, körpəsini müayinə üçün həkimin gəlişinə izn vermələri üçün aman diləyən bir qadınla necə davranardı?.. Heç Cənubi Afrika yaxınlığında xidmət göstərərkən ona öyrəşən ceyranın xəstə durumuna dözməmişdi. Başını əlləri arasına alıb nəfəs vermişdi o xəstə ceyrana. Kövrəlmişdi, göz yaşları axıtmışdı. Onun halsızlıqdan yana düşən boynuna sarılmışdı. O ki qala xəstə, halsız uşaq olaydı… Gəl, gör, xəstə bir ana çarəsizlik içində ondan aman istəyəydi?!."

Həyatında ilk dəfəydi ki, Naciyə Sultanın sözü dinlənilməmişdi. İlk dəfəydi ki, doğma evindən bu cür qəddarlıqla bayıra atılırdı. Yardım edəsi bir kimsəsi olmamışdı. Körpəsiylə birgə Tələt Paşanın ailəsinin Sultanəhmədəki evinə sığınmışdı.

Ənvər Paşa vəziyyətdən xəbər tutunca qardaşı Kamil bəyə xəbər etmişdi. O zaman Almaniyada yaşayan qaynının gəlişi düz əlli iki gün çəkmişdi; Almaniyadan İstanbula, İstanbulda isə gizli, dolanbac yollarla özünü Sultanəhmədə yetirmişdi. Kövrək xatirələr az qalırdı dilə gəlib keçmişi danışsın…

Elə həmin ilin isti iyul günlərinin birində ikinci qız övladları Türkan dünyaya gəldi. Sonra da incidildiyi, təqib edildiyi üçün məmləkəti tərk etməyin vaxtı yetişmişdi. Qızlarının italiyalı memar Denarinin övladları olması barədə sənəd əldə etmişdilər. Naciyə Sultan özü isə Denarinin uşaqlarının dayəsi qismində vətənini tərk edəcəkdi. İtalyan gəmisi ilə yola salınmışdı. Romaya gəlmişdi, sonra da Berlinə.

1920-ci ilin son günlərində Berlində görüşmək imkanları olacaqdı, cəmi bir neçə günlüyə… Ölməz eşq dastanının müəllifləri – Ənvər və Naciyə yaxınlarda görüşəcəkləri ümidi ilə Berlində bir-birilərinə vida etmişdilər. Heç biri bunun son vida olduğunu bilmirdi...

İki sevgilinin son görüşünün yadigarı – oğul övladları Əli 1921-ci ilin 29 sentyabr günündə Berlində dünyaya göz açacaqdı. Bu zaman artıq Moskvada olan Ənvər Paşa xəbəri alınca çox duyğulanmış, qanad açıb balalarının, sevimli Naciyəsinin yanına uçmaq, onlara sarılmaq, hər şeyə son verib ömürlük yanlarında qalmaq istəmişdi. Kövrəlmiş, yenə də könül sultanıyla etdiyi xəyali söhbətlərlə baş-başa qalmışdı: "Həyatım o qədər üzüntülü keçdi ki, o qədər fəna yerlərdə düşmən əllərinə düşdüm ki, sənin üçün düşündüklərimin heç birini həyata keçirə bilmədim… Məmləkətim, millətim yolunda daşıdığım məsuliyyət duyğum məni özgə bir yola götürdü… Amma inan ki, bu yolların başında da, sonunda da sən varsan. Atdığım hər addım sənə doğrudu. Səni məmləkətimin, xəyalıyla yaşadığım Turan aləminin yeriyən, nəfəs alan, düşünən rəmzi bilirəm. Könlümün – gözümün bircəsisən…"

Hələ Naciyə Sultan körpəni dünyaya gətirməmişdən əvvəl Ənvər Paşa doğulmamış körpəsinə məktub yazmağı da yaddan çıxarmamışdı:

"Mənim səadət nurum, yavrum! Kimsən, Kim oldun oğlanmı, qızmı? Hələ bilmirəm. Bundan o qədər mütəəssirəm ki, anlada bilmirəm. Hər nə isə, Allah səni uzun ömürlü, ananla mənə də səadətlə sənin ağ saçlı olduğunu, nəvələrinlə oynadığını göstərsin. Səni öpürəm, Haqqa əmanət edirəm. Atan Ənvər"

Paşa elə məsud, elə bəxtiyar idi ki... Onun dava meydanında olsa belə cavan yaşında bir gün qəfil güllədən ölə biləcəyinə inanmaq çətin idi. Odur ki, həqiqətən Ənvər Paşanın ölümünə uzun müddət inanmamışdılar, inana bilməmişdilər. Naciyə Sultan da onun ölüm xəbəri çıxmasına baxmayaraq bunun bir şayiə olduğunu fikirləşir, həyat yoldaşının ölüm xəbərini qəsdən yaydığını, bunu Vətən üçün atdığı addım kimi düşünmüşdü.

Sonralar Naciyə Sultan yazırdı ki, Ənvər Paşanın yazdığı son məktub məhz həyat yoldaşının şəhid olduğu gün – avqustun 4-də ona yetişmişdi: "Bu məktubda yazırdı ki, İsveçrəyə getmək

istəyir. Lakin bu planı gerçəkləşdirməsinin yolu hər kəsi özünün ölmüş olduğuna inandırmasıdır. Tapşırırdı ki, hətta mən belə ölüm xəbərini alsam, inanmayım…"

Sonradan Naciyə Sultan anlayacaqdı ki, Ənvər Paşa həyat yoldaşı ölüm xəbərini alanda çox sarsılmasın deyə belə yazıbmış: "Hər şeydən öncə məmləkətini, ondan sonra da məni sevən və daim düşünən ərim, ölümündən sonra da məni aylarla ovutmağın, daha çox üzülməməyimin yolunu tapmışdı. Son məktubunun mənə ölüm günü yetişməsi qəribə təsadüf idi. Ərimin həqiqətən öldüyünü üç aydan sonra öyrəndim, ancaq bundan sonra bu qara xəbərə inandım…"

Ənvər Paşanın şəhidlik məqamına yüksəlməsindən sonra Türküstanda belə bu xəbərə inanmayanlar, onun Buxarada gizləndiyini düşünənlər tapılmışdı. Rəsmi məlumatların verilməsinə baxmayaraq, hətta Türkiyədə belə onun öldüyünə deyil, gizləndiyinə inananlar var idi. Zəki Vəlidi Toğan da qeyd edirdi ki, o dönəmlərdə heç kim Ənvər Paşanın öldüyünə inanmaq istəmirdi. İnsan təbiəti belədir, olmasını istəmədiyi şeyə inanmamağı, hətta lazım gələndə özünü belə aldatmağı özünə rəva görür. Görünür, inanmayanlar da elə Ənvər Paşanın ölümünü istəməyənlər, onu ürəkdən sevənlər idi. Həmin vaxt türküstanlı şairlərin şeirlərində və ağılarında bunu dönə-dönə vurğulamaları da məhz paşaya bəslədikləri sevgidən irəli gəlirdi…

Paşanı yaxından tanıyan, xasiyyətinə bələd olan Əmir Şəkip Aslan onun xarakter cizgilərini xatirələrində dəqiqliklə təsvir etmişdi: " İnsanlıq, Ənvər Paşanın şəxsiyyətində, bir göyərçinin sakit və sevimli halıyla, tündxasiyyət bir aslanda görülən heybətdən doğulmuş bir örnək verirdi."

## QIRXINCI FƏSİL

*Sənə dar gəlməyəcək məqbəri kimlər qazsın,*
*Gömələlim gəl, səni tarixə desəm, sığmazsın.*
***Mehmed Akif***

Ənvər Paşa yaddaşının müxtəlif zamanlara aid pərakəndə xatirələrini zaman-zaman özlüyündə ələkdən keçirirdi. Ömrünün son dönəmlərində hafizəsinin labirintlərində zamanın gah irəlisinə, gah gerisinə gedirdi; baş verənləri unuda bilmirdi... Bəlkə Sarıqamış fəlakətinin kökündə dayanan xəyanəti pərdələyən gerçəyin altında da belə bir yalan, təbliğat cəhdi vardı?..

Özlərini Ənvər Paşaya, Osmanlı dövlətinə dost göstərən alman siyasi dairələri bəlkə qəsdən onu döyüşə sövq etmiş, qalib gələcəyinə inandırmışdılar? Yoxsa alman hiyləsi öz işini görmüşdümü, bir alman oyunuydumu bu? Bu rus qüvvələrini alman cəbhəsindən Osmanlı sərhədlərinə çəkilməyə məcbur etmək üçün düşünülmüş bir plan olmasın? Alman generalları israrla "Rusların əsas qüvvələri alman cəbhəsində cəmlənib. Sarıqamış ətrafında qüvvələri yetərli deyil, bu səmtdən təhlükə gözləmədikləri üçün hazırlıqlı deyillər" söyləyirlərmiş... "Türküstanla Misir ayaqlarınız altına səriləcək, Hindistana qədər vara

biləcəksiniz. Təki almanlarla bir olun, bizi yanınıza alın, bizə inanın! ” vədini verib inandırmışdılar. Niyyət gözəl ola bilərdi. Ancaq bu gözəl niyyət müqabilində bir xristian dövlətinin tələsinə düşməyin bəraətini ummaq mümkündürmü? Alman generalların bu təşviqlərinin əsasında öz milli maraqları durmurdumu? Məqsədləri avstriyalıları və almanları Lehistan cəbhəsində rahat buraxmaq olmamışdımı?.. Ruslar isə bu fürsətdən istifadə edərək Ərzurumu aşıb cənub şərqdən Aralıq dənizinə çıxmaq, Trabzonu alıb, İstanbula girmək imkanı güdmürdülərmi? Üçüncü ordunun komandanı, hərb məktəbində ona təlim keçmiş xocası Həsən İzzət Paşayla döyüşqabağı aralarında olan söhbəti yenidən xatırlayırdı:

– Əsgərlərin durumu necədi?

– Bu mövsümdə, belə bir şəraitdə döyüşə başlamaq mümkünsüzdür. Yazın gəlməsini, havaların əlverişli olmasını gözləmək lazımdır…

– Gözləmək lazım imiş... Xocam olmasaydın, bu cavaba görə səni güllələrdim...

Ani də olsa Sarıqamış savaşına hazır vəziyyətdə gözləyən məhmətçiklərin durumunu göz önünə gətirdi. Onların sıxıntılı halına bir az təpər, hərəkət vermək üçün söylədiklərini xatırladı: “Əsgərlər! Halınızı görürəm, ayağınızda çarığınız yox, əyninizdə paltarlarınızın olmadığını bilirəm. Lakin qarşınızdakı düşmən sizdən qorxur. Yaxın zamanlarda hücuma keçərək Qafqaza girəcəyik. Orada siz hər cür naz-nemətə qovuşacaqsınız!..”

Az keçməmiş doxsan minlik ordu “Allah! Allah!” nidaları altında damarda qanı donduran soyuqda qarlı dağın zirvəsinə doğru irəliləməyə başlamışdı. Həsən İzzət Paşanın bənizi buz bağlamış şüşəyə dönmüşdü. Dərin bir nigaranlıq içindəydi…

Cavabsız suallar ağlını qarışdırırdı. Canından anlaşılmaz giziltilər keçməkdəydi. Şinelinin boyunluğunu qaldırdı, atını mahmızladı…

İrəlidə, bomboz çöllüyün sayrışdığı səmtdə bir atlı dəstəsi görünməkdəydi. O istiqaməti tutub çapdı. İçlərindən biri təlaşla onu dayandırmaq istədi:

– Aman, Paşam! Düşmən tərəf ola bilər. Kim olduqları bilinməz! Durmaq, kim olduqlarını öyrənmək gərəkdi.

Qətiyyən dayanmaq fikri yox idi. Necə bir düşmən olursa-olsun, üstünə yürümək, çəkdiyi acıların, yuxusuz gecələrin hirsini-hikkəsini tökmək, acığını çıxmaq istəyirdi; həyatı bahasına olsa da belə! Gözünə heç nə görünmürdü. Ötən günlərin xatirələri altında qalmışdı. İçində fırtına qopmuşdu. Dünyanın üstünə yeriməyə hazır idi. Qarşıdakı atlı dəstənin başında rusların ikinci qoluyla savaşan Dövlətmənd bəyin olduğunu anlayınca elə bil yuxudan oyanmışdı. Atdan enib qardaşcasına qucaqlaşmışdılar. Üstündən ağır bir dağ götürüldüyünü zənn etmişdi…

İllər öncəsi Səlaniki tərk edib gecə qaranlığında Manastra doğru yola çıxdığı vaxt xəyalından keçirmişdi: “Şöhrətli, böyük bir əsgər olmaq istəyirdim. Kim bilir harada və hansı gülləylə vurulub qalacaq və üsyançı, asi deyə hansı bir bucağa atılacağam…”

O zaman da, indi də güclü bir iqtidarın qurulmasını istəyirdi. Ancaq bir ideala xidmət edirdi. İndi qatlaşdığı çətinliklər də məhz bu səbəbdən idi. Ötən ilin may günlərində Mustafa Kamal Paşayla yazışmalarında da bu mətləblərdən söz açırdı: “Bax, indi bütün dostlarım adından sizi əmin edirəm, bizim heç bir mövqe və vəzifədə gözümüz yoxdu. Mənə gəlincə, yalnız bir ideal arxasınca gedəcəyəm. O da İslamı əzən Avropa canavarları ilə pəncələşmək üçün müsəlmanları hərəkətə gətirmək olacaq… Yenə kamali-hörmətlə gözlərinizdən öpər, Cənabi Haqqa sənin üçün ucalıqlar, İslama və vətənə faydalı böyük işlər görməyini dilərəm, qardaşım, əfəndim”.

Bu məktubu məhz Əli Fəthi bəyin millət vəkili seçilməsi üçün namizədliyi irəli sürülən məmləkətə – Ərdəhana göndərmişdi. Amma əhali bu namizədi – Əli Fəthini vaxtilə Ənvər Paşanın

üstünə silah çəkdiyinə görə qəbul etməmişdi. O qədər seçicidən cəmi üç səs qazanmışdı. Əhali millət vəkili olaraq Hilmi bəyin tərəfini tutmuşdu.

Bu məktubun yola salındığı məmləkətdə Moskva ilə danışıqlar aparılır, Ənvər bəyin yaxalayıb Ankaraya təslim edilməsini istəyirdilər. Hətta Ənvər Paşaya sirli və ramedilməz təhlükə mənbəyi kimi baxan, SSRİ-nin xarici işlər üzrə xalq komissarı Çiçerin belə bu təkliflərə qarşı sonacan müqavimət göstərmişdi: "…Müsəlman bir qəhrəmanın yaxalanmasının yolverilməz olmasını düşünürük!.. "

İstiqlal qəhrəmanına, Çanaqqala aslanına düşmən olanın özü belə onun haqqını, tarixi yerini dana bilmirdi.

Rəsmi Ankara isə səlahiyyət sahiblərindən, dünənki əqidə, səngər yoldaşlarından tələb edirdilər ki, nə yolla, nəyin bahasına olursa-olsun, Ənvər Paşanın Anadoluya qayıdışının önünü kəsin!

Dünənki əqidə, silah yoldaşları onun Anadoluya qayıdışını əngəlləmək üçün dəridən-qabıqdan çıxır, bununla bağlı birbirinə raport göndərir, məktublarını izləyir, ona sadiq insanların nəzarətə götürülməsini, işdən çıxarılmasını istəyirdilər.

Həmin günlərdə isə Ənvər Paşa sevimli Naciyəsinə yazdığı məktubda bolşevik silahlı qüvvələrinin Türküstan və Qafqaz üzərindəki təzyiqlərindən, müsəlman aləminə vuracaqları ziyandan ürək ağrısı ilə bəhs edirdi: "Bütün gücləri ilə Türküstan ilə Qafqaza sarılırlar. Artıq hərəkətə keçmək qərarı verdik. Baxıb görək Haqq nə qərar göstərəcək! Səni və yavrularımı Allaha əmanət edərək öpürəm. Mənim üçün və İslam üçün dua et!".

Sanki ürəyinə dammışdı. Taleyin bəd üzünü daha yaxından hiss etməkdəydi. Kiçik qardaşı Kamil bəyə bunları yazmaqdaydı: "Sultanım və yavrularım sənə əmanətdir. Onların dünyada mənim üçün hər şey olduğunu düşünərək vəzifəni, qardaşlığını ona görə yerinə yetir. Sənin mərdliyinə güvənirəm. Haqqın yardımının bizimlə olduğuna əminəm… Hamınızı Allaha əmanət

edirəm. Sultanımın məsumluğunun və namusunun hər hansı bir şərt altında qorunmasına çalış, yoxsa mənim üçün hər şeyin sonu, hətta öldüyümdən sonra belə, məhv olduğum gün olar…"

...Keçən gecə yuxusuna girmişdi Mahpeykər. İlk qız övladıyla birinci dəfəydi ki, söhbət edirdi. Mahpeykər Quruçeşmədəki rahat, ruha dinclik gətirən evlərinə daşındıqları vaxt bir yaşının içindəydi. Sonuncu dəfə görəndə artıq üç yaşı vardı. Yenicə dil açmışdı. İndi beş yaşındaydı. Yuxuda atası ilə dil-dil ötürdü:

– Qızım, əmin məktublarda böyüdüyünü, saçlarının uzandığını, nazlı, gözəl bir qız olduğunu yazırdı. Dediyi qədər də varmışsan, gözəl qızım...

– Özü də şəkillər çəkirəm; çiyninə, yaxana tikdiyin ulduzları, uzunboğaz çəkmələrini çəkirəm, ata...

– Bəs papağımı, bığlarımı?

– Onları da.

– Əlbəttə, quzum, onlarsız olmaz ki!

– Ata, qardaşım Əlinin dişləri çıxıb. Xırdaca. Güləndə elə gözəl görünür ki...

– Gözlə ki, dişləməsin barmaqlarını…

– Türkanın barmağını dişləyir. Ağlamasın deyə mən də barmaqlarının ucundan öpürəm. Belə, belə, belə…

– Yaxşı edirsən. Əli böyüyəcək, sizə yaxşı qardaş olacaq. Ananı, Türkanı, səni sevəcək, qoruyacaq, evin böyük kişisi olacaq.

– Hə, Kamil əmim də sənin kimi deyir. Hərdən anamla şəkillərinə baxırlar. Bəzəkli albomu vərəqləyirlər…

Qan-tər içində yuxudan ayılıb uzun müddət özünə gələ bilməmişdi...

## QIRX BİRİNCİ FƏSİL

*"Vətən eşqiydi bizimkisi, sevdalımıza qaçmaq yerinə mitralyozun üzərinə çapdıq atımız çatlarcasına...*
*Mən Ənvər, İsmayıl Ənvər"*

...Ənvər Paşanın etiqad etdiyi İslam inancına görə, dünyanın əvvəlindən sonuna kimi baş vermiş və baş verəcək hər şey, bütün hadisələr, əməllər, sözlər, savablar və günahlar, ümumiyyətlə, olmuş və olacaq nə varsa, hamısı "Lövhi-məhfuz"da qeyd edilib və bütün bunları bilmək təkcə Allaha məxsusdur. Deməli, bircə Allah bilirdi ki, indi həsrətini çəkdiyi, burnunun ucu göynədiyi körpə övladları da böyüyüb boya-başa çatandan sonra öz Vətənləri, millətləri üçün xeyirli övlad olacaqdılar. Eynilə atalarının arzuladıqları kimi... Ataları Ənvər Paşa bunu görə bilməsə də...

...Osmanlı tarixində çox önəmli yerə sahib olan Ənvər Paşanın gözünün ilki – böyük övladı, "Xanım Sultan" mənəvi ünvanının daşıyıcısı Mahpeykər Ənvər Ürgüp 1917-ci ildə dünyaya gəlmiş və yaxşı təhsil almışdı. Tibb sahəsini seçən Mahpeykər xanım peşəkar həkim psixiatr olub və həmkarı Fikrət Ürgüp ilə ailə qurub. Müxtəlif ölkələrdə yaşayıb. Oğlu Həsən bəy də 1989-cu ildə vəfat edib. Xanım Sultan özü isə 2000-ci ildə səksən üç yaşında dünyasını dəyişib. Mahpeykər xanımın dəfn mərasimində Os-

manlı sultanlarının və xanədanının mənsubları bir araya gəlmişdi. Ənvər Paşanın yadigarını Zincirliquyu məzarlığında son mənzilə yola salanlar arasında Sultan Vəhdətdinin nəvəsi Nəslişah Sultan, Ənvər Paşanın qardaşının qızı, həm də mərhumənin ögey bacısı Rana xanım, Sultan Əbdülhəmidin nəvəsi Nəslişah Saffet Sultan, Sultan Rəşadın nəvəsi Əməl xanım Sultan, Abbas Hilmi Paşanın nəvəsi şahzadə İqbal Moneim, Ənvər Paşanın yeganə oğlu Əli Ənvərin qızı Arzu Sadıqoğlu da vardı...

Ənvər Paşanın kiçik qızı Türkan Mayatepek 1919-cu ildə anadan olub. Kimya mühəndisliyini seçən Türkan Xanım Sultan diplomat Hüveyda Mayatepekle ailə qurmuşdu. Hüveyda bəy bir sıra ölkələrdə səfir kimi çalışıb. 1989-cu ildə vəfat edən Türkan xanımın övladı Osman da tanınmış diplomat və iş adamı olub.

Ənvər Paşanın oğlu Əli Ənvər bəy 1921-ci ildə Almaniyada dünyaya gəlmişdi, atası cəmi bir il sonra onun üzünü heç görmədən erməni gülləsinə tuş gəlib şəhid oldu. Əli bəy hərbi hava qüvvələri zabiti, dövrünün tanınmış pilotlarından biri idi. Türkiyədə İsmət İnönünün prezident olduğu dönəmdə – 1939-cu ildə Ənvər Paşanın övladlarının Türkiyəyə gəlməsi üçün izin verilir. Həmin icazədən istifadə edən Əli Ənvər Vətənə dönüb burada akademiya imtahanlarında uğur qazanır. Ancaq ona "bu orduya bir Ənvər yetər" deyirlər və o, yüzbaşı rütbəsində ikən istefa verib Türkiyədən çıxıb gedir. Bir müddət İsveçdə, daha sonralar Avstraliyada yaşayır. İkinci Dünya müharibəsində Londonda səfirlikdə hərbi attaşe köməkçisi kimi işləyən Əli Ənvəri o dönəmdə Türkiyənin Böyük Britaniyadakı səfiri Rauf Orbay olan bir dəfə fürsət düşəndə həmin vaxt İngiltərənin baş naziri Çörçillə təqdim edir. Çörçill xarici görkəmindən də, xarakterdən də atasına bənzəyən Əli bəyi görəndə soyuq, iynəli ingilis zarafatı eləməkdən özünü saxlaya bilməmişdi: "Burada da Ənvər qarşıma çıxdı?" Məlum məsələ idi, Çörçillin siyasi həyatındakı ən böyük

uğursuzluq olan Gelibolu – Çanaqqala macərasını Ənvər Paşanın hərb naziri olduğu vaxtlardakı qəhrəman türk ordusu kifayət qədər məyusluğa məhkum etmişdi.

Əli Ənvər jurnalist Abidin Daver bəyin qızı Pərizad xanımla evlənmiş, 1955-ci ildə qızları Arzu anadan olmuşdu. Pərizad xanımla evliliyi 1964-cü ilə qədər sürəcəkdi. Ordudan istefa etdikdən sonra bəxtini özəl sektorda sınayan Əli bəy Türkiyədən Avstraliyaya köçüb orada həyatını İsveçrədən olan bir xanımla yenidən birləşdirmişdi. 1971-ci ildə Avstraliyada həyat yoldaşı ilə birgə getdiyi istirahət mərkəzlərinin birində yıxılıb zədə alaraq 50 yaşında dünyaya gözlərini həmişəlik yummuşdu...

Bu "yazılmışlar" sonralar olacaqdı, sonrakı 100 il içərisində... Ancaq indiki halda dövrünün ən tənha adamlarından biri Vətəndən, doğma ailəsindən uzaqlarda canını ölümə təslim edirdi... Ənvər Paşa ürəyində nəsə qəribə bir sıxıntı hiss etdi. Bu qarışıq fikirləri başından qovmaq üçün istiqlal qəhrəmanı olaraq vəsf olunduğu günlərin yaşantılarını xəyal etdi. Ani bir təbəssümlə gülümsədi də; nə yaxşı ki o gözəl anlar kinolentə alınmışdı. Deməli, yüzilliklər boyu oğlu, qızı, nəvələri, gələcək nəsilləri ona həmin lentlərdə baxacaq, onu sağ, diri, yeriyən, danışıb-gülən görəcəklər. Naciyəsi həmin kinolentlərdən onun gözlərinə baxacaq, təbəssümünə qarşılıq verəcəkdi…

Həmin görüntülər 1918-ci ildə İstanbulda lentə alınmışdı. Bu cür çəkilişlərin əfsanə sayıldığı illər idi. Avstriya-Macarıstan imperatoru Birinci Karl həyat yoldaşı ilə bərabər İstanbulu ziyarətə gəlmişdi. Mərasimi iki nəfər lentə alırdı. Bütün kadrlarda var idi. Öndəydi. Qələbəlik içində hamıdan seçilirdi.

Bir il öncə, 1917-ci ilin oktyabr ayının 15-də alman imperatorunun qarşılanması mərasimində də eyni hal yaşanmışdı. Bütün şəhər əhli bir aradaydı. Sultan Dolmabağçadakı iqamətgahından qalxıb Sirkəçiyə gəldi. Yanında şahzadə Ömər Hilmi Əfəndi, saray əyanları da vardı. İmperatoru gətirən gəmi saat dörddə limana

daxil oldu. Dövlət marşları səsləndirildi. Padşah sədrəzəm Tələt Paşanı və hərbi nazir olaraq onu imperatora təqdim etdi. "İttihad və Tərəqqi"nin tanınan simaları da oradadılar; Doktor Midhət Şükrü, Doktor Nazim bəy, Bahaəddin Şakir də bu mərasimə dəvətliydi. Çiyin-çiyinə dayanmışdılar. Tələbə olduğu deyilən Nafiyə adlı bir qız alman dilində şeir söylədikdən sonra əlindəki çiçək dəstəsini imperatora təqdim etdi. Sonra faytonlar hərəkətə gəldi. "Ulduz" sarayının mərasim zalına doğru hərəkət başladı. Padşah, imperator və Ənvər Paşa ən öndəki faytonda irəliləyir. Hərbi nazir olmaqla bərabər bu görüşdə tərcümə işi də onun üzərindədi… İkinci faytonda imperatorun xanımı və vəliəhd Bahaəddin Əfəndi əyləşib. Ziyarətdən sonrakı mərasimdə paşa imperatorla padşah arasında addımlayır. Fəxri qaravula dayanmış nizami dəstənin önündən keçib gedirlər. Ayasofyanı da eyni qaydada ziyarət edirlər. Məmnun və məsuddu…

Həmin lentlərdə Ənvər Paşa yenə də hərbi hissələri ziyarət edir. Mayın 21-də xidməti işində fərqlənən zabitlərə döş nişanı, mükafatlar təqdim edir, əllərini sıxır, xəfif təbəssümlə gülümsəyir… Eynilə indi, 1922-ci ilin 4 avqust tarixində, Qurban bayramının ikinci günündə Pamir dağları ətəklərindəki Bəlcivanda silahdaşları ilə üzbəüz dayandığı kimi. Yenə də imkanı çatan hədiyyələrini, mükafatlarını təqdim edir, doğma əlləri bir-bir sıxırdı. Amma bu dəfə ən son ümidini də qana boyayan uğursuz bir anın içinə düşmüş kimiydi. Türküstan süqut edirdi. Gülən, oynayan yadlar olacaqdı, ağlayıb-sızlayan özününkülər. Sevimli Naciyəsinə yazdığı son məktubun sətirləri yaddaşında dolanıb dururdu…

Məktubda Naciyədən son istəklərinə əməl etməsini də rica edirdi. Nə imiş o son istəklər? Övladlarının da özü kimi əsgərlik peşəsində yetişdirilməsini və zamanı gəlincə, onların da İslama xidmət etməsini arzu edirdi. Bir də yazmışdı: "Mustafa Kamalın uğura çatması üçün mümkün olan heç bir yardımı əsirgəmə. Bö-

yük Allah onu bu məmləkəti düşmənlərdən qurtarmaq və qorumaq üçün seçib göndərmişdir”.

Bütün bunları, yazdıqlarını təkrarən zehnindən keçirməsi böyük ürəyinin diktəsi idi. Atatürk də Ənvər Paşanın qəlbinin böyüklüyündən xəbərdar idi. Boşuna deməmişdi ki: “Ənvər bir günəş kimi doğmuş, bir qürub ehtişamı ilə batmışdır, arasını tarixə buraxalım…”.

O Ənvər Paşanın ehtişamı ki, Çörçillə “Ənvər Paşanın varlığı mənim siyasi yüksəlişimi iyirmi il dala atdı” təəssüfü yaşatmışdı. Və Çörçill o təəssüfü Ənvər Paşanın oğlu Əlinin qarşısında da etiraf etmişdi…

Dodaqlarında Naciyəsinin göz yaşlarının tamını hiss etdi. Silah dostları qəhərləndiyini hiss etməsin deyə üzünü çevirdi. Vəfalı atı Dərvişi gördü. Dərvişdən soruşmaq istədi ki, bəlkə mən o məktubu Naciyə Sultana göndərməklə səhv elədim? Bu kədəri ona yaşatmamalıydım, vaxtından əvvəl öldürməyəydim, ümidini qırmayaydım!..

Dərvişə doğru irəlilədi. Yüyəni çevirib, ayağını üzəngiyə qoydu. Bircə təkanla yəhərdə yerini rahatladı. Qılıncını çəkdi… Çapmırdı, elə bil havada üzürdü. Elə bil vəfalı Dərvişi də bəxtiyarlığa doğru daha böyük sürətlə qanad açmağa, uçmağa qeyrət göstərirdi. Əlində sivri qılınc, ürəyinin başında, sol cibində Quran var idi. Cənabi-Haqqa doğru yürüyürdü. O gün dünyanın ən böyük qurbangahı, Turan tarixinin Mina dağı Bəlcivanda qurulmuşdu...

Atəşin üstünə qılıncla şığıyırdı; zülmə və imansızlığa qarşı qılınc çəkmişdi!.. Az əvvəl onu kommunist görənlərin üstünə Turan qeyrəti, İslam əxlaqıyla silahlanıb gedirdi. İlk atəş eşidilmiş, toplar guruldamış, pulemyotlar şaqqıldamışdı…

Bayaqdan yel kimi çapan Dərvişin birdən büdrədiyini hiss etdi. Cilovu çəkməklə özünü doğrultmaq istədi. Amma barmaqlarının gücü çatmadı. İkinci atəş qılınc tutan əlini yanına saldı.

Halallaşmaq zamanıydı. Bir az da keçsə gec olacaqdı. Son sözü yenə də sevimli Naciyəsinə idi. Üzünü görmədiyi Əlisini, yeganə oğlunu əmanət edirdi... Pıçıltıları qarşı tərəfdən açılan pulemyot səsinə qarışmışdı: “Oğlumuz Əlini gözün kimi qoru! Unutma ki, o, mənim başladığım işi irəli götürəcək. O, xaçpərəstlərin varlığı üzərindən İslam bayrağını irəli götürəcək! Bütün Şərqi, Qərbi qurtaracaq!” Növbəti atəş üzəngiqarışıq sağ ayağını parçaladı. Amma nədənsə ağrı hiss etmədi. Fikri-zikri Naciyənin, qızlarının, oğul balası Əlinin yanındaydı. Əlinin gələcəyinə bəslədiyi ümidlərini pıçıldamaqdaydı: “Bil ki, o böyük adamın sözünü sən də, mən də hörmətlə dinləməyə məcburuq. Hər yerdə onun sözü yürüyəcək. O, hörmət görəcək, ad-san qazanacaq. Təkcə o deyil, bizim, ailəmizin, bəlkə bu gün mən heç bir iş görə bilmədiyim halda, məni yenə xilaskar kimi sevən dörd yüz milyon müsəlmanın da göz-bəbəyi olacaq. İnan, onun və onu bətnində daşımış sənin önündə bütün düşmənlər yerlə bir olub, sürünəcək, etdiklərinə peşman olub, əfv diləyəcəklər…”

4 avqust 1922-ci il… Sonralar Şövkət Aydəmir yazacaqdı: “Ölülər yerlərə sərilmişdi. Amma bunların içində biri, qiyafəti ilə diqqəti çəkirdi. Ayaqlarında bağlı alman çəkməsi vardı. Köksündə durbini, başında yerliləri andırmayan papağı, osmanlı əsgərlərini andıran sinəsi ilməli hərbi pencəyi onları şübhələndirdi. Köksündən bir “Qurani-Kərim” çıxmışdı. Qılıncı başqa cürdü və cibində tamamlanmamış bir məktubla bəzi vərəqlər vardı. Məchul süvari yeddi yara almışdı. Ölərkən sağ çiyni üstünə və üzü qibləyə dönmüşdü. Bu, Ənvər Paşaydı”.

Ənvər Paşa döyüş meydanında şəhid olan son Osmanlı paşasıdır, daha doğrusu, Osmanlının sonuncu ərkani-hərb rəisidir…

“Şəhidi-möhtərəm Ənvər Paşa həzrətləri. Pək müqəddəs və ali məqsəd peşində Buxarayi-şərifin Bəlcivan vilayətinin Çeğan məhəlləsində miladi 4 avqust 1922-ci ildə Qurban bayramının ikinci günü gündüz öglə vaxtına yaxın pak qanını Türküstan

torpaqları üzərində axıda-axıda qəhrəmananə və mərdanə bir surətdə şəhadət rütbəsinə nail olmuşdur. Turan İxtilal Ordusu Türküstan Cəbhəsi Komandanı və Əsgəri-Ləşkəri-İslami-Buxara Ənvər Paşanın naibi Miralay Əli Rza bu ölümü belə tarixləşdirdi…"

Uzun illər Abıdərya torpağında uyuyan bu insan sadəcə bir komandan, bir sərkərdə, bir əsgər deyildi. Nəşi ceviz ağacının kölgəsindəki torpağa, unudulmaz xatirəsi isə Buxara ruhanilərinin təbirincə desək, "Buxaradakı övliyanın ən böyüyü Ənvər Padşahımız" mənəvi ünvanı ilə birgə ürəklərə köç etmişdi.

"Türküstanın qurtuluş ulduzu" – deyə vəsf edilən qırx bir yaşlı Ənvər Paşanın şərəfli ömrü belə tamama yetmişdi...

O günlərin şahidi, böyük tarixçi Zəki Vəlidi Toğan sonralar yazacaqdı ki, "Ənvər əlbəttə, türklərin Dəli Domrullarından biridir. Türküstana gəldikləri zaman bunu ifadə edən ruh və ideal, Türkiyədə xüsusilə Balkan savaşından sonra yaşadılan türkçülük ruhu idi. Doğrudan doğruya bir siyasi panislamizm və pantürkizm xəyalları deyildi… O, mütləq Türküstan torpağında ölmək qərarını vermişdi. Ənvər Paşa Türküstan torpağında ölməklə, bu ölkədə və türk tarixindəki ən böyük vəzifəsini icra edib... Mustafa Kamal Paşa yaşayaraq, Camal və Ənvər Paşalar şəhid olaraq, Ön və Orta Asiya İslam və türklərinin tarixində, XVI yüzildən etibarən başlayan ikinci dövrənin (geriləmə dönəmi) artıq qapandığını və üçüncü dövrün, istiqlal və hərəkat dövrünün başlamış olduğunu göstərdilər".

İndi bu əqidə, amal dostlarının məzarları da yan-yanadır. Ənvər, Tələt və Camal paşaların yarımçıq, nakam ömür möhlətinə baxmayaraq ruhları şəhadət məqamında əbədiyaşar oldu; bu dünya var olduqca da onların həmişəcavan ruhları göylərdə dolaşacaq. Xalqın bağrından qopan dualar, türkülərə dönüşən ağılar isə o ruhları müşayiət edərək heç bir zaman unudulmadıqlarını onlara ehtiramla xatırladacaq:

*Qara torpaq məni çağırırkən*
*Və su kimi axıb gedərkən hər gün…*
*Mən sənin dərdindəyəm yenə, Ənvərim,*
*Bax, axtarıram səni yenə bu gün…*

*Eşidirəm sanki bəyaz atının*
*Nallarının səsini, gur nəfəsini.*
*Ənvər "Allah" dedikcə ərlər coşur,*
*Ardınca əsgərlərin hücum çəkir…*

*Sənsə sonunu düşünmədən atını*
*Sürürsən irəliyə "Haydı" deyib!*
*Sən igidlər igidi Ənvər Paşam!*
*Ağladırsan ölürkən neçələrini…*

*Ruhun uçar ikən Tanrı dağına,*
*Qanın damcılarkən şanlı torpağa,*
*Şəhid Ənvər, igidlər igidi Ənvər!*
*Vardınmı Kürşadla ulu uçmağa?..*

Ənvər Paşanın ölümündən sonra onu sevənlərin də, ona nifrət edənlərin də, ona qəhrəman deyənlərin də, ona xain damğası yapışdıranların da, ondan şübhələnənlərin də, onu təqdir edənlərin də – bir sözlə, heç kimin bu türkünün həqiqətinə qətiyyən şübhələri yox idi. Ənvər Paşa doğruları və yanlışları, uğurları və uğursuzluqları, məğlubiyyətləri və zəfərləri ilə ömrünün hər anının haqqını verərək yaşayıb, tarixin yaddaşında özünəməxsus yer edib… Osmanlı İmperatorluğunun ən böhranlı dönəmində ən kədərli xatirələri yaşamasına baxmayaraq ən böyük xəyalları quran və onları reallaşdırmaq üçün mümkünsüzü belə mümkün etməyə çalışdığına görəydi ki, onun ardınca gedən hər kəs tərəddüdsüz deyirdi: "Sən xəyal qur, biz yenə öləlim, Paşam!"

Ənvər Paşa şəhid olacağını yuxusunda görüb bunu bəzi zabit və əsgərlərinə söyləmişdi, vəsiyyətini də öncədən yazmışdı.

Qəribə olan isə bu idi ki, hər şeyin necə baş verəcəyini sanki əvvəlcədən bilib olduğu kimi qeyd eləmişdi. Tarixi mənbələrdə məktub olduğu kimi qalmaqdadır. Hətta vəsiyyətnamənin girişinin üçüncü şəxsin təkində yazılmasına baxmayaraq iddia olunur ki, bunu da Ənvər Paşa özü qələmə alıb: "Türküstan və Qafqazdakı qardaşlarımızı, kafirlərdən və zalım bolşeviklərdən qurtarmaq üçün və bu müqəddəs torpaqlarda islamın gücünü hakim etmək üçün, Ənvər Paşa bu torpaqlara gəldi və bu yolda kafir güllələriylə həlak oldu.

Hər can ölümü şübhəsiz dadacaqdır. İstəyirəm ki, ölümümdən sonra da istiqlal üçün, alçaldılmalara boyun əyməmək üçün mübarizə aparasınız…"

Özbək yazıçısı Nabican Bakiyevin "Ənvər Paşanın vəsiyyəti" kitabında bir türküstanlının gözündən bu tarixi şəxsiyyətin həyat və fəaliyyətinə nəzər salınıb. Kitabın annotasiyasından bir daha Ənvər Paşa kimliyi boy göstərir: "Şəxsi həyatı dağdakı çobanın həyatı qədər sadə, təvazökarlıqda bir dərviş qədər ehtirassız, fəqət mövzu Turan xalqlarının istiqlal və hürriyətləri olduğunda atəş parçası bir idealist, savaş üçün yaradılmış bir əsgər olan Ənvər Paşa can verən bir imperatorluğun düz ortasında görmüşdü özünü… Tam on yeddi cəbhədə qanlar içində taqətdən düşənə qədər döyüşüb. Başının üstündə ölməsini gözləyən qarğa-quzğuna yem olmamaq üçün savaşdığı o dönəmlərdə çöllüklərdən ucalan fəryadlar yemişan tikanı kimi ürəyinə saplananda Krım, Qafqaz və Xəzərə doğru keçib. O fəryad edənlər də türkdür, oralar da Turan yurdudur…"

…Döyüş meydanında qan su yerinə axmışdı. Türküstanlı əsgərlərin cəsədləri bəzi yerlərdə bir-birinin üstünə qalanmışdı. Yaralıların iniltiləri, fəryadları eşidilirdi. Bolşevik silahlıları savaş bölgəsini gəzdikcə fəryad edən yaralıları da yerindəcə güllələyirdilər. Onlar savaşdan sonra şəhid mücahidlərin paltarlarını, çəkmələrini, üstlərində gözə dəyən qiymətli nələr vardı-

sa, talayıb – çapıb tələm-tələsik özləri ilə aparmağa çalışırdılar. Lap əsl çaqqal sürüsü kimi… Tələsmələrinin səbəbi isə məlum idi: yalnız Allaha bəlli bir vaxtdan sonra məkanın və zamanın əsl sahibləri gəlib yetişəcəkdi…

…Uzaqlarda bir boz qurd ağzını asimana tutub yanıqlı-yanıqlı ulayırdı. Ara-sıra qaranlıq səmanın bağrını yaran şimşəklərin parıltısı ruhunu çoxdan Tanrıya təslim etmiş türküstanlı müsəlman əsgərlərin simasında bərq vururdu. Sonra haradansa uzaqlardan başqa canavarlar da o tənha boz qurda qoşuldular, az qala fəryada bənzər səslə ağız-ağıza verib uzun-uzadı ulaşdılar. Qurdların vahiməli ulartısı gecənin qaranlığında orada-burada vaqqıldayan çaqqalların, kaftarların qorxaq səslərini batırırdı. Tükürpədici, zəhmli boz qurd ulartıları isə bütün Türküstan çöllərinə, Turan ellərinə yayılırdı…

***Birinci kitabın sonu***

*Yanvar – sentyabr, 2021-ci il*
*Bakı- İstanbul*

## EPİLOQ

Cəmi 41 il ömür sürmüş Ənvər Paşa barədə indiyədək oxuduqlarımı, öyrəndiklərimi və bildiklərimi bədii təxəyyül süzgəcindən keçirib ruhuna dərin ehtiramla qələmə aldığım qırx bir fəsildən ibarət kitabımı buradaca tamamlamaq istəyirəm...

2008-ci ilin 15 sentyabr tarixində Türkiyənin Azərbaycandakı səfirliyində Qafqaz İslam Ordusundan bəhs edən filmin təqdimat mərasiminə dəvət olunduğum günü xatırlayıram...

Dəvətli qonaqlarla dolu olan salona əsilzadə görkəmi ilə diqqəti dərhal cəlb edən zərif ədalı bir xanım daxil oldu. Gəlişiylə sanki salonu işıqlandıran, elə bil ayrı bir dünyadan təşrif buyurmuş kimi görünən bu qadın Osmanlı İmperatorluğunun hərbiyyə naziri Ənvər Paşanın nəvəsi Arzu Ənvər idi. Bütün yerlər tutulmuşdu. Arzu xanım gəlib mənim sol tərəfimdə əyləşdi. Mənimlə yanaşı oturan həmin xanıməfəndi indi bu dünyada damarlarında Ənvər Paşanın qanı axan tək insandır. Ənvərin və Naciyənin nəvəsi. Sonuncu Osmanlı imperatorunun nəticəsi. Ənvər Paşanın tək oğlu Əlinin qızı.

Sağ tərəfimdə əyləşmiş dostum dedi ki, fikir ver, salonda Arzu Ənvər xanıma bənzəyən ikinci bir adam yoxdu. Cavab verdim ki, əlbəttə, ola da bilməz, çünki salondakılardan heç kəsin babası Bakını erməni təcavüzündən xilas edib onu Azərbaycanın paytaxtı etməyib...

Kübar görünüşlü Arzu xanımın qürurlu ədalarında Azərbaycana dərin sevgi duyulurdu, üzündə ciddi və işıqla dolu bir təbəssüm parlayırdı. Onunla söhbət etmək istəyirdim. Filmə diqqətlə baxırdı deyə, fikrindən də ayırmağa ürəyim gəlmirdi. Amma danışmaq, Ənvər Paşa barədə bilmədiklərimi, xüsusən Çörçillin Arzu xanımın atası ilə söhbətinin təfərrüatını öyrənmək istəyirdim.

Film bitdi, dəhlizə çıxdıq. Salamlaşıb söhbətimizə körpü atmışdıq.

– Arzu xanım, eşitmişəm, Çörçill "Ənvər Paşa mənim siyasi karyeramı iyirmi il geriyə atıb" sözlərini sizin atanıza etiraf edib.

– Bəli, bu sözləri atamdan eşitmişdim, – Arzu Ənvər marağımı hiss edib söhbətinə davam edir: "Hadisə belə olub. Atam Əli Ənvər uşaqlıq və gənclik illərini Osmanlı xanədanının digər gəncləri kimi xaricdə yaşamalı olmuşdu. Sonra Vətənə döndü. Hərbi təhsil aldı. Türk ordusunda hava yüzbaşılığına qədər yüksəldi. Fəqət daha sonra ordudan ayrıldı... Avstraliyada yaşayırdı. Orada evlənmişdi. Bir ara çalışdığı işlə bağlı İngiltərədə yaşamalı olur. Həmin arada Çörçillə Ənvər Paşanın oğlunun Londonda olduğunu söyləyiblər. Maraqlanıb. Çörçill Ənvər Paşanın oğlu ilə görüşmək istədiyini deyib. Çörçillin arzusunu atama bildirirlər. Görüş günü və saatı dəqiqləşdirilir. O zaman Türkiyənin İngiltərədəki səfiri Rauf Orbayla gənc Əli Ənvər Çörçillin evinə gedirlər. Çörçill atamı böyük hörmətlə qarşılayır, Ənvər Paşadan ancaq sevgiylə, təqdirlə bəhs edir. Atam Çörçillin dediklərindən heyrətlənmişdi. Atama deyibmiş ki: "Sənin atan Ənvər Paşa mənim siyasi həyatımı tam iyirmi il geri atdı…"

"Ənvər Paşa" kitabımda Arzu xanımın dediyi bu məqamlar da ətraflı şəkildə öz əksini tapıb.

* * *

..."Azadlıq abidəsi" ("Abideyi-Hürriyyət") İstanbulun Şişli səmtində, yüksək bir təpənin üstündədir. 1909-cu il 31 mart hadisəsində əks-çevriliş əsnasında Osmanlı İmperiyası parlamentini monarxist qüvvələrdən qoruyaraq şəhid olan əsgərlərin şərəfinə inşa edilən kompleksdə nəşi sonradan buraya köçürülmüş Ənvər Paşa ilə yanaşı, qalıqları sonradan burada torpağa tapşırılan görkəmli Osmanlı yüksək rütbəli məmurlarının da qəbirləri var.

"Yurda fəda üç paşa" trilogiyasının birinci kitabı – "Ənvər Paşa" romanım çapa hazırlanarkən türk tarixinin ən görkəmli paşalarının qəbrini ziyarət etmək ən böyük xəyalım idi. Bu ilin avqust ayında İstanbula məni çəkib gətirən əsas səbəblərdən biri və birincisi də elə bu ziyarətləri gerçəkləşdirmək, qəlbimdə bu paşalara qarşı hiss etdiyim vəfa borcunu az da olsa yerinə yetirmək arzusu idi.

Avqustun 28-də həyat yoldaşımla və nəvəm Hüseynlə birgə bu ali arzunun ardınca İstanbulun Şişli səmtinə doğru yola çıxdıq. Taksi sürücüsü, ortayaşlı Orxan bəy səfərimizin elə ilk dəqiqələrindən sözün yaxşı mənasında məni təəccübləndirdi. Osmanlı tarixini yaxşı, hətta deyərdim ki, mükəmməl bilməsi məni çox heyrətləndirdi. Ənvər Paşaya qardaş ölkədə ikili münasibət bəsləndiyini bilirdim. Elə Orxan bəy də söhbətə təxmin etdiyim kimi Sarıqamış faciəsindən başlamışdı. Böyük təəssüf və məyusluqla "1915-ci ildə minlərlə məhmətçik Ənvər Paşanın səhvi ucbatından həlak oldu. Komandanların səhvi ucbatından Sarıqamışda soyuqdan dondular. Rəvamıydı?! Yüz il də keçsə bu ağrı unudulmur, yaddan çıxmır" – dedi. Əlbəttə, sürücü mənim tarixdən misal gətirdiyim xatırlatmalardan sonra Ənvər Paşanın hərbi nazir olarkən imza atdığı zəfərlərini də dilucu qeyd etdi. Ancaq Sarıqamış faciəsini danışarkən simasına düşən kölgəni və gözlərinə çökən dərin məyusluq hissini o zəfərlər haqqında olan söhbət də silib apara bilmədi... Sonda isə qeyd etdi: "Cənabi

Allah özü hər şeyi bilir, qoy, Haqq divanında qərar versin kimdir günahkar?"

Bu ritorik sualdan sonra ortaya ağır sükut çökdü. "Abideyi-Hürriyət"ə doğru sürətlə irəliləyən taksidən küçəyə baxaraq İstanbulun ümumi küyünün fonunda məyus və kədərli halda düşünürdüm: "Ənvər Paşanın cəmi dörd il hərbi nazir olduğu dönəm məğlubiyyət və zəfərlərlə dolu idi. Tarix hər şeyi olduğu kimi – öz rəngində, öz biçimində qoruyub dərin yaddaşında saxlayırdı, insanlar isə... İnsanlar isə, zəfərləri unudub məğlubiyyətləri xatırlayan varlıqlardır. Boşuna deməyiblər, qalibiyyətə sahib çıxan, valideynlik edən saysız-hesabsız olar, məğlubiyyət isə həmişə səbəbkarı ilə birlikdə ortada qalar – tam yetim kimi...

Ənvər Paşa qısa ömrünə böyük işləri sığışdırmağı bacaran, böyük zəfərlərə imza atan şəxsiyyət olsa da, Sarıqamış məğlubiyyətinə görə müasir Türkiyədə indi də birmənalı qarşılanmır. Danılmazdır ki, tarixi qaliblər yazar. Qalibiyyət isə tam anlayışdır, yanında məğlubiyyətin kölgəsi olanda yarımçıq olur, əzəməti kiçilir, ehtişamı solur. Bəlkə də buna görədir ki, Sarıqamış dedikdə tezcə Ənvər Paşanı xatırlasalar da (baxmayaraq ki, o, bu məğlubiyyətin məsuliyyətini tək daşımırdı...) ondan cəmi 61 gün sonra qazanılan Çanaqqala zəfərində adını hallandırmağı rəva bilmirlər. Sarıqamış məğlubiyyəti Ənvər Paşanın Çanaqqala zəfərinin qəhrəmanı kimi anılmasına kölgə salırdı. Ənvər Paşanın ölümündən uzun illər keçib, amma hələ də "Sarıqamışın qara buludları" "Çanaqqala günəşinin" önünü kəsməyə davam etməkdədir... Zaman keçəcəkdi, yeni nəsillər yetişdikcə Ənvər Paşa haqqında fikirlər də haçalanacaqdı. Çox-çox sonralar onu Çanaqqala qalibi kimi xatırlayıb ruhuna dualar oxuyanlarla yanaşı, Sarıqamış məğlubu kimi anıb günahını Allaha həvalə edənlər də kifayət qədər olacaqdı...

Bacara bilsəydi, tarix fərqli yazılacaqdı. Başqa rəngdə, başqa biçimdə... Ancaq bəzən onu damğaladıqları kimi – Ənvər Paşa

xain olduğu üçün deyil, məhz ali xəyallarını gerçəkləşdirməyi bacarmadığı üçün yaddaşların fərqli fikir qəliblərində qaldı... Xəyallarla tale bəzən üst-üstə düşmür. Olmuşlar və olacaqlar bəzən bizim iradəmizi aşaraq baş verir və baş verəcək. Taleyə, qəzavü-qədərə qarşı çıxmağı bacaran olubmu indiyədək?.."

Orxan bəyin "çatdıq" səsi məni düşüncələrimdən ayırdı. Qəhərimi gizlətməyə çalışaraq dolmuş gözlərimi sezilmədən sildim. Yurdu üçün canından keçən fədai türk paşaları bizi gözləyirdi. Ziyarət zamanı idi...

"Abideyi-Hürriyyət"in qapısı kilidli idi. İçəridə iki nəfər nəsə iş görürdülər. Bizim səslənməyimizdən sonra ikisi də qapıya yaxınlaşdı. Orxan bəy bizim Azərbaycandan gəldiyimizi, Ənvər Paşanın və Tələt Paşanın məzarlarını ziyarət etmək arzumuzu onlara çatdırdı. Yazıçı olduğumu, paşalar haqqında kitab yazdığımı da o dar macalda qeyd etdi. Qapıya gələnlərdən biri bizə yaxınlaşdı. Pasportumu istədi. Pasportdakı məlumatlara nəzər saldı, sonra "Bura girmək yasaqdır, ancaq qardaş Azərbaycandan o boyda yolu gəlmisiniz, sizə olar" deyərək qapını açdı. İçəri daxil olanda bizi ilk qarşılayan birgə dalğalanan Azərbaycan və Türkiyə bayraqları oldu. Onsuz da yolboyu Ənvər Paşanın yaşantılarını, keşməkeşli həyatını xatırlayıb kövrəlmişdim, əzəmətlə, əbədi qardaşlığımızın simvolu kimi dalğalanan bu bayraqları görəndə isə artıq göz yaşımı tuta bilmədim... Üstündəki möhtəşəm ay-ulduzu ilə göylərə yüksələn bu iki türk bayrağına baxanda fərəhdən köksüm qabardı, həm qardaş ölkə Türkiyənin haqq mübarizəsində verdiyi saysız-hesabsız şəhidləri, həm də Birinci və İkinci Qarabağ müharibələrində şəhid olan qəhrəmanlarımızı böyük ehtiramla andım.

Əvvəlcə Ənvər Paşanın, sonra Tələt Paşanın məzarlarını ziyarət etdik. Hər iki paşanın qəbri üstündə "Yasin" oxutdurduq. Məzarların və qəbirüstü abidələrin nisbətən baxımsızlığı və müəyyən təmirə ehtiyacı olduğu ilk baxışdan sezilirdi. Ümid

edirəm ki, gələn səfərimdə "Ənvər Paşa" kitabımı paşanın məzarı üstünə qiymətli çələng kimi qoyanda bu abidələr orada uyuyan şəxsiyyətlərin adına layiq şəkildə təmir edilmiş olacaq...

Ziyarət zamanı nəvəm Hüseynin tarixlə bağlı verdiyi sualların isə ardı-arası kəsilmirdi. Nəvəmin suallarını cavablandırırdım: "Uzun müddət Bəlcivan düzündə qərib qəbrində uyuyan Ənvər Paşa 74 ildən sonra, 1996-cı ildə doğma İstanbulda, Tələt Paşanın məzarı ilə yanaşı torpağa tapşırılıb. Türkiyə torpağı 1996-cı ildə şəhid oğlunu yenidən öz bağrına basıb..."

"Abideyi-Hürriyət"də uyuyan daha bir türk paşası, Osmanlı tarixinin tanınmış hərb və dövlət xadimi, sədrəzəm Mahmud Şövkət Paşanın türbəsini də ziyarət etməyi unutmadıq, məzarüstü abidələrin yanında xeyli xatirə fotoları çəkdirdik.

Ənvər Paşa ilə Tələt Paşanın qəbrini ziyarət etdikdən sonra özümü qəlbən hüzurlu və mənəvi baxımdan xeyli rahat hiss etdim. Oradaca arzuladım ki, trilogiyamın digər qəhrəmanı olacaq Camal Paşanın Ərzurumda Qarsqapı şəhidliyindəki məzarını ziyarət etməyi də Allah mənə nəsib eləsin...

...Deyirlər ki, əgər başqa bir zamanda yaşamış olsaydı, Ənvər Paşa Napoleon kimi tarixi simalardan biri olacaqdı. Olmadısa da, onlardan daha böyük bir fəzilətə sahib çıxmadımı, napoleonların əli yetməyən bir ucalığa yüksəlmədimi? Tarixi yaddaşın içərilərində kök salan böyük Turan İslam İmperatorluğu xəyalı Ənvər Paşadan qalan dəyərli miras oldu. Türküstanı nurlandırmış bir igidin bu dünyada Ənvər Paşa kimi anılması, Allah dərgahında isə şəhidlik məqamında bərqərar olması ruhani feyzin özüdür ki var...


HEYDƏR ƏLİYEV
HEYDƏR ƏLİYEV
Hüseynbala Mirələmov
Viktor Andriyanov
GÖRKƏMLİ ADAMLARIN HƏYATI


GÖRKƏMLİ
ADAMLARIN
HƏYATI
İLHAM ƏLİYEV
BİOQRAFİYA DAVAM EDİR...
Viktor ANDRİYANOV
Hüseynbala MİRƏLƏMOV
İlham
ƏLİYEV
MOLODAYA QVARDİYA


ZƏRİFƏ ƏLİYEVA
ZƏRİFƏ ƏLİYEVA
Hüseynbala Mirələmov
GÖRKƏMLİ ADAMLARIN HƏYATI


MİSSİYA
MİSSİYA


İki Şah, İki Sultan
TRİLOGİYA
SÜQUT
Hüseynbala Mirələmov


İki Şah, İki Sultan
TRİLOGİYA
BƏNÖVŞƏYİ ƏNCİR
Hüseynbala Mirələmov


İki Şah, İki Sultan
TRİLOGİYA
ÇALDIRAN YOLU
Hüseynbala Mirələmov


HÜSEYNBALA MİRƏLƏMOV
SONUNCU FATEH


HÜSEYNBALA MİRƏLƏMOV
CƏZA
«ÇINGIZXAN FONDU»
HÜSEYNBALA MİRƏLƏMOV
CƏZA


Hüseynbala Mirələmov
Gəlinlik paltarı
Hüseynbala Mirələmov
Gəlinlik paltarı


Hüseynbala
MİRƏLƏMOV
Xəcalət
Hüseynbala MİRƏLƏMOV
Xəcalət


Hüseynbala Mirələmov
BİR GECƏNİN SEHRİ
BİR GECƏNİN SEHRİ
Hüseynbala Mirələmov


Hüseynbala Mirələmov
Gecə bənövşələri


Sənədli proza
Hüseynbala Mirələmov
"Şərəfsizlik tarixi"
yaxud
Vernadski prospektində


Hüseynbala Mirələmov
Yanan qar


Гусейнбала Мираламов
Китай – восьмое чудо света

# MÜNDƏRİCAT


Müəllifdən . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
Birinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . .19
İkinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
Üçüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . .29
Dördüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . .36
Beşinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . .41
Altıncı fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . .46
Yeddinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . .51
Səkkizinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . .55
Doqquzuncu fəsil . . . . . . . . . . . . . . . . . . . . .61
Onuncu fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . .66
On birinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . .79
On ikinci fəsil. . . . . . . . . . . . . . . . . . . . . . .88
On üçüncü fəsil. . . . . . . . . . . . . . . . . . . . . .93
On dördüncü fəsil . . . . . . . . . . . . . . . . . . . 101
On beşinci fəsil . . . . . . . . . . . . . . . . . . . . 108
On altıncı fəsil . . . . . . . . . . . . . . . . . . . . 113
On yeddinci fəsil . . . . . . . . . . . . . . . . . . . 118
On səkkizinci fəsil . . . . . . . . . . . . . . . . . . 126
On doqquzuncu fəsil . . . . . . . . . . . . . . . . . 132
İyirminci fəsil. . . . . . . . . . . . . . . . . . . . . 137
İyirmi birinci fəsil . . . . . . . . . . . . . . . . . . 148

İyirmi ikinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . 154
İyirmi üçüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . 159
İyirmi dördüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . 164
İyirmi beşinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . 169
İyirmi altıncı fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . 173
İyirmi yeddinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . 177
İyirmi səkkizinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . 182
İyirmi doqquzuncu fəsil. . . . . . . . . . . . . . . . . . . . . 191
Otuzuncu fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . 196
Otuz birinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . 201
Otuz ikinci fəsil. . . . . . . . . . . . . . . . . . . . . . . . . 205
Otuz üçüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . 211
Otuz dördüncü fəsil . . . . . . . . . . . . . . . . . . . . . . 217
Otuz beşinci fəsil. . . . . . . . . . . . . . . . . . . . . . . . 225
Otuz altıncı fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . 230
Otuz yeddinci fəsil. . . . . . . . . . . . . . . . . . . . . . . 236
Otuz səkkizinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . 245
Otuz doqquzuncu fəsil . . . . . . . . . . . . . . . . . . . . . 249
Qırxıncı fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 253
Qırx birinci fəsil . . . . . . . . . . . . . . . . . . . . . . . . 258
Epiloq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 268

Hüseynbala Mirələmov

Yurda fəda üç paşa

TRİLOGİYA

# ƏNVƏR PAŞA

*Birinci kitab*

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Dizayn və tərtibat:
RAUF KƏRİMLİ

Yığılmağa verilmişdir: 21.10.2021. Çapa imzalanmışdır: 11.11.2021.
Ölçü: 60x90 1/32. Çap vərəqi: 20,5. Sifariş: 126/21. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az